K.Bünyadzadə

# Gəncliyin fəlsəfəsi

Bakı – 2009

**Könül Yusif qızı Bünyadzadə**
**Gəncliyin fəlsəfəsi**
**Bakı, "Nurlar", Nəşruyyat Poliqrafiya Mərkəzi, 2009, 256 səh.**

İki hissədən ibarət olan bu kitabın birinci hissəsində gəncliyə xas bir sıra keyfiyyətlərin fəlsəfi təhlili verilir, hər bir hissin, duyğunun primitiv səviyyədən ən ali dərəcəyə qədər yüksəlməsi, bu yolda hansı mərhələlərdən keçməsi izlənir, cəmiyyətin gənclərin həyatında oynadığı rol araşdırılır. Gəncliyin öz hikmətinin, öz harmoniyasının, öz qanunlarının olması fikrini əsaslandırmaq üçün həm klassik, həm də müasir dövrün Şərq və Qərb filosflarına, şairlərinə müraciət edilmişdir.

Kitabın ikinci hissəsi isə ictimai həyatın və onun ayrı-ayrı hadisələrinin elmi məqalələr, fəlsəfi esse və hekayətlər vasitəsilə özünəməxsus təhlilindən ibarətdir.

Kitab geniş oxucu kütləsi, xüsusilə gənclər üçün nəzərdə tutulmuşdur.

**İSBN: 978-9952-450-28-6**

©"K.Bünyadzadə", 2009

## Müəllifdən

*Hər* kitab, *həcmindən asılı* olmayaraq, *müəllifin* öz oxucusuna *demək istədiyi* bir sözdür. *Zamanından, məkanından, şəraitdən asılı* olaraq bu söz *müxtəlif* formalarda deyilə bildiyi kimi, *müxtəlif də qəbul* edilir. *Yəni hər* sözün bir *neçə baxış bucağı* var. *Bu bucağı təyin edən isə* ruhun *və təfəkkürün səviyyəsidir.*

*«Gənc»* sözü fars *dilindən tərcümədə* (گنج ) *«xəzinə, özündən* sonra *zəngin* irs qoymaq», *– deməkdir.* Görünür, ömrün *ən* parlaq *illəri, həyat* enerjisinin *aşıb-daşdığı* vaxtlar, *istedadın, potensialın kəşf* olunduğu *dövr təsadüfən gənclik adlandırılmır. Kitabın* da *məqsədi oxucuları məhz* bu *xəzinə ilə tanış etməkdir.*

*Xəzinəni, qiymətli daş-qaşları* tapmaq, *əldə etmək* özü *də* asan *iş* deyil, amma onu *cilalayıb* içindəki, *mahiyyətindəki* nuru, *gözəlliyi* aşkarlamaq *daha böyük səy,* ustalıq, *məharət tələb* edir. *Yəni hissin, emosiyanın bolluğu genetik istedadın özündə saxladığı zənginliyi, bu zənginliyin bərq vuran parıltısını ətrafa saçmaq üçün yetərli bir potensiala malik olsa da, hər halda onun cilalanmağa ehtiyacı vardır.*

*Təsadüfi deyildir ki, gənclər öz qəlbinin potensialını adətən sənət vasitələri ilə ifadə edirlər və bunların arasında poeziya yüksək ülvi duyğuların tərənnümü üçün ən uyğun vasitədir. Lakin bu zəngin duyğu potensialının sadəcə duyğu*

*şəklində deyil, cilalanmış halda, yəni fikir, düşüncə, fəlsəfə səviyyəsində ifadə oluna bilməsi üçün, bir tərəfdən uzun illərin təcrübəsinə, digər tərəfdən də "zər qədrini bilən zərgərlərə", ustadlara və nəhayət, zəmanənin, mühitin yetkinliyinə ehtiyac vardır.*

*Gənc*-i «cilalayanlar» onu *sıradan birinə də*, bütün *varlığının* nuru *ilə* göz *qamaşdıran mükəmməl bir sənət əsərinə və ya* kamil bir İnsana da *döndərə bilərlər.*

*Eyni zamanda, hər bir gənci ən qiymətli daşdan* daha *dəyərli edən* bir amil *də* var ki, bu – ruhdur. *Məhz* ruhunun *saldığı işıqla gənc* öz *ağlının* gücünü hiss *edər, iradəsi* möh-*kəmlənər*, naqis bir *varlıq*, yoxsa kamil bir *İnsan* olmaq *arasında* düzgün seçim *edə bilər.*

*İki hissəli «Gəncliyin fəlsəfəsi»*ni iki *ayrı-ayrı* hissin *ifadəsi də adlandırmaq* olar. Birinci – *gəncliyə kənardan*, obyektiv *bir baxışdır. Burada söhbət çox az yaşamış, lakin elə gənc yaşlarından parlamağa başlamış, dünyadan tez köçsələr də böyük estetik-mənəvi xəzinə qoyub getmiş gənclərdən gedir. İkinci isə – gəncliyin* subyektiv *təqdimatıdır.* Birinci – *keçilmiş təcrübələrin, yaşanmış ömürlərin təhlili*, ikinci – *çıxarılmış nəticələrin təzahürüdür.* Birinci – *həyatın hər üzünə* dik baxan *gözlərə və həqiqəti görən göz*-*lərdir*, ikinci – *onların gördüklərini görmək, yaşamaq və yaşatmaq cəhdidir.*

# I hissə

## *GƏNCLİYİN*

## *FƏLSƏFƏSI*



# *Ön söz*

Qurani Kərimdə deyildiyinə görə, Allah yalnız özünün bildiyi bütün adları insana da öyrətdi (Quran 2/31) və bununla onu bütün yaratdıqları arasında ən qüdrətli etdi. İnsan elmlər öyrənir, kəşflər edir, göyün ənginliklərinə uçur, suların dərinliklərinə enir və ruhuna öyrədilən həmin adları (elmləri, həqiqətləri, bilikləri) «yadına salır». Bununla yanaşı, insan Allahdan öyrəndiyi həmin adlardan daha bir yerdə də istifadə edir: övladına ad qoyanda. Peyğəmbər öz hədislərindən birində müsəlmanlara belə bir məsləhət verir: «Övladlarınıza gözəl adlar qoyun». Hələ Kitabi Dədə Qorqudda da xüsusilə vurğulandığı kimi, qədimdə adqoydu mərasimini məhz ağsaqqallar, dünyagörmüş şəxslər keçirirmiş. Hər kəs öz ruhuna, öz təbiətinə uyğun ad daşıyır, adı və özü bir-birini tamamlayır. Bunu dərk edən valideyn ad qoymaqla bir növ öz övladının taleyini yazmış olur və bu səbəbdən o, doğulan körpəsi qarşısında öz məsuliyyətini dərk etməlidir. Yaxud bəlkə də hər ad artıq yazılmış bir taleyin valideynə mistik bir təlqininin nəticəsidir? Bilən Allahdır.

Maraqlıdır ki, bu gün heç bir dərin məna daşımayan, sadəcə səslənməsi gözəl olan adlar çoxalır və müvafiq olaraq… cəmiyyətdə də bir mənasızlaşma, səthiləşmə prosesi gedir.

Gənclik fəlsəfəsini adlarla bağlı düşüncələrlə başlamağım təsadüf deyil. Bu fəlsəfənin qapıları ilk olaraq mənim üçün Ülviyə səbəb açıldı. Mən *ülvi* sözünün mənasını əvvəllər bilirdim – ucalıq, saflıq. Lakin bu adın tarixçəsini öyrənəndən sonra yuxarıda dediklərimin həqiqət olduğuna bir daha əmin oldum: hər insan öz adının canlı maddi təzahürüdür.

* * *

Ülvi Bünyadzadənin adı oxuculara müəyyən qədər tanışdır. Adı deyəndə mən onun şeirlərini, tərcümeyi halını nəzərdə tuturam. Yəni adının zahiri tərəfini.

«Ülvi» adının tarixçəsini və dolayısı ilə mahiyyətini Ülvinin atası nəql edir:

«Məndən həmişə soruşanda ki, bu adın mənası nədir? Niyə məhz Ülvi? Mən həmişə susurdum. Bilirdim ki, desəm də inanmazlar. Bir də, mənim üçün məhrəm, əziz olan bir şeyin başqası tərəfindən adi bir hadisə kimi qəbul edilməsini istəmirdim. Buna görə də, sualların üzərindən sadəcə gülümsəməklə keçərdim. Əsl tarixçə isə budur.

Bu ad Ülvi doğulmamışdan çox illər əvvəl «doğulub». Altmışıncı illərin əvvəllərində. Mən Azərbaycan Neft və Kimya institutunun tələbəsi idim.

Həmin dövrü milli təfəkkürün oyanışı ilə səciyyələndirmək olar. «Bütöv Azərbaycan» ideologiyası hər kəsin düşüncəsini çulğalamışdı. Uzun illərdən sonra ilk dəfə milli bayram olan Novruzun təntənə ilə qeyd edilməsi, hətta uzaq Amerikada Con Kennedinin qətli də xalq arasında bir həyəcan, dirçəliş yaratmışdı. O illər (1962-1964-cü illər)

qışın sərt keçməsi, dəhşətli aclıq, çörəyin qıtlığı, gecədən tutulan növbələr belə insanları ruhdan salmır, onların milli mənliyinin get-gedə daha artıq oyanmasına mane ola bilmirdi.

Bu həyəcan gəncləri, xüsusilə tələbələri öz ağuşuna almışdı. Onlar ayrı-ayrı ziyalıların ətrafında birləşir, milli mövzuda söhbətlər aparılır, müzakirələr keçirilirdi. Məsələn, Xəlil Rza Azərbaycan dilinin təmizliyini qorumaq üçün öz ətrafındakılara rus kəlməsi işlətməyi qadağan etmişdi və bu qaydanı pozan 5 qəpik cərimə verməli idi.

Əlbəttə, cəmiyyət arasında milli ruhun, təfəkkürün get-gedə aparıcı qüvvəyə çevrilməsi, ən əsası isə, bu oyanışın, özünəqayıdış prosesinin nəinki baş qaldırması, hətta sürətlə inkişaf etməsi kimlərin isə xoşuna gəlmirdi və ona hər vasitələrlə mane olurdular. Təzyiqlər göstərilir, hansı isə «bədbəxt hadisələr» baş verirdi. Təbii ki, tələbələr də bu «diqqətdən» kənarda qalmırdılar. Onlar yataqxanalardan, hətta institutlardan çıxarılır, təqaüdləri kəsilirdi. Məsələn, iki saat dərs buraxan tələbə bir aylıq təqaüddən məhrum edilirdi. İki aylıq məhrumiyyət isə artıq institutdan qovulmaq idi.

Mən də bu cərəyana qoşulmuşdum. Bütün günü şüarlar, çağırışlar, şeirlər yazırdım. Hətta olmuşdu ki, düz bir həftə dərsdən də qalmışdım. Fakültəmizin dekanı, geologiya elmlər namizədi Faiq Bağırzadə yataqxanaya gəlib mənim dərsdən qalmağımın səbəbi ilə maraqlandı və məni dərsə qayıtmaq üçün xeyli dilə tutdu, ilk növbədə təhsilin tamamlanmasının daha vacib olduğunu izah elədi. Sonra bütün qanunları pozaraq mənim bir həftəlik qaibimi gizlətdi və mən dərsə qayıtdım.

Həmin vaxtlar hərənin bir təxəllüsü var idi. Onda mən *ÜLVİ* sözünü tapdım. Lakin söz mənə elə bir sehrli təsir bağışladı ki, mən onu bir təxəllüs kimi yox, xeyirxah, gözəl işlərimin kodu olaraq təyinləşdirdim. Sözün mənasını dəqiq bilmirdim. Heç o adda adama da rast gəlməmişdim. Düzdür, Ülvi Rəcəb adlı bir aktyorun olduğunu eşitmişdim, lakin onun mənim ideyamla heç bir əlaqəsi yox idi. Ola bilsin, nə vaxtsa oxuduğum bir şeirdən mənim yaddaşıma həkk olunmuşdu. Mənasını sonralar öyrəndim. Yalnız onu bilirdim ki, o, mənim qəlbimin dərinliyində məskunlaşan, mənim ən saf, yüksək amallarımı, əməllərimi toplayan bir guşə, kod olacaq.

Təbii ki, mənim pis işlərimin də adı var idi, ancaq *Ülvi* adı elə güclü, elə cazibəli oldu ki, onu unutdurdu.

Bu sözü heç bir yerdə işlətmirdim, sanki bir sehrli sandıq idi, ora hər kəsdən gizli, ən yaxşı şeylərimi yığırdım. Onun varlığından kiminsə xəbər tutmasını istəmirdim. Bir dəfə institutda şahmat yarışı keçirilirdi. Orada bir tələbə ilə tanış oldum. Adı Ülvi idi. Sonralar öyrəndim ki, o, tanınmış bir akademikin oğludur. Çox gözəl, mehriban, tərbiyəli bir oğlan idi. Elə bil mənim düşüncəmdəki *Ülvi* qarşımda canlanmışdı. Qısqandım. Mənə elə gəldi ki, o, mənim ideyamın bir hissəsini mənimsəyib. Tez ondan aralandım, sanki ideyamın, sirrimin tam oğurlanmasından qorxdum və çalışdım bir də onunla rastlaşmayım.

Qeyd etdiyim kimi, milli dirçəliş hərəkatı maneəsiz ötüşmürdü. Belə tədbirlərdə iştirak edən tələbələrə qarşı ciddi tədbirlər görülürdü, hər yerdə xəbərçilər var idi. Belə bir «agentin» xidməti sayəsində mən də yataqxanadan qovuldum, ancaq buna baxmayaraq, işlərimi yenə davam et-

dirirdim. Hərəkat artıq öləziməkdə idi. Həmin vaxtlar mən institutumuzun «Neft Kadrları uğrunda» qəzetinin (redaktoru gözəl ziyalı İnqilab Babayev) redaksiyasında yaranan dərnəyin üzvü idim. Dərnəyin məqsədi görkəmli yazıçı və şairlərlə görüşlər keçirtmək idi. Bu istiqamətdə xeyli işlər görürdük: Səməd Vurğunun, Şəhriyarın yubileylərini, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Nəriman Həsənzadə ilə ədəbi görüşlər, yaradıcılıq gecələri keçirdirdik. Rəsul Rzanın yaradıcılıq gecəsində hətta institutun rektoru İsmayıl İbrahimov da iştirak etdi və həmin görüşdən sonra biz təşkilatçılar bir aylıq təqaüd həcmində mükafat belə aldıq. Belə görüşlərdən ən maraqlısı Səməd Vurğunun yubileyinin keçirilməsi oldu. O vaxt şairin qohumları ilə əlaqə saxlayıb onları dəvət etmək mənə həvalə olunmuşdu. Cəmi 20 yaşım var idi. Mən Yazıçılar İttifaqının məsləhətçisi Osman Sarıvəllinin zəngindən sonra Mehdixan Vəkilovun evinə getdim. Onun Səməd Vurğuna – mənim ən sevimli şairimə bənzəməsi məni elə həyəcanlandırmışdı ki, nə mənə süzülən çayı içə bildim, nə də mənim üçün qoyulmuş şaftalı mürəbbəsini yeyə bildim.

Belə görüşlərimiz biz gəncləri həmin dövrün ən tanınmış simaları ilə tanış edirdi, onlarla yaxından ünsiyyətdə olmağa imkan yaradırdı. Əliağa Kürçaylı, İslam Səfərli, Osman Sarıvəlli, Vilayət Rüstəmzadə, Hikmət Ziya, Məmməd Araz, Zeynəb Xanlarova, Rübabə Muradova, Əbülfət Əliyev və daha kimlər. Bütün bu yaxşı əməllərimi mən *Ülvi* kodunun altına yığırdım. Bəlkə də *Ülvi* kodunun xatirinə belə düşündürücü, yaradıcı əməllərə qaçırdım, milli təfəkkürümün cilalanmasına, dilimin, düşüncəmin saflığının qorunmasına xüsusi diqqət yetirirdim.

İnstitutu bitirəndən sonra təyinatla Rusiyanın Sverdlovsk vilayətində işləməyə getdim. Amma 1968-ci ildə ailə qurmaqla doğma el-obamla daha sıx bağlandım. 1969-cu ildə Ülvi dünyaya gəlməzdən 3 ay qabaq Sverdlovskdan mənzil almaq üçün bir arayış lazım oldu. Qayıtdım kəndimizə – Göyçənin Kəsəmən kəndinə. Kənd Sovetindən arayış alanda oraya belə bir məlumat da yazdırdım: oğlu – Ülvi Yusif oğlu Bünyadzadə. Arayışı görən qohum-əqrəba buna çox təəccübləndilər.

…Və Ülvi doğuldu. Sözümün hər mənasında.

Mən hiss etdiklərimi, düşündüklərimi, illər boyu bəsləyib saxladıqlarımı yenicə doğulan körpəyə tez çatdırmaq istəyirdim:

*Qızıl güldən dəstə tutcaq səadət*
*Qızıl payız heyrət etdi, keyindi.*
*Mən bilmədim gəlişinlə təbiət*
*Boğçadakı zər donunu geyindi.*

*Səyyarələr cilvələnsin qoy bu gün*
*Üzündədi üzlərinin həyası.*
*Mən günəşdən pay ummuram nur üçün*
*Gözlərindi gözlərimin ziyası.*

*Özün gülsən, anan nazlı bir gözəl,*
*Bəxtiyardı taleyimin bu çağı.*
*Sənin totuq əllərindən öpüm gəl,*
*Əllərindi ümidimin dayağı.*

*Duzlu balam, unutma ki, illərə,*
*Vicdanını günəş deyə verirəm.*
*Ürəyimsən, ürəyimi ellərə,*

*Elə bil ki, mən hədiyyə verirəm.*

Qızıl payızın əvvəllərində (sentyabrın 23-də) doğulan Ülviyə yazdığım bu misralar 1970-ci ildə rayon qəzetində, 1974-cü ildə isə mərhum xalq şairimiz Hüseyn Arifin təqdimatı ilə «Azərbaycan gəncləri» qəzetində dərc olundu.

Sonralar Ülvi böyüdükcə sanki illər uzunu qoruduğum «sandığın açılmasını», kodumun reallaşmasını, həyata keçməsini müşahidə edirdim. Hələ kiçik yaşlarından onunla ədəbi qəhrəmanlar, hadisələr haqqında təhlillər aparır, müxtəlif şairlərin yazdığı şeirləri müzakirə edirdik, iki yoldaş kimi mübahisələr edirdik. Mən Ülvidən başqa şey gözləmirdim də.

Mən bu gün də o adı daşıyan hər kəsə xüsusi bir diqqətlə, qısqanclıqla yanaşıram. Bu səbəbdən mən bütün Ülvilərdən yalnız millətinin adını ucaldan xeyirxahlıq, gözəl əməllər, mərdlik gözləyirəm və görəndə çox sevinirəm. Çünki bu adın daşıdığı mahiyyəti, məsuliyyəti bilirəm, onun necə ali bir şəkildə və dəqiqliklə təzahürünün şahidi olmuşam».

## *Giriş*

Cavanlıq, gənclik daha çox dəliqanlılıq, hərdəmxəyallıqla assosiasiya yaradır. Sufi mütəfəkkir Mənsur Həllac şeirlərindən birində gəncin məhz qeyri-sabit təbiətinə, İradəsizliyinə, səbrsizliynə işarə edərək deyir:

*Aşiq gənclikdə kamala çatarsa,*
*Sərxoşluqdan həbibinin vüsalını unudar.*[1]

Bununla yanaşı, insan ömrünün ən qısa, qısa olduğu üçün də ən şirin, ən ziddiyyətli dövrü olan gənclik həm də bütün həyatın təyinatının verildiyi, ömür sarayının təməlinin atıldığı bir çağdır. Deməli, onun öz hikməti, öz harmoniyası, öz qanunları olmalıdır və onlar gözardı edilə bilməz. Biz öz kitabımızda məhz bu barədə söz deməyə çalışırıq. Bunun üçün həm klassik dövrə, həm də müasirlərimizə üz tutmalı olduq.

Bizim müraciət etdiyimiz müəlliflər kimlərdir? 37 yaşlı Şihabəddin Sührəvərdi, 32 yaşlı Eynəlqüzat Miyanəci, 37 yaşlı Aleksandr Puşkin, 36 yaşlı Corc Qordon Bayron, 26 yaşlı Mixail Lermontov, 44 il ömür sürsə də 38 yaşa qədər ən dəyərli əsərlərini yazmış Syören Kyerkeqor, 79 illik ömrünün ilk 33 ilində müdrikliyin zirvəsini fəth etmiş və

---

[1] Яхбар ял-Щяллаж, Парис, 1936, с. 67 (яряб дилиндя).

sonralar yalnız bu zirvənin nuru ilə yaşamış Fridrix Şellinq, 29 yaşlı Mikayıl Müşfiq, 20 yaşlı Ülvi Bünyadzadə.

Bu gənclərdən hər birinin taleyi bir faciə ilə yarıda qırılıb. Sührəvərdi, Miyanəci, Müşfiq edam olunub, Puşkin, Lermontov, Ülvi namərd gülləyə tuş gəlib, Bayron və Kyerkeqorun isə bu dünya ilə vidalaşmasına səbəb xəstəlik olub. Şellinq öz «ilham pərisini», həmfikrini – həyat yoldaşını 33 yaşında itirəndə sanki onun ulduzu da, yaradıcılıq eşqi də öz xanımı ilə bərabər söndü, dəfn olundu. Şellinqin fəlsəfəsini təhlil edən F.Engels onu nəzərdə tutaraq yazırdı: «…Allah tərəfindən vəhy verilmiş peyğəmbər yeni zamanın gəlişini xəbər verirdi. Ona nazil olan ruhla ilhamlanaraq onun özü də çox vaxt öz dediklərini anlamırdı. O, filosofluğun qapılarını geniş açdı və mücərrəd düşüncələrin hücrələrində təbiətin təzə-tər nəfəsi əsdi; isti bahar şüası kateqoriyaların toxumları üzərinə düşdü və onlardakı mürgüləyən qüvvəni oyandırdı. Ancaq ocaq söndü, mərdlik itdi, qıcqırma ərəfəsində olan üzüm təmiz şəraba çevrilməmiş turş sirkəyə döndü».[1]

Şübhəsiz ki, Engels Şellinqin öz fəlsəfə şöhrətini yaşayandan sonra ömrünün 46 ilini 33 ildə qalxdığı zirvədən enməyə sərf etməsini nəzərdə tutur. Lakin, zənnimcə, onun nədən öz fəlsəfəsinin zirvəsini məhz bu yaşda fəth etməsinin səbəbini və bu yaşdakı zirvənin digər yaşdakı zirvələrdən nə ilə fərqlənməsini, nə ilə əhəmiyyətli olmasını bilmək daha vacibdir.

Bəlkə də kənardan baxana bu talelər qırıq görünür, əslində isə, onlar deyəcəkləri sözü söyləyə biliblər. Bu, hər

---

[1] *Гулыга А.В.* Философское наследие Шеллинга // *Шеллинг Ф.В.* Сочинения, М., Мысль, 1998, с. 7.

adama, hətta uzun illər yaşayanlara belə qismət olan bir xoşbəxtlik deyil. Yox, bu, nakam tale, qırıq ömür haqqında bir kitab deyil. Onların fiziki həyatı qeyri-təbii şəkildə süquta uğrasa da, ruhlarının bəşəriyyətə çatdırdıqları daha möhtəşəmdir və onu unudub, arxa plana keçirib yalnız faciəli bir ölümü, nakam gənc ömrü ön plana çıxartmaq həmin gənclərin özlərinə deyil, onların dedikləri sözə qarşı ədalətsizlikdir. Səlahəddin Xəlilov yazır: «Ölməzlik qazananlar ideya müəllifləridir. Başqasının ideyasının ictimai realizasiyası prosesinə qatılaraq real ictimai həyatın uzadılması bir şeydir, sənin ideyanın ictimai prosesə çevrilərək yaşaması başqa şeydir. Bu, artıq sosial-mənəvi sferada ölməzlikdir».[1] Gənclik fəlsəfəsinin ən vacib ideyaları gəncliyin ilk baxışda nəzərə çarpan keyfiyyətləri fonunda ya diqqətdən kənarda qalır, ya da bir təsadüf kimi qəbul edilir. Halbuki hər ideyanın özünə xas forması, reallaşma metodları var. Həmçinin elə ideyalar var ki, onlar məhz ömrün gənc çağı üçün nəzərdən tutulur. İllər keçəndən sonra o, nəinki öz formasını, mənasını dəyişə bilir, hətta ümumiyyətlə malik olduğu saflığı, ülviyyəti itirir, mahiyyəti dəyişir. Onların dərinliyinə, əsl mənasına yalnız əqlin, ruhun gənc yaşdakı səviyyəsi çata bilər.

Bu, qısa ömür ərzində deyilmiş böyük hikmət haqqında bir kitabdır. Bu, Allahın pak, ülvi ruhlar vasitəsilə insanlara çatdırmaq istədiklərinin şərhidir. S.Xəlilov yazır: «Tarixdə çox nadir hallarda şairin və ya filosofun əsas yaradıcılıq ideyası, çağırışları onun şəxsi həyat nümunəsi ilə

---

[1] *Хялилов С.* Сивилизасийа вя жямиййят // Ипяк йолу. Бейнялхалг елми, ижтимаи-сийаси ъурнал, 2000, № 2, с. 21.

üst-üstə düşür, real təcəssümlə tamamlanır. Belə olanda, ideya hələ kifayət qədər inkişaf edib öz zirvəsinə çatmamış bir həyat həqiqəti bu zirvəni fəth edir».[1] Bu, qısa gənc bir ömürə sonsuz müdrikliyi sığdırmaq, dəli-dolu nəfsi dərin düşüncə ilə cilovlamaq, zəif, gənc çiyinlərdə bəşəriyyətin ağır yükünü çəkmək, gəncliyin mənfi, naqis hesab edilən keyfiyyətlərini ən müqəddəs zirvəyə qaldıra bilmək qüdrəti və bunun Allah tərəfindən insana bəxş edilən nemətlərdən, lütflərdən biri olması haqqında təhlildir. Bu, dünənə, yaxud bugünə aid bir həqiqət deyil. Bu, insanın mahiyyətində ta-a yaranışından var olub ona insanlığını anladan, xatırladan bir həqiqətdir. Belə bir səbəbdən biz məkanı, zamanı, milliyyəti heçə sayaraq həm Şərqə üz tutmuşuq, həm Qərbə, orta əsrləri, yeni dövrü bir-birinə qatıb *indi*-də dayanmışıq. Çünki Allah birdir. Əbu Turxan demiş, «qütblər zirvədə birləşir».

Əlbəttə, müraciət etdiyimiz gənclərdən Ülvi bizə doğma olmaqla yanaşı, həm də zamanca ən yaxın olandır. Lakin Ülvi elə bir hikmət aləminin sakinidir ki, orada yaxın-uzaq anlamları yoxdur. Və bu aləmdən söz açanda bizim üçün Ülvi qədər Sührəvərdi də, Lermontov da, digər söz açacağımız gənclər da doğmadır, yaxındır.

Kitabda şərh edilən mövzularda iki qanunauyğunluğu qoruyub saxlamağa çalışmışıq. Əvvəla, qoyulan hər bir hissin, duyğunun primitiv səviyyədən ən ali dərəcəyə qədər yüksəlməsini və bu yolda hansı mərhələlərdən keçməsini izləmişik. Yəni hər anlamın, həm hissin iki üzü olduğunu və təfəkkür səviyyəsindən asılı olaraq onun hansı tərəfinin

---

[1] *Хялилов С.* Цлви щисслярдян шящидлик зирвясиня // Халг гязети, 20 йанвар, 2009-жу ил.

təzahür etməsini göstərmişik. İkincisi isə, hər növbəti başlığı özündən əvvəlkinin üzərində qurmuşuq. Konsentrik çevrələr kimi, hər yeni başlıq əvvəlkini də əhatə etməklə yanaşı, gəncliyin əlavə xüsusiyyətlərini də açıqlayır. Məqsədimiz isə gənclik fəlsəfəsinin bütöv bir mənzərəsini yaratmaqdır.

Bu kitabda gənc deyəndə məhz bu missiya daşıyıcıları, öz istedadları ilə nur kimi yanmağı bacaran gənclər nəzərdə tutulacaq, daha doğrusu, gənc müdriklər.

Əslində, bizim təqdim edəcəyimiz hər bir hissi öz missiyasını anlamış və bu missiyasını həyata keçirməklə öz həyat yolunu gedən hər kəs gənc yaşlarında yaşayıb, yaxud yaşamaqdadır. Bəlkə də onlar haqqında oxuduqca tanış duyğular rast gələcək, ya zəif, ya güclü şəkildə. Bu, belə də olmalıdır. Çünki bu bir-iki nəfərin deyil, ümumiyyətlə *gəncliyin fəlsəfəsidir* və ya *fəlsəfənin gənclik* çağıdır.

Bu gənclər özlərindən sonra məktəb yaratmayıblar. Bu, onların yaşadıqları qısa müddətdə mümkün də deyildi. Hətta 79 il ömür sürmüş Şellinqə belə bu, qismət olmamışdır. Onun kitabının ön sözündə A.V.Qulıqa yazır: «Şellinq …öz şöhrətini yaşadı və heç bir fəlsəfi davamçı qoymadı. Bu, alman fəlsəfəsində vulqar materializminin üstünlük təşkil etdiyi bir vaxt idi. Tezliklə şüar səsləndi: «Geriyə Kanta doğru!» Neokantçılıqla yanaşı, Almaniyada güclü neohegelçilik, hətta nə isə neofixteçilik kimi bir şey də var idi. Neoşellinqçilik isə olmayıb».[1] Lakin bu gənclər başqa bir fəlsəfə çatdırırlar: gənclik fəlsəfəsi – pak, təmiz ruhun mübarizəsi, ilahi aləmlə qovuşması, digər həmyaşıdlarında nöqsan sayıla biləcək bir keyfiyyəti ən ülvi mərtəbəyə

[1] *Гулыга А.В.* Ады чяк. ясяр, с. 5.

qaldırıb, onun kamil formasını nümayiş etdirmək bacarığı, ən qısa ömürdə hikmətli söz demək qüdrəti.

Mən orta hesabla hazırda bizim bu gənclərlə eyni yaşdayam. Əbu Turxan deyir ki, «odun necə yandığını kül yox, sonuncu köz daha yaxşı bilər». Mən də məhz gənclik çağından çıxmaq ərəfəsində gənclik fəlsəfəsindən yazmağa ürək elədim.

## *İstedad, missiya və cəmiyyət*

Allahdan üflənən ruhla qara torpağın vəhdətini təşkil edən insan elə yaranışından ziddiyyətlər, mübarizələr içərisindədir. Allahın insana verdiyi nemətləri düzgün dəyərləndirə bilənlər Allahdan onlara tərəf uzanan ilahi yolun qapısından keçib ucalmağa, kamilləşməyə üstünlük verir. Bu nemətləri yalnız dünya gözü ilə görənlər isə elə yerdəcə, bu maddiyyat hüdudlarındaca vurnuxa-vurnuxa «qapılar» açır, sərvətlər toplayır, elmlər öyrənir və heç xəbərləri də olmur ki, qapalı bir dairə boyu durmadan qaçır, amma nə bir pillə ucalır, nə bir zərrə nurlanır, nə də bir mərtəbə kamilləşirlər.

Maddiyyatın şirin cazibəsindən qopmaq çətin və əzablı bir prosesdir və illərin, uzun təcrübələrin nəticəsi ola bilər. Maraqlıdır ki, təsəvvüf fəlsəfəsində bu yolçuluğa məhz təfəkküründə, imanında müəyyən mərhələyə çatmış kəslər çıxa bilər: iradəsinin, səbrinin, dünyagörüşünün çata biləcəyi bir çağda. Başqa sözlə desək, gənclik dövrünü yaşayandan sonra.

İnsan həyatının müəyyən bir dövründə öz-özündən bu dünyaya nə üçün gəldiyini soruşur. Bu sualı insan təfəkkür səviyyəsindən asılı olaraq uşaqlıq çağında da verə bilər, gəncliyində də, ahıl vaxtında da, …ölüm ayağında da. Bu sualın cavabı da müxtəlif olur və onu verənin təfəkkür

səviyyəsi, həyat tərzi və əxlaqı ilə bilavasitə əlaqəli olur. Kimi cavab üçün valideynlərinə müraciət edir, kimi cəmiyyətə, kimi də öz könlünə. Lermontov yazır:

*Xeyir və şərin badəsini mənə içirdib*
*Nəyə hazırlayıb məni Yaradan,*
*Nədən sədlər çəkib etirazlardan*
*Mənim gənclik ümidlərimə?*
*Sənin həyatını mən bəzəyəcəm,*
*İnsanlar arasında şanın olacaq dedi!*[1]

Ülvi isə özünə bu sualı belə bir şəkildə verir:

*Mən bir koram, kor bir rəssam, kor bir şair,*
*kor bir insan,*
*Bu cahanı görürəmmi, görmürəmmi?*
*Bəs nə üçün?*[2]

Bu sualı verən insanın öz mən-idir və cavabı da, əslində, elə özündədir. Yəni bu, bir növ mən-in öz varlığını insana bəlli etməsi, diqqəti özünə yönəltməsidir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, bu sualı vermək öz mən-inin dərkinə istiqamətlənən ilk addımdırsa, ona cavab verə bilmək ikinci addımdır.

Mən-i görmək gənc yaşında daha rahatdır. Uşaqlıqda təfəkkür hələ tam formalaşmadığından, yaşlananda isə əsl mahiyyətin üzərinə qabıq üzərindən qabıq gəldiyindən mən-i

---

[1] *Лермонтов М.Ю.* Стихотворения. Поэмы. Маскарад. Герой нашего времени, М., Худож. литер., 1984, с. 65.

[2] *Бцнйадзадя Ц.* Бир юлцмцн ажыьына, Бакы, Эянжлик, 1993, с. 43.

ayırd etmək, onun səsini duymaq, məqsədini anlamaq çox çətinləşir.

Mən – insanda Allahdan olan ilahi zərrədir və ya insanı Allahla vasitəsiz olaraq əlaqələndirən ilahi bağdır. *Mən-in* səsi əslində ilahidən gələn və məhz bu ruh üçün nəzərdə tutulan hikmətin, həqiqətin səsidir. Bu səbəbdən onun *səsini vaxtında eşidəndə, dediklərini vaxtında və olduğu kimi dəqiq həyata keçirəndə buna istedad deyillər.* Bəzilərinə bu səs musiqi ilə, bəzilərinə rəqəmlərlə, bir başqasına rənglə, birinə də şeir missraları ilə çatdırılır və buna müvafiq olaraq bəstəkarlıq, rəssamlıq, riyaziyyatçılıq, şairlik istedadı ortaya çıxır. Lakin bu, yalnız böyük bir nurun ilk işartısıdır. Ən çətini isə onun mahiyyətindəki hikməti sezib, onu çatdırmağı bacarmaq lazımdır. Axı qeyd etdiyimiz kimi, bunların heç biri boş, mənasız informasiyalar olmayıb, özlərində əhəmiyyətli, dərin və müqəddəs bir hikmət daşıyırlar. Yəqin buna görədir ki, deyilən ixtisaslar arasında gənc yaşlılara rast gəlmək olur, ancaq filosoflar – çatdırılan informasiyaların, hikmətlərin vəhdətini görüb dərk edən, onu bəşəriyyətə çatdıran şəxslər isə nisbətən yaşa dolmuş, müəyyən həyat yolu keçənlər arasında olur. S.Xəlilovun yazdığı kimi, riyaziyyatla fəlsəfənin əsas fərqlərindən biri də özünü bunda göstərir ki, riyaziyyatçılar yeni söz deməyi, böyük kəşfləri adətən gənc yaşlarında edə bildiyi halda, filosoflar bir qayda olaraq, ən samballı əsərlərini ömür yarıdan keçdikdən sonra yazırlar. Yəni fəlsəfə üçün tək istedad yetərli olmur və insanın özünü dərk məqamına yüksəlməsi də şərtdir. Başqa sözlə desək, Allahın verdiyi istedadı duymaqdan əlavə, onun daşıdığı hikməti də dərk etmək həmin istedadın tamamlanmasıdır. *Bu, isə artıq filosofluq zirvəsidir.*

Əlbəttə, bu, danılmaz bir faktdır ki, «mən»ini duyanlar duymayanlardan qat-qat azdırlar. Lakin bəzilərinə bu səs o qədər bərkdən, o qədər böyük bir tələblə səslənir ki, onu duymamaq olmur. Məsələn, Bethoven belə hesab edib ki, Allah hər kəsin qulağına nə isə pıçıldadğı halda, onun qulağına qışqırır. Bethoven yalnız öz karlığına işarə etmir. O, həm də bu səsi duymağın qaçılmazlığına, bunun Allah qarşısında bir borc olduğuna və bu səbəbdən seçimin də özünə deyil, Allaha aid olmasına işarə edir. S.Kyerkoqor yazır: «Dahi – qüdrətli Ansichdir* ki, bütün dünyanı silkələyə bilər. Buna görə də, onunla bərabər, nizamı qorumaq xatirinə, başqa bir fiqur da yaranır – tale. Tale – Heçnədir; dahinin özü onu görür və bu dahi nə qədər dərindirsə, taleyi də bir o qədər dərindən görür; belə ki, bu obraz sadəcə öngörmədir. Ancaq əgər dahi insan yalnız dahi olmağı inadla istəyirsə, üzünü ətrafa çevirirsə, o, mütləq qəribə şeylər edir və əgər özündən kənarda deyilsə yenə də, yenə də taleyə tabe olacaq».[1]

Qeyd etdiyimiz kimi, mən-i duymaq yalnız başlanğıc-dır. Onun dediklərinin həyata keçirilməsi insan üçün seçilən həyat yoludur. Bu – missiyadır. Bu, Allah qarşısında öz borcunu yerinə yetirməkdir. *Missiya – insanın istedadının Allah tərəfindən edilən seçimə yönəldilməsidir.* Qurani

---

* Щеэел терминолоэийасында «юзцндя» шей – щеч бир шейдян асылы олмайан бир шейдир; Кантын «юзцндяки шей» инсан гаврайышындан асылы олмайараг вар олан обйектдир. Дащийя тятбиг едиляндя бу категорийа о демякдир ки, Аллащ гаршысында тянща оланы онун мягсядляри вя ганунлары юзцнцн ичиндядир. (*Кьеркегор С.* Страх и трепет. М., Республика, 1993, с. 193)

[1] Йеня орада.

Kərimin bir ayəsində deyilir: «Biz əmanəti göylərə, yerə və dağlara verdik, onlar onu daşımaq istəmədilər, ondan qorxdular. İnsan onu götürdü (yükləndi), o, zalım və cahil idi (Quran 33/72)». Missiya – dağın, daşın apara bilmədiyi yükdür ki, insan ona boyun olub. Amma bu yükü tanımayana qədər onun ağırlığından da xəbərsiz olursan. Elə ki, tanıdın…

Şəxsiyyət mən-in cəmiyyətin tələblərinə müvafiq təzahürüdür və bir mən-in müxtəlif şərait və zamandakı təzahürləri bir-birindən kəskin şəkildə fərqlənə bilər, bunlardan hər biri vahid substansiyanı – mən-i müəyyən dərəcədə ifadə edir. Məhz cəmiyyətdən asılıdır ki, şəxsiyyət öz mən-ini az və ya çox dərəcədə əks etdirə bilsin. Təbii ki, bəzi hallarda cəmiyyətin tələbləri ilə formalaşan şəxsiyyətin özü üçün seçdiyi (və ya valideynlərin öz övladları üçün seçdiyi) həyat yolu onun daşıdığı missiya ilə üst-üstə düşmür. Belə olan halda insan əziyyət çəkir. İçindəki yaradıcılıq enerjisi, istedadı çıxmaq, yaratmaq istəyir və …reallaşmayanda bu ilahi nur oda çevrilir, sahibini yandırır.

Yeri gəlmişkən, burada bir hal üzərində xüsusilə dayanaq. Öz uşağını daim diqqət mərkəzində saxlayan, onun düşündüklərinə, hərəkətlərinə nəzarət edən valideyn onun istedadını çox erkən yaşlarında görür və onu inkişaf etdirməyə çalışır. Bunun üçün bəzən öz uşaqlarını incitməyə belə razı olur, təki istedad cilalanıb üzə çıxsın, düzgün istiqamətlənsin. Belə uşaqlar əksər hallarda görkəmli şəxsiyyət kimi tarixdə qalıblar. Lakin bunda maraqlı bir məqam var: həmin istedadlı şəxslərdən heç biri sonralar öz övladına (əgər evlənibsə və uşaq sahibidirsə) eyni münasibəti göstərməyib. Niyə?! Öz aqibətini uşağına rəva gör-

mədiyi üçünmü? Öz missiyasından baş açıb, vaxt ayırıb övladının missiyası barədə düşünə bilmədiyi üçünmü? Bir vaxtlar valideyninin ona göstərdiyi qəddar, sərt münasibətdən pozulan psixikasının övladına da qismət olmasını istəmədiyindənmi? Əlbəttə, cəhd edənlər olub. Amma övladının əziyyəti qarşısında dözməyib onu rahat buraxıblar.

Öz missiyasını dərk edən və bu həyat yolu ilə barışan insan çox ziddiyyətli hisslər yaşamaq məcburiyyətində qalır. O, ətrafa sanki rentgen baxışlarla baxır, adi gözlə görünməyən rəngləri seçir, adi qulaqla duyulmayan səsləri eşidir, harmoniyanı duyur, heç kəsin unamadığı yerdə sevinc və ya qəm görür. Kyerkeqorun fikrinə görə, «etik mən-ə ayrı-ayrı, parçalanmış anlara dağılmağa qoymayan mənəvi məsuliyyətdir: burada mən – həyatın müxtəlif şəraitlərinin təsiri ilə fərdlə baş verən bir şey deyil, onun müstəqil seçiminin nəticəsidir və buna görə də, ona aid olan bir reallıqdır. Belə mən daimi cəhdlər tələb edir, çünki onun reallaşması xəyal və arzulardan deyil, kənardan verilən istənilən şərtlərin diqtə etdiyi əxlaqi ardıcılıqdan asılıdır».[1] Bu dünyanın hər şeyini öz rəngində görən gənc ilahi vəhdətin parçalanmasını da, zahiri parıltının, yaxud çirkabın əsl mahiyyətin görünməz etdiyini də çox aydın görür. Bayron yazır:

*Mən yalana yabanam, mən hələ də bacarmıram*
*Dəbin laklı örtüyü ilə həqiqəti gizlədim*
*Bəs bu nifrət dolu baxışlara nədən dözürəm,*

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 11.

*İllərimi hədər yerə ötürürəm.*[1]

Dünyanın təzadlarını görən Ülvi isə belə deyir:

*Ən dərin dərələr, müdhiş yarğanlar,*
*Əlçatmaz dağların özülü olur.*
*Gülüşlər, haraylar, ahlar, amanlar,*
*Həmişə yan-yana düzülü olur.*[2]

Bu gənc həm özünün Allah tərəfindən seçildiyini hiss edir. Eyni zamanda, cəmiyyət arasında fərqli olduğunu görür və bundan sıxılır, təcrid olunur. Lermontov yazır:

*Yerlərin, göylərin əzəl hakimi*
*Mənə peyğəmbərlik verəndən bəri,*
*Açılıb qarşımda bir kitab kimi,*
*Qəzəbli, qərəzli bəşər gözləri.*[3]

Özünü həm hamıdan yüksəkdə, həm də hər kəsdən bədbəxt görür. Hər kəsin gördüyü onun üçün maraqlı deyil, primitivdir, amma onun gördüklərini də heç kim görmür, anlatdıqlarını hər kəs anlamır. Əbu Turxan yazır: «Böyük insanın faciəsi əslində onun ali xoşbəxtlik məqamına yüksəliş cəhdindən doğur. Bu məqam isə özünü yaradıcılıqda və xilaskarlıq missiyasında büruzə verir». O, əzab çəkir… və xoşbəxt olduğu, sayılıb-seçildiyi, ülviyyət və müqəddəslik dolu dünyasına çəkilir və ətrafı da məhz bu-

---

[1] *Байрон Дж.Г.* Избранное, М., Из-во «Детская литература, 1964, с. 34.

[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 22.

[3] *Лермонтов М.Й.* Сечилмиш ясярляри, Бакы, Чашоьлу, 2006, с. 84.

radan seyr etməyə, buradan dəyərləndirməyə çalışır. Ülvi insanın bu dünya ilə «ünsiyyətini» belə təsvir edir:

*Ağlamaq insanın ilk adətidir,*
*Danışmaq həyatla ilk vəhdətidir.*
*Hər şey ilk olsa da, ömrü uzunu,*
*Bir yalnız ölməyi son heyrətidir.* [1]

Əlbəttə, gəncin bu günah, çirkab dolu, gözəlliklərin üstü tozla örtülü aləmə döndüyü vaxtlar da olur. Missiyasından asılı olaraq ya öz duyduğu gözəlliyi bölüşməyə, ya da kimi isə xilas etməyə. Amma digərlərindən onun fərqi, üstünlüyü ondadır ki, onun istədiyi vaxt sığına biləcəyi, nurlana biləcəyi, yenə təmizlənib paklaşacağı bir dünyası var. Lermontov yazır:

*Varlığın yükü altında*
*Məğrur ruh heç yorulmur,*
*... əgər bacarsa,*
*Minlərlə insana bəxtəvərlik verərdi,*
*Belə bir ruhla sən ya Tanrısan, ya da zalım.* [2]

Allahın yaratdıqları arasında İnsan ən uca ada, ən yüksək məqama və təbii ki, bütün bu «ən»ləri doğrultması üçün ən ağır yükə sahib varlıqdır. İnsan artıq doğulanda bu keyfiyyətlərlə, bu məsuliyyətlə doğulur və böyüdükcə əlavə keyfiyyətlərə, xüsusiyyətlərə yiyələnir, üzərinə başqa məsuliyyətlər götürməli olur: övlad, qardaş-bacı, valideyn, yoldaş, vətəndaş və s. kimi «vəzifələr». Əslində, ikincilər birincinin yanında qat-qat yüngül, asandır, çünki keçicidir, dəyişkəndir.

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 62.
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 27.

Lakin əksər hallarda ikincilər birinciləri üstələyir, çünki onları cəmiyyət verir, cəmiyyət tələb edir.

Cəmiyyət müəyyən struktura malik, stabilləşmiş qaydaları, ənənələri olan və sosial münasibətlər üzərində təşəkkül tapan bir «qurumdur». Bu «quruma» daxil olan təfəkkürlər, dünyagörüşləri yonulub, rəndələnib onun tələblərinə uyğunlaşmalıdır. Əks halda kənarda qalmaq, təcrid olunmaq, məhv edilmək təhlükəsi yaranır. Əslində, az adam tapılar ki, belə böyük bir təhlükə ilə üz-üzə durmaq istəsin. Bu cəmiyyətdə doğulan, onun «ənənələri» ilə tərbiyələnib böyüyən hər kəs istər-istəməz mənən də, zahirən də onun formasını mənimsəyir, onun «divarına» hörülüb, onun «rənginə» boyanır.

Onu da qeyd edək ki, məhz bu cəmiyyətdə doğulub böyüdüyünə görə, onun bir saraymı, yaxud bir uçuq hasarmı olduğunu görmək çətindir. Çünki bunun üçün gərək həmin «tikilidən» yüksəyə qalxaraq ona kənardan baxa biləsən.

Bəli, «palaza bürünüb elnən sürünməklə» sakit və stabil bir həyat tərzi keçirmək missiya daşıyıcıları üçün deyil. Bəzən və ya əksər hallarda bu missiya cəmiyyətin qanunları ilə səsləşmir. Bu, ilahi tələblərlə cəmiyyət tələblərinin üz-üzə gəlməsi, ilahi çağrışla vətəndaşlıq məsuliyyətinin çarpışmasıdır. Şellinq bunu mən-in subyektiv və obyektiv tərəfləri kimi şərh edərək yazır: «Mən-də əzəli ziddiyyətlər mövcuddur – subyekt və obyekt; hər ikisi bir-birini inkar edir, amma biri digəri olmadan ola bilmir. Subyekt özünü yalnız obyektə zidd olaraq təsdiq edə bilir, obyektə də subyektə, yəni nə birinci, nə də ikinci digərini məhv etmədən

real ola bilməz».[1] Cəmiyyət belələrini qəbul edə bilmir. Hazır divarın yanında düşüb qalmış, hörgüyə yaraşmayan bir daş kimi. *O, bir almaz dənəsi olsa belə, bu gün onun dəyəri, qiyməti bu hörgüylə ölçülür.* Həm də bu hörgü bütünlükdə həmin daşdan qat-qat aşağı səviyyədə olsa belə. Gələcəkdə nə qədər onunla fəxr etsə də, onu tarixinin şanlı səhifəsinə salsa da, cəmiyyət bu gün onu sevmir, rədd edir, yad ünsür kimi onun məhvinə çalışır.

Bu, tədricən, illər uzunu baş verəndə o qədər də ağrılı proses olmur, nəinki qısa müddətdə, anidən. Çünki illər insana həyatın, gerçəkliyin acı həqiqətlərini asta-asta, damızdıra-damızdıra anladır. Gənc isə bu zərbələri qəfil almalı olur və bundan sarsılır, dəhşətə gəlir. Lap Ülvi kimi:

*Uran atomunu alimlər böldü,*
*Uran alovundan şəhərlər öldü,*
*Amma məhşər günü, məncə, dünyada*
*Ürək atomları bölünən gündü.*[2]

Bununla belə, ilahi əlaqəsi gəncə dayaq olur, missiyası qarşısındakı məsuliyyəti onu yıxılmağa qoymur. Bu səbəbdən yaşadığı halların hər birində gənc aşağıdan yuxarıya, naqislikdən kamilliyə, cəmiyyətin bir üzvü olan şəxsiyyətdən daxili mən-ə doğru bir yol keçir. Gənc təbiətən ona bəxş olunmuş keyfiyyətləri, onların ən atəşli, ən enerjili vaxtında özünə tabe edib, içində gizli olan daha yüksək səviyyəsini üzə çıxara bilir: atəşi nura, enerjini qüvvəyə çevirə bilir. Lap nağıllardakı kimi, gənc bir günündə bir ilini başa vurur.

---

[1] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 362.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 62.

Gerçəklik və ideya dünyası arasında qalan gənc üstünlüyü ikinciyə verir: onun gücünü, qüdrətini, eyni zamanda, ucalığını, saflığını, ən əsası isə doğmalığını dərk etdiyi üçün. Şellinq yazır: «Həqiqi azadlıq müqəddəs zərurətlə barışıqdadır ki, biz onu mahiyyətin dərkində duyuruq, belə ki, öz qanunlarına tabe olan ruh və ürək könüllü olaraq zəruri olanı təsdiqləyirlər».[1] Bəlkə də bu gənclərin romantikliyi məhz bundadır: reallığı görə-görə, duya-duya nicatı ideyalar aləmində axtarır.

Lakin onlar yalnız bu seçimlə kifayətlənmir, oraya çəkilib gizlənmirlər, həm də onun vasitəsilə gerçəkliyə təsir göstərməyə, onu çirkabdan təmizləməyə cəhd göstərirlər. Maraqlıdır, Bayronun «Prometey»i doğurdanmı mifik qəhrəman haqqındadır?

*...sən istəyirdin*
*Bədbəxtliyə son qoyasan,*
*Hər kəsin ağlı nurlansın.*
*...*
*İnsan həyatı – nurlu bir axındır*
*Axıb – çirkabı yuyur.* [2]

Ülvi də eyni arzularla yaşayır:

*Axtarın elmin nər balasını,*
*Versin haqsızların haqq bəlasını.*
*Söküb ürəklərin kin qalasını,*
*Təzədən şəfqətlə qura ağlaya.* [3]

---

[1] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1004.
[2] *Байрон Ж.Г.* Ады чяк. ясяр, 1964, с. 51.
[3] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 14.

Gənc – İnsan əzab çəkir. Sınmamaq üçün bütün gücünü-qüdrətini toplayır… və bu, onu gənc yaşında qocaldır, dəliqanlı vaxtında müdrikləşdirir. Bayron deyir:

*O! mən qoca deyiləm! Şübhəsiz*
*Bu dünya mənim üçün yaranmayıb!*
…
*Gerçəklik! Sən hakim səsinlə*
*Mənim xəyallarımı qovdun.*[1]

Ülvi isə sanki gerçəkliyin bütün ziddiyyətlərini həll etməyə, bütün sualları cavablandırmağa çalışır:

*Özünə gəlməmiş bu zərbələrdən,*
*Yenə də gün gəlir – götürüb gəlir.*
*Yeni müəmmalar, yeni suallar,*
*Axtar cavabını, axtar birbəbir,*
*Tapmasan üstünü o toppuz alır.*[2]

İstedad bir cəmiyyət, bir xalq, bir millət üçündür və bu çərçivə daxilindədir. Missiya isə daha genişdir. Burada millət, məkan, zaman anlamları yox olur. Onu istəsən də bir cəmiyyət çərçivəsində saxlaya bilməzsən. Burada artıq insan var, bəşəriyyət var.

Vaxtında öz missiyasını həyata keçirmək üçün çarpışıb vuruşan, gəncliklərində müdrikliyin zirvəsinə qalxa bilən və artıq tarixə qovuşan adlar üçün zaman və məkan həddi olmur. Əslində bu missiya sahibləri, bu əmanətin daşıyıcıları keçmişdən bu günə rahatca, hər şeyin fövqünə qalxaraq

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 34.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 28.

(cəmiyyətin, dövrünün bütün sərt qadağalarına baxmayaraq) gəldikləri kimi, bugünün məsulları da o rahatlıqla keçmişə – öz sələflərinin yanına və gələcəyə keçə bilirlər. Çünki onların dedikləri, yazdıqları bir günlük, bir qurum üçün deyil. *Bu missiya insanlıq missiyasıdır. İnsan yaranandan ta-a bu günə kimi gələn və sonsuza kimi davam edəcək bir əmanət.*

## *Qorxu, üsyan və cəngavərlik*

Qorxu mürəkkəb bir hissdir. Qorxunun mürəkkəbliyindəndir ki, rəzil olduğu kimi, müqəddəs də ola bilir, irəli apardığı kimi, qaçıb gizlənməyə də sövq edir, ürəyinin ən ülvi duyğularını dilə gətirdiyi kimi, içindəki ən qara hisslərini də üzə çıxardır. Mürəkkəblik həm onu yaradan səbəbdən, həm də özünün səbəb olduğu nəticədən gəlir. Səbəb nə qədər ucadırsa, nəticəsi də bir o qədər insanı ucaldır. Düşmən qarşısından qaçan bir fərari ilə, düşmən üstünə yeriyən qəhrəmanın qorxusu arasında yerlə göy qədər fərq var. Biri öz varlığının məhvindən qorxur, biri Vətəninin məhvindən. «Yerlə göy» nisbəti təsadüfi deyil. Yerlə bağlı olan qorxunun hüdudları elə maddi dünya ilə bitir: var-dövlət, övlad-uşaq, vəzifə-pul, şan-şöhrət, bu maddi dünyadan əldə etdiyi daha nələri isə itirmək qorxusu. Göylərdən enən hisslərin isə bir ucu insanın ruhuna, digər ucu qüdsiyyət aləminə bağlıdır. Bu hissi itirmək qorxusu daha böyükdür. Bu, göylərlə əlaqənin itməsi, ruhunun ləkələnməsi qorxusudur və bu qorxu insanı günü-gündən daha çox ucaldır, daha çox paklaşdırır.

Qorxu gənc müdriklərin ən çox və ən birinci müraciət etdikləri mövzudur. Bu qorxunun o qədər dərin, o qədər mürəkkəb, …o qədər həzin, kədərlidir ki!

Cəmiyyət bu gənci qəbul etmir, nəinki qəbul etmir, hətta onu məhv etməyə çalışır. Onu başa düşən, nə demək istədiyini anlayan yoxdur. Bu *tənhalıq hissinin verdiyi ilk hiss qorxudur.* Kyerkeqorun fikrinə görə, «fərd qorxu içində günahkar olduğunun qarşısında deyil, onu günahkar sayanların qarşısında günahkar olur».[1] Bəli, hər kəsə bənzəmədiyi üçün bir günahkarlıq duyğusu, bu günahdan doğan tənhalıq və bu tənhalığın verdiyi qorxu.

Lord rütbəsinə sahib ola-ola mülkiyyətçiləri bəyənmədiyinə görə kəskin tənqid edilən Bayron öz qəhrəmanı Çayld Qarold vasitəsilə əslində özünü təsvir edir:

*O, qüssəni çağırır, sevincdən doymuşdu*
*Cəhənnəmə qaçmağa hazırdı.*[2]

İki şeirindən birində tənhalığı tərənnüm edən, özünü gah tənha yelkənə, gah tənha quşa, gah tənha yolçuya bənzədən Lermontov yazır:

*Əvvəl mən həyatın fərəhdən uzaq*
*Tək-tənhalığını sevərdim müdam.*
*Qüssəmi içimdə daldalayaraq,*
*Qorxardım gizləyə bilməyib, ancaq*
*Hamıda tərəhhüm hissi oyadam.*[3]

Bu tənhalıq hissindən yaranan qorxudur ki, Ülvi özünü daş altındakı yalqız bir çiçəyə bənzədir:

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 172.
[2] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 10.
[3] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с. 8.

*Çoxu səni alaq bilir,*
*Alaqlar da sənə gülür.*
*Kökün durur, canın ölür,*
*Daş altında bitən çiçək.*[1]

Gəncin hiss etdiyi tənhalıq həm də özünü digərlərindən fərqli görməsindən gəlir. O, hər kəsin səviyyəsinə enə bildiyi halda, onun səviyyəsinə, onun olduğu mərtəbəyə, məqama bir kimsə qalxa bilmir. O, öz yaratdığı dünyada tək qalır və bu təklik onda qorxu yaradır. Bütün dərk etdiklərinə, altına girdiyi yükün ağırlığına baxmayaraq o, gəncdir axı! Təcrübəsizdir!

Lermontov yazır:

*Öz əqlimdə mən yad dünya yaratdım,*
*Yad varlıqlar surəti,*
*Mən zəncirtək onları bir-birinə bağladım*
*Onlara görkəm verdim, amma ad vermədim.*
*Qəfil qış boranı qorxunc uladı, -*
*Yalançı varlıq uçulub-dağıldı.*[2]

Eyni bir hüzün, kədər Ülvinin də şeirlərinə sirayət edib:

*Ülviyəm, özümə yuva hördüm ki,*
*Bəxtimlə yaşayım axıra təki.*
*Səbəbin bilmədim, amma gördüm ki,*
*Bir uşaq səsiylə hönkürür bəxtim.*[3]

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с.10.
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 3.
[3] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 10.

Bu şeirlərdəki pessimist notlar bəzən gəncin öz erkən ölümünü xəbər verməsi kimi də yozulur. Mübahisə etmirik. Tənhalığın yaratdığı hisslərdən biri də ölümdür. Ölüm duyğusu hər kəsdə bir üşənti yaradır. Lakin nəzərə almaq lazımdır ki, bu gənclər öz ruhları ilə həmişə ölüm deyilən bir keçidin həmən yanında olurlar, ölümü hər an görürlər, hər yaratdıqları ilə ölüb dirilirlər. Cismani ölüm onlar üçün nədir ki! S.Xəlilov yazır: «Şair üçün bir böyük yol var: son məqsədə, ideala aparan yol! Bu uzaq yolun yolçusu üçün ölüm sanki bir məqam, məntəqədir. Burda bir anlıq dayanıb yenidən yola çıxırlar, ta əbədiyyətə qədər!»[1] Bayron deyir:

*Mən hədər yaşamadım!*
*Ola bilsin çətinliklər tufanında,*
*Mübarizədə sınmışam, tez sönərəm.*
*Ancaq içimdə nə isə var ki, ölməz,*
*Nə ölüm, nə zamanın gedişi,*
*Nə düşmənin böhtanı məhv etməz.*[2]

Bəli, söhbət məhz cismani ölümdən düşəndə onlar rişxənd edir, onun gücsüzlüyünə gülürlər. Bu gülüş özlərinin ölümdən güclü olduqlarını görməkləri zaman yaranır və haqlı gülüşdür. Məsələn, Kyerkeqor «Qorxu anlamı» əsərini özünün «yelbeyin əsərləri» sırasına daxil edirdi.[3] Yaxud Ülvi yazır:

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*

---

[1] *Хялилов С.* Цлви щисслярдян шящидлик зирвясиня // Халг гязети, 20 йанвар 2009-жу ил.

[2] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 101.

[3] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 8.

*Bu yolun acısından, ağrısından,*
*«Ölüm» adlı yuxusundan mən qorxmuram.*[1]

Bayaq qeyd etdiyim kimi, bu qorxu şəxsi məhvindən yaranan qorxu deyil, daha yüksək, düşündürücü bir qorxudur. Çiyinlərindəki yüklə və ya içlərində alışıb yanan odla yaşadığı cəmiyyətin tələbləri bir-birinə zidd gəldikcə gəncin qorxusu da artır: bu yükü çəkə bilməmək qorxusu, ona verilən məsuliyyəti doğrulda bilməmək qorxusu. Kyerkeqor belə hesab edir ki, «narahatlıq – həyata, bizim şəxsi gerçəkliyimizə həqiqi münasibətdir və … bu, xristian üçün çox ciddi şeydir…[2]

Gənclik ömrün elə bir çağıdır ki, o, mum kimi öz dövrünün «formasını» alır. Uşaq bir süngər kimi gördüklərini, eşitdiklərini içinə çəkir, gələcəkdə qurulacaq binanın özülünü hazırlayır. Artıq kamillik çağına çatmış bir insan müşahidəçi, hətta istiqamətverici ola bilər. Gənc isə ilk növbədə güzgü kimi üzərinə düşən işığı əks etdirir. Yalnız sonradan, buna təfəkkürü çatarsa, həmin hadisəni təhlil edir, mənfi və müsbət tərəflərini dəyərləndirir. Təsadüfi deyil ki, cəmiyyətin hansı istiqamətdə inkişaf etdiyini gənclərin əxlaqından, təfəkkür tərzindən bilmək mümkündür.

Təbii ki, ilahi missiya daşıyıcısı olan gənclər də cəmiyyətdə gedən proseslərə reaksiya verirlər. Lakin burada fərqli bir reaksiya müzakirə mövzusudur. Gənc ruhuna, daşıdığı əmanətinə yad olan bu təzyiqlər altında nəinki «formasını dəyişmir», buqələmun kimi rəngdən rəngə düşmür, əksinə onlarla mübarizəyə qalxır. Şellinq yazır: «Hər varlıq yalnız

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 56.
[2] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 251.

öz ziddi ilə açıqlana bilir: sevgi yalnız nifrətlə, vəhdət – mübarizə ilə. Əgər başlanğıcın bölünməsi olmasaydı, vəhdət öz qüdrətini görə bilməzdi, ayrılıq olmasaydı, həqiqi məhəbbət yaranmazdı. İnsan elə bir zirvəyə qaldırılıb ki, o orada özünün xeyirə və şərə istiqamətlənən hərəkətlərinin mənbələrini eyni dərəcədə ehtiva edir. Onda başlanğıcların əlaqəsi zəruri deyil, azaddır. O, yolayrıcındadır. O, nə seçirsə seçsin, qərar onun əməlidir. Amma qərar qəbul etməyə bilməz, çünki Allah zəruri olaraq açılmalıdır, çünki məxluqda ümumiyyətlə heç nə ikili qalmamalıdır».[1] Və gənc aşkar, yaxud gizli – şeirlərilə, əsərləri ilə mübarizəyə qalxır.

Hələ neçə əsrlər əvvəl sufi mütəfəkkiri Mənsur Həllac da bildirirdi ki, «əşyalar öz zidləri ilə tanınırlar. Zərif ağ ipək qara işlərdən (toxunuşdan) yaranır».[2] Deməli, ətrafla ziddiyyətdə olması gəncə öz içindəki nuru – missiyanı daha aydın görməyə imkan yaradır.

Lakin danmaq olmaz ki, bu da bir növ inikasdır. Yəni bir var yüksək inkişaflı bir cəmiyyətin, bir də var ziddiyyət, nöqsan dolu bir «toplum»un nümayəndəsinin reaksiyası. Bu baxımdan, Ülvinin dedikləri obyektiv bir həqiqətdir:

*Atam, anam zəmanədi,*
*Mən zəmanə uşağıyam.*[3]

Lakin bir həqiqət də var ki, gənclərin daşıdıqları missiya vahid bir aləmə aid olduğununa görə, onların reaksiyalarında, mübarizə üsullarında oxşar cəhətlər çoxdur. Əlbəttə,

---

[1] *Шеллинг* Ф.В. Ады чяк. ясяр, с. 984.
[2] *Мянсур Щяллаж*. Китаб ят-Тявасин, Парис, 1913, с. 12.
[3] *Бцнйадзадя Ц*. Ады чяк. ясяр, с. 55.

cəmiyyət nə qədər az inkişaf olursa, təzyiqi də bir o qədər artıq olur. Bu baxımdan, naqis cəmiyyətdə gənc üçün fəaliyyət göstərmək, yaratmaq, ümumiyyətlə, var olmaq həddindən artıq çətindir, ağırdır.

Bunlar XVIII əsrin çaxnaşma, «zəhər» dolu ingilis cəmiyyəti haqqında Bayronun dedikləridir:

*Ey həyatımız! Sən kainat xorunda*
*Yalançı səssən! Sən nəsildən nəsilə*
*Atalarımızın bizə vəsiyyət etdiyi bəlasan,*
*Nəhəng ançarsan, meyvəsi zəhər!*[1]

Bu, XIX əsrin inqilab ruhlu Rusiyası Puşkinin dilində:

*Yanırıq azadlıq anları üçün,*
*Ürəyimiz qeyrət üçün döyünür.*
*Dostum, qəlbimizin hər döyüntüsü,*
*Xalqa həsr olunub deyə öyünür.*[2]

Bu, XX əsrin əvvəllərində milli təfəkkürün, milli ruhun qalxdığı savaşın şahidi olan Azərbaycan cəmiyyəti Müşfiq qələmi ilə:

*Bir parça atəşim, bir parça yanğın,*
*Qəlbim örnəyidir yanar bir dağın.*
*Qarşımda duramaz nə sel, nə daşqın,*
*Təbiətlə mənim zərafətim var.*[3]

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 100.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 220.
[3] *Мцшфиг М.* Сечилмиш ясярляри, Бакы, Маариф, 1983, с. 25.

Bu da torpaqları işğal olunun, üzbəüz dayandığı xain düşmənlə deyil, onun arxasında dayanan hansı isə gözəgörünməyən qara bir qüvvə ilə mübarizə aparmalı olan XX əsrin sonlarının Azərbaycanı Ülvinin missralarında:

*Qarabağdı mənim dinim-imanım*
*O torpağın*
*nişanəsi,*
*iziyəm.*
*Məni belə*
*aciz görmə qəbirdə,*
*Qəbirdə də*
*Qarabağın özüyəm.*[1]

Gerçəkliklə, yaşadığı cəmiyyətlə uyuşmayan ruh özü də bilir ki, bu qeyri-bərabər bir mübarizədir. O, narahatdır, qorxur, lakin içindəki ilahi hiss daha güclüdür. Bu, əliyalın düşmənin üzərinə yeriyən qəhrəmanın qorxusudur. Belə müqəddəs bir duyğunu qorxu adlandırmaqla onun saflığına, ülviyyətinə xələl gətirmək fikrindən çox uzağıq. Əksinə, məqsədimiz qorxunun bir də ali bir tərəfinin olduğunu vurğulamaqdır. Dediklərimizin təsdiqinə bizim gənclərin hər birində dönə-dönə rast gəlmək mümkündür.

Bayron:

*Döz, Azadlıq! Sənin güllələnmiş*
*Bayrağın küləklərə acıqla açılıb.*
*...*
*Güllər artıq yoxdur. Budaqlarını*
*Baltalar budayıb, gövdən çılpaq qalıb.*

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 100.

*Ancaq orda həyat şirəsi axır hələ.*
*Toxumların ehtiyatı torpağın altda qalıb hələ*
*Tək isti bahar gəlsin ki, meyvə cücərsin.*[1]

Lermontov:

*İnan, rəzillik bu dünyada nemətdir*
*Dərin idrak, şöhrət istəyi,*
*İstedad, çılğın məhəbbət nəyə lazım?*
*Əgər biz onlardan yararlana bilmiriksə?* [2]

Müşfiq:

*Ah, nə böyük şərəfdir sənətkar olmaq,*
*Könüllər dünyasından xəbərdar olmaq!*
*Nə xoşdur bir hiss kimi qəlblərə girmək*
*səssiz-sorğusuz.*
*Bütün fənalıqları yıxıb devirmək*
*qara-qorxusuz.*[3]

Ülvi:

*Açmadım gözümü, açmadım ki, mən –*
*Gözümə görünən göz dağım olsun.*
*Açdım ki, dünyada insanam deyən –*
*Ağır çağlarımda dayağım olsun.*[4]

Xüsusilə diqqəti bir şeyə yönəltmək istərdik ki, məhz *bizim qələmə aldığımız qorxu yüksələn xətt boyunca davam edən bir inkişafın başlanğıc nöqtəsidir*. Hüznün, kədərin

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 12.
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 4.
[3] *Мцшфиг М.* Ады чяк. ясяр, с. 85.
[4] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 28.

yerini yavaş-yavaş daha təlatümlü, daha dinamik bir duyğu almağa başlayır: nifrət, üsyan. Bayron yazır:

*Əqlim tənhalıqla barışıb... İşığasa*
*Bütün ruhumla nifrət edirəm.*[1]

Ülvi isə deyir ki,

*Atama oğul deyiləm,*
*Anama oğul deyiləm,*
*Bu ocağın kor çırağı*
*Yanmayacaq işığıyam.*[2]

Lakin bu, insanlığa yönəli, acizlikdən doğan bir nifrət deyil. Bu, inkişafa, ucalığa qarşı duran quruluşa nifrətdir. Bu, geriliyə, müqəddəsliyə təhlükə yaradan hər şeyə üsyandır. Bu, içindəki bütün nuru, işığı heç cürə bütövlükdə insanlara çatdıra bilməyən özünə qarşı üsyandır. Bu üsyan gəncdə möhkəm bir iradə, mübarizə əzmi, cismani ölümün dik gözlərinə baxmaq cəsarəti yaradır, çəkic dəmiri döyəcləyib qılınca çevirdiyi kimi, qorxu da bu gənci cilalayıb bir cəngavərə çevirir. Cəmiyyətinin pislikləri ilə mübarizə apara-apara, pessimizmin ən dərin qatında otura-otura, ümidsizliyin ən sonuncu dərəcəsində belə Bayron yenə üsyanından əl çəkmir:

*Mən daim müharibə aparacam*
*Sözlərlə, – ola bilsin, əməllə! –*
*Düşüncə düşmənlərilə. Mənim yolum tən deyil*
*Zalımlarla. Düşmənçiliyin müqəddəs odunu*

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 33.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 54-55.

*Mən qalamağa and içmişəm.*
*Kim qalib olacaq, hələ bilmirik,*
*Ancaq bütün qalan günlərimi, gücümü*
*Despotluqla döyüşə həsr etmişəm!*[1]

Gənc cəmiyyətin gücünü görür, öz üzərində bu təzyiqi hiss edir, boğulur, lakin içindəki müdriklik, ruhunun qüdsi aləmlə bağlılığı onu sınmağa qoymur, icazə vermir. Şellinq qorxunun təhlili nəticəsində belə qərara gəlir ki, «həyata xas olan qorxunun özü insanın olmalı olduğu mərkəzdən qovur; belə ki, bu mərkəz istənilən iradənin saf mahiyyəti kimi hər xüsusi iradə üçün məhvedici oddur; orada yaşamaq üçün insan hər bir xüsusi üçün ölməlidir, ona görə də mərkəzdən kənara çıxma cəhdi və orada öz mən-i üçün rahatlıq tapması, demək olar ki, zəruridir. Buradan da xüsusiyyətin həqiqi yox olması üçün günah və ölümün ümumi zərurəti irəli gəlir və hər bir insan iradəsi oddan keçirmiş kimi ondan keçməlidir ki, təmizlənsin».[2]

Bəli, gənc çirkab dolu cəmiyyətlə mübarizə apara-apara təmizlənir, dəmir kimi «odda qovrula-qovrula» möhkəmlənir. Öz qorxusuna qalib gələ-gələ gəncin bütün digər hərəkətləri də bu üsyankar hisslə tərbiyə olunmağa, bu iradəyə tabe olmağa başlayır. Kyerkeqorun fikrinə görə, «iradə – dialektik fəaliyyətdir ki, o da öz növbəsində insanın aşağı təbiətini idarə edir».[3] Bir belə təzyiqin altında gənc özündə bu iradəni tapmağa məcburdur. Bunu ondan missiyası tələb edir. Ülvi yazır:

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 28.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 993.
[3] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 318-319.

*Əskim nə qədər tüstülənməlidir,*
*Tüstüdən qalmayıb həyatda bir iz,*
*Əskim tüstülənir, yox, daha yetər,*
*Yanmaq istəyirəm, yanacam gec-tez*[1].

Bu, kor, dağıdıcı üsyan deyil. Bu, insanlara həqiqət qapısı olmaq, onların qaranlıq dünyasını nurlandırmaq, cılız qorxudan qurtarıb müqəddəs qorxunu tanıtmaq arzusudur. Ola bilsin bunu nəzərdə tutan Kyerkeqor yazır: «Günah – Allah qarşısında mütəəssirlikdir ki, özü olmaq istəyəndə və ya olmaq istəməyəndə».[2] Bayron da bütün nifrətini bu qaranlığa yönəldərək yazır:

*Biz koruq, həqiqət qaranlıqdır,*
*Təbiətin dilini biz anlamırıq.*
...
*İnsan sadə azadlıqdan məhrumdur*
*Hökm verməkdən, düşünməkdən, özü olmaqdan*
*Düşüncə hüquqsuz kölədə doğulur*[3].

Yeri gəlmişkən, burada əhəmiyyətli bir ana da işıq salaq. Gənclərin içində səbəbi çox vaxt naməlum qalan bir üsyanın, nifrətin olması təbii bir haldır. Təfəkkürünün yeni-yeni formalaşması dövrünü əhatə edən bu halın dağıdıcı bir nəticə verə bilməsi də heç kəs üçün gizli deyil. Hər halda narkomaniyanın, hansısa gizli bir qüvvəyə xidmət edən fanatizmin, pozğunluğun, əsl mahiyyətinə bələd olmadan müxtəlif cəmiyyətlərə qoşulmağın, ümumiyyətlə, içindəki

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 50.
[2] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 320.
[3] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 100.

insanlığı məhv edən adətlərin günü-gündən artması dediklərimizə bariz nümunə ola bilər. Bu səbəbdən biz dönə-dönə ruhun ilahi aləmlə əlaqəli olmasının vacibliyini vurğulayırıq. *Qorxu yalnız Allahdan olmalıdır, məhz bu qorxu insanı digər keçici, alçaldıcı qorxulardan xilas edir və insana içindən gələn Haqq səsi duymağa imkan verir.* Lermontov öz qəlbini ümidlərin gömüldüyü okeana bənzədərək yazır:

*Sən ey tutqun ümman, o sirlərini*
*Kim aşkar eləyər, kim öyrənər bəs?*
*Kim açar kütləyə fikirlərini*
*Özümmü? Allahmı? Yoxsa ki, heç kəs!*[1]

Müşfiq də öz şeirində belə bir müraciət edir:

*Dərinlik çox gözəldir, sadə olursa,*
*Nə çıxar o şeirdən başımı yorsa?*
*Mənalı səslərinlə, şeirim incələş*
*bir kaman kimi*
*Hər şey sadələşmədə, sən də sadələş*
*hər insan kimi!* [2]

Gənc bilir ki, o, bir ilahi əmanətin daşıyıcısıdır. O, həm də bilir ki, yalnız deyil, onunla birlikdə təbiət də həmin hikməti söyləyir. Sadəcə, onu dinləməyi bacarmaq lazımdır. Bu səbəbdən Şellinq hesab edir ki, «insan təbiətin xilaskarıdır, ona bir məqsəd kimi təbiətin bütün təzahürləri istiqamətlənib. İnsanda söylənən söz təbiətdə qaranlıq, peğəmbəranə (hələ tam deyilməmiş) sözdür».[3] İnsan bu sözü bəşəriyyətə

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с. 37.
[2] *Мцшфиг М.* Ады чяк. ясяр, с. 89.
[3] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1026.

deməyə məsul edilib və onu deyə bilməmək qorxusu bütün digər qorxuları üstələyir. O, bu sözü eşitməz edən hər şeyə qarşı üsyan edir, özünü fəda edir. Lermontov yazır:

*Mən yerlərdə səadəti dərk edib, duyar,*
*Dərin mavi göylərdə də görrəm Allahı.*[1]

Bizim istedad və missiyadan başlayan söhbətimizin qorxu məcrasına yönəlməsi bir təsadüf deyil. Missiyanın verdiyi, daha dəqiq desək, düçar etdiyi çaşqınlıq, qorxu hissi yüksələn xətt boyu inkişaf edir. Hüznlə, kədərlə başlayan bu yolda qorxu nifrət, üsyan və nəhayət cəngavərliklə əvəz edilir. Ən vacib olanı isə budur: bu uzun və ülvi yolun aparıcısı – ruhdakı müqəddəslik hissi, məqsədi – bəşəriyyətə Həqiqəti, Gözəlliyi, Ədaləti, Xeyiri çatdırmaq, yolun başında isə Allah özü durur. Başqa sözlə desək, məhz ruhunun ilahi aləmlə əlaqəsinin nurudur ki, bu gənclərə hər kəsin yaşadığı hisslərin daha ali qatını yaşada bilir, bu sərt mübarizədə öz ruhlarının saflığını, ülviyyətini qoruyub saxlamağa yardım edir. Bayron yazır:

*Azad düşüncəli ədəbi Ruh, –*
*Azadlıq, sən zindanda daha nurlusan!*
*Bütün xalqın ən yaxşı qəlbləri*
*Sən qoruyur, səninlə nəfəs alır.*[2]

Ülvi yazır:

*Bir insan ki, xalq oduna qalana,*
*Alovu sönsə də, közü qalacaq.*

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с. 51.
[2] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 159.

*Bir insan ki, o eşq ilə yarada,*
*Özü qalmasa da, izi qalacaq.*[1]

Bu yolun gedişi həyatın özü, insanlığın mahiyyətinin dərkidir. *Gənc bu yolu keçdikcə müdrikləşir. Təfəkkürünün fəlsəfə qatına yüksələ bilir.*

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 42-43.

## *Axtarış və yaradıcılıq*

Gəncliyin xüsusi bir keyfiyyəti kimi yəqin ilk növbədə onun bol enecisi, cəngavər ruhu, qısa müddətdə çox şeyə nail olmaq iddiası vurğulanar. Təsadüfi deyil ki, məhz bu gənclik enerjisi qarşısıalınmaz sel kimi inqilabların, üsyanların aparıcı qüvvəsinə çevrilir. Bu baxımdan, Puşkinin Bayron haqqında dediklərini yəqin ki, bütün gəncliyə aid etmək olar:

*Dəniz, o sənin nəğməkarındı,*
*Üzərində sənin surətin vardı,*
*O, sənin ruhunla yaradılmışdı,*
*Sənin kimi: qüdrətli, dərin, zəhmli*
*Sənin kimi: ipə-sapa yatmayan.*[1]

Lakin bu enerjinin ən neqativ tərəfi onun təsir altına tez düşməsi, kor-koranəliyə, fanatlığa meylli olmasıdır. Həm də təbiətin qəribə bir təzadıdır ki, enerji nə qədər çox olursa, təfəkkür bir o qədər passiv olur, yerini hisslərə daha tez verir. Başqa sözlə desək, bu, nəinki təsadüf deyil, əksinə, az qala qanunauyğunluqdur ki, bir ideyanın reallaşmasında fanatik qüvvəyə ehtiyac yarananda məhz gənclərdən istifadə edirlər. Gəncin təfəkkürü hələ kifayət qədər formalaşmadığına görə, yəni onun gücü, imkanları

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 13.

enerjisindən çox geri qaldığına görə, bu enerji özü üçün şüurlu-şüursuz şəkildə güclü təfəkkür, istiqamətverici qüvvə axtarır. Şellinq dediyi kimi, «fəallaşmış mənlik həyat gücü üçün lazımdır; onsuz yalnız ölüm, xeyirin mürgüləməsi olardı; çünki mübarizə olmayan yerdə həyat da yoxdur».[1] Məhz burada cəmiyyətin rolu və əhəmiyyəti özünü göstərir: gənclərin həyat yolunun seçicisi kimi. Nəhəng bir enerjinin quruculuğamı, yaradıcılığamı, yoxsa dağıdıcılığamı yönəlməsi bir bələdçi olaraq cəmiyyətdən çox asılı olur. Burada dağıdıcı deyəndə biz yalnız cəmiyyətə, bəşəriyyətə deyil, həm də gəncin özünə, öz mən-inə yönələn əməllərini, fəaliyyətini nəzərdə tuturuq. Söhbət ondan gedir ki, cəmiyyətin təsiri ilə yalnış yerə istiqamətlənmiş gəncin yüz cür işlərlə məşğul olmasına baxmayaraq, onun əsl potensialı bir növ reallaşmamış, özü olaraq təsdiqlənməmiş qalır, o, öz mənindən xəbərsiz, özünə yad bir şəxsiyyət kimi yetişir. Ülvinin sözləri ilə desək, gənclər *«bütün olmamış» «sökülüb, uçulur»* və bunun ilk və başlıca səbəbi cəmiyyət olur.

Bu gün terror qrupların toruna düşən gənclərin sayı hansı isə bir fəlsəfə məktəbinə, ədəbiyyat dərnəyinə gedənlərin sayından qat-qat çoxdur. Kimlərinsə mənafelərinə xərclənən enerjilərin çəkisi, öz mən-inin dərkinə, yaradıcılıq istedadının axtarışına sərf edilən enerjidən tərəziyə gəlməyəcək qədər ağırdır. Bu gün maddi istəklər üçün qalanan od mənəviyyatın nurunu söndürəcək qədər gur yanır.

Gəncliyin keyfiyyətindən biri də onların bütün axtarışlarının, istəklərinin kökündə hisslərin, duyğuların durmasıdır. Yəni onların təqdim etdikləri bütün problemlərdə

---

[1] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1014.

də, onların həll yollarında da lirika, romantika üstünlük təşkil edir. Bəlkə də elə bu səbəbdəndir ki, onların təqdim etdiyi yol təhlükəli, dəli-dolu olsa da, cazibəli, canlı və al-əlvan olur.

Müəyyən missiya daşıyıcısı olan gənc də bu xüsusiyyətlərinə görə digər həmyaşıdlarından çox elə seçilmir. Lakin onları fərqləndirən, sözün həqiqi mənasında talelərini müəyyənləşdirən, şəxsiyyətlərinin formalaşmasında məhək daşı qədər əhəmiyyətli olan bir cəhətdir – onların reallığı düzgün qiymətləndirmək bacarığı. Əlbəttə, bu, ilk növbədə missiyanın verdiyi bir gözaçıqlığı, zehin aydınlığı, müəyyən mənada da …bədbəxtlikdir. Zahiri parıltıya aldanmayıb hər şeyi öz rəngində görmək «bədbəxtliyi». *Onların romantikasını, lirikasını gözəlləşdirən, gücləndirən qüssə, qəm notları acı reallığın təzahürləridir*. Bəli, bu gənclər romantikdir, ancaq onlar sərt reallığa göz yummayan, əksinə onu təsvir edə-edə, onun acılarını yaşaya-yaşaya, onun üzərində, bəlkə də elə düz içində öz romantik dünyalarını qururlar. Deməli, Kyerkeqorun dediyi kimi, «mən – münasibət deyil, öz-özünə münasibətə qayıdışdır».[1] Maraqlıdır ki, gənc yalnız öz dünyasını düşünəndə, Şellinq kimi, «mən – azadlıqdır»,[2] – deyə bilir. Lakin bu, təcrid olunmuş bir aləmdə var olmaq deyil. Hər halda, gənc bu «azadlığı iki kateqoriyanın – mümkün və zərurinin dialektikası»[3] kimi dərk etməyi bacarır. Bununla yanaşı, o, öz dünyası ilə real həyatın nisbətini də unutmur və hər birinin hansı gücə və niyyətə sahib

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 255.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 267.
[3] Йеня орада.

olduğunu çox yaxşı anlayır. Bunu nəzərdə tutaraq Kyerkeqor «xəbərdarlıq edir»: «Mən, əlbəttə, dünyanın böyük əhəmiyyət verdiyi bir şey deyil, məhz ona maraq azdır, onun səndə olduğunu göstərmək riskli bir şeydir».[1]

Gəncliyin bütün bu «nöqsanları» – enerjinin bolluğu, hiss və əqlin tez-tez çarpışması, hissin bir çox hallarda idarəni öz əlinə alması ilə yanaşı, onun böyük bir üstünlüyü də var: gənc cəmiyyətin öz daxili dünyasına yad olduğunu anlayıb axtarışlarını çox tez öz mənəvi dünyasına, öz mən-inə yönəldə bilir. Onun həmsöhbəti də, hökm verib, cəza alanı da öz mən-i olur. *Bu, onlara öz ruhları vasitəsilə sonsuzluğa, əbədiyyətə keçməyə, Allahla bilavasitə ünsiyyətdə olmağa imkan yaradır.* Lermontov «Mənim evim» şeirində yazır:

*İnsanın ürəyində əbədiyyətin*
*Toxumu var – həqiqət hissi deyildir.*
*Əsrlər axınını, ənginlikləri*
*İnsan ancaq onunla qavraya bilir.*[2]

Qəlbinin səsi yağışın pıçıltısına qarışan Ülvi isə belə deyir:

*Ürəyinə bir xoş duyğu,*
*Bir naməlum*
*hiss çiləyən yağışı.*
…
*Ancaq onu bilirəm ki,*
*Bu səs*

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 270.
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, с. 34.

*mənim ciyərimə*
*təzə nəfəs gətirir.*
*Ürəyimə sirli həvəs gətirir.*[1]

Bura yeganə məkandır ki, insan orada azad və ilahi aləmlə əlaqəli olduğunu hiss edir. Bura – sonsuzluğa çıxışdır. Bura Şellinqin yazdığı kimi, «… bizim mülkümüzdür, bizim varlığımızdır – bu, həm də əbədiyyətin insana böyük güzəşti, ona inamıdır».[2]

Mən – real və idealın, məhdud və sonsuzluğun qarşılaşdığı, çarpışdığı bir məkana dönür. Gənc öz gücsüzlüyünü, acizliyini görməklə yanaşı, ruhunun sonsuz bir qüvvə, tükənməz bir mənbədən qaynaqlandığını da hiss edir. Eyni zamannda, mən – bir andır, məhdud bədəndə ilahi başlanğıcın ara-sıra özünü büruzə verdiyi an. Kyerkeqor bu anı belə təsvir edir: «An – elə bir ikimənalılıqdır ki, burada zaman və əbədiyyət bir-birinə toxunur və bununla da müvəqqətilik anlamı yaranır ki, burada zaman dönə-dönə əbədiyyəti ayırır, əbədiyyət isə dönə-dönə zamana nüfuz edir, içindən keçir».[3] Bu anın verdikləri gözəl şeirlər, ecazkar tablolar, dərin hikmətli əsərlər şəklində ortaya çıxır. Bu anın hökmüdür ki, 20, 30 yaşında bir gənc min illərin hikmətindən xəbər verə bilir. Bu anın insan həyatındakı əhəmiyyətini hiss edən Ülvi yazır:

*İnsan ömrü –*
*dəqiqələr, saniyələr…*
*Bu anların biri boşsa,*

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 55.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 262.
[3] *Кйеркегор С.* Ады чяк. ясяр, с.184.

*İnsan ömrü*
*bu boşluqdan,*
*soyuq çəkər.*[1]

Bu anın sehridir ki, ona bənd olan gənc bir daha ondan aralanmaq istəmir, onun arzusu ilə yaşayır. Bu anın qüdrətidir ki, gəncdə bəşəriyyət qarşısında bir cavabdehlik yaradır – *gənc özündə bəşəriyyəti xilas edə biləcək bir güc, yenilik gətirə biləcək bir əzm hiss edir.*

İki hiss qarışır bir-birinə: güclü enerji və sonsuzluqla əlaqə imkanı. Ziddiyyətin dialektikasının tələbi, hökmü ilə gənc axtarışa çıxır – bu ikisini birləşdirən, hər ikisini tam əhatə edə bilən bir şeyin axtarışına. Bu, naməlum, sonu görünməyən bir axtarışdır və ilk addımını atan gənc əvvəlcə qarşıda duran bu yolun uzunluğundan qorxur. Ülvi yazır:

*Yollara baxıram gözüm qaralır,*
*Görəsən hayana gedir bu yollar?*
*Vallah, qınamayın, sona çatınca*
*Ayağı demirəm, ürək yorular.*
*Hayanadı bu yollar?*[2]

Lakin axtarış toxumu gəncin qəlbinə düşəndən cücərməyə başlayır və onun rahatlığını əlindən alır. Bu səbəbdəndir ki, Şihabəddin Sührəvərdi 37 yaşına kimi yazdığı 52 əsərində dövrünün az qala bütün fəlsəfi cərəyanlarına toxunur, hər biri haqqında öz fikrini bildirməyə çalışıb. Şellinq 37 yaşına kimi yaradıcılığında artıq üç mərhələ keçir.

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 42.
[2] Йеня орада, с. 61.

Bu axtarışlar idi ki, Bayronu, Müşfiqi rahat yatmağa qoymur, Lermontovu bu sözləri deməyə məcbur edir:

*Vaxtdır, qoy şəfəqlər rişxənd edərək*
*Sükut dumanını qovsun, zamandır.*
*Dərdsiz şair ömrü, de, nəyə gərək?*
*Tufansız okean nə okeandır?*[1]

Müşfiq də içindəki sakitlikdə dənizdə tufandan öncəki əlaməti hiss edir:

*Fikrim qasırğalı dəryalar kimi*
*İstənilən qədər dalğalanmamış,*
*Könlüm uzaq gedən xülyalar kimi*
*İncə buludlarla çulğalanmamış.*[2]

Bu elə bir axtarış odudur ki, gəncin bütün anlarını doldurur. Ülvi də öləziyən közün sakit həyatını istəmir:

*Bilirəm: qığılcım, alov tək deyil,*
*Alovun peşəsi şəfəq saçmaqdır.*
*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*[3]

Bu axtarışın, «alovlanmağın» tələbi ilə gənc hər sahəyə, hər məkana, …hər zamana baş vurur və bir çox hallarda axtardığını *keçmişdə* tapır – onu *indi* kimi incitməyən, *gələcək* kimi məchul olmayan *keçmişdə*. Təbii ki, onların tapdıqları doğma ruhlardır. Məsələn, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Nəsimi kimi neçə gənc öz həyat

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с. 37.
[2] *Мцшфиг М.* Ады чяк. ясяр, с. 27.
[3] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 61.

yolunda – həm düşüncələrində, həm talelərində Mənsur Həllaca üz tutur, onun qismətini bölüşürlər. Lermontov özünü Bayrona bənzədərək yazır:

*Onun kimi boş yerə sakitlik arayıram,*
*Bir düşüncə qovur məni hər yerə,*
*Geriyə baxıram – keçmiş dəhşətdir,*
*İrəli boylanıram – doğma ruh yoxdur.*[1]

XIX əsrdə dekabristləri ruhlandıran Puşkindən XX əsrin sonlarında Ülvi də «dərs alır»:

*«Həyat quran nə yorular, nə durar»,*
*Budur mənə öyrətdiyin ilk şüar.*
*Budur mənim idealım, inamım:*
*«Qığılcım alışar alov doğurar».*[2]

Bəli, onlar keçmişdə kimə isə baxırlar, ancaq öz yollarını gedirlər. Gənc keçmişdən cəmiyyətin qorxunc hədələrindən qorxmamağı, min bir yol arasında öz cığırını açmaq istəyini, bu arzuların yanında ölümun nə qədər aciz olduğunu və …ölümdən qorxmamağı öyrənir. Düşüncələrinə görə ciddi təqiblərə məruz qalan Miyanəci öz dostuna yazdığı məktubunda belə bir «xahiş edir»: «Şəhərdə deyirlər ki, Eynəlqüzat Allahlıq iddiası edir. Mənim qətlimə fitva veriblər. Ey dost, əgər səndən fitva istəsələr, sən də fitva ver».[3] Bu gənclər üçün öz düşüncələrinin nəticəsini görmək, missiyalarını başa çatdırmaq duyğusu yanında ölüm qorxusu çox kiçik görünür.

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 14.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с.61.
[3] *Мяммядов З.* Азярбайжан фялсяфяси тарихи. Бакы, Шярг-Гярб, 2006, с. 117.

Burada bir şeyi xüsusilə vurğulayaq. Allahdan bəşərə bir nur zolağı uzanır. Özündə bu nurun ucunu, mənbəyini kəşf edən şəxslər sanki vahid bir məkana düşmüş olurlar. Əlbəttə, ola bilsin ki, ora gedən yolda kimsə kimə isə bələdçilik etmiş olur. Lakin həmin məkana çatandan sonra yeganə bir Bələdçini – Allahı tanımaqla yanaşı, öz fərdiyyətini, məhz onun üçün nəzərdə tutulmuş missiyanı aydınca dərk etmiş olur.

Tarixə baxanda belə gənclərin həqiqətən də izsiz keçib-getmədiyinin, nəinki *«balaca cığır»*, bəzilərinin hətta böyük yollar da saldığının şahidi olarıq. Şihabəddin Sührəvərdi XIII əsrdə məşşailik fəlsəfəsinin və təsəvvüfün birləşdiyi zirvə nöqtəsində bu gün belə aktuallığını itirməmiş işraqilik fəlsəfəsini yaratdı. Eynəlqüzat Miyanəci yazır: «Təqlidin ətəyindən bəsirət zirvəsinə yüksəlmək axtarışı ilə kəlam kitablarını mütaliə etdim. Məqsədimə çatmadım. Məzhəblərin yalnışlığını gördüm».[1] Gördü və təsəvvüf fəlsəfəsinin özək xətti olan vəhdət əl-vücud nəzəriyyəsini sistemləşdirməyə cəhd göstərdi. Kyerkeqor öz fəlsəfəsində dövrünün ən tanınmış və nüfuzlu filosoflarını inkar etdi və özü sonralar böyük bir fəlsəfi cərəyana çevriləcək ekzistensializmin əsas ideyalarını irəli sürdü.

Təsadüfi deyil ki, belə gənclər öz cəmiyyətlərində məhz cəsarətli addımları, qorxmazlıqları, ən şiddətli təqiblərin, hətta edam təhlükəsinin qarşısında belə geri çəkilməməkləri ilə diqqəti cəlb ediblər. Onlar olduqları cəmiyyətdən o dərəcədə yuxarı qalxa bilirlər ki, *reallığı, onun hələ işıq düşməyən səhifələrini belə görə bilirlər və həmin*

---

[1] Йеня орада, с. 117.

*qaranlığı işıqlandıracaq sözü demək iddiasına düşürlər.* Və yəqin ki, onların hər birinin ürəyindən Ülvinin dediyi bu arzu keçir:

> ...
> *Bilin, deyilməyənləri*
> *Demək üçün yaşayıram.*[1]

Burada bir daha vurğulamaq lazımdır ki, əslində üzərində ali missiyanı hiss edən hər bir insana bu duyğu yad deyil. Gəncin bu duyğusunda isə bir az tələskənliyin, bir az hisslərin, pərakəndə enerjinin çoxluğunun, bir az tənhalığın, bir az qorxunun, bir az üsyankarlığın, bir az da fədakarlığın, cəngavərliyin izlərini sezmək olar. Bu qədər qarışıq, dolaşıq hisslərin arasında öz məqsədini itirməyib yalnız ona doğru getməyin özü də bir hünər istəyir! Bu, obrazlı desək, fikri dağınıq, gözləri xəyalpərvərliklə göylərə dikilən bir adamın çəkici barmağına deyil, düz mismarın üstünə vurub bir zərbə ilə onu dibinə qədər taxtaya çalmağına bənzəyir.

Öz mülkündə – mən-ində bütün aləmi kəşf edən gənc öz ətrafını – maddi aləmi tanısa da, özünün bu aləmdə yerini görə bilmir, öz artıqlığını, lazımsızlığını hiss edir və düşünür ki, heç kəsin ondan xəbəri yoxdur. Və bu səbəbdən oradan gələn təhlükəni, hiyləni də görmür. Bu səbəbdən belə gəncləri aldatmaq, tora salmaq, onlara xata toxumaq çox asandır. Kyerkeqor yazır: «Dahi hər şey etməyi bacarır. Bununla belə, o, heç kimin görmədiyi bir boş şeydən asılıdır. Elə boş şey ki, dahi yalnız özünün qüdrəti sayəsində ona

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 90.

ümumi əhəmiyyət verir».[1] Əslində, gənc hər şeyi görür, lakin bütün bu təhlükələrin onun ruhundan çox-çox uzaq olduğunu düşünür. Şellinq yazır: «Zahiri qüvvə yalnız zahiri nemətləri oğurlaya bilər, ruha dəyə bilməz; o, zaman daxilindəki əlaqəni kəsə bilər, əbədi, həqiqi ilahi eşqin əlaqəsini deyil. Ruh sərt və hissiz və ya sevgidən imtina edən kimi çıxış etmir, ancaq göstərir ki, məhz iztirablarda sevgi hissi varlıqdan daha uzun sürən bir hissdir və o, ilahi halədə zahiri həyatın və ya xoşbəxtliyin xarabalıqları üzərində yüksəlir».[2] Bəli, ruhunu düşünən gənc üçün maddi həyatın heç bir əhəmiyyəti qalmır. Miyanəci öz taleyi ilə Mənsur Həllaca bənzəyəcəyini hiss edərək bildirir ki, «biz Allahdan ölüm və şəhadəti özümüz istəmişik. Özü də onu üç qiymətsiz şeylə istəmişik. Haqq necə tələb etmişsə, o sayaq istəmişik».[3] Bəlkə də ruhunu, dolayısı ilə bütün bəşəriyyəti düşünərək maddi tələbatlar hüdudundan kənara çıxa bilməyən qanunları heçə saymasıdır (daha doğrusu, onların fövqünə qalxmasıdır) ki, hər kəsi ona düşmən kəsir.

Öz kiçik dünyasında nəinki bütün aləmi, Mütləq Həqiqətin özünü də axtarıb tapan gənc gördüklərini, yaşadıqlarını öz içində saxlamaq qüdrətində olmur. Bildiklərini, dərk etdiklərini bacarıqlarına müvafiq olaraq bəşəriyyətə çatdırmağa başlayır. Lermontov dediyi kimi,

*Şair də belədir: fikir gəldimi*
*Ruhunu boşaldıb – deyir qələmə.*
*Oynaq rübabının söz sehri kimi*

[1] *Кйегкегор С.* Ады чяк. ясяр, с. 193-194.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 919.
[3] *Ейнялгцзат Мийаняжи.* Тямщидат, Бакы, Адилоьлу, 2006, с. 5

*Nəğmə deyə-deyə dünya-aləmə,*
*Cənnət yuxusunda bayılar gedər.*[1]

O, Yaradanın lütfü ilə yaratmaq ehtiyacı hiss edir. O, bunu öz alın yazısı, yaradılışının səbəbi, ətrafı üçün nəzərdə tutulan missiyası kimi qəbul edir, onunla doğmalaşır. Yaratmaq qüdrəti, yaradıcılıq eşqi bütün digər hissləri üstələyir. Məhz o, gəncə bütün çətinliklərə sinə gərmək, maddi zərbələrdən sınmamaq əzmi verir. O, gəncin qarışıq hissləri, düşüncələri arasında yeganə aydınlıqdır. O, min bir qorxunun, təhlükənin arasındakı sabitlikdir, etibardır. O, məhdudiyyətlər arasında azadlıqdır. Ən əsası isə, o, özünüifadə və özünütəsdiqdir. O, dilbilməz cəmiyyətlə yeganə ünsiyyət vasitəsidir. Çünki Kyerkoqor dediyi kimi, «…saf bəşərilikdə qapanıb qalmaqla, yaxud ümumi tarixə heyran qalanın rolunu oynamaqla öz-özünü aldatmağa dəyərmi?».[2] Yaradıcılıq artıq bir ürəyə sığmayıb aşıb-daşan hisslərin, düşüncələrin ətrafa saçılmasıdır ki, Şellinq də onu «hadisə deyil, əməl»[3] adlandırır.

Dediyimiz kimi, gənclər yalnız öz mən-lərindən çıxış etsələr də, yazdıqları, çatdırmaq istədikləri bütün bəşəriyyəti ehtiva edir. Özünü «zəmanənin qəhrəmanı» kimi təsvir edən Lermontov bunu belə əsaslandırır: «İnsan ruhunun, hətta ən xırda bir insan ruhunun tarixi, bütün bir xalqın tarixindən çətin ki, az maraqlı və xeyirli olsun, bu tarix bilavasitə yetkin bir zəkanın özü üzərində apardığı müşahidələrin nəticəsi olduqda, həm də başqalarında riqqət və təəccüb oyatmamaq

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с. 15.
[2] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 251.
[3] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с.1009.

arzusu ilə yazılmadığı zaman daha maraqlı və xeyirlidir».[1] Lakin bu, sıradan adi bir insanın həyatı, düşündükləri deyil. Söhbət ruhu ilahi aləmlə vəhdətdə olan, düşündükləri əsrlərdən bəri öz varlığını qoruyub saxlayan ideyalar dünyasından qaynaqlanan, ta-a qədimdən bu günə uzanıb gələn insanlıq zəncirinin bir halqası olan insandan gedir.

Əlbəttə, danılmaz faktdır ki, hər şəxsi hisslərin ifadəsi olan əsər nəinki bəşəriyyət, heç cəmiyyət üçün də yararlı olmaya bilər. Bu gün o qədər yaradıcılığa baş vurmaq həvəsində olan gənc var ki, nəinki şəxsiyyətin formalaşmasına, insanda ilahi zərrənin daşıyıcısı olan mən-in potensialının düzgün reallaşmasına xidmət etmir, üstəlik mən-in dağılmasına gətirir. Bəli, hər yaratdığı ilə gəncin «Mən» adlı sarayının kərpicləri də qurulur. Lakin məqsədindən, mahiyyətindən asılı olaraq bu saray bir nur mənbəyi də ola bilər, gectəsirli partlayıcı da. Bəs söhbət hansı mən-dən, hansı düşüncədən gedir?

Əvvəla, yalnız öz məhdud maddi çərçivəsində qalmayan və özünün ilahi mənbəyinə yolu açıq olan, məhz oradan qidalanan mən-in yaratdıqları bəşəriyyət üçün ola bilər, yəni *söhbət qəlbi, ruhu Yaradanın verdikləri üçün bir məkana çevrilən gəncdən gedir*. Şellinq deyir: «Rəssam yaradıcı qüvvəyə ucalmaq və mənən ona malik olmaq üçün gərək təbiətin məhsulundan və ya yaratdığından uzaqlaşsın. Bununla o, saf anlamlar səltənətinə ucalır; o, məxluqu tərk edir ki, onu yenidən min qat ölçüdə mənimsəsin və bu mənada həqiqətən yenidən təbiətə qayıtsın».[2] Başqa sözlə

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с.342.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 904-905.

desək, gəncin özünün ilahi başlanğıcını kəşf etməsi heç də onun öz maddi keyfiyyətlərindən imtina demək deyil. Əksinə, hər ikisini vəhdətdə görə bilmək bacarığıdır.

İkincisi, yalnız cəmiyyətin içindən onun fövqünə qalxan, yəni düşüncəsi zahirdən batinə istiqamətlənən bir mən maddi və mənəvini düzgün müqayisə etmək iqtidarındadır. Bu, maddi dünyada oturub ilahi aləmdən dəm vurmaq, ya da əksinə, xəyal dünyasından boylanıb maddi dünya üçün utopik planlar quran bir mən deyil. Bu, qaranı da, nuru da olduğu kimi tanıyan, yaşayan bir mən-dir. Kyerkeqor yazır: «… şüur, daxili şüur həlledici faktordur. Mən-dən söz gedəndə, həmişə həlledicidir. O mən-ə ölçü verir. Şüur nə qədər böyükdürsə, mən də bir o qədər böyükdür. Belə ki, şüur nə qədər böyüyürsə, iradə də bir o qədər böyüyür. İradə nə qədər çoxdursa, mən də bir o qədər böyükdür. İnsanın iradəsiz mən-i də yoxdur. Lakin iradə nə qədər çox olarsa, o daha çox özünü dərk edər».[1] Deməli, maddi postament nə qədər möhkəm, uca olarsa, onun üzərində ucalan ideya – abidənin də bir o qədər möhtəşəm olmaq imkanı var.

Bir sözlə desək, söhbət fəlsəfi təfəkkürə malik olan və bunu öz yaradıcılığında əks etdirən bir mən-dən gedir. Şellinq deyir: «Yalnız azadlığın dadına baxan ehtiyac duya bilər ki, hər şeyi ona oxşatsın, onu bütün kainata yaysın. Fəlsəfəyə bu yolla gəlməyənlər yalnız başqalarının arxasınca gedir, əməllərində onları təqlid edir və heç bilmir ki, bu əməllər nədən irəli gəlib».[2] Yada salaq ki, Şellinq mən-i «*azadlıq*» adlandırır. Belə məlum olur ki, məhz *fəlsəfi təfəkkürə, yəni*

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 267.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 959.

*düşüncənin zirvəsinə qalxmaq da, eyni zamanda, min bir yol arasından özünəməxsus yolu tapmaq da mən-dən keçir.*

Əbu Turxanın bildirdiyinə görə, Mütləq Həqiqəti dərk etməsi üçün Allah insana üç kitab verib: ilahi kitab, təbiət və insan özü (əql). Öz mən-inin, eyni zamanda, ruhunun əlaqəli olduğu ilahi bir sonsuzluğun kəşfi təbii olaraq gənc üçün üçüncü mənbənin – təbiətin də qapılarını açır. Onu da əlavə edək ki, biz gəncin ruhunun axtarış əzmini, yaradıcılıq eşqini və artıq kifayət qədər bir yolu qət edə bilməyini nəzərə alaraq üçüncü mənbəyin qapılarının açılmasını təbii hesab edirik.

Gənc öz ruhunun hələ tam maddiyyata qapılmaması, ilahi aləmə açıq olması sayəsində rahatca hər üç kitabın oxucusuna çevrilə bilir. Fərqli «dillərdə» yazılmasına, hər birinin özünəməxsus «sahəsi» olmasına baxmayaraq, hər üçü eyni mənbədən «xəbər verir». Güman ki, bu səbəbdən gənc özü ilə təbiət arasında bir bənzərlik, doğmalıq görür və yalnız Yaradandan deyil, həm də Onun yaratdığından ruhlanır. Axı Əbu Turxanın da bildirdiyi kimi, «Yaradana sevgi Onun yaratdıqlarına sevgidən keçir». Təbiət daha səmimidir. Məhz təbiətlə təkbətək qalanda insan rahatca özü ola bilir. Əlbəttə, gənc yenə də hər şeyə məhz öz mən-inin pəncərəsindən baxır və çatdırmaq istədikləri də bu bənzərliklər olur. Bayron yazır:

*İnsanları sevirəm – təbiət daha yaxındır.*
*Mənim nə olduğumu, nə olacağımı*
*Onunla təklikdə unuduram mən.*
*Öz ruhumda bütün nəhəng dünyanı hiss edərkən*

*Bu hissimi nə deyə, nə gizləyə bilirəm.*[1]

Ülvi də belə hesab edir ki,

*İnsanlar dən kimidir,*
*Torpağa düşmüş bir dən.*
*Hər ikisi can alır*
*Bu ulu təbiətdən.*[2]

Bu, təbiətə bir seyrçi baxış deyil. Bu, məzmundan çıxış edib, formanı dəyərləndirməkdir, fərqləri deyil, oxşarlıqları görmək, yalnız görmək deyil, bu bənzərliklər arasındakı qanunauyğunluğu, onun içindəki təsadüfü deyil, zərurəti ortaya çıxarmaqdır. Şellinq dediyi kimi, «Təbiətin hər şeyi canlandıran, hər şeyə nüfuz edən qüvvələrinin təsiri ilə yalnız hisslərin əzəmətli yüksəlişi, yalnız təxəyyülün dərin sarsıntısı incəsənətə həmin keçilməz gücü verə bilərdi. Həmin güc ki, o, həmişə – erkən illərin donuq, qapalı, ciddi əsərlərindən tutmuş, hissi zərifliklə dolu əsərlərə qədər həqiqətə sadiq qalmış və ölərilərə sezmək üçün verilən o ali reallığı mənən yaradırdı».[3]

Düzdür, təbiətin «oxunmasında» gənc özünün yaşlı həmfikirləri və ya mütəxəssis alimlər kimi çox dərinə gedə bilmir* – bunu onun yaşı və təcrübəsi rəva görmür – bununla

---

[1] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 104.

[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 52.

[3] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 911.

* Мящз эянж йашында ад-сан газанан, чццнжц китабын – тябиятин «охунушу»нда бюйцк мцвяффягиййятляр ялдя едян тябиятшцнас алимляр дя вардыр ки, онларын да щяйат вя йарадыжылыьындан бизим мювзу цчцн мараглы мялуматлар тапмаг мцмкцндцр. Лакин биз буну эяляжяк тядгигатчылара бурахараг,

belə, o, nəinki çatdığı, hətta əminliklə məskunlaşdığı ümumi harmoniya daxilində Mütləq Həqiqətin saysız təzahürləri ilə üzləşir, dərk edir. Təbii ki, bu dərketmə onun yaradıcılığında da özünü göstərir.

Qeyd etdiyimiz kimi, gənci fərqləndirən məhz hissiyyatın üstünlük təşkil etməsidir. Bunun nəticəsidir ki, o, gördüyü, dərk etdiyi hər hansı bir biliyi tez-tələsik üzə çıxarmağa can atır. Bu, həm həmin yükdən azad olmaq, quş kimi yüngüllüyünü, azadlığını qaytarmaq istəyi, həm içindəki gənc təbiətlə qədim müdrikliyin ziddiyyətinə son qoymaq üçün özünütəsdiq, özünüifadə forması, həm də açmaq istədiyi yolun daha bir pilləsini qurmaq, digərləri (əsasən, özündən yaşlılar) arasında öz varlığını çatdırmaq arzusudur. Bunun nəticəsidir ki, gənc yaşlarında yaradıcılıq daha məhsuldar olur, nəinki sonrakı illər və ya Şellinqdə olduğu kimi, sonrakı illər gənclikdə qəbul etdiklərinin «həzmi», saf-çürük etməsi ilə məşğul olurlar.

Bəli, gənc böyük bir yaradıcılıq od-alovu, çoşqusu yaşayır, özünü qüdrətli, xilaskar kimi hiss edir. Lakin hər dəfə o, cəmiyyətin soyuq sifəti ilə üzləşəndə içini bir qorxu bürüyür: izsiz getmək, etdiklərinin böyük okeanın damlaları arasında əriyib itmək, özü kimi, yaratdıqlarının da bir kənara atılmaq qorxusu. Eynəlqüzat Miyanəci bu gün də olmasa, nə

---

йалныз фялсяфя, ядябиййат вя гисмян, мусиги сащяси иля кифайятлянмишик. Бундан башга, зяннимизжя, биринжилярдян фяргли олараг бу шяхслярин дцшцнжяляри, фикирляри даща субйектив олдуьундан инсанын мян-ини даща айдын ифадя едир.

vaxtsa eşidilmək arzusundadır: «Günlər keçəcək, bir səhər görəcəksən ki, Eynəlqüzat bu müvəffəqiyyətə nail olubdur».[1]

Öz çağında redaksiyaların bürokratik sədlərini sındıra bilməyən Ülvinin bu istəyi qorxu qarışıq bir ümidin ifadəsi deyilmi:

*Arzum budur həyatda,*
*Nə dərd, nə qəm olaydı,*
*Məndən sonra dünyada*
*Bircə şeirim qalaydı.*[2]

Düzdür, gəncin içindəki qorxu, narahatlıq əsasən öz şəxsi taleyi ilə bağlıdır. Çünki Kyerkeqorun da dediyi kimi, «narahatlıq – həyata, bizim şəxsi gerçəkliyimizə həqiqi münasibətdir».[3] Lakin bununla yanaşı, o, ümumiyyətlə, öz dövrünün faciəsini anlayır, onun həlli yollarını arayır, heç olmasa, öz yaşıdlarına təsir göstərmək istəyir. Lermontov yazır:

*Mən bizim nəslə məyus bir nəzərlə baxıram,*
*Onun sabahı ya boş, ya qaranlıq olacaq.*
*O idrak və şübhələr ağırlığı altında*
*Hərəkətsiz qalaraq süstləşib qocalacaq.*[4]

Ülvi də gələcəyə xoş bir xəbər aparmaq üçün yaşıdlarını bu gün mübarizə aparmağa çağırır:

*Döyüşlərdə yoğrulmuşuq*

---

[1] *Мяммядов З.* Азярбайжан фялсяфяси тарихи. Бакы, Шярг-Гярб, 2006, с. 117.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 62.
[3] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 251.
[4] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 2006, с.52.

*Gələcəyə qaranquşuq.*
*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik.*[1]

Yeri gəlmişkən, qeyd edək ki, ümumiyyətlə, bir çox gənc ömrünün «odlu-alovlu», böyük ideyalarla aşıb-daşan mərhələsini «başa vuranda» ağır depressiya yaşayır. Hətta bu həyata bir nifrət yaranır. Onlar keşməkeşli həyatdan, bu dünyanın pozulmayan çərxindən, fərq qoymadan hər şeyi üyüdən «dəyirmanından» şikayətçi olur, bir vaxtlar tutuşub alışdıqları ideyaların puçluğunun günahını həyatda axtarırlar. Bayron yazır:

*Keçdi ümidlərin, həyəcanların, hökmlərin dəmi*
*Eşqin odu – hər şey artıq kənardadır.*[2]

Onlar öz zamanında deyilməli olan sözü deyə bilməyəcəklərinin, həyəcanını, hikkəsini həzm edə bilmirlər. Özlərini aldanmış, günahsız yerə incidilmiş hiss edirlər. Hər halda, bu qoca dünyada özünün tək deyil, milyonlardan biri olduğunu, bu həqiqətlərin səndən əvvəl, hətta daha gözəl şəkildə deyildiyini qəbul etmək o qədər də asan deyil. Özünü, öz mahiyyətini, bu həyata gəlişinin səbəbini anlamağa çalışan və bunun üçün «*varlıq badəsini gözyaşları ilə isladaraq gözüyumulu içib*» yalnız ölüm ayağında gözlərini açan Lermontov böyük bir çaşqınlıqla deyir:

*Görürük ki, o qızıl badə*
*Boşuymuş elə əzəldən.*

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 9.
[2] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 57.

*Onun içindəki mey – arzularıymış,*
*Sən demə, heç o da bizim deyilmiş.*[1]

Düzdür, özünün adi, sıradan biri olduğunu qəbul edəndən sonra həyat daha sakit, daha rəvan bir axara düşür. Ancaq… hər adam bu axara düşə bilmir, axara düşəndən sonra əvvəlki coşqunun olmamasına alışa bilmir. Yəqin bu səbəbdəndir ki, Ülvinin dalğaları «*at kimi minib çapan*», dalğaların bağrını yaran qəhrəmanı:

*...görür ki, fırtına*
*Suda o açan izi,*
*Asanlıqla yox edir,*
*Asanlıqla gizlədir.*
*Bundan sonra insanın*
*Qol-qanadı süst olur –*
*Açdığı izlər kimi,*
*Kədərli gözlər kimi,*
*Fırtınada boğulur.*[2]

Bəli, qəribədir ki, illərnən gəlməli olan bu ruh düşkünlüyünü, «depressiyanı» bizim gənclər enerjili, coşqulu vaxtlarında yaşayırlar. Lakin onların digər gənclərdən *üstünlüyü ondadır ki, söykənə biləcəkləri bir arxaları – Allah və həyatlarını mənasızlaşmaya qoymayan bir missiyaları var.* Yaradıcılığı gəncin həm qorxu yeri, həm xilasıdır, həm əbədiyyətə, həm də ölümə aparan yoludur. Yaradıcılığı gəncin özüdür – qaçıb qurtarmaq, onu qəbul etmək istəməyən insanlar arasında təsdiqləmək istədiyi mən-i.

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 37.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 41-42.

Puşkin təsadüfən öz yaradıcılığı ilə özünə bir abidə ucaltdığını demir:

*Yox, mən ölməyəcəyəm, cismim torpaq olsa da,*
*Rübabımın səsində ürəyim döyünəcək.*
*Bircə şair qalsa da qədim, ulu dünyada,*
*Əbədi şöhrətimlə mənəm yaşayan demək.*[1]

Məşh ruhunun yaradıcılıq eşqidir ki, Ülvini 15 yaşında öz cığırını ulu sələflərinin yollarına qatmağa həvəsləndirir:

*Mübarizə aparır,*
*Milyon-milyon «şairlər»*
*Bu yola çatmaq üçün.*
*Öz açdığı cığırı*
*Bu yola qatmaq üçün.*[2]

Bütün deyilənlərlə yanaşı, gəncin ilham aldığı daha bir mənbə də var, daha doğrusu, onun bütün mənbələrinə, ümumiyyətlə yaradıcılığına parlaq bir nur çiləyən: sevgi, eşq. Bu o qədər nəhəng bir mənbədir ki, başqa mənbələrə ehtiyac qoymur. Bu, o qədər cazibəli bir nöqtədir ki, sonla başlanğıcı birləşdirir. Bu, o qədər zəngin bir dünyadır ki, özünə ayrıca bir başlıq tələb edir.

---

[1] *Пушкин А.С.* Шеирляр, поемалар, повестляр, Бакы, Йазычы, 1987, с. 12.

[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 46.

## *Eşq və müqəddəslik duyğusu*

Gənclik hisslərin aşıb-daşması, sevginin, arzuların pardaxlanıb çiçəklənməsi ilə səciyyələnir. Bizim gənclərin yaradıcılığına baxanda, ilk baxışda hər şeyin başında məhz sevginin durduğunu zənn etmək olar. Bu baxımdan, bəlkə də, gəncliyin fəlsəfəsini məhz sevgi ilə başlamağın daha məntiqli olduğunu düşünmək olardı. Bizim sevgini sona saxlamağımızın öz səbəbi var. Belə ki, bu gənclərin sevgisinin kökü yuxarıda nəzərdən keçirdiyimiz hisslərlə – qorxu, cəngavərlik, tənhalıq və s.-lə – sıx bağlıdır. Yəni içində bu qədər ziddiyyətlər daşıyan, bu qədər mürəkkəb düşüncələr içində vurnuxan bir insanın sevgisini təcrid olunmuş, ayrıca gözəl bir hiss kimi nəzərdən keçirmək düzgün olmaz. Digər tərəfdən, həyat adlanan qısa bir zaman kəsiyində yalnız ilk məhəbbətin aldadıcı parıltısından gözləri qamaşmağa imkan tapan bir gəncdən dərin bir məhəbbət ummaq və onu digər hisslərin başına qoymaq da doğru bir nəticəyə gətirib çıxartmaz. Bununla belə, deyilənlər heç də bu gənclərin gözəl bir məhəbbətə qadir olmadıqları demək deyil. Sadəcə, onların sevgisi bir sıra özünəməxsus keyfiyyətlərə malikdir ki, gəncliyin fəlsəfəsinin tamamlanması üçün mütləq nəzərə alınmalıdır. Elə isə gənclik fəlsəfəsində sevgi, eşq nədir?

Bəli, doğurdan da, bu gənclərin yaradıcılığında ilk nəzərə çarpan sevgidir. Ancaq bu *sevgi özünün uşaqlığı, saflığı ilə seçilir*. Bu, hələ dünyanın çirkablarına batmamış, ikiüzlülükdən uzaq, maddiyyatın «ləl-cəvahiratına» bürünməmiş bir sevgidir. Məsələn, istər Bayronun, istər Lermontovun, istər Müşfiqin, istərsə də Ülvinin sevgi şeirlərinin ünvanı onlarla gözəllərdir. Lermontov yazır:

*Gedir – bütün hərəkətləri,*
*Dinir – hər cizgiləri,*
*Hisslərlə, ədayla doludur,*
*Bir ilahi sadəliklə doludur.*[1]

Müşfiq:

*Sənin mərhəmətli, dolğun gözlərin*
*Mənim hisslərimi məndən də dərin*
*Necə anlatmada bilməm, şirin qız?*[2]

Ülvi:

*Baxışları sirli nağıl*
*Gözlərindən alov yağır.*
*Tez-tez sağa-sola baxır,*
*Bu qız görən hara gedir?*[3]

Bu gənclərin şeirlərində hər şey hiss etmək mümkündür: görüşmək sevinci, ayrılıq qüssəsi, gözəlin təsviri, busənin şirinliyi, sərt baxışın acılığı və s. Hamısı hisslər

---

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 77.
[2] *Мцшфиг М.* Сечилмиш ясярляри, Бакы, Чашыоьлу, 2005, с. 115.

[3] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 73.

səviyyəsində! Heç bir məsuliyyət, heç bir cavabdehlik, heç bir sabah arzuları, heç bir düşüncə, heç bir dərinlik! Əslində, bunu qəlbin, könülün gözəlliyə təbii meyli və ya uşağın sevimli, qeyri-adi bir şeyə qarşı ilk sövq-təbii reaksiyası, yəni əlini uzadıb götürmək, onu dadmaq istəyi adlandırsaq daha doğru olar. Məhz uşağın. Burada heç bir hiylənin, heç bir vəhşi ehtirasın, qara niyyətin, xəbis planlamanın izini tapmaq olmaz.

Hisslər oynaqdır. Gənc eyni səmimiyyətlə müxtəlif gözəllərin sehrinə düşür, vurulur, aşiq olur, ancaq bir yerdə qərar tuta bilmir. Maraqlı bir haldır ki, istedadlı uşaqlar daha nadinc olurlar. İçlərində qaynayan enerji, ətrafla harmoniyaya can atma meyli, eyni zamanda, sabit olmayan emosiyalar, ətrafındakı hadisələrə qeyri-ciddi münasibət. Bu nədir? Dayaz düşüncə? Kyerkeqorun fikrinə görə, «günah – inkar deyil, nə isə müsbət bir şeydir»[1] və «günahın pozitivliyi məhz Allahın qarşısında olmaqdır».[2] Məlum olduğu kimi, uşaq diqqət tələb edəndə, öz varlığını ətrafındakılara çatdırmaq istəyəndə nadinclik edir. Kyerkeqor da bu nadincliyin daha böyük miqyasda edilməsinin daha böyük səbəbinin olduğuna işarə edir. Lakin nadinclik yalnız öz varlığını eşitdirmək ehtiyacından yox, həm də içindəki yükdən azad olmaq istəyindən ola bilər. Yenə Kyerkeqor bildirir ki, «mütəəssir olan Allah qarşısında özü olmaq istəyəndə və ya olmaq istəməyəndə günah işlədir».[3] Deməli,

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 320.
[2] Йеня орада, с. 323.
[3] Йеня орада, с. 308.

gənci nadinclik etdirən həm də çiyinlərindəki ağır yükdən azad olmaq və ya bir az da olsa onu unutmaq istəyidir.

O gəncdir. Təbiət öz gücünü göstərir, hisslər qaynayır, coşur, sevib sevilmək arzusu oyanır. Lakin maraqlı, eyni zamanda, qəmli bir şey müşahidə edilir: bir belə sevgi şeirlərinin müəllifini sevgi sevindirə bilmir. Həyat tarixçəsindən məlum olduğu kimi, həmişə gözəl qadınların əhatəsində olan Lermontov nədən yazır ki,

*Nə olsun ki, kimi isə sevirəm,*
*Sevgi mənim həyatımı bəzəmir.*[1]

Nədən yaşının sevib sevilən vaxtında Ülvi deyir ki,

*Hər həvəs, hər həyəcan məgər sevgimi?*
*Aldatma özünü, nə də ki, məni.*[2]

Bəli, ilk baxışda həyatlarındakı hisslərin güclü olmasına baxan, bu yaradıcı gənclərin eşq haqqında çoxlu şeir yazdığını güman edir. Əslində isə bu şeirlər ayrı-ayrı hadisələrin, ötəri həyəcanların qısa təsvirlərindən başqa bir şey deyil. Əsl sevgini – ruhun mahiyyətini təşkil edən, bütün varlığın, yaradılışın səbəbi olan, insanı adi canlı səviyyəsindən ucaldıb İnsan edən qüvvəni isə hələ tanımırlar. Bunu onların yaşı, təcrübəsi rəva görmür. Hər varlıq özündən daha kamilə meyl edir. Sührəvərdinin də qeyd etdiyi kimi, «hər naqis nurun kökündə özündən yüksək nura qarşı eşq, hər ali nurun kökündə isə özündən aşağıdakına

[1] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 42.
[2] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 63.

qarşı qaliblik (idarəçilik) var».[1] Gənc də bütün ruhu ilə özündən yüksəkdəkinə böyük bir sevgi, eşq duyur. Yəni onun ruhu sevgi ilə dolub-daşır. Onun hər gün rastlaşdığı və müvafiq olaraq təsvir etdiyi sevgilər isə hiss səviyyəsindən o yana keçmir. … Və bu isə onları qane etmir. Gənclərin duyduqları ilahi harmoniyanın, gözəlliyin yanında bu keçici hisslər o qədər kiçik, əhəmiyyətsiz, zəif görünür ki, düşünmədən ondan uzaqlaşırlar. Bu səbəbdən onlar maddiyyatın hüdudları boyda olan bu sevgidən bir ruh düşgünlüyü ilə, bədbinliklə yazırlar. Lermontov mələyin qucağında bu dünyadan köç edən bir gənci belə təsvir edir:

*Bu dünyada o çox əziyyət çəkdi,*
*Ürəyi min bir arzuyla doluydu.*
*Səmanın möhtəşəm səslərini*
*Yerin sıxıcı nəğməsi əvəz edəmmədi.*[2]

Həmin qəmli notlar Müşfiqdə də hiss olunur:

*Olmadan aşikar doğduğu yerdən,*
*Böyük tanrı kimi düşmüş nəzərdən,*
*Çöhrəsi gülməyən xarabalardan*
*Daha qəmli, izsizdir eşqim!*

Ülvi isə sevginin sevinc gətirməməsinin səbəbini onun «*qocalmasında*» axtarır:

*Qocalmaz, sevgi qocalmaz,*
*Ürək, ümid qocalmasa,*

---

[1] *Сцщрявярди Шищабяддин Йящйа*. Щикмят ял-Ишраг // Ясярляри 2 жилддя, ж. 1, Тещран, 1952, с. 136, (яряб дилиндя).
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 41.

*Qocalmaz, sevgi qocalmaz,*
*Onu qocaldan olmasa.*[1]

Gəncin ehtiyacı hissə deyil. Onların özündə bu, kifayət qədərdir. Əslində, onun ehtiyacı, bütün digər yaşıdları kimi, tamamlanmayadır. Şellinq yazır: «Yalnız insanda bir söz deyilir ki, o, başqa şeylərdə də var və tam deyilmir. Söylənmiş sözdə isə ruh özünü açıqlayır, yəni *actu* kimi var olan Allah».[2] Gəncin məhz bu sözə ehtiyacı var. Bunu isə ilahi aləmdən bixəbər, yalnız zahiri gözəlliyi ilə alışıb yanan həmyaşıdında tapa bilmir. Bayron yazır:

*Bəs qadın? Mən səni ümid,*
*Təsəllim, hər şeyim sanardım.*
*Mən necə cansız bir daşa döndüm,*
*Sənin siman qəlbimin səsinə kar olanda.*[3]

Və gənc yalnız zahiri zövqü oxşayıb mənəvi aləmə isə kiçicik bir nur belə verməyən bu yalançı hissə nifrət edir, onu puç sayır. Lermontov şikayətlənir:

*Sevgini, nifrəti dərk etmək*
*Bir dəfə ondan çərənləmək üçündür...*[4]

Ülvi isə qarşısındakına ümumiyyətlə onu unutmağı tövsiyə edir:

*Ürəyim deməyir gözüm deyəni,*
*Baxma ki, eşqini gözündən alıb.*

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 74.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 973.
[3] *Байрон Ж.Г.* Ады чяк. ясяр, с. 35.
[4] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 55.

*Bəlkə də sevərdim, ay gözəl, səni,*
*Heyif ki, ürəyim erkən ovlanıb.*[1]

Bütün bu ruh düşkünlükləri gənci öz dünyasına qapılmağa sövq edir. Məsələn, Ülvi qarşısındakından bir dünya, bir sonsuzluq umur, amma … öz dünyasından ayrılmadan:

*Bircə anlıq baxışında,*
*Bu dünyanı umuram mən.*
*Səni görmək istəyəndə,*
*Gözlərimi yumuram mən.* [2]

Gənclərə xas sevgini «özündə qapanma», hər şeyə öz könül evindən dəyər verib, özü kimi zənn etmə kimi keyfiyyətlərlə təsvir edən S.Xəlilov onu qısa qapanma adlandırır – alimlərin uzaq qaçdığı, şairlərin isə böyük şövqlə tərənnüm etdiyi qısa qapanma.[3] Filosofun dedikləri əksər gənclərin «sevgisinin» çox dəqiq şərhidir. Doğurdan da, sevgisi hisslər səviyyəsində boğulub qalan gənclər öz dünyalarında yaratdıqları xəyalın gücündən, sehrindən heç cür azad ola bilmirlər. Hər şey onun təsiri altına düşür və gənc həqiqi sevginin nə olduğunu bilmədən özünün qaladığı yalançı odda yanıb kül olur.

Bizim gənclər isə bu qısa qapanmaya düşmürlər, düşə bilmirlər. Əvvəla, onların könül dünyası elə dərin, elə zəngindir ki, oradan verilən dəyər də çox yüksək olur. Məhz bu dəyərin nəticəsidir ki, ruh özünə bir həmdəm tapa bilmir,

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 81.
[2] Йеня орада, с. 62.
[3] *Хялилов С.* Мящяббят вя интеллект. Фялсяфи есселяр, Бакы, Нурлан, 2006, с. 25

gözəl qaş-göz iki gündən sonra onu bezdirir. İkincisi, onlar öz «sevgisinin» təsvirində nə qədər hissə qapılıb, onların gözəlliyini tərənnüm etsələr də, onların həyatında aparıcı rol ağılın olur, hissin deyil. Ümumilikdə götürəndə gənc sanki bir dəryadır və bu sevgi təlatümləri yalnız onun səthində, üst qatında baş verir. Dərinliklərində isə başqa bir həyat, başqa bir aləm var və okeanın – gəncin əsl mahiyyəti həmin aləmdədir. Bəli, hisslər güclüdür, lakin üzdədir. Düşüncə isə dərindir və sahibini bütünlüklə hisslərin itaətinə düşməyə qoymur. Bundan başqa, əvvəlki başlıqlardan da məlum olduğu kimi, bu gənclər nə qədər romantik, xəyalpərvər olsalar da, öz cəmiyyətlərinin əyrisini-düzünü daha yaxşı hiss edirlər, onun bütün çətinliklərini öz üzərlərində «sınaqdan keçirməklə» onlara reaksiya verirlər. Başqa sözlə desək, öz zirvəsindən cəmiyyəti seyr edən gəncin düşüncələri əks tərəfin gərginliyini duyduğuna görə, «normal elektrik cərəyanı» da yaranır.

Nəhayət, üçüncüsü, bu gənclərin daşıdıqları müqəddəs missiya onlara yalnız öz könül dünyalarına qapanıb qalmağa imkan vermir. Gəncin başqa bir qüvvə qarşısında duyduğu məsuliyyət, cavabdehlik hisslərin çağırışından daha ağırdır, daha tələbkardır. Bu səbəbdən də onun şəxsiyyətində bir ikilik sezilir, sevgisinin ən səmimi anında belə öz sevgilisinə tamam yad bir insan təsiri bağışlaya bilir. Əlbəttə, bu, onun istəyi ilə baş verən bir proses deyil. Bu, onun daim axtarışda olan mən-inin dar çərçivədən genişliyə çıxmaq istəyidir. Dediklərimizdə sanki bir ziddiyyət var. Həm sevginin yalnız hisslər səviyyəsində olduğunu və hisslərin dərinliyə enmək qüdrətində olmadığını deyirik, həm də gəncin öz sevgisi üçün geniş üfüqlər axtardığını iddia edirik. Əslində isə bu,

maddi dünyadan başlayan hisslərin ruh səviyyəsində bir sonsuzluğa qovuşmaq ehtiyacıdır. Ülvi bu duyğuları necə gözəl çatdırır:

*İlki varsa, sonu yoxdu sevginin,*
*Sevgi böyük bir dəryadı, səmadı.*
*«İlk»im daşa dəydi, «son»um...! – deyənin,*
*Ürəyi də «ilk-son» arasındadı.*[1]

Sonsuzluğun ənginliyini hiss edən gənc bir sonlu varlığı, o nə qədər dünya gözəli olsa da, sevə bilmir, sevgisini bu dar hüdudlara sığdıra bilmir. S.Xəlilov yazır: «Sonsuz hissin sonlu varlığa yönəldilməsi sözün müstəqim mənasında məcnunluqdur».[2] «Məcnunluq» öz mən-indən keçməyi tələb edir. Bu gənclərin mən-i isə onsuz da onların ixtiyarında deyil.

Maraqlıdır, gənc bütün bunları yaşayırsa, yalançı hisslərin, həyəcanların sevgi olmadığını bilirsə, nədən yeni «sevgilər» axtarışına çıxır? Yuxarıda da qeyd etdiyimiz kimi, axtarış gəncin həyatını stimullaşdıran, onu sınmağa qoymayan bir duyğudur. Gəncin axtardığı sevgidir, sonsuzluqdur, əbədiyyətdir, ülviyyətdir. Şellinq yazır: «Sevginin sirri ondadır ki, o, elə əksiklikləri birləşdirir ki, onların hər biri özü üçün ola bilərdi, ancaq yenə də olmur və ola da bilmir».[3] Bir daha təkrar edirik: *gəncin bir insan kimi tamamlanmağa, kamilləşməyə ehtiyacı var*. Lakin S.Xəlilovun da dediyi kimi, «insan təkcə tərəf-müqabillə deyil, onun simasında dünya

---

[1] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 82.
[2] *Хялилов С.* Ады чяк. ясяр, с. 46.
[3] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1023.

harmoniyası ilə vüsal tapmağa çalışır…».[1] Bu baxımdan, bizim gənc bədbəxtdir. Onun cismani tərəf-müqabilləri çoxdur, əsl könül yoldaşı isə yoxdur. O, içindəki böyük sevginin ünvanını tapa bilmədiyi üçün əzab çəkir. Deyilənlərdən sonra Lermontovun nə demək istədiyi də aydın olur:

*Gələcəyə qorxu ilə baxıram*
*Keçmişə qüssə ilə boylanıram.*
*Edama yollanan cinayətkartək,*
*Ətrafda doğma bir ruh arayıram.*[2]

Yaxud Müşfiq:

*Fəqət yabançıdır coşqun ruhuma,*
*Elimə, ölkəmə, təbi-şuxuma*
*Mənasız gözəllik, mənasız gözəllik!*[3]

Ülvi də öz ruh həmdəmini insanların deyil, ulduzların arasından «tapır»:

*Heç bilmirəm yenə mənə nə olub,*
*Görürəm gözümdə özümü yalnız.*
…
*Ah, necə də alicənab ulduzdur,*
*İstəmir ki, bu tufanda tək qalam.*[4]

Amma gənc həm də əzab çəkdirir – onu sevənlərə. O, gözlə görülən, amma əllə tutulmayan günəş şüasına oxşayır. Başdan başa sevgilə yoğrulmuş bu gəncin sevgisini qazana

---

[1] *Хялилов С.* Ады чяк. ясяр, с. 85.
[2] *Лермонтов М.Й.* Ады чяк. ясяр, 1984, с. 76.
[3] *Мцшфиг М.* Ады чяк. ясяр, 2005, с. 102.
[4] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 54.

bilməmək, bu aşıb-daşan sevgidən bir pay ala bilməmək böyük əzabdır.

Yeri gəlmişkən, onu da qeyd edək ki, tarixdə bəzi gənclərin «bəxti gətirib» – onlar özlərini tamamlaya bilən bir dost, həmfikir tapa biliblər və bu fakt onların həyatında əvəzsiz rol oynayıb. Gənc nə qədər təbiətcə gənc olsa da, onun təfəkkürünü, dünyaya baxışını gənc adlandırmaq olmur. Məhz bu səbəbdən onları tamamlaya bilən tərəf-müqabil də yaşca onlardan çox böyük, artıq həyatın müdrikləşdirdiyi insanlar olur. Onu da əlavə edək ki, gəncin düşüncələrini cilalayan tərəf-müqabilin «dəst-xətti» mütləq gəncin yaradıcılığında özünü göstərir. Məsələn, Puşkinin sevgi məkanında Yevgeni Oneginlə yanaşı, Tatyana Larina da var. Bu, təsadüf deyil. Bu, Puşkinin sirli ünvanlara yazdığı şeirlərindəki hər hansı bir xanımın təsiri, daha doğrusu, Puşkinin onun vasitəsilə tanıya bildiyi ali sevgidir, ülviyyətdir. Tarixdən başqa bir misal. Şellinqin həyatında və yaradıcılığında ondan yaşca çox böyük, ümumiyyətlə alman romantizmi və fəlsəfi ədəbiyyatında xüsusi rola malik Karolina Şleqelin müstəsna yeri var. Onunla evli olduğu müddətdə (1799-1809) yaradıcılığının ən məhsuldar dövrünü yaşayan və fəlsəfəsinin zirvəsinə qalxan Şellinqin Karolinanın vəfatından sonra (1809) «bədii yaradıcılığı, demək olar ki, tamamilə dayandı və yalnız kafedradakı çıxışları Almaniyaya təfəkkürlərin keçmiş hökmdarını xatırladırdı».[1] Əlbəttə, bu xoşbəxtlik hər gəncə qismət olmur. Bunun üçün həmin cəmiyyətdə hər şeydən əvvəl yüksək təfəkkürlü, onu mənən tamamlaya, ucalda biləcək insanın olması, bu dünyanın

---

[1] *Шеллинг Ф.В.* Философия искусства, М., Мысль, 1999, с. 6.

xaosunda onların rastlaşması və cəmiyyətin bütün qınaqlarına və maneələrinə sinə gərmələri lazımdır.

Reallaşmamış sevgi gəncin «ünvan axtarışını» başqa səmtə yönəldir – ona Mütləq həqiqətdən daha kamil xəbər verə bilən bir «ünvana» – Allaha. Sührəvərdi yazır: «Şövq bacarıqlı zatları Nurlar Nuruna aparır. Ən tam şövq ali nura cəzb və ucalmaqla tamamlanır» .[1] Bəli, məhz bacarıqlı, yəni həyatın yalançı parıltılarından gözü qamaşmayan, dünya xaosunnda öz yolunu itirməyən, öz Sevgisini min bir sevgi arasında qoruyub saxlaya bilən insan eşqin ali zirvəsinə qalxa bilər. Gənci bütün varlığı ilə ehtiva edən, öz nurlu sonsuzluğunda əridib yox edən, çiyinlərindəki yükü yüngülləşdirən, gözəlləşdirən, içini müqəddəslik duyğusu ilə işıqlandıran İlahi eşq. Şellinqin dediyi kimi, «…ilahi sevginin şüaları düşür və mənəvi həyatın zərifliyə, ilahi gözəlliyə ülvi çevrilməsi baş verir».[2]

Bu ali sevgi onların bütün varlığına elə hakim kəsilir ki, müraciət etdikləri hər bir obyektə, istər mürəkkəb olsun, istərsə də adi şeylərə məhz bu gözlə baxırlar. Maraqlıdır ki, bu işıqla baxanda, əslində insanların mürəkkəbləşdirdiyi bu hissi dünyanın bütün sadəliyi, adiliyi üzə çıxır. Və belə aydın olur ki, lap Ülvi deyən kimi, «bu «adilər» içərisində bircə şey mürəkkəbmiş: hər şeyin adi olması. Bəli, adi kənddə iki cür adamlar – adi yaxşılar və adi pislər yaşayarmış. Adi yaxşılar adi işlər görürmüşlər, tikib qururlarmış. Adi pislər də adi işlərlə məşğul olurmuş, söküb dağıdırmış».[3]

---

[1] *Сцщрявярди Ш.* Ады чяк. ясяр, с. 224.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1007.
[3] *Бцнйадзадя Ц.* Ады чяк. ясяр, с. 139.

Belə güman etmək olar ki, öz ətrafında özünə həmdəm tapa bilməyən gənc məcbur olub ilahi aləmə üz tutur. Bir növ həyatdan küskün olan rahiblər, dərvişlər kimi. Lakin bu belə deyil. Kyerkoqor yazır: «İnsan nəfs və bədənin sintezi idi, eyni zamanda həm də müvəqətti və əbədinin də sintezidir».[1] Məhz özündə əbədiyyətin bir zərrəsini daşıması, ilahi aləmlə sıx əlaqədə olması və həmin aləmin işığında maddi dünyanın nöqsanlarını, yalan pərdələrini sezməsidir ki, gəncə imkan vermir bu cismani, hissi aləmdə özünə həmdəm tapsın. Yəni əsl Gözəlliyi görəni bu dünyanın keçici gözəllikləri ovutmur, tamamlaya bilmir. Axtardığını bu məhdud dünyada tapa bilməyən üz tutur Allahın onun üçün açdığı aləmə: ya səslərin, ya sözlərin, ya da rənglərin harmoniyasına. Ən əsası isə bu aləmə keçid gəncə həm də fəlsəfənin, müdrikliyin qatlarını açır. Təsadüfi deyil ki, Şellinq fəlsəfəni «azad sevgi»[2] adlandırır və bildirir ki, «fəlsəfə qətiyyət tələb edir – qətiyyət isə həmişə hər hansı bir istiqamətdə son həddir, – fəlsəfənin təbiəti budur ki, təfəkkürün zirvəsinə yüksəlsin. Onun uçuşuna bilavasitə və ya dolayısı ilə mane olanda isə o, doğma vətəni, qayanın ucu əlçatmaz olan qəfəsdəki qartala dönür».[3] Belə məlum olur ki, gözəl hisslərdən doğan bu duyğu – sevgi təfəkkürün dərin qatlarına qədər aparır. Zahirdən batinə, bədəndən mən-ə qədər uzanan bu yolun əslində özü sevgi üzərində mövcuddur.

Gəncin qarşısında açılan üfüqün genişliyinə bax! İlahi eşq və Fəlsəfənin ənginliyi! İdrakı və təfəkkürü ilə müqəd-

---

[1] *Кйеркегор С.* Ады чяк. ясяр, с. 181.
[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 1316.
[3] Йеня орада, с. 1317.

dəsliyin zirvəsinə yüksəlmək imkanı! Bu üfüqlərin fəthinin nəticəsidir ki, Motsartın musiqisi sadəcə bir not yığnağı deyil, illərdir, əsrlərdir insanı ilahi harmoniyaya qovuşduran bir sehrdir; Bethovenin doqquzuncu simfoniyası yalnız könülləri oxşamır, həm də düşündürür. Bu üfüqlərin fəthinin verdiyi qüdrətdir ki, Sührəvərdi Aristotelin fəlsəfəsini öz işraqilik fəlsəfəsi üçün bir postamentə döndərib üzərində möhtəşəm bir hikmət ucaltdı. Bu üfüqlərin fəthinin sirridir ki, Bayronun, Puşkinin, Lermontovun, Müşfiqin, Ülvinin qələmindən qopan zərrələr çirkab dolu, keşməkeşli illərin, ədəbi çiçəklənmələrin, tənəzzüllərin arasında öz parıltısını saxlayıb bərq vurmaqda davam edir.

Qurani Kərimin ayələrindən birində deyildiyinə görə, «…Rəbbimin kəlamları üçün dənizlər mürəkkəb olsa və bir o qədər də üstünə gəlsə Rəbbimin kəlamları bitmədən onlar tükənər) (Quran 18/109). Bir qüdsi hədisdə isə deyilir ki, «Mən gizli bir xəzinə idim, tanınmaq istədim və xəlqi yaratdım». Həllac onu Allahlıq iddiasına düşməkdə günahlandıranlara deyir: «Xeyr, Rəblik iddia etmirəm. …Yazan Allahdır, Allahdan başqa yazanmı var? Mən və əl sadəcə alətik, başqa bir şey deyilik».[1] Əsrlər sonra bənzər bir «etirafı» Şellinq də edir: «Şəxsini yalnız şəxsi müalicə edə bilər və Allah insan olmalıdır ki, insan Allaha qayıtsın».[2] Bethoven də yazdıqlarının ona Allah tərəfindən diqtə edildiyini bildirir… Yaradan Özünü bütün gözəl vasitələrlə, bütün ülvi, müqəddəs üsullarla tanıdır və bunun üçün saf,

---

[1] *Хятиб Баьдади.* Тарих, 14 жилддя, ж. 8, с. 127-128 (яряб дилиндя).

[2] *Шеллинг Ф.В.* Ады чяк. ясяр, с. 991.

təmiz ruhlar seçir və bəxş etdiyi dərin hikməti, ülviyyəti çatdırmaq üçün o ruhlara YARATMAQ qüdrəti verir. Şellinq deyir: «Məxluqda ilk başlanğıc vahidin öz-özünü yaratmaq cəhdidir və ya əsasın (təməlin) iradəsidir. İkinci başlanğıc sevginin iradəsidir ki, onun vasitəsilə təbiətə söz deyilir və onun vasitəsilə Allah özünü şəxsiyyət edir».[1] Bəli, məhz bu yaradanların yaratdıqları ilə insanlar Yaradanı tanıyır, Onun gözəlliyinin, möhtəşəmliyinin şahidi olur.

Beləliklə, həm bizim gənclərin eşqi, sevgisi haqqında düşüncələrimiz, həm də ümumiyyətlə gənclik fəlsəfəsi bitdi. Hər halda bizim qələmimizdən qopan kəlmələr bitdi. Yuxarıda qeyd etmişdik ki, sevgini sona saxlamaqda bir məqsədimiz var. Məqsədimiz hər şeyin ucunu sevgiyə, yəni gözəl ülvi bir sonsuzluğa bağlamaq idi. Sevgi bizim gənclərin əmanətini – missiyyasını nurlandırır, cazibəsini artırır, onun …ağırlığını azaldır, qara notlarının çoxluğunu gizlədir. *Axı bütün dərin təfəkkürlərinə, müdrikliklərinə baxmayaraq, onlar gəncdir, buna ehtiyacları var!*

[1] Йеня орада, с.1008.

# *Nəticə*

Fəlsəfə elə bir zirvədir ki, hər təfəkkürü, hər yaradıcılığı, hər dünyagörüşü ora aid etmək düz olmazdı. O baxımdan, bəzilərinə də «gəncliyin fəlsəfəsi» ifadəsi ilk baxışda bir-birilə uyuşmayan iki fərqli sözün eklektik birləşməsi kimi görünə bilər. Bəs əslində necədir?

İnsan ömrünü fəlsəfə tarixinə bənzətsək gəncliyi onun orta əsrləri hesab etmək olar. İdeyaların çoxusunun doğulub inkişaf etdiyi, bəzilərinin isə rüşeymlərinin yarandığı orta əsrlər. Hələ coğrafi məkanın Şərq və Qərb deyə iki qütbə bölünüb bir-birinə düşmən kəsilmədiyi, qədim hikmətlərin yeni hikmətlərlə üzvi şəkildə çulğalaşıb bir-birini ən kamil şəkildə tamamladığı orta əsrlər. İrrasional idrakın, mistik təfəkkürün rasional təfəkkürlə sıx əlaqəli olduğu, ilahi duyğuların çox vaxt maddi tələbatları öz təsiri altına aldığı, hətta onun inkişafına maneçilik yaratdığı orta əsrlər.

Hər kəsin qəbul etdiyi bir fakt da var ki, fəlsəfə tarixində ən zəngin, ən mürəkkəb, ən ziddiyyətli dövr də orta əsrlərdir. Tədqiqat obyekti kimi ən çox müraciət edilən bu dövr olsa da, hələ də qaranlıq səhifələri, hələ də orijinallığını qoruyan qatlar qalan orta əsrlər. Nəhayət, onu da əlavə edim ki, orta əsrlərin bütöv mənzərəsini yaratmaq üçün bütün bu

deyilən cəhətlər paralel, eyni zamanda, bir-birilə əlaqəli şəkildə tədqiq edilməlidir.

Əlbəttə, orta əsrlər haqqında çox fikir söyləmək mümkündür, lakin bu, sadəcə, gəlişi gözəl sözlər, yaxud təsadüfi bir bənzətmə deyil. Bunlar həm də reallığın bütün ziddiyyətlərini öz nurlu mənəviyyatlarında əridib öz əzabı, qüssələri ilə saf, tər-təmiz ideyalar bitirən gəncliyin təsviridir. Yəni biz məhz orta əsrləri gəncliklə «yaxınlaşdıran» xüsusiyyətlərdən danışdıq.

Dediklərimizlə bir faktın aktuallığını vurğulamağa çalışırıq: *gəncliyin məhz fəlsəfi aspektdən öyrənilməsi həm gənclərin özü, həm də fəlsəfə üçün xüsusi əhəmiyyət daşıyır*.

Təqdim edilən əsərdə biz gəncliyin fəlsəfəsini bütünlüklə əhatə etməsək də, bir neçə məsələni paralel və qarşılıqlı əlaqəli şəkildə araşdırmışıq. Əvvəla, gəncliyə xas bir sıra xüsusiyyətlər vardır ki, məsələn, üsyankarlıq, nadinclik, qısa müddətdə bir neçə sahə dəyişmək həvəsi və s., onların əsl mahiyyətini aydınlaşdırmaqla, onlara münasibət də və təbii ki, onlara göstərilən reaksiyalar da fərqli ola bilər. Digər tərəfdən, bir faktın üzərində dönə-dönə dayanmalı olduq ki, əhəmiyyətinin böyüklüyünü göstərə bilək. Bu, cəmiyyətin gəncin həyatında oynadığı roldur. Cəmiyyət istər istedadların öz vaxtında, zamanında parlaması, reallaşması üçün uyğun şərait yaradan, istər yaradıcılıq axtarışlarında olanlara düzgün, xeyirli istiqamət verən, istər sevgilərin, təfəkkürlərin tamamlanması üçün nümunə ola biləcək yüksək təfəkkürlü şəxsiyyətlər yetişdirən, istərsə də kimliyindən, yaşından, cinsindən asılı olmayaraq İnsana, müqəddəslik duyğusuna dəyər verən bir faktor olmalıdır. Əks halda gəncin bizim təhlil et-

dimiz xüsusiyyətlərində bir çat, naqislik yaranır və şəxsiyyət şikəst qalır.

Üzərində dayanmaq istədiyimiz cəhətlərdən biri də gəncin ruhunun ilahi aləmlə bilavasitə əlaqəli olmasının vacibliyidir. Xüsusilə qeyd edək ki, bu, həm gəncin mənəvi aləminin təmizliyi, həm düşüncəsi ilə ruhunun bir-birini tamamlaması, həm də ruhunun nəbati, heyvani mərtəbədən insani mərtəbəyə yüksəlməsi üçün ən birinci şərtdir. Ən əsası isə, bu, gəncin ən primitiv hisslərdən ən ali duyğulara, müqəddəslik zirvəsinə, fəlsəfi təfəkkür səviyyəsinə yüksələ bilmək imkanıdır.

İkinci cəhətin vacibliyini vurğulamaq üçün yalnız onu əlavə edək ki, məhz ruhunun Allahla bilavasitə əlaqəli olmasıdır ki, insanı cəmiyyətin çirkabından qurtara bilir, onu məhv olmaqdan qoruyur. Bu olmayanda isə gənc olmayanda isə özü təmiz cəmiyyəti korlaya bilər və cəmiyyət üçün bir nöqsana çevrilər.

Nəhayət, biz bu əsərdə insana məxsus hər bir duyğunun məhz gənclik mərhələsinin olmasını vurğulamağa. Əslində dediyimiz yeni bir şey deyil. Lakin yenilik onun özünəməxsus qanunauyğunluqlara malik olmasını göstərməyə çalışmaqdır. Məsələ burasındadır ki, əvvəla, hər hiss müxtəlif yaşlarda fərqli nəticələrə gətirə bilər. Təsadüfi deyil ki, psixologiyada hər yaşın özünə xas hisslərini öyrənməyə xüsusi diqqət yetirilir. Bu baxımdan, onların fəlsəfi aspektdən də öyrənilməsi az əhəmiyyətli deyil.

Digər tərəfdən, elə düşüncələr var ki, onlar məhz gənc yaşa məxsusdur və onları öz zamanında demək vacibdir. Heç kəsə gizli deyil ki, bir çox hallarda məhz gəncliyə xas olduğu üçün bəzi fikirləri, ideyaları «boş şeydir, keçib gedər», –

deyə kənara atırlar. Əlbəttə, bu yaşda deyilənlə nisbətən kamil yaşda deyilənlər eyni tərəziyə qoyulmaz. Lakin bu, heç də onun dəyərsizliyinə dəlalət etmir. Gəncliyin insan həyatında öz yeri olduğu kimi, gəncliyin fəlsəfəsinin də insan təfəkküründə öz yeri və əhəmiyyəti var.

## *Son söz əvəzi*

Mən heç vaxt Ülvi haqqında bir sətir belə yazmamışdım. Düşünürdüm ki, heç yazmayacam da. Duyduqlarıma, düşündüklərimə qələmin gücü çatmaz deyirdim. Əslində qələm güclüdür, ancaq güclü əldə və güclü ürəklə. Mən nə ürəyimdə həmin təpəri, nə də öz əlimdə həmin gücü hiss edirdim.

Bu gün də o gücü hiss etmirəm. Düzdür, «Gəncliyin fəlsəfəsini» Ülvini nəzərdə tutaraq, onu düşünərək başlamışdım. Yazdım da. Ancaq tək Ülvidən yox. Buna yenə ürək eləmədim. Amma Ülvi bütün yazının fonunda, kökündə, budağında, çiçəyindədir. Mozaika kimi bütün yazılarıma səpələnib. Ancaq bütöv yazıya baxanda onun gəncliyinin fəlsəfəsini, müdrikliyinin gəncliyini görəcəklər. Mən bu kitabda Ülvini və ülvi gəncləri addım-addım, sətir-sətir tanıtmağa çalışdım. Sonda bir Ülvi dastanının – ülviyyət dastanının alınacağına ümid edərək.

Ülvi!

Bu, sənin məndən gözlədiyin kitabdır. Bu kitabı sən istəmişdin, ona görə mən də sənin sevdiyin şairlərə, filosoflara, sənin seçdiyin mövzulara müraciət etdim. Sən illər idi gözləyirdin məni. Mənim bu yaşıma və düşüncə

səviyyəmə gəlməyimi gözləyirdin. Gəldim və yazdım. Bir vaxtlar evimizə pianino alınanda sənin gözəl ifana baxıb: «məni də öyrət», – deyə xahiş elədim. «Əlimə bax, özün öyrən», – dedin. Elə də elədim. İndi də elə oldu. Mən yalnız sənin «əlinə baxdım». Sən isə yalnız kənardan baxıb, yerinə düşən düzgün «notları» axtarmağıma baxıb yüngülcə gülümsədin, qımışdın. Sonralar pianinoda ifamdan razı qalırdın. Yəqin burda da səni razı salan «notlar» vura bilmişəm.

# II hissə

## *MƏQALƏLƏR*

## *ESSELƏR*

## *HEKAYƏTLƏR*

# MƏQALƏLƏR

## *Natamamlıq sindromu*
## *və ya*
## *Ruhumuzu dinləməyi bacarırıqmı?*

İnsan gözəl sənət əsərləri, bənzərsiz tablolar, böyük şəhərlər və s. yaratmaqla bir yaradıcıdır. Allahın yaratdığı təbiətə alternativ olan, hətta onu əvəz etməyə iddialanan ikinci təbiətin yaradıcısı. Gündən günə inkişaf edən elmlər, texnika bu yaradıcılığın sonsuz olduğuna bir dəlildir. Allah tərəfindən ən gözəl biçimdə yaradılan, ağıl, iradə və dərrakə sahibi olan, bütün yaradılmışların əşrəfi, hətta mələklərin belə qarşısında səcdə etdiyi kamil bir məxluq.

Bununla yanaşı, insan bir yaradılmışdır. Öz mövcudluğuna görə Allaha möhtac və yalnız Onun verdiyi imkan və bacarıqlar çərçivəsində nə isə yaratmağa qadir olan, öz varlığına belə hakim olmayıb, özünü sona qədər dərk edə bilməyən aciz bir məxluq.

Deyilənlərdə iki fikir istiqaməti seçmək mümkündür: birincisi, insana yaradılışdan kamillik verilib və o, öz ağlı sayəsində bu kamilliyə qovuşa bilən yeganə varlıqdır. Digər tə-

rəfdən, insan bir yaradılmış kimi naqisdir və kamilləşməyə bu səbəbdən meyllidir.

İnsanın kamilliyi və ya kamil insan geniş və maraqlı bir mövzudur. Bu barədə müxtəlif əsərlər yazılıb və yazılmaqdadır. Bizim yazımız ikinci istiqamətə, yəni insanın natamamlıq sindromuna və kamilləşmə meylinə həsr edilmişdir.

Naqislik hissi insanla bərabər doğulur desək yanılmarıq. Daim öyrənmək, bilmək, yoxlamaq, öz həyatında tətbiq etmək istəyi buna nümunədir. Deyə bilərlər ki, heyvan balaları da öyrənir, təcrübə toplayır. Lakin o da məlumdur ki, heyvanlar yaşamaq və təbii seçimdə sağ qalmaq üçün instinktiv olaraq qidalanmaq və mübarizə aparmaq bacarıqlarına yiyələnirlər. Gözəlliyə tamaşa etmək və onlardan duyğulanmaq, bəzən nəinki qazanc gətirməyən, onu ac saxlayan, hətta xəstəliyə düçar edən işlərlə yalnız ruhuna xoş gəldiyinə məşğul olmaq isə yalnız insana xasdır. Belə olmasa, nə görkəmli sənətkarlar, şairlər, filosoflar yetişər, nə də əzəmətli kəşflər edilərdi.

İnsan böyüdükcə bilik sahəsi də genişlənir, təfəkkürü dərinləşir. Orta və ali məktəblərdə oxuduğu ədəbiyyatları, eşitdiyi informasiyaları, yaşadığı cəmiyyəti araşdırıb anladıqca, ilk baxışda xaotik görünən bu nəhəng tabloda özünü görüb seçdikcə öz naqisliyinin xarakterini və xüsusiyyətlərini daha aydın görüb dərk etməyə və bu naqisliyini aradan götürmək, natamamlığını tamamlamaq üçün yollar axtarmağa başlayır. Bu mərhələdə insanın yolunu müəyyələşdirən və gələcəkdə onu bir şəxsiyyət kimi formalaşdıran faktor onun indiyə qədər aldığı tərbiyə və təhsil, qazandığı

dünyagörüşü olur. İnsan özünə daha yaxın və uyğun olan bir sahəyə, peşəyə, məşğuliyyətə və s.-ə üz tutur.

Bəziləri öz tamlıqlarını maddiyyatda axtarmağa başlayır: hər vasitə ilə var-dövlət toplayır, mənsəb sahibi olmaq üçün hər üsula baş vururlar. Bununla belə, yuxarıda dediyim kimi, insanların naqisliyi heyvanların bioloji instinktindən fərqlidir. Yəqin bu səbəbdəndir ki, var-dövlət toplayan kəs heç cür doya bilmir, …çünki naqisliyi heç cür ortadan qalxmır, içindəki yarımçıqlıq hissi onu rahat buraxmır, o da nə toplamaqdan əl çəkə, nə də naqisliyinin əsl mahiyyətini dərk edə bilir.

Elm aləmində öz tamamlıqlarını axtaran kəslərdə də eyni halı müşahidə etmək mümkündür: elmi dərəcənin ən yüksək pilləsində duran alimin bir şəxsiyyət kimi yarımçıq olması faktı heç kəs üçün yenilik deyil. Çatdıqları elmi zirvənin son olmadığını, şəxsiyyətinin daha ali bir qüvvəyə ehtiyac hiss etdiyini dərk edən alimlər də az deyil. Məsələn, R.Dilts yazır: «Nikola Tesla özünün vizuallaşdırma bacarıqlarını inkişaf etdirirdi ki, artıq biliklərinə malik olduğu «kiçik aləmin hüdudlarından kənara ekskursiya etsin». Fizikanı öyrənməsinin səbəbi haqqında Eynşteyn yazır: «Mən Allahın düşüncələrini bilmək istəyirəm, qalan şeylər xırdalıqdır».

*Öz naqisliyini tamamlamaq yolunda insanlığın ən böyük kəşfi eşqdir!* Ta-a qədimdən insanın mütləqləşdirdiyi, gözüyumulu yolunda canını verdiyi, həyatının mənası hesab etdiyi eşqdir. Burada bir-birinə zidd olan məqamlar çox olduğundan, zənnimizcə, nisbətən geniş bir izaha ehtiyac var.

Platonun yazdığına görə, insan əvvəlcə vahid bir varlıq olmuş, sonra Allahın qəzəbinə gəlib iki yerə bölünmüşdür. O vaxtdan yarıya bölünmüşlər bir-birini axtarır və yalnız tək canın tərkib hissələri bir-birinə qovuşanda əsl səadətə çatırlar, tamamlanırlar. Maraqlıdır və bizim dediklərimizə uyğundur. Lakin nəzərdən qaçan bir məsələyə diqqət yönəldək: vahid varlığa çevrilmiş iki insan, yəni öz yarısını tapmış insanlar kamil bir varlıq sayılmalıdırlarsa, …evlilikdən sonra davam edən axtarışların mahiyyəti nədir? Həm də bu axtarışlar istisna hallarda bərabər olsa da, əksər hallarda yalnızlıqda, fərdi qaydada aparılan axtarışlar olur. Və ya yarına olan məhəbbəti (deməli, yarın özünü də) başqa bir kamilliyə çatmaq üçün vasitə olaraq görür. Fərqi yoxdur, istər arxa-dəstək olaraq fiziki baxımdan, istərsə də ilham pərisi olaraq ruhi baxımdan olsun. Vasitə vasitədir.

Məsələyə bir də fərqli prizmadan baxaq. Şərq fəlsəfəsinə, xüsusilə təsəvvüfə nəzər salsaq, aydın bir mənzərənin şahidi olarıq: fərdi eşq daha uca həqiqətləri açıqlayan böyük bir aləmə aparır. Bu o deməkdir ki, eşq yalnız ürəkləri çırpındıran, ruhları bir-birinə cəzb edən bir hiss deyil, o, daha mürəkkəb və dərin bir mənaya malikdir. Eşq – maddi aləmdən çıxıb mənəvi dünyaya üz tutmağın ilk səbəbidir, könül gözünü açan, ruhu düşündürən bir hissdir. Eşq – həqiqətdir, deməli, idrakın sonudur. Eşq – yaradılışın səbəbi kimi Mütləqdən nisbiyə enən bir nur zolağı olduğu kimi, nisbidən də Mütləqə uzanan bir yoldur. İnsan ona doğru uzanan həmin nur zolağını kəşf etməklə eşqi və bununla da həqiqəti dərk etmiş olur. S.Xəlilov yazır: «Eşq səviyyəsində idrak bütün insanlara aid olan hissi və məntiqi idrakdan yüksəkdə durur – idrakın ali məqamına aparır. Bu pillə daha

çox dərəcədə idrakın sezgi və vəhy məqamlarına uyğundur». Müxtəlif səviyyədə olsa da, hər kəsin bir sevgiyə qadir olduğu məlumdur və təbii ki, bunların hamısının «idrakın ali məqamına» apardığını demək düz olmazdı. Müəllif buna belə açıqlıq gətirir: «Yüksək mənəviyyatlı, incə ruhlu, parlaq qəlbli insanları heyrətləndirmək, məftun etmək üçün daha böyük gözəllik, daha həssas və daha mürəkkəb tərəf-müqabil lazımdır. Ən böyük aşiq isə, heç şübhəsiz, ancaq İşıqlar işığına (Allaha – K.B.) səcdə edə bilər. Bu isə artıq ilahi eşqdir». Deməli, məhz ilahi eşq, bütün maddiyyata baxış prizmasını dəyişə, həqiqətin üzərindən pərdəni götürə, könül, ruh gözünü aça bilən ilahi eşqdir.

Deyilənlərə əhəmiyyətli bir əlavə də etmək lazımdır: biz tamamlanma hissinin insanın təfəkkür səviyyəsi ilə bilavasitə əlaqəli olduğunu bildirmişdik. Deməli, ilahi eşqə gedən yol da məhz fərdi eşqdən keçməlidir. Əbu Turxan bunu belə təsvir edir: «Fərdi məhəbbətin ilahi məhəbbətə qovuşması iki damlanın əvvəlcə bir damlada birləşməsi və dəryaya birlikdə qatılması kimidir». Başqa cür desək, insan əvvəlcə daxili dünyasında əzəmətli bir harmoniyanın olduğunu kəşf edir, sonra da özünün bu əzəmətli harmoniyanın bir tərkib hissəsi olduğunun şahidi olur.

Xüsusilə onu da qeyd edək ki, məhz hər «iki damla» eyni duyğuları keçirmiş olarlarsa, onların qovuşması böyük dəryaya – ilahi eşqə apara bilər.

Hər varlıq özündən daha üstün olana bənzəməyə çalışır. Yuxarıda qeyd etdik ki, insan yaradılmışlar arasında ən kamili və Allahın gözəl sifətlərini özündə ehtiva edən, eyni zamanda, onları dərk etmək qabiliyyəti olan yeganə varlıqdır. Bu o deməkdir ki, insanın bənzəməyə çalışdığı və ya sifətlərini dərk

etmək istədiyi varlıq Allahdır. Məsələn, Şihabəddin Sührəvərdiyə görə, nur iyerarxiyasında «hər naqis nurun kökündə özündən yüksək nura qarşı eşq, hər ali nurun kökündə özündən aşağıdakına qarşı isə qaliblik (idarəçilik) var». Hər nur özündən yüksəkdəki nura duyduğu və heç bir söz və hisslə təsvir olunmayacaq eşq və şövqlə ucalmağa çalışır: «Şövq müvəffəq zatları Nurlar Nuruna aparır. Ən tam şövq ali nura cəzb və ucalmaqla tamamlanır». Aşağı nurları yüksəldən, ucalmağa sövq edən hisslərin, halların hər biri nurlanma dərəcəsindən asılıdır. Bu hisslər hər nura – varlığa xasdır.

Bəs tamamlanma hissini insana dərk etdirən irrasional təfəkkür nədir?

Hər şeydən əvvəl bir faktı vurğulayaq: irrasional təfəkkürün səviyyəsi bilavasitə rasional təfəkkür səviyyəsindən, insanın dünyagörüşündən asılıdır. Ən müxtəlif məzmunlu və məqsədli təcrübə formaları – şamanizm, satanizm, kabbala, təsəvvüf və s. Dediklərimizə bariz nümunə ola bilər. Onların hamısı eyni hissin izharıdır: fövqəladə qüvvələrin köməyi ilə qüvvətlənmək, ali bir ağlın yardımı ilə öz təfəkküründə hansı isə gizli bir qapını açıb həm ümumiyyətlə varlıq aləminin, həm də öz varlığının qaranlıq guşələrini işıqlandırmaq, dərk etmək.

Rasional ağılla, məntiqli düşüncə ilə ən yüksək zirvəyə qalxa bilmiş alimlər, filosoflar, sənətkarlar çatdıqlarının son olmadığını, hətta bəlkə də yolun yarısı belə olmadığını görəndə fərqli vasitəyə – irrasional təfəkkürə müraciət edirlər. Əslində irrasional vasitə və təfəkkürün imkanları insanlar üçün yəqin elə insanın yaradılışı ilə bərabər açılmışdır. Buna

misal olaraq qədim dövrdən günümüzə qədər çatmış əsərləri, ayrı-ayrı mətnləri göstərmək olar.

İnsan maddi varlıq olmaqla yanaşı, həm də ruhi varlıqdır və onun maddiyyat fövqündə yardım axtarması, oradakı hikmətləri dərk etməyə cəhd etməsi əslində təəccüblü deyil. Onun öz natamamlığının səbəbini maddiyyat dünyasından keçərək ruhi aləmdə axtarması da anlaşılan və həqiqətə yaxın bir addımdır. Qeyri-adi görünən məsələnin başqa bir tərəfidir. Birincisi, insanların müraciət etdiyi obyektlər fərqlidir: kimisi yalnız özünün tanıdığı bir ruha, kimisi şeytana, kimisi də Allaha. Onların müraciət forması da fərqlidir: kimisi gizli, kimisi aşkar, kimisi ətrafdakılara zərər vurmaqla, kimisi əksinə xeyir verməklə, kimisi öz daxili dünyasına çəkilməklə, kimisi ətraf aləmlə harmoniya axtarmaqla. Oxşar təfəkkür vasitəsilə kamilliklərinin zirvəsinə çatmış şəxsiyyətlərin təcrübələrindən çıxış edərək qətiyyətlə demək olar ki, məhz Allaha yönəlmiş təfəkkür həqiqi anlamda tamamlana və kamilləşə bilir. Məsələn, öz axtarışını təsvir edən Müqəddəs Avqustin deyir: «Mən arxam işığa və üzüm işıqlanan tərəfə dayanırdım. Mənim işıqlanan şeylərə yönəlmiş üzüm işıqlanmırdı». Mövcud müxtəlifliyin səbəblərini açıqlayaq.

İnsanları bir-birindən fərqləndirən əsas amillərdən biri onların təfəkkürüdür. Məhz təfəkkürünün səviyyəsinə uyğun olaraq insan istər öz mənəvi aləminə, istərsə də xarici mühitə münasibət göstərir, onu dərk etmək üçün uyğun vasitələr seçir. Qısa şəkildə desək, primitiv düşüncənin seçdiyi obyekt də, ona çatdıran vasitəsi də primitiv olur. Təfəkkür səviyyəsi yüksəldikcə obyekt də yüksəlir, aliləşir, vasitələr də. İnsanın gördüyü təhsil, oxuduğu ədəbiyyat, ədəb-əxlaqı, eyni

zamanda, ətraf mühit, cəmiyyət onun təfəkkürünü formalaşdıran maddi və mənəvi amillərdir. Bununla belə, hər bir amildən yüksəkdə duran, onlara güclü təsir göstərə bilən aparıcı bir faktor da var: ilahi qüvvə. Burada əhəmiyyətli bir cəhət xüsusilə vurğulanmalıdır: ilahi qüvvənin təsiri də insanın təfəkkür səviyyəsindən asılıdır. Yəni əslində ilahi qüvvə eynidir, onu qəbul edən obyekt isə fərqlidir. Günəş eyni şəkildə işıq saçır, ancaq fərqli məkanlar bu şüalardan eyni qidalana bilmir, təbii ki, fərqli də nəticələr ortaya çıxır: bir məkanın qarı-buzu heç cür ərimək bilmir, bəzi yerlər isə yanıb kül olur, hətta eyni məkanda bir yerdə gül bitir, başqa yerdə qanqal, üçüncü bir yerdə isə ümumiyyətlə həyat yoxdur. Qurani Kərimin ayələrindən birində deyilir: «Göydən su endirdi və çaylar öz arxlarına görə çağlayıb axdı» (Quran 13/17). Hər arx öz ölçüsünə görə su qəbul etdiyi kimi, hər insan da öz təfəkkürünə görə ilahi qüvvə ilə ünsiyyətdə olmaq bacarığına malikdir.

Dediklərimizdə maraqlı və əhəmiyyətli bir məqama çatdıq. İnsanın maddiyyat, zaman-məkan çərçivəsindən çıxıb ilahi aləmə keçişində və oraya məxsus biliklərə sahib olub yüksəlməsində tənzimləyici və istiqamətverici qüvvə kimi Ali Varlığın rolu birinci olduğuna görə, ağlın irrasional istiqamətə yönəlməsində iman xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, ağlın rasional və irrasional tərəflərini, zənnimizcə, imanda axtarmaq daha doğru olardı. Məsələn, sufi mütəfəkkir Cüneyd Bağdadi insanları iman dərəcələrinə görə bölməklə, onların dərk etdikləri həqiqətləri və öyrəndikləri bilikləri də təyinləşdirir: «Bil ki, insanlar üç cürdür: axtarıb yönələn; çatıb dayanan; daxil olub duran. Allahı axtaran zahiri elmin dəlilləri ilə istiqamətlənib Allahın zahiri işarələrinə uyar. Qapının

önünə çatıb dayanan şəxs batinini paklaşdırar, ürəyinə gələn ilhamlarla öz yolunu tutar, Allaha ürəkdən itaət edər. Bütün varlığı ilə Allahın hüzuruna gəlib Onun qarşısında duran isə, Allahdan başqasını görməz, Allahın verəcəyi əmri gözləyər və dərhal yerinə yetirər. Allahı əsl tövhid edənin sifəti budur». Deməli, ilk mərhələdə maddiyyatın dərki ilə kifayətlənən insan müəyyən inkişaf yolu keçməklə və bu proses boyu Allahdan aldığı ilhamla (ilahi biliklərlə – K.B.) maddiyyat fövqünə qalxa bilir, yəni artıq ağlın üst qatı ilə idrak prosesini davam etdirmək imkanı qazanır. Onu da əlavə edək ki, ağıl və iman məhz qarşılıqlı əlaqədə olub bir-birini tənzimlədikdə idrak prosesini kamil dərəcəyə qədər inkişaf etdirə bilirlər. Belə ki, imansız ağıl yalnız maddiyyat çərçivəsilə kifayətləndiyi kimi, ağılsız iman da fanatizmə aparıb çıxara bilər.

Deməli, insan irrasional təfəkkürə öz mənəvi natamamlığını, naqisliyini kamilləşdirmək üçün müraciət edir, bunu ondan ilahi aləmlə bağlı olan ruhu tələb edir və bunu öz ruhunu dinləyə bilən şəxslər dərk edir. İnsan ikili (maddi və mənəvi) xüsusiyyətə malik olduğuna görə, müxtəlif səbəb və şəraitlər onun iç və zahiri aləmlərini zidd qoya bilir. Özünün bir tərəfini üstün bilərək onun qayğısına qalmaq, digərini onun köləsinə çevirmək insanın yaradılışdan malik olduğu natamamlıq sindromunu daha da gücləndirir. Onun hər iki tərəfi arasında harmoniyanın yaranması, onların bir-birini tamamlaması isə insanın kamilləşməsidir. Bu, təfəkkürün rasional və irrasional formalarının paralel inkişaf etməsinin və bir-birini tamamlamasının zərurətini vurğulamış olur. Qurani Kərimdə bu dünyanın imtahan, sınaq meydanı olması, insanların etdikləri yaxşılıqların da,

pisliklərin də özlərindən gəlib, yenə də özlərinə yönəldiyinə dəlalət edən bir çox ayə görmək mümkündür (məs.: Quran 6/16; 7/17; 45/15 və s.). Deməli, mənəvi yolu tutmaq üçün maddiyyat vasitədir. Seçim biz insanlarındır. Odu da biz seçirik, nuru da. Hər kəs öz natamamlığını özünə məxsus dərk edir və fərqli şeylərlə tamamlanmaq istəyir. Bu, maddi şeylər də ola bilər, yüksək eşq də, elm də. Həqiqətin hansı olduğunu isə ruhumuz təyin edir, əgər ruhumuzu dinləməyi bacarırıqsa.

## *Qorxu, ölüm və ilahi zərrə*

Bir rəvayət oxudum: «Ana bətnində bəslənən əkiz övladlardan biri doğulmaq saatı gələndə qorxmağa başlayır, alışdığı bu isti, təhlükəsiz, qayğısız məkandan ayrılmaq istəmir, bərk-bərk anasından yapışır. Qardaşı ona izah edir ki, onlar artıq o qədər böyüyüblər ki, bura onlar üçün dardır, onlar daha geniş məkana çıxmalıdırlar. Bir də, onların son saydığı bu addım, bəlkə elə başlanğıcdır, bəlkə getdikləri o biri dünya daha gözəldir?»

Elə mövzular var ki, insan ondan yan qaçır, o barədə söhbət düşəndə araya başqa sözlər qatır. Məsələn, qorxu, ölüm və ilahi zərrə kimi. Bəli, çox az adam tapılar ki, bütün içini bürüyən, hakim kəsilən qorxu hissini səmimiyyətlə etiraf etsin; çox az adam tapılar ki, ölümdən danışanda qara bir ağırlıq hiss etməsin; çox az adam tapılar ki, insan mənəviyyatının özü olan ilahi zərrəni müzakirə mövzusu etməyə layiq görsün.

Hər insan ayaq üstə dayanmaq üçün bir dayağa arxalanır: pula, övlada, vəzifəyə, ad-sana, ağıla və ya Allaha. Allahdan başqa bu dayaqlardan hər biri yıxıla bilər və yıxılır da. Buna görə də, insan daim öz dayağı üçün qorxu, həyəcan

keçirir. Dayaqlar müxtəlif xarakterli, yəni insanlar fərqli təfəkkürlərə sahib olduqlarına görə, onlar üçün yaşanan qorxular da müxtəlifdir. Ən sadə, primitiv dayaq sahibinin qorxusu heyvani qorxudur və insanda heyvani reaksiyalar oyadır. Yaşamaq və yemək, hakimiyyət və ərazi, mövqe və mənafe üçün keçirilən qorxular insanı öz-özünə düşmən kəsir, ona ikiüzlülük, alcaqlıq, yaltaqlıq, qəddarlıq, yalan öyrədir. Bu qorxuda rəzillik də tapmaq mümkündür, nifrət də.

İnsanın təfəkkür səviyyəsi qalxdıqca, özünü kənardan müşahidə etməyi bacardıqca onun qorxusunun xarakteri də dəyişir. Bu qorxu insanı kiçik, ötəri amallardan uzaqlaşdırıb uca, saf əməllərə, məqsədlərə aparır, insanı ucaldır, ülviləşdirir, İnsan eləyir. Allah qorxusu kimi. Bu səviyyədəki qorxuya təqva (Allah qorxusu) da deyirlər. Bu, kor, alçaldıcı və dağıdıcı qorxu deyil. Qurani Kərimdə deyilir: «Doğruluq (təqva, hörmət) üzünüzü məşriq və ya məğribə çevirmək deyil. Doğruluq Allaha, Axirət gününə, mələklərə, kitaba, peyğəmbərlərə inanmaq, malını sevgi ilə yaxınlarına, yetimlərə, kasıblara, yolçulara, dilənənlərə, əsirləri azad edənlərə vermək, namazını qılıb, zəkat vermək, əhdinə sadiq qalmaq, xəstəlik, ehtiyac və zərər zamanı səbr etməkdir. Bunlar sadiqlərdir və təqva sahibləridir» (Quran 2/177).

Allahdan qorxmağın da iki (bəlkə də daha artıq) növünü göstərmək mümkündür. Bəziləri Allahdan qorxur ki, onun maddi dayağını (!) yıxar. Bəziləri də Allahdan Ona olan imanını alacağından, Allahın sonsuz mərhəmətinə, nuruna layiq ola bilməyəcəyindən qorxur. Bu qorxu iman və sevgi ilə qarışıq olur. Yalnız sonuncu qorxunu insani qorxu adlandırmaq olar.

İnsanın hansı təfəkkür səviyyəsində olması və hansı növ qorxunu yaşaması onun ölümə münasibətini təyinləşdirir. Məsələn, özünəqəsd hadisələrini araşdıran alimlər belə bir maraqlı fakt kəşf ediblər ki, insanın özünü öldürmək üçün seçdiyi vasitə onun təfəkkür səviyyəsi ilə sıx bağlıdır, yəni ölümü dəhşətli, hər şeyi məhv edən bir qaranlıq və ya onu sakitliyə çatdıran bir xilas kimi görənlər qeyri-şüuri olaraq ona aparan üsulun da müvafiq olmasından əmindir: kimisi özünə od vurur, kəndirdən asır, qazla boğur, kimisi də rahatca yüksək dozada yuxu dərmanı içir.

Həyatla paralel olan, onun ziddi hesab edilən və buna görə də qorxu və vahimə yaradan bir məfhum kimi ölüm həmişə bilə-bilə kölgədə saxlanılır. Tədqiqatçılar, alimlər onu fizioloji, ruhi və b. aspektlərdə araşdırıb onun bir qanunauyğunluq olduğuna dəlil-sübutlar gətirsələr də, adi insanlar onu ömür zəncirinin sonuncu, bəlkə də birinci halqası kimi qəbul etməyə çətinlik çəkirlər.

Ölümləri biz də növlərə ayırırıq: fizioloji, diri ikən ölmək və «mən»in ölümü. Hər birinə qısa şərh verək.

Fizioloji ölüm təbiətin pozulmayan qanunu, qarşısıalınmaz bir prosesdir və əsasən maddi bədənə aid edilən fiziki məhvdir. Hər kəs fiziki ölümlə gec və ya tez qarşılaşmalı olur. Qurani Kərimdə buyrulduğu kimi: «Hər nəfs ölümü dadacaq» (Quran 29/57). Dini nöqteyi nəzərdən desək, yoxdan yaranan yoxa çevrilir. Elmi baxımdan isə ölümü substansiyanın məhvi və ya enerjinin bir haldan başqasına keçməsi kimi təsvir edirlər.

Fizioloji ölümü iki növə ayırmaq olar: qəfil və asta ölüm. Qəfil ölüm. İnsan nə baş verdiyini anlamağa macal tapmamış pis-yaxşı sürdüyü ömrü ilə vidalaşmalı olur.

Ağrısız, əziyyətsiz, eyni zamanda ölümqabağı düşüncələrdən məhrum edən ölüm. Qəribədir, qəfil ölüm zamanı insanın üzündə məhz son məqamdakı ifadə donub qalır.

Asta ölüm. Bütün həyatını ən kiçik anlarına qədər gözünün qabağından kino lenti kimi keçirən ölüm. Yaşadığı acı-xoş günləri bir-bir yenidən yaşadan, lakin artıq başqa bir işıqda göstərən, başqa bir səslə duyduran ölüm.

Sufi mütəfəkkirlər öz həyatındakı missiyasını daha yaxşı dərk etməsi üçün insana tez-tez ölümü xatırlamağı, bu dünyada heç nəyə bağlanmamağı, hər an ölümə hazır olmağı tövsiyə edirlər. Fizioloji ölümün varlığı hər kəs tərəfindən birmənalı qarşılanmır. Kimisi ona sevinir, kimisi ondan qorxur, kimisi də səbr və təmkinlə qəbul edir. Bəziləri ölməklə itir, yox olur, bəziləri isə tapır. Məncə, bunu ölüm ayağında olan hər kəs hiss edir və buna uyğun olaraq hərəkət edir: itirəm əzab çəkir, tapan sevinir. Bu dünyanın bal dadan zəhərinin dadı ağzından getdikcə, xatırlamağa dəyən bir xatirənin olmamasından əzab çəkir. Ölümün vüsala, daha ülvi bir aləmə aparan vasitə olduğunu anlayan isə sevinir.

Ölümün ikinci növü diri ikən ölməkdir və nisbətən yüksək təfəkkürlü şəxslərə məxsusdur. Düşünməyi bacaran, öz insanlığını dərk edə bilən hər kəs öz həyatında heç olmasa bir dəfə diri-diri ölməli olur. Çünki Əbu Turxan dediyi kimi, «həyatın nə olduğunu dərk etmək üçün ölmək lazım gəlir». Lakin yalnız həyatı deyil, ölümün özünü də tanımaq üçün ölmək vacibdir. Burada əhəmiyyətli bir amili vurğulamaq lazımdır: müxtəlif qorxu sahiblərinin ölümdən sonrakı dirilişi də fərqlidir. Üzü rəzilliyə doğru olanlar daha da rəzilləşir, üzü kamilliyə tərəf olanlar kamilliyə bir addım da yaxınlaşmış olur.

Bununla belə, nəzərə alınsa ki, bu ölüm növü məhz müəyyən təfəkkür səviyyəsinə çatmış şəxslərə xasdır, onda ikincinin, yəni diri-diri ölməyin kamilliyə aparmasına daha çox rast gəlindiyini demək olar. Başqa sözlə desək, diri ikən ölmək kamillik prosesinin keçid mərhələsidir. İnsanın idrak prosesi dairə xarakterlidir, daha doğrusu, əvvəlkini də əhatə edən və get-gedə genişlənən dairələr şəklində. Hər dəfə çıxış nöqtəsinə çatan insan öz sonunu – ölümünü və yenidən doğuluşunu – başlanğıcını yaşamalı olur: . Yəqin buna görədir ki, kamilləşmək istəyən şəxs ölümü dadmaq istəyir. Belə bir nəticəyə gəlmək olar ki, fizioloji ölüm bu ölümlərin xitamvericisi olduğu kimi, təfəkkür prosesində də böyük bir keçid olmalıdır. Yuxarıdakı rəvayətdə olduğu kimi. Bilən Allahdır.

Nəhayət, ölümün sonuncu növü: «Mən»in ölümü. Bu, yalnız təfəkkür və əxlaqına, iradə və imanına görə yüksək mənada seçilən şəxslərə xas bir ölümdür. Bunu nəzərə alaraq, «Mən»in ölümünün izahına keçməzdən əvvəl ilahi zərrə və seçilmiş şəxslər haqqında qısa bir şərh verək.

Bir qüdsi hədisdə Allah təala buyurur: «Mən gizli bir xəzinə idim, tanınmaq istədim və xəlqi yaratdım». Təsadüfi deyil ki, təsəvvüfdə kamilləşmə prosesinin sonunda insan o dərəcədə cilalanmalı, maddi istək və arzulardan təmizlənməli, mənən saflaşmalıdır ki, Allah təala orada güzgü kimi Özünü görə bilsin.

Allahın əksər sifətlərinin daşıyıcısı olan insanın da kəşf edilməyə, dərk olunmağa ehtiyacı var. Hər insanda onu «o»

edən bir zərrə var, tanınmağa, dərk olunmağa, sevilməyə ehtiyacı olan bir zərrə. O tanınmayana qədər həmin insan əzab-əziyyət çəkir, özünü görə bilmək üçün «güzgü» axtarır, özünə müvafiq güzgü tələb edir. Həmin zərrə hər kəsin öz təfəkkür səviyyəsinə uyğun olaraq kəşf olunur: kimisində bu zərrə maddi çərçivədən o tərəfə keçmir, kimisində də o, yüksək iman və sevgi ilə cilalanmış bir dürr halındadır. Xüsusilə qeyd edilməlidir ki, ***yalnız «güzgüdə» əks olunmuş zərrə kəşf olunmuş sayılır və yalnız kəşf olunmuş zərrədən cəmiyyətə bir xeyir dəyə bilir.***

Öz zərrəsinin mahiyyətini dərk edən insanlar onu bu maddi dünyanın yazılmış-yazılmamış qanunlarından qorumağa çalışır, onu çirklənməyə, zədələnməyə, kiçilməyə, yad təsirlər altına düşməyə qoymur və həmin zərrənin üzərinə qabıq üstündən qabıq gəlməyə başlayır: insanın iradəsi möhkəmlənir, sərtləşir, məqsədi aydınlaşır, təfəkkürü itiləşir. Əvəzində nüvə neçə qalın qatın altına düşür. Təsadüfi deyil ki, polad qılınc ancaq min bir əziyyətdən, istidən, soyuqdan, zərbələrdən sonra tükü qırx bölə bilir. Ekxart yazır: «İnsanın özündə onun qəlbinin dərinliklərini gizlədən çoxlu pərdələri var. İnsan çox şey bilir, bir özünü bilmir. Bəli, ruhu örtən otuz ya da qırx pərdə, öküz və ya ayınınkı kimi qalın və möhkəm dəri var. Öz mülkünə daxil ol və orada özünü dərk etməyi öyrən».[1]

Qabıqların çoxalması həm də kəşf olunmaq imkanının azalması, hətta heçə enməsi deməkdir. Əbu Turxan yazır: «Yüksək mənəviyyatlı, incə ruhlu, parlaq qəlbli insanları heyrətləndirmək, məftun etmək üçün (məhz bu heyranlıq,

---

[1] *Хаксли О.* Вечная философия. М., Эксмо, 2004, с. 248.

aşiqlik ilahi zərrəni kəşf edir! – K.B.) daha böyük gözəllik, daha həssas və daha mürəkkəb tərəf-müqabil lazımdır».[1] Sokrat tələbələrinin təfəkkür aynasını cilalayıb özünə «baxmaqla» Sokrat oldu. Cəlaləddin Rumi Şəms Təbriziyə rast gələndən, özünü kəşf edəndən, Şəmsin könül aynasında özünü görəndən sonra Mövlana oldu. Həllac isə insanlar arasında özünü görə biləcəyi bir könül görmədi və …ölüm arzuladı.

Öz zərrəsini kəşf etmiş və bununla kifayətlənməyib başqalarının zərrələrinin kəşf olunmasına köməklik etməyə çalışan, onlara ayna olmağa çalışan insanlar seçilmişlərdir və ya Kamil İnsanlardır.

Onu da bildirək ki, Kamil İnsan İslam fəlsəfəsində, xüsusilə təsəvvüfdə geniş, mürəkkəb və ayrıca tədqiqat mövzusu ola biləcək bir fenomendir. Biz isə onun yalnız kontekstimizə uyğun gələn bir tərəfinə aydınlıq gətirməyə çalışırıq.

Zamana və şəraitə uyğun olaraq Kamil İnsanlar adamlara müxtəlif həqiqətləri anlatmağa can atırlar: azadlıq, mübarizə, ülviyyət, yüksək iman və s. Lakin bunların hamısı bir həqiqətə dayanır – İnsan həqiqəti, yəni onlar hər şeyə məhz İnsan zirvəsindən baxmağı öyrədir. Bioloji quruluşundan çıxış edib insanın heyvan olduğunu iddia edənlərdən fərqli olaraq Kamil İnsan heyvan olmaq istəməyəndir. O, özünün insani sifətlərini dərk edən, insanlara da onların özlərini tanıtmağa çalışan şəxsdir. Rabindranat Taqorun bildirdiyi

---

[1] *Хялилов С.* Мящяббят вя интеллект. Фялсяфи есселяр. Б., Нурлан, 2006, с. 37.

kimi: «Güclü və qüdrətli olmaq qüvvəyə görə üstün olmaq deyil, zəifi öz zirvənə qaldıra bilməkdir».[1]

İlk baxışda gözəl bir missiya, ali bir niyyət, xeyirli bir addımdır. Bəs elədiklərinə görə aldıqları cavab nə olur? Ağrı və əzab dolu bir həyat, yaxşı halda nifrət, cəmiyyətdən təcrid edilmə, pis halda edam. Qəribədir, cəmiyyət nadir halda onun qayğısına qalanı sağ ikən sevir.

Kamil şəxslərin dönə-dönə ölüb doğulmaqları və kamilləşməkləri mənəvi bir prosesdir və əksəriyyətin diqqətindən kənarda qalır. Bundan fərqli olaraq, tarixdən belə məlum olur ki, əksər hallarda onların fizioloji ölümü böyük səs-küyə səbəb olmuşdur. O da məlumdur ki, bəzən onların fiziki məhvi cəmiyyət üçün (və ya kimlər üçünsə) o dərəcədə zərurətə çevrilmişdir ki, onu hətta edam vasitəsilə həyata keçirməli olmuşlar: Sokrat, Həllac, Bruno, Sührəvərdi və daha kimlər.

Kamil İnsanların fiziki məhvi üç hiss doğurur (bu hal bütün dövrlər üçün xarakterik olduğuna görə, onun haqqında keçmiş zamanda yazmağın bir əhəmiyyəti yoxdur): onlar özləri sevinir, onların tələbələri kədərlənir, xalq isə laqeyd qalır.

Onlar özləri ruhlarının qanadlarını kəsən fiziki bədəndən qurtulmaqlarına, müvəqqəti yolu bitirib əbədi yola başlamaqlarına, həqiqət aləminə qovuşmaqlarına, ölümün növlərini yaşamaqdan və tutqun könül güzgülərinə baxmaqdan qurtulmaqlarına sevinirlər. Ancaq onlarda bir narahatlıq da qalır: onları duymayan, anlamayan cəmiyyətin oyan-

---

[1] *Лазарев С.Н.* Диагностика кармы. Книга 1. Система полевой саморегуляции, С.-П., 2002, с. 45.

mamasından, su kimi lal qalmasından, daha artıq könüllərin güzgüsünü cilalaya bilməməklərindən doğan narahatlıq. Kamil şəxsin ölümünə ağlayan onların fiziki məhvinə ağlayır. Kamil İnsan isə bu an, bu saniyə üçün öz missiyasının bitməməsinə və ya lazımi şəkildə bitməməsinə, bəlkə də ondan sonra insanların yenə də ölüm yuxusuna gedəcəklərindən əmin olduğuna, güc və qüdrətini bütünlüklə realizə edə bilməməsinə görə ağlayır.

Ən dərin kədəri duyan və ən ağır zərbəni alan onların tələbələri olur. Tələbələr yollarına düşən işığın söndüyünü, qalxdıqları dağda bələdçisiz qaldıqlarını, onların şəxsiyyətlərinin formalaşmasının yarıda qırıldığını dərk edir, bundan təşvişə düşür və öz hallarına (!) göz yaşı tökürlər.

Xalq maraqla onların halına onlardan çox yanan insanın ölümünə, hətta edamına baxır, ***bir insanın məhvinə*** baxır, eşafotda baş verən faciəni böyük maraqla izləyir, ən yaxşı halda öz ölümünü gözünün qabağına gətirib ağlayır, daha böyük faciəyə – bu insanın ölümü ilə daha bir nurun sönməsinə isə tamamilə laqeyd qalır, çünki bu faciənin mahiyyətini dərk etmir. Bəli, xalq onun qayğısına qalanı sağlığında sevə bilmir, çünki o, onları incidir, adət etdiyi düşüncələrdən, həyat tərzindən (rəzil bir həyat olsa belə!) uzaq salmağa çalışır. Tarixin uzaq illərində qalmış bir dahi, qəhrəman isə ümid, qürur və güvənc yerinə çevrilir. Qəribədir, xalq uzaq keçmişdəki qəhrəman oğlu ilə qürur duya-duya müasiri olan qəhrəmanının məhvinə, edamına maraqla, laqeydliklə tamaşa edir. Qəbul etmək istəmirlər ki, uzaq keçmişdə qalan qəhrəman da bir vaxtlar oxşar laqeydliyin qurbanı olub. Yəqin bu, dağın yüksəkliyinin ondan uzaqlaşdıqca daha aydın görünməsinin nəticəsidir.

Bəlkə də, korluq pərdəsinin çürüyüb yırtılması üçün zaman lazımdır. Yadıma quyuya yıxılıb ölən qədim yunan filosofu Fales düşdü: gözləri göylərdə həqiqət axtaran filosofu ayağının altında görmədiyi bir quyu məhv edib.

İnsan ilahi zərrəsini saflaşdırdıqca, qoruduqca və kamilləşdikcə cəmiyyətdən, kütlədən aralanır (və ya cəmiyyət ondan aralanır?!) və o, üzünü ən Kamilə – Allaha tutmalı olur. İlahi aləmlə vəhdətə çatan, öz ilahi zərrəsinin mahiyyətini anlayan, «Mən»ini kəşf edən (eyni zamanda onu ilahi həqiqətdə əridən, məhv edən) insanın ilk baxışda heç nəyə ehtiyacı yoxdur. Yaşanan fəna-bəqa halları, nirvanalar buna gözəl nümunədir. Bu, «Mən»in ali mənada ölümüdür və nadir şəxslərə qismət olur.

Bununla belə, ortaya başqa bir məsələ çıxır: vəhdət tapan ruhdur. Lakin müəyyən bir maddi bədəndə var olduğuna görə bu ruh yenə maddi dünyaya qayıtmalıdır. ***İlahi aləmdən qoparılıb bir maddi bədəndə fərdiləşdirilmiş ilahi zərrə müəyyən bir cəmiyyət üçündür və burada kəşf olunmalıdır.**** Dəryaya qatılmış bir damla yenidən damla halına gətirilir, üstəlik bu dəfə susuz bir qumluğa düşür. Eşidən, amma dinləməyən qulaqlar, baxan, amma görməyən gözlərə, danışan, amma həqiqət söyləməyən dillərə, döyünən, amma duymayan ürəklərə sahib olan bir cəmiyyəti öz «Mən»ini

---

* Мараглы бир суал йараныр: юз вятянини тярк едиб эедян йарадыжы шяхслярин зярряси щансы жямиййят цчцн нязярдя тутулуб? Бялкя бу сябябдяндир ки, онлардан бязиляри йарадыжылыг цчцн даща эениш имканлар арзусу иля башга юлкяляря кючсяляр дя мянян итирдикляри тапдыгларындан чох олур?! Бязян ися яксиня, онлар мящз башга бир юлкядя юз мягсядляриня чатыб, жямиййятя бир хейир веря билирляр.

dərk etmiş bir insan üçün susuz səhradan başqa nə adlandırmaq olar? Damla qurumamaq üçün, eyni zamanda, başqa damlaları qurumaqdan xilas etmək üçün özünə bənzər damlalar aramağa başlayır. Hər damlanın quruması bir «Mən»in ölümüdür, hər kəşf olunmamış ilahi zərrə bir «Mən»in ölümüdür. Damla böyük bir dəryanın damlası olduğunu bilə-bilə quruyur. Bəlkə də bu həqiqəti bütün çılpaqlığı ilə çatdırmaq çətin və dəhşət doğuran bir hiss olduğuna görə biz təşbihlərə üz tutmalı oluruq… Bəli, «Mən»in ölümü «Mən»ini tanıyan adamlara xasdır və ilk iki ölümdən daha dəhşətlidir: bu, öz ölümünü, öz məhvini qana-qana yaşamaqdır.

Təsəvvüf fəlsəfəsinə görə, maddi dünya bir insanın – qütbün üzərində və ya çiyinlərində durur. Bunu başqa cür belə ifadə edə bilərik: dünya məhz həmin şəxsə səbəb mövcuddur. Bir az böyüdülmüş kimi səslənsə də, bunda müəyyən həqiqət də sezmək mümkündür. Şərq fəlsəfəsindən gələn bu fikir əslində bir bəşəriyyət üçün keçərlidir. Tarixə nəzər salsaq görərik ki, dünyanın gah bu başında, gah tamam digər tərəfində ayrı-ayrı şəxsiyyətlər olmuşdur ki, onların nəinki hər hansı düşüncələri, ideyaları bəşəriyyətin taleyində həlledici rol oynamışdır, hətta onların sadəcə mövcudluğu belə böyük əhəmiyyətə malik olmuşdur.

Yeri gəlmişkən, bu gün də (mövcudluğun zəruri bir qanunu olaraq!) yaşayıb-yaradan Kamil İnsanlar mövcuddur, lap yaxında, hər kəsin gözü qarşısında…, ancaq adlarını çəkmək cəmiyyətin nifrətini onlara qarşı yönəltmək demək olardı. Onsuz da çiyinlərinə düşən missiya, cəmiyyətin yatmış təfəkkürünü oyatmaq yükü onları kifayət qədər incidir. Suda boğulan adamı xilas edəndə birinci təhlükə elə

həmin adamın özündən gəlir, çünki o, boğulmaq təşvişi, panikası ilə sənin özünü suyun altına basa bilər.

İlahi zərrə təsadüfən ölüm və qorxu kontekstində işlədilmir. Məsələ burasındadır ki, onun əsl mahiyyətinin dərki həm ölümə, həm də qorxuya fərqli bir rəng verir. Nədir ilahi zərrə? Səni SƏN edən nədir?

İlahi zərrə – yaradılışdan insanın mahiyyətinə qatılmış və ya yaradılışının əsli olan sevgidir. Müdriklərdən biri Xuan de la Krus yazır: «Ruh daha çox canlandırdığı bədənlə deyil, sevməklə canlıdır. Onun canı bədəndə deyil. Əslində bədənə həyatı o verir, onun həyatı isə sevməsindədir».[1] Eyni zamanda, insanın iman və iradə gücü məhz sevgidə gizlidir. N.Kuzanlının bildirdiyi kimi, o, «imanın ülvi qəsrinin rəmzidir».[2]

İlahi zərrə – hər ölümü dadmağa ürəkləndirən, hər ölümdən sonra dirildən, hər ölümdən sonra adamın üzünü kamilliyə yönəldən bir duyğu, ölümdən ölümə yaşamaq iradəsidir.

İlahi zərrə – primitiv qorxulardan sıyrılıb qorxunun ali səviyyəsinə – ilahi nurun sönməsindən və bundan təfəkkürünün, könül gözünün kor olmasından qorxmağa yüksəlişdir.

İlahi zərrə – düşünmək, varlığındakı sevgini dərk etmək, əllərini, könlünü İlahi nur üçün açıq saxlayıb daxilində sevgi işığını yandırmaq bacarığıdır. Təfəkkürlər müxtəlifdir, ilahi zərrə isə məhz sevgi işığında insanı düşündürən və ilahi aləmə könüldən açılan qapını göstərən yaddaşdır.

---

[1] *Хаксли О.* Ады чяк. ясяр, с. 147.

[2] *Кузанский Н.*Сочинения в двух томах, т. 1, Москва, Мысль, 1979, с. 177.

## *Bəşər tarixində soyqırım hadisəsi*

Allah Təala insanları eyni yaratsa da, onları müxtəlif xalqlara bölmüş, onları fərqli dillərdə danışdırmışdır. Fərq yalnız zahirə aid olsa da, bu fərqin törətdiyi fəsadlar çox güclü olmuş, hətta mənəviyyatı idarə edən və formalaşdıran amilə çevrilmişdir.

Məqsədlərini, istifadə etdikləri taktikalarını nəzərə alaraq müharibələri bir neçə yerə bölmək olar: qoşun vasitəsi ilə aparılan və qurbanları, qanlı nəticələri olan silahlı qarşıdurmalar; öz mədəniyyətini məcburi şəkildə qəbul etdirməklə yerli mədəniyyəti sıxışdırıb aradan çıxardan, qansız, qurbansız, lakin daha ağır nəticə ilə bitən istilalar. Birincilərə məlum tarixi müharibələri, ikincilərə isə nümunə olaraq Böyük Britaniyanın «üçüncü dünya dövlətlərində» apardığı məqsədyönlü «ingilisləşmə», Sovet İmperiyasının «ruslaşma» və s. bu kimi oxşar siyasətlərini aid etmək olar.

Müharibələr çərçivəsində aparılan, lakin müharibə qanunlarından kənara çıxan və tarixə soyqırım adı ilə daxil olan hər hansı bir «xalqı məhvetmə» prosesi də mövcuddur ki, insanlıq baxımından heç bir çərçivəyə sığmır, nə heyvan, nə bitki, nə də minerallar arasında müşahidə edilmir.

Ensiklopedik məlumatlara görə, soyqırım (genosid) – (yunanca genos – tayfa, nəsil və latınca caedo – öldürürəm) əvvəla, «əhalinin ayrı-ayrı qruplarının irqi, milli və dini zəmində məhv edilməsi», ikincisi, «insanlıq əleyhinə ən dəhşətli cinayət» deməkdir.[1]

İlk dəfə 1945-ci ildə Nürnberq məhkəmə prosesində «müəyyən irq və onun təbəqələrinin, xalqların məhv edilməsi məqsədi ilə işğal edilmiş bölgədə irqi və dini qrupların əvvəlcədən düşünülmüş və sistematik şəkildə məhv edilməsi»[2] kimi təqdim edilmişdir.

1948-ci ilin 9 dekabr tarixində BMT-nin Baş Assambleyası tərəfindən «Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzanın verilməsi haqqında»[3] konvensiyanın qəbul edilməsinə baxmayaraq, belə hadisələr bu gün də etnik, dini və irqi qrupların məhv edilməsi şəklində rast gəlinməkdədir.

Soyqırım bir termin olaraq XX əsrin ortalarında yaransa da, bir cinayət kimi yalnız faşizmin İkinci Dünya müharibəsi zamanı törətdiyi vəhşiliyin mühakiməsindən sonra qəbul edilsə də, onun tarixi daha dərindir. Onu da əlavə edək ki, soyqırımlar müharibələrə nisbətdə daha az sayda baş versə də, qurbanlarının sayına və törətdikləri qəddarlığın miqyasına görə müharibədən daha böyük və daha dəhşətlidirlər.

---

[1] Электронная еврейская энциклопедияwww.eleven.co.il/letter/202

[2] Геноцид. www.naiau.kiev.ua/tslc/pages/humanrigth/glossary/index_r_3.htm

[3] Большая Советская Энциклопедия. www.dazzle.ru/antifascizm/genocide.shtml

Soyqırım hadisəsi elmin müxtəlif sahələrində kifayət qədər öyrənilmiş və öyrənilməkdədir. Faktla bağlı biz də öz mülahizələrimizi bölüşmək qərarına gəldik.

Soyqırımların törənmə səbəblərini nəzərə alsaq, onları aşağıdakı şəkildə təsnifləşdirmək olar:

1. *Müharibə əməliyyatları nəticəsində vəhşiləşmiş əsgərlərin qarşısıalınmaz hərəkətlərinin «məntiqi davamı» olan soyqırım.* Məsələn, Birləşmiş Ştatların Uzaq Şərqdəki hərbi əməliyyatlarını bu qəbildən olan soyqırımlardan hesab etmək olar (1965-75-ci illərdəki Vyetnam və ya İkinci Hind-Çin müharibələri). Onu da qeyd etmək lazımdır ki, belə soyqırımlar bəzən müharibənin bir hissəsi kimi qəbul edilir. Təbii ki, belə olan halda, bu, həm hadisənin bir soyqırım kimi düzgün qiymət almamasının, həm də müəyyən xalqların haqlarının pozulmasının cəzasız qalmasına gətirib çıxarır.

2. *Müəyyən əraziləri ələ keçirmək və bu məqsədlə həmin ərazidə yaşayan xalqların kütləvi şəkildə qırılmasının nəticəsi olan soyqırım.* Buna misal olaraq, Amerika materikində avropalıların (əsasən də ispanların) yerli əhali olan hinduları məvh etmələri faktını göstərmək olar. «Müasir məlumatlara əsasən, 12 oktyabr 1492-ci ildə Xristofor Kolumb tezliklə «Yeni dünya» adlandırılacaq qitənin adalarından birinə düşəndə onun əhalisi 100-145 mln. nəfər idi.[1] İki əsr sonra əhalinin sayı 90% azalmışdı. Bu gün hər iki Amerikanın sağ qalmış «ən xoşbəxt» xalqları 5%-dən çox təşkil etmir. Özünün miqyasına və bu günə qədər davamiyyətinə görə Qərb yarımkürəsinin yerli əhalisinin

---

[1] *Станнард Д.* Американ Щоложауст: Тще Жонгуест оф тще Нew Ворлд. Охфорд Университй Пресс, 1993.

soyqırımının dünya tarixində paraleli yoxdur. Belə ki, 1492-ci ilə qədər 8 mln. məntəqə çiçəklənməkdə idi. 1570-ci ildən isə yerli əhalinin ancaq iki bərbad kəndi qalmışdı. 80 il əvvəl Kolumb onlar haqqında «dünyada onlardan daha yaxşı və mülayim adamlar yoxdur», – deyə yazmışdı».[1]

3. *Müəyyən xalqın digər xalqa nifrəti nəticəsində olan soyqırım*. Bu, soyqırımın daha çox rast gəlinən halıdır. Nifrətin səbəblərini də müxtəlif şəkildə qruplaşdırmaq olar:

a) *dini barışmazlıq*. Bu qəbildən olan soyqırımlara əsasən «1096-1291-ci illər ərzində (1096-1097 – I, 1147-1149-cu illər – II, 1189-1192-ci illər – III, 1201-1204-cü illər – IV Xaç yürüşləri) müqəddəs xristian məbədlərinin və Fələstinin müsəlmanların (və yəhudilərin – K.B.) hakimiyyətindən azad edilməsini özlərinə şüar götürmüş Avropa katolik qüvvələrinin hərbi ekspedisiyaları»[2] şəklində aparılan Xaç yürüşlərini aid etmək olar. Məlumatlara görə, I Xaç yürüşündə Metsada 23 yəhudi öldürülür, Şpeyerdə xaçlılar bir hissə yerli əhalinin köməkliyi ilə «xaç suyuna çəkilmək istəməyən hər yəhudini öldürürdülər», «məcburən xaç suyuna çəkilməmələri üçün anaları öz övladlarını öldürürdülər», «Trirdə yəhudilər çayda batırılırdılar». Ümumiyyətlə, yalnız «1096-cı ildə (I Xaç yürüşündə) Almaniya və Çexiyada 5 min yəhudi öldürülmüşdü».[3]

b) *şəxsiyyətə pərəstiş kimi təyin edilə bilən, özünün bir xalq olaraq digərlərindən yüksək dəyərləndirilməsi*. Buna

---

[1] *Баумгартен А.* Американский Геноцид. http://usatruth.by.ru/index.html

[2] Электронная еврейская энциклопедия. http://www.eleven.co.il/letter/202

[3] Йеня орада.

misal olaraq alman faşizmini göstərmək olar. Məlumatlara görə, «Böyük Vətən müharibəsi illərində SSRİ-dən Almaniyaya 5.269.513 insan aparılmışdı. Onların taleyi amansız olmuşdur. Ərazi azad ediləndən sonra düşərgə yerləşən yerdə böyük bir çalada 3000 qızıl əsgər və sovet vətəndaşının meyiti tapılmışdır. Meyitlərə baxış zamanı işgəncələrin nə dərəcədə vəhşicəsinə olması aydın oldu: çoxunun əlləri, ayaqları sındırılmış, kəllə sümükləri əzilmiş, qulaqları kəsilmiş, gözləri çıxarılmışdı».[1]

c) *özünün başqa xalqdan əskikliyini gizlətməkdən doğan hərəkət*. Bunun ən bariz nümunəsini ermənilərin türklərə qarşı törətdiyi vəhşilikdə görmək mümkündür.

Məlum olduğu kimi, türklər ermənilərlə uzun illərdir qonşudurlar. Və ermənilər əsrlər boyu türklərə qarşı həm müharibənin hər iki növündən istifadə etmiş, həm də müəyyən vaxtlarda soyqırımlar törətmişlər: 1905, 1918-1920, 1988-1993-cü illərdə baş vermiş hadisələr buna misaldır.

«XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, öz ev-eşiyindən zorla qovulmuşdur.

Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyidi tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının

---

[1] Против лжи. http://www.kolumbus.fi/yevgeni.korolev/index.html

yandırıldığı da bu dəhşətli faktların sırasındadır.[1] Onu da qeyd edək ki, istinad etdiyimiz məqalədə yalnız Bakıda deyil, ümumiyyətlə, İrəvan quberniyasından tutmuş Naxçıvan qəzasına qədər ermənilər tərəfindən minlərlə dinc əhali qətlə yetirilmiş, qadın, uşaq və qocalara işgəncələr verilmiş, mədəni abidələr dağıdılmışdır.

1992-ci ilin 25-26 fevralında Azərbaycanın Xocalı şəhərinin əhalisi üçün dəhşətli faciə baş verdi. Erməni və onların muzdlularının törətdiyi soyqırım nəticəsində 613 insan öldürüldü, 487 nəfər şikəst edildi, 1275 nəfər Əsir götürüldü. Ölənlərdən 106 nəfəri qadın, 83-ü uşaq olmuşdur».[2]

Göründüyü kimi, soyqırım bəşər tarixində zaman-zaman baş verən, əksər hallarda öz hüquqi qiymətini ala bilməyən hadisədir. Qısa xronologiyadan aydın oldu ki, soyqırımların dəhşəti sivilizasiyanın inkişafı ilə heç də azalmamış, əksinə, hətta artmışdır. Məhz son əsrlər ərzində ermənilərin türklərə, xüsusilə azəri türklərinə qarşı törətdikləri soyqırım hadisələrinin bir neçə dəfə təkrarlanması və belə hadisələrin dünya ictimaiyyətində əks-sədasız qalması, öz cəzasını almaması, əvəzində uydurulmuş tarixi faktlara rəvac verilməsi soyqırımların gələcəkdə də bəşəriyyəti dəhşətə gətirəcəyi faktından xəbər verir.

---

[1] 1918-1920-жи ил щадисяляри, март сойгырымы. www.kesanhaber.net/kategory.asp

[2] Ходжалинская трагедия. www.azerbaicanfoundation.org/cgi-bin/e-cms

## *«Mən» və cəmiyyət*

İnsan və cəmiyyət problemi müxtəlif aspektlərdə tədqiq edilmiş və edilməkdədir. Tarixi faktların, gələcək proqnozların tədqiqinə istinadən cəmiyyətin yeni modelləri hazırlanıb təqdim edilir və bütün bu cəhdlər insan və cəmiyyət arasındakı qarşılıqlı anlaşmanı artırmağa, aralarındakı mümkün ziddiyyətləri həll etməyə, hər birinin həm ayrılıqda, həm də bərabər şəkildə yüksələn xətt boyunca inkişafına xidmət edir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, bir çox hallarda insan və cəmiyyət arasındakı sıx əlaqəyə baxmayaraq, onlar iki ayrı, müstəqil obyekt kimi nəzərdən keçirilir ki, bu da hər ikisinin daha dərindən araşdırılmasına imkan yaradır.

İnsan və cəmiyyət bir sıra məsələni ehtiva edən mürəkkəb bir problemdir. Bu məsələlərdən biri də «mən» və cəmiyyətdir, yəni insanı bütün xüsusiyyətləri ilə deyil, yalnız «mən» olaraq cəmiyyətlə qarşılaşdırmaq, üz-üzə qoymaqdır. Onu da əlavə edək ki, burada müxtəlif münasibətlərdən danışmaq mümkündür və bu fərqli baxış prizması məsələnin ayrı-ayrı tərəflərinin işıqlanması deməkdir. Belə ki, bir var cəmiyyətdən fərdə, zahirdən batinə doğru istiqamətlənən tədqiqat, bir də var fərddən cəmiyyətə, batindən zahirə doğru. Məqalənin mövzusunu nəzərə alaraq, yəni ön planda insanın «mən»i, mənəviyyatı, iç dünyası durduğuna görə, biz

məsələnin həllini ikinci istiqamət boyu aparmağa üstünlük veririk. Başqa sözlə desək, məqalənin məqsədi «mən»in cəmiyyətlə əlaqəsini araşdırmaq, bu «məkandan» cəmiyyəti dəyərləndirərək subyektin obyektivləşməsi prosesində gedən dəyişiklikləri təhlil etməkdir.

«Mən» kimdir və şəxsiyyətin hansı tərəflərini özündə ehtiva edir?

İnsan öz zahiri və batini xüsusiyyətlərinə görə fərqli varlıqlarla – canlı və ya cansız – müqayisə edilir, onlarla bənzəyişləri araşdırılır. Deyilənlərdə haqlı cəhətlər yox deyil və bu müqayisələr əslində həmin obyektlərdən daha çox, insan fenomeninin tam şəkildə açılmasına xidmət edir.

Ta-a qədimdən insanın bir müqayisə obyekti də olmuşdur – Mütləq Varlıq – fərqli dövrlərdə, fərqli dünyagörüşlərdə necə adlandırılmasından asılı olmayaraq. Bu müqayisələr müxtəlif xarakterli olmuş və təbii ki, fərqli məqsədlərə xidmət etmişdir. Məsələn, tanrıları qəzəbli, insanları isə məsum təqdim etməklə insanları gözəl əməllərlə, yüksək əxlaqla bu qəzəbdən uzaq olmağa, bu qəzəbi soyutmağa çağırıblar, yaxud tanrılar ölümsüz, əbədi, müdrik, insanlar isə ölümlü və cahil göstərilməklə insanlar yüksək biliyə, mənəvi saflığa, müdrikliyə sahiblənməyə və bu müdrikliklə əbədiyyəti qazanmağa dəvət olunublar. Bu müqayisələrdə insanları belə addımlara meyl etdirən, ürəkləndirən, hətta iddialandıran əhəmiyyətli bir faktor da mövcuddur: insanların tanrılara məxsus əksər keyfiyyətlərə malik olmaqları.

Səmavi dinlərdə Tanrı-insan müqayisələri daha aydın və dəqiq şəkildə aparılır: müqəddəs kitablarda insan Allahın əksər sifətlərinin (hətta bəzi zati sifətlərinin) daşıyıcısı olaraq

təsvir edilir. Burada əhəmiyyətli bir məqamı da vurğulayaq ki, istər qədim miflərdə, istərsə də səmavi dinlərdə hər nə qədər insan günahkar, aciz, zəif təqdim edilsə də, məhz ali sifətlərin daşıyıcı kimi yaradılmışlar arasında yalnız ona kamilləşmə və yüksəlmə imkanı verilir. Məsələn, Qurani Kərimin «Əsr» surəsində deyilir: «Həqiqətən insan həmişə ziyan içindədir, o kəslərdən başqa ki, onlar iman gətirib əməlisaleh olublar, bir-birlərinə haqqı tövsiyyə ediblər, səbri tövsiyyə ediblər» (Quran 103/2-3). Maraqlıdır ki, əfsanələrdə, bəzi dini-mistik təlimlərdə özünün ilahi sifətlərini üzə çıxardan, inkişaf etdirən insan nəinki yer üzünün əşrəfinə, mütləq qüdrət sahibinə çevrilir, hətta tanrının özü ilə də rəqabətə iddialanır.

Söylənənlər müəyyən mənada yenilik deyil, eyni zamanda, məhz bu cəhət bizim təqdim etdiyimiz mövzunun təməl nöqtəsi olacaq, yəni «mən»in təhlilində insanın ilahi keyfiyyətlərin daşıyıcısı olması ön planda tutulmaqla yanaşı, onun cəmiyyətlə əlaqəsi də bu aspektdən araşdırılacaqdır.

Onu da əlavə edək ki, öz təhlillərimizdə biz də eyni mövqedən çıxış etməyə çalışmışıq, yəni «mən»in təhlilini insanın Ali Varlıqla müqayisəsi vasitəsilə vermişik.

Orta əsrlərin islam mənbələrində Allah Təalanın təkliyini, yeganəliyini ifadə edən bir söz kimi «ənəniyyə» («mənlik») və onun sinonimi kimi «əhədiyyət» («təklik») sözlərindən istifadə edilir. Allahın bu sifəti Onun bütün digər varlıqlardan kənarda, onların fövqündə, hətta düşüncə və kəlamlardan belə ucada dayanmış bir varlıq olduğunun dəlilidir. Məsələn, Mühyiddin ibn Ərəbi yazır: «İlahi

əhədiyyətə bir kimsə üçün yol yoxdur»[1] və ya «Əgər sən Ona səninlə baxsan, əhədiyyət olmaz, Onunla və səninlə baxsan, yenə əhədiyyət olmaz».[2] Əhədiyyət və ənəniyyə ilə bağlı deyilən kəlamları digər bir sufi mütəfəkkiri Sədrəddin Konəvi belə təhlil edir: «Əhədiyyət Mütləqin deyil, təyin olunmağın bir xüsusiyyətidir, çünki Mütləqin hər hansı bir ismi və vəsfi yoxdur».[3] Eyni mövqeyi Qərb mütəfəkkirlərində də müşahidə etmək mümkündür. Məsələn, Dionisiy Areopaqit bildirir ki, «heç bir nur Onu (Allahı) ifadə edə bilməz; hər ağıl və kəlam Ona bənzəməkdən sonsuz qədər uzaqdır».[4] Ekxart da onunla eyni fikirdədir: «Allah bütün surətlərdən, sifətlərdən yüksəkdədir. Onun barəsində danışma, çünki O bundan ucadadır. Ən yaxşısı susmaqdır»[5] və ya «Bilirsinizmi, Allah niyə Allahdır? Çünki O, məxluqatdan kənardır».[6]

*«Mən» – insanın əhədiyyət mərhələsidir,* yəni hər «mən» insanın fərdi, təkrarolunmaz tərəfinin ifadəsidir, var oluşunun özəyi, zatıdır.

«Mən»in təhlilinə dair bir neçə fikirlə tanış olaq.

---

[1] *Ибн Яряби Мцщйиддин.* Фусус ял-Щикям, Истанбул, 1946, с. 90.

[2] Йеня орада.

[3] *Коневи С.* Ващдет-и вцжуд ве есаслары. Ен-Нусус фи тащкики таври‘л-мащсус / Терж.: Е.Демирли. Истанбул: Из йайынжылыг, 2002, с. 75.

[4] *Ареопагит Дионисий.* О небесной иерархии / Пер.: с греч. www.magister.msk.ru/library/bible/comment/areopag, с. 2/3.

[5] *Экхарт М.* Духовные проповеди и рассуждения / Перев. с нем. М.В. Сабашникова. С-Пб., Азбука, 2000, с. 152.

[6] Йеня орада, с. 26.

Upanişadların fəlsəfəsində (e.ə. VI əsr) deyilir: «…Atman… insan ruhunda olmaq etibarı ilə əsasdır, ancaq ruhun bütün şəxsi funksiyalarından azad olan «saf mən»dir. …Kim bu «mən»i tanısa bütün kainatı tanımış olur.[1] Ağacın varlığı kökündən, binanın quruluşu bünövrəsindən asılı olduğu kimi, «mən» də insanın mahiyyətinin, var oluşunun təməlidir. Lakin o, təməldədir, üzdə hər zaman görünmür. Şteynerin yazdığına görə, «"Mən" nəfs və bədəndə yaşayır; ruh isə «mən»də yaşayır. «Mən»də ruhdan olan şey əbədidir. Çünki «mən» öz varlığını və əhəmiyyətini əlaqəli olduğu şeydən alır».[2] Berdyayev isə bildirir ki, «ağıl ruhun məkanıdır və Allah orada təzahür edir. Ruhun ali idrakı eyni zamanda həm də özünüdərkdir».[3] «Mən»lə ruhun əlaqəsini nəzərə alsaq, onda Berdyayevin fikrindən belə nəticə çıxartmaq olar ki, «mən»in məkanı ağıldır. Dekart «mən»i daha geniş anlamda götürür: «Deməli, «mən», ciddi qəbul etsək, yalnız düşünən şeydir, yəni ruh və ya nəfs və ya ağıl (intendement) və ya əql (raison)… «Mən» heç də insan bədəni adlanan orqanlar birləşməsi deyil».[4]

Əslində, ilk baxışda deyilənlərdə kəskin fərq yoxdur. Lakin biz diqqəti başqa bir məsələyə yönəltmək istərdik: «mən»in daşıdığı funksiyaya. Şteynerə görə, «mən» insanı Allahla əlaqələndirməklə yanaşı, bir ruh daşıyıcısı kimi həm

---

[1] *Джнанакришна.* Виджнанапада. Философия сосредоточения. http://yogami.narod.ru/pada9.html, с. 3.

[2] *Штейнер Р.* Теософия. Введение в сверхчувственное познание мира и назначение человека. М., Амрита-Русь, 2004, с. 37.

[3] *Бердяев Н.А.* Дух и реальность. М., ООО «Издательство АСТ»; Харьков: «Фолио», 2003, с. 247.

[4] *Декарт Р.* Избранные сочинения. М., Наука, 1950, с. 344.

də bədən və nəfsi əlaqələndirir. Berdyayev insan bədənini bu əlaqədən kənarlaşdırır, yəni «mən» və bədəni bir-birindən ayırmaqla «mən»i cəmiyyətdən də ayırmış olur. Dekart da nəinki insan bədənini bu əlaqədən kənar qoyur, üstəlik «mən»i bütün düşünən şeylərin məskəni olaraq qəbul edir. Hər mütəfəkkirin öz prinsipindən irəli gələn bu fikirlərdə bir şey məlumdur: «mən» insanın insanlıq xüsusiyyətinin ən başlıcası, Allahın insanda təzahür meydanıdır. Bu təzahürü ruhda, təfəkkürdə, ağılda və s. görən mütəfəkkirlər müvafiq olaraq «mən»i də ruh, təfəkkür, ağıl və s. olaraq qəbul edirlər.

Beləliklə, *«Mən» – insanda Allahdan olan ilahi zərrədir* və ya *insanı Allahla vasitəsiz olaraq bağlayan ilahi bağdır*.

Yenə qayıdaq insanın Ali Varlıqla müqayisəsinə. Yaradılış iyerarxiyasında Allahın əhədiyyət mərtəbəsindən sonra Onun vəhdaniyyət mərtəbəsi gəlir. İbn Ərəbinin yazdığına görə, «Allah zatına görə əhəd (bir), adlarına görə külldür (çoxdur)».[1] Onu da bildirir ki, «ilahi adlar sonsuzdur, çünki o adlar onlardan vaqe olan şeylə tanınır və onlardan vaqe olan şeylər də sonsuzdur».[2] Nikolay Kuzanlı isə bütün mövcudatı özündə ehtiva edən Allahı nöqtəyə bənzədir: «Yalnız bir tək nöqtə mövcuddur; o, xəttin bükülüsü və kamilliyidir».[3]

İnsan müəyyən keyfiyyətlərə, qabiliyyətlərə, istedada malikdir ki, onu tanıdır, haqqında təsəvvür yaradır və digərlərindən fərqləndirir. Onlardan bəziləri insanla zəruri olaraq

---

[1] *Ибн Яряби Мцщйиддин.* Фусус ял-Щикям, Истанбул, 1946, с. 90.

[2] Йеня орада, с. 65.

[3] Кузанский Н. Сочинения: В 2-х т. т. 1, М., Мысль, 1979, с  419.

əlaqəli və ayrılmazdır, onun bəşəriliyinin təyinidir, digərləri müəyyən şəraitlə bağlı yarana, dəyişə və itə bilər. Bu, Allah Təalanın bütün ad və sifətlərinin, o cümlədən bir-birinə zidd olanların tək zat ətrafında birləşdiyi vəhdət aləminə bənzəyir. *«Mən» – insanın bütün keyfiyyət və qabiliyyətlərini birləşdirən vəhdət aləmidir*. İnsanın təfəkkürünün, hisslərinin obyekti kənar aləm olsa da, onların «süzgəci», forma qazandıranı «mən»dir.

Belə məlum olur ki, «mən» həm Allahın təzahür meydanıdır, həm də kənar təsirlərin. Lakin burada əhəmiyyətli bir məqam var: «mən» əhədiyyət məqamında Allahın adlarının təzahür meydanı olduğu halda, kənar təsirlərə ikinci mərtəbədə – vəhdət aləmində reaksiya verir və bu reaksiya bilavasitə birinci məqamın işığından asılıdır.

Deyilənlərdən çıxış edərək «mən» və cəmiyyətin əlaqəsi barədə qısa bir təhlil aparaq.

Qurani Kərimdə deyildiyinə görə, Allah Təala istəsəydi «insanları bir tək ümmət edərdi. Ancaq onları imtahan etmək üçün bir tək ümmət etmədi» (Quran 5/48). Ən zidd sifətlərə malik Allah Təalanın müxtəlif şəraitlərdə fərqli sifətləri təzahür edir: rəhimlilərin ən rəhimlisi də Allahdır, günah içində batmış şəhərləri yerlə yeksan edən də. Başqa sözlə desək, cəmiyyət öz xarakterinə uyğun olaraq Allah Təalanın sifətlərinin şahidi olur. Təbii ki, bu, Allahın hər hansı bir şəraitdən asılı olması anlamına gəlmir. Yenə Qurani Kərimdə bildirilir ki, insanlar məhz seçdikləri yolla aparılır və bu yola uyğun rəhbərə layiq görülürlər. Yəni dəyişən nə Allahdır, nə Onun sifətləri. Dəyişən insanlar, onların təfəkkürləri, dünyagörüşləri, mənəvi dəyərləri və buna müvafiq aldıqları cavablardır.

İnsanın «mən»inin təzahürləri də bilavasitə mühitdən, cəmiyyətdən asılıdır, çünki «cəmiyyət – «sosial instinktlərini» təmin etmək (Aristotel), öz hərəkətlərini idarə etmək (Hobbs, Russo) və s. üçün birləşən insan fərdlərinin birliyidir». Və ya «ictimai münasibətlər toplusudur».[1] Belə məlum olur ki, cəmiyyət müəyyən ənənələrin, siyasi və ideoloji məqamların şərtləndirdiyi bir qurumdur. Deyilənlərə onu da əlavə etmək olar ki, *cəmiyyət* həm də ayrı-ayrı *«mən»lərin təzahürlərinin toplusudur*. Lakin burada bir neçə məqama açıqlıq gətirmək lazımdır.

Əvvəla, söhbət oxşar təzahürlərdən gedir. Bunu bir növ oxşar, eyni daşların üst-üstə hörülərək binanın tikilməsinə bənzətmək olar. Təbii ki, sağlam daşlar üstünlük təşkil edəndə, bina da sağlam olur və təsadüfi əyri daşlar onlara uyğunlaşmağa məcbur olurlar, əks təqdirdə isə kənarda qalırlar. Əyri, yonulmamış daşlardan qurulmuş cəmiyyətlər isə gec-tez dağılmağa məhkumdur və yenidən tikilməlidir. Bu tikiliyə əlavə edilmiş hər yeni daş – «mən» – nə dərəcədə sağlam olmasından asılı olmayaraq eyni taleyi bölüşməli, istər-istəməz mövcud olduğu şəraitə uyğunlaşmaq üçün müvafiq sifətlərini üzə çıxartmalıdır. Yeri gəlmişkən, burada bir vacib anı da qeyd edək. Uçmuş binanın dağıntılarının özü də bir «tikili»dir. Belə olan halda cəmiyyət binanı yox, məhz belə uçuntuları xatırladır və bu uçuntunun daşları da, təbii ki, buranın qanunlarına tabe olmalıdırlar.

İkinci tərəfdən, tikilidə «daşlar» üst-üstə təsadüfən yığılmır. Burada bir neçə amilin əhəmiyyətli rolu vardır: qə-

[1] Философский энциклопедический словарь Москва: Советская энциклопедия, 1983, с. 451.

dim ənənənin, mentalitetin və …aparıcı qüvvələrin yaratdığı ab-havanın. Bu ab-hava məqsədyönlü şəkildə yaradıla bilər (ki, əksər hallarda məhz belə olur), baş verən iqtisadi, mədəni inkişafın zəruri nəticəsi kimi də yarana bilər və tədricən ilk ikisini sıxışdırmaq iqtidarındadır. Cəmiyyətin aparıcı qüvvələri deyəndə kimlər nəzərdə tutulur? Semenkin yazır: «Hər söz mədəniyyətin inkişafı üçün bəhrə sayılmaz. … Ölü sözlərin qəbirstanlığı var».[1] Yəni aparıcı qüvvə deyəndə söhbət məhz mədəniyyətin, iqtisadiyyatın inkişafında söz sahibi olanlardan gedir. Söz sahibi deyəndə isə heç də «mən» nəzərdə tutulmur. «Mən» cəmiyyətdə söz sahibi olmaya da bilər və əksinə söz sahibi «mən»indən bixəbər də ola bilər. Hər ikisi üst-üstə düşəndə isə sağlam bir binanın tikilisindən söz gedə bilər.

Maraqlı bir məqama gəldik: həm cəmiyyətin «mən»lərin təzahürü olmasından danışırıq, həm də cəmiyyətin qurulmasında və inkişafında «mən»in arxa planda qala biləcəyindən.

Yenə müqayisə vasitəsilə öz fikirlərimizi izah edək.

Allah bir yaradan olaraq bütün varlıq aləmində mövcuddur – ən kiçik zərrədən tutmuş bütöv kainata qədər. Bu, mütləq həqiqətdir. Lakin bu həqiqəti nəinki görməyən, hətta onu təhrif edən, inkar edən varlıqların olması da məlumdur. Həmin varlıqlar da mövcuddurlar, sadəcə öz varlıqlarının həqiqətindən uzaqdırlar və bu, onların varoluşunda, inkişafında öz mənfi rolunu müxtəlif şəkillərdə oynayır.

---

[1] *Семенкин Н.С.* Философия богоискательства. Критика религиозно-философских идей софиологов. М., Политиздат, 1986, с. 137.

Eyni halı cəmiyyətdə də müşahidə etmək mümkündür. Cəmiyyət «mən»lərin təzahürlərinin toplusudur. Ən əsası isə, «mən»lərin təzahürləri məhz onun tələblərinə uyğun olmalıdır. Yəni hər cəmiyyət nəinki «mən»lərin həqiqi təzahürü üçün şərait yaratmır, əksinə onlara mənfi təsir göstərib, onları fərqli şəkildə özünü ifadə etməyə məcbur edə bilir. İdeal dövlətdən (cəmiyyətdən) yazan Platonun fikrinə görə, «… dövlətin inkişafı və əmin-amanlığı üçün bütün təbəqələrə imkan vermək lazımdır ki, öz təbii imkanlarına müvafiq olaraq ümumi çiçəklənmədə öz paylarını versinlər».[1] Platon ideal cəmiyyətdən – «mən»ləri öz mahiyyətlərini ifadə etməyə imkan verən cəmiyyətdən danışır və belə cəmiyyətin həyatında təyinedici hədd olaraq «rəhbərlərin kəmiyyətini – azdır və ya çoxdur – deyil, zorakılığı və ya könüllülüyü, həmçinin kasıblıq və ya zənginliyi deyil, hər hansı bir biliyi»[2] nəzərdə tutur. Yəni cəmiyyət zahiri keyfiyyətlərə deyil, mənəvi keyfiyyətlərə əsaslanmalıdır ki, bu da «mən»lərin təzahürü, reallaşması üçün əlverişli şəraitin yaradılması deməkdir. Bu, şəxsiyyətin formalaşmasında «mən»in aparıcı rol oynaya bilməsi, yaxud «mən» və şəxsiyyətin bir çox cəhətdən bir-birinə uyğun gəlməsi, bir-birini tamamlaya bilməsi deməkdir. Məsələ burasındadır ki, «mən»dən fərqli olaraq şəxsiyyət cəmiyyətdən ayrı mövcud ola bilmir. Berdyayev yazır ki, «şəxsiyyət hər şeydən əvvəl məna kateqoriyasıdır və mövcudluğun mənasını görməkdir. …Şəxsiyyət heç də

---

[1] *Платон.* Государство. Законы. Политика. М., Мысль, 1998, с.169.

[2] Йеня орада, с. 758.

substansiya deyil».[1] Mütəfəkkir onu da bildirir ki, «əgər şəxsiyyətdən uca bir şey yoxdursa, şəxsiyyət yoxdur. Belə olan halda şəxsiyyət fövqəlşəxsiyyətlə əlaqəli olan öz dəyərli məzmunundan məhrum olar».[2] Məlum olur ki, substansiya şəxsiyyət deyil, «mən»dir. Başqa sözlə desək, *şəxsiyyət «mən»in cəmiyyətin tələblərinə müvafiq təzahürüdür* və bir «mən»in müxtəlif şərait və zamandakı təzahürləri bir-birindən kəskin şəkildə fərqlənə bilər, bunlardan hər biri mütləq vahid substansiyanı – «mən»i müəyyən dərəcədə ifadə edir. Məhz cəmiyyətdən asılıdır ki, şəxsiyyət öz «mən»ini az və ya çox dərəcədə əks etdirsin. Burada söhbət şəxsiyyətin əsl məzmununun açılması və hər «mən»in təhrif olunmadan reallaşması üçün şərait yaradan bir cəmiyyətdən gedir.

İkinci tərəfdən o da məlum olur ki, cəmiyyət təzahürləri üçün şərait yaratdığı «mən»lərin məcmusudur. Deməli, cəmiyyətin xarakteri «mən»lərdən asılıdır: öz yetişdirdiyi «mən»lərin, yəni bu, dairəvi və kəsilməz bir prosesdir.

Deyilənlərdən daha bir nəticədə də alırıq: «mən» və cəmiyyət bir-biri üçün zəruri faktorlardır – yaradan və yaradılmış, atom və cisim, tum və meyvə kimi. Burada bir ana xüsusi diqqət yetirək: birinci tərəfin ikincidən asılı olması faktına, yəni meyvə tumdan bitsə də, meyvə çürük olanda ondan tum almaq mümkün deyil və bu hal hətta həmin bitkinin kökünün kəsilməsinə belə gətirə bilər. Bununla yanaşı, istisna hal olsa da, bu da məlum həqiqətdir ki, çürük meyvələr içərisindən çıxan bir toxumla həmin bitkinin

[1] *Бердяев Н.А.* Дух и реальность. М., ООО «Издательство АСТ»; Харьков: «Фолио», 2003, с. 127.

[2] Йеня орада.

kökünü davam etdirmək, yaxud məhv olmuş cismin bir zərrəsindən həmin cismi yenidən almaq (klonlaşdırma cəhdləri) və ya həmin cisim haqqında mükəmməl məlumat (DNT təhlilləri) əldə etmək mümkündür.

Gəldik «mən» və cəmiyyət arasındakı ziddiyyət məsələsinə. Yuxarıda da qeyd etdiyimiz kimi, cəmiyyət «mən»-lərin yalnız müəyyən hissələrinin və ya tərəflərinin təzahürünə şərait yaradır. Cəmiyyət – bütöv bir strukturdur və «mən» onun daxilindədir. Cəmiyyətlə «doğmalaşmış», «qaynaşa» bilmiş «mən»lər və ya bu «mən»lərin şəxsiyyətləri əziyyət çəkmirlər, çünki qazandıqları müəyyən yer – bu yer mükəmməl bir tikili, bir qalaq uçuntu da olsa – onların təzahür edən məzmunlarına kifayət edir. Təbii ki, bu razılıq hissi bilavasitə təfəkkür səviyyəsi ilə əlaqəlidir. Yəni şəxsiyyətin təfəkkürü onun var olduğu cəmiyyətin çərçivəsi daxilində formalaşırsa, onun fövqəlşəxsiyyəti bu mükəmməl tikili və ya bu uçuntu həddindədirsə, malik olduğu məkan onu qane edir. Maraqlıdır ki, bir tikilinin gözəl eyvanındakı naxışlı kərpiclə, uçuntular altında qalan və bunu özünün ən yüksək qisməti hesab edən kərpicin düşüncəsi fərqli səviyyələrdə olsalar da, eyni dərəcədə məhduddurlar – tam təzahür olunmuş məzmun, tam ifadə olunmuş mahiyyət, tam uyğunlaşmış «mən» – şəxsiyyət – cəmiyyət. Lakin burada başqa bir maraqlı tərəf də mövcuddur: tikili daxilindəki kərpicdən fərqli olaraq uçuntular altında qalmış kərpic öz məhdudiyyətini daha tez anlaya və onu keçməyə daha artıq cəhd göstərə bilər. Bunu, ən azı, onun olduğu vəziyyət tələb edir.

Əslində, hazır tikili uçuntudan daha üstün sayıla bilər. Lakin məsələyə başqa prizmadan baxaq. Mükəmməl bir kərpic mənsub olduğu tikilinin bir hissəsi kimi artıq öz missiya-

sını bitirib, o artıq bu sistemdən kənarda, yaxud onun fövqündə nə isə edə bilməz. Nə isə etmək ona lazım da deyil: yeri məlum və rahat. Bundan kənarda nə isə istəmək absurddur. S.Xəlilov yazır: «Cəmiyyətin yüksək dərəcədə təşkilatlanmış olduğu bir şəraitdə hər bir insanın fərdi həyatı özündən daha çox kənar amillərdən asılı olur. İnsan hələ dünyaya gəlməmiş, onun yaşamalı olduğu təbii, sosial-iqtisadi və mədəni-mənəvi mühit formalaşmış olur və bu mühit fərdlə müqayisədə qat-qat böyük miqyaslı proseslərlə bağlı olduğundan xeyli dərəcədə ətalətli və konservativ olur. Onun azacıq da olsa dəyişdirilməsi böyük daxili enerji tələb edir».[1]

Uçuntular altındakı kərpic isə hər şeydən əvvəl uçuntunun nə olduğunu bilir, yəni iki kəskin fərq arasında müqayisə aparmaq imkanına malikdir. Digər tərəfdən o, olduğu vəziyyətdən daha yaxşısına keçmək üçün yollar axtarır, düşünür, planlar qurur. Deyilənlərə nümunə olaraq, bu gün yüksək sivilizasiyalı ölkələrdə yaşanan təfəkkür böhranlarını və hələ inkişafına yeni başlamış xalqlarda yaranmaqda olan təfəkkür oyanışını göstərmək olar.

Ziddiyyətli bir məqama gəldik: yəni doğurdanmı, «mən»in inkişafı, yüksəlməsi üçün naqis cəmiyyətə ehtiyac vardır?! Əlbəttə, xeyr. Başqa sözlə fikrimizi belə ifadə edək, «mən» öz potensialını reallaşdırmaq üçün öz mühitini özünü yaratmalıdır, hazır və müvafiq mühit ona ziyandır, onu tez kasadlaşdırır. Berdyayevin də dediyinə görə, «ziddiyyət

---

[1] *Хялилов С.* Мянявиййат фялсяфяси. Бакы, Азярбайжан Университети няшриййаты, 2007, с. 9-10.

eyniyyətdən zəngindir».[1] Bunu qaranlıqdan işığın daha yaxşı seçilməsinə də bənzətmək olar. Əslində, görkəmli şəxsiyyətlərin, mütəfəkkirlərin, parlaq istedadların həyat tarixinə baxsaq, deyilənlərin dönə-dönə sübut edildiyinin şahidi olarıq.

Lakin naqis cəmiyyət inkişafda olan, kamilləşməyə can atan «mən»ə fərqli bir zərbə vurur: insan bir «mən» kimi inkişaf edir, yüksəlir, mənəviyyatının ən yüksək pilləsinə çatır, zahirdə, yəni naqis cəmiyyət arasında isə o, bədbəxt, tənha, ən pis hallarda hətta dəli olaraq qəbul edilir. Əbu Turxan yazır: «Böyük insanın faciəsi əslində onun ali xoşbəxtlik məqamına yüksəliş cəhdindən doğur. Bu məqam isə özünü yaradıcılıqda və xilaskarlıq missiyasında büruzə verir».

Yeri gəlmişkən onu da vurğulayaq ki, bu məsələdə iki mühüm amil daim diqqət mərkəzində tutulmalıdır: hər kəsin həqiqəti özü üçün mütləqdir və cəmiyyətin meyarları bu həqiqətdən bir çox hallarda fərqli olur. Xəlilov da bildirir ki, «…nur mənbəyi kimi baxılan bir mərkəzin insanın özü üçün aydın və işıqlı olduğunu iddia edə bilmərik. Ən qaranlıq və məchul nöqtə bəlkə də elə mərkəzin özüdür. Mərkəzin işıqlanması, Fəzilətin aydınlaşması heç də hamıya yox, ancaq seçilmişlərə məxsus vergidir. İnsanı nurani edən də əslində Fəzilət nurunun təzahürüdür».[2]

Cəmiyyətlə ziddiyyətdə olan hansı «mən»dir və ya bu ziddiyyətin kökü haradadır?

---

[1] *Бердйайев Н.А.* Ады чяк. ясяр,  с. 57.
[2] *Хялилов С.* Ады чяк. ясяр, с. 11.

Tarixdən məlum olduğu kimi, cəmiyyətdə narazılıqların təməli əsasən sosial problemlərlə əlaqələndirilir. Əksər fəlsəfi və dini, hətta mistik cərəyanların yaranmasının köklərinin və ya onların ictimai fikir arenasında öz yerlərini möhkəmləndirmək üçün atdıqları addımların sosial səbəblərlə əlaqəli olması, yaxud onların sonrakı inkişaflarında bu amilin aparıcı faktora çevrilməsi dediklərimizə sübutdur. Buna istər Şərq, istərsə də Qərb fəlsəfə tarixində yetərincə nümunə göstərmək olar: kiniklərlərdən, protestantlıqdan, vəhhabilikdən və s. tutmuş, dominiklərə, hürufiliyə və s. qədər.

Deyilənlər danılmaz həqiqətdir, lakin məsələyə bir də fərqli prizmadan baxaq. Qeyd etdiyimiz fəlsəfi, dini cərəyanların təşəkkül və inkişaf tarixində ümumi cəhətləri nəzərdən keçirtsək məlum olur ki, sosial vəziyyət yalnız məsələnin görünən tərəfidir. Məlum olduğu kimi, oxşar proseslərin başında ayrı-ayrı «mən»lər durur, başqa sözlə desək, bu proseslər ayrı-ayrı «mən»lərin müəyyən ziddiyyətdən qurtulmaq, onu aradan götürmək və *çoxluq arasında öz həqiqətini səsləndirməyin nəticəsidir,* öz «virtual cəmiyyət»lərini (Əbu Turxan) reallaşdırmasıdır.

Əhəmiyyətli faktdır ki, «əvvəlki nəslin ideyaları onun yaratdıqlarının timsalında sonrakı nəsil üçün mühitə, bazisə çevrilir. Bu bazis mürəkkəb, sinkretik sistem olmaqla həm ictimai mühiti, həm sosial-təbii mühiti, həm də mədəni-mənəvi mühiti ehtiva edir».[1] Bu məsələdə nəzəri cəlb edən digər bir maraqlı tərəf də mövcuddur ki, tarixdə daha çox məhz bu tərəf qalır. «Mən»in ətrafına toplaşmış qrup və ya

[1] Йеня орада, с. 18.

«kiçik cəmiyyət» böyük cəmiyyətlə ziddiyyətə girir, yalnız həmin «mən»in ideyaları ilə kifayətlənməyib şəraitə və zamana uyğun olan əlavə qüvvə toplayır, tədricən ilk «mən»in həqiqətləri bu ziddiyyətin tələblərinə «uyğunlaşdırılır», əridilir. Bu proses çox uzunmüddətli olduğundan ilk zərrə olan «mən» bu aşınmadan xəbərsiz qalır, əsl həqiqət, məqsəd isə unudulur. Bunun gözəl nümunəsini təsəvvüfdə görmək olar. Mahiyyəti Allaha eşqdən, səmimi ibadətdən, kamilliyə can atmaqdan və bunun üçün insanın təfəkkürünü ucaltmaqdan, kamilləşdirməkdən, insanın İnsan adının təsdiq edilməsindən ibarət olub və yalnız bundan sonra cəmiyyətə xidmət etməklə onu da ucaltmaq istəyən təsəvvüf yaranışından artıq 5 əsr sonra fərqli bir məna daşımaqda idi: hər biri ayrıca sistemə malik olan bir qurum kimi formalaşmış təriqətlər cəmiyyətin, demək olar ki, bütün sahələrinə təsir göstərməkdə idi. Təsəvvüfün yuxarıda qeyd olunan mahiyyətinin, məqsədinin yerini təriqətin başında duranın – mürşidin – daha çox zamana və şəraitə uyğun gələn siyasəti və taktikası tutdu, təriqətin üzvlərinin təfəkkürü isə yalnız mürşidə gözübağlı itaət, təriqətin adının və məqsədinin reallaşmasına xidmət etmək üçün inkişaf etdirildi. Eyni tədrici təhrifi başqa cərəyanlarda da müşahidə etmək mümkündür. Bu səbəbdən «mən» hətta özünün belə yaratdığı «kiçik cəmiyyətlərlə» də ziddiyyətdə ola bilir, öz ifadəsi üçün fərqli şəraitlər axtarır.

Belə məlum olur ki, «mən»in cəmiyyətlə ziddiyyəti ilk anlar sosial problemlərlə bağlı olmaya da bilər və yalnız sonradan sosial faktorlarla əsaslandırılıb fərqli istiqamətə yönəldilə bilər.

Bundan başqa, cəmiyyətlə ümumi dil tapa bilməyən, yəni «mən»i daim cəmiyyətlə ziddiyyətdə olan şəxslər heç də həmişə cəmiyyətin «incidilən» təbəqəsindən olmamışdır, əksinə belələrinə məhz maddi baxımdan təminatlı, bəzi hallarda hətta yüksək mənsəbli şəxslər arasında daha çox rast gəlmək mümkündür.

«Mən»in cəmiyyətlə ziddiyyəti zahirən, hiss olunacaq dərəcədə görünməyə də bilər. Bu hal görünərsə, bu artıq şəxsiyyətin cəmiyyətlə ziddiyyətinə çevrilir. Cəmiyyətin tələbləri ilə stabilləşən şəxsiyyət öz «mən»indən uzaqlaşır. Əbu Turxanın dediyi kimi, «"Mən"dən uzaqlaşdıqca dünya genişlənir. Və genişləndikcə seyrəlir və yadlaşır». Lakin ayrılıqda şəxsiyyətin cəmiyyətlə var olan hər ziddiyyəti heç də «mən»in ziddiyyəti olmur. Bu səbəbdən bir insanın «mən»i və şəxsiyyəti arasında da ziddiyyət mümkündür. Bu da qəribə bir faktdır ki, belə şəxslər hətta təminatlı həyatdan, yüksək mənsəbdən uzaqlaşaraq öz «mən»lərini dinləməyə üstünlük vermişlər, yəni cəmiyyətin qəbul etdiyi şəxsiyyətlərindən imtina etmişlər. Burada sosial faktor arxa planda qalır, çünki ziddiyyət mənəvi artıq mənəvi müstəviyə keçir və bu ziddiyyət əsasən yaradıcı şəxslərdə rast gəlinən bir haldır.

Deməli, «mən»in cəmiyyətlə ziddiyyəti heç də həmişə sosial bazalı deyil və ya yalnız bu səbəbdən deyil. Yeri gəlmişkən, maraqlı bir faktı da qeyd edək ki, bəzən öz ziddiyyətli cəmiyyətində əzabla yetişməkdə olan böyük bir istedadın inkişafı əlverişli bir şəraitdə, daha yaxşı bir sosial vəziyyətdə dayanır, «mən»in özünü ifadə etmək istəyi qalmır. Belə nəticə çıxartmaq olar ki, sosial problemlərə

əsaslanan ziddiyyət elə həmin sosial problemin həlli ilə də aradan qalxır.

Mənəvi səbəblərlə bağlı ziddiyyətlər sosial bazalı ziddiyyətlərdən daha dərin olur və «mən»in inkişafında daha əsaslı rol oynayır və bu ziddiyyətin aradan qalxması ikinciyə nisbətən daha ağır və uzun zaman müddətində baş verir. Belə ki, əgər sosial ziddiyyətlər inqilablar, çevrilişlər vasitəsilə aradan qalxırsa (bu, «mən»in də istəyi ilə ola bilər, şəxsiyyətin də), mənəvi müstəvidə bu, asanlıqla baş vermir. Məsələnin ağrılı tərəfi də budur ki, bu mübarizədə «mən»in qalibiyyəti onun dövründən çox sonra, hətta bir neçə əsr sonra qəbul edilir. Zamanında isə əksər hallarda «mən»in təzahürü cəmiyyətdə görünməz qalır.

Deməli, təfəkkürdə, mənəvi müstəvidə yaranmış ziddiyyət sosial bazaya əsaslanan ziddiyyətdən fərqlidir. Əvvəla o, əsasən cəmiyyətin deyil, insanın özünün dəyişməsinə, daha doğrusu, inkişafına gətirir. İkincisi, bu ziddiyyət yaradıcı xarakterlidir.

Qeyd etdiyimiz kimi, cəmiyyət müəyyən struktura malik, stabilləşmiş qaydaları, ənənələri olan bir «qurumdur». Bu, təfəkkürlərin, dünyagörüşlərin yonulub, rəndələnib həmin tələblərə uyğunlaşması deməkdir. Onu da əlavə edək ki, bu qismət həm yüksək inkişaflı, həm də yarımçıq, hələ formalaşmaqda olan cəmiyyətin üzvlərinə aiddir. Hazır tikilinin kərpiclərini «sarayın» divarında qərarlaşıb sabitləşmək, yarımçıq tikilinin və ya uçuntunun kərpiclərini isə mamırın altında itib-batmaq qisməti gözlədiyi kimi. «Mən» – bu ənənədən kənaraçıxmadır, ümumi qaydaya tabe olmamaq və ya böyük bir potensialın dar çərçivəyə sığmamasıdır. Biz dar deyəndə ümumiyyətlə qaydaların

stabilləşməsini, strukturun müəyyənləşməsini nəzərdə tuturuq. Əlbəttə, bu, heç də o demək deyil ki, «mən»lərin özünüifadəsi üçün xaos və anarxiya olmalıdır. Xeyr, söhbət «mən»in mövcud olduğu cəmiyyətdən nisbətən daha yüksəyinə can atmasından, dar çərçivədən nisbətən genişliyə çıxmaq arzusundan gedir. Əbu Turxanın dediyi kimi, «dünyanı dərk etmək üçün dünyadan kənara çıxmaq lazımdır». Təbii ki, xaos və yüksək cəmiyyət kəskin fərqləndiyi kimi, onlardan «nisbətən daha yüksəyin» mahiyyəti də fərqlidir.

## *«…Qəlbin dərrakəsi ilə danışan filosof…»*

***prof. Səlahəddin Xəlilovun***
*«Məhəbbət və intellekt. Fəlsəfi esselər»*
*kitabı haqqında düşüncələr*

Tanınmış Azərbaycan filosofu, professor Səlahəddin Xəlilovun «Məhəbbət və intellekt. Fəlsəfi esselər» adlı yeni kitabı işıq üzü görüb. «Elmdən texnikaya və mənəviyyata», «Elmi-texniki tərəqqi və onun sosial-iqtisadi nəticələri», «Fəlsəfədən siyasətə», «Lider. Dövlət. Cəmiyyət», «Təhsil, təlim, tərbiyə», «Şərq və Qərb. Ümumbəşəri ideala doğru» və s. kitablarında qlobal məsələləri, cəmiyyətin inkişafı problemlərinin həllini, elmin, mədəniyyətin qanunauyğunluqlarını araşdıran bir alimin daha çox bədii ədəbiyyatın müzakirə obyekti olan, hətta bəzən şairlərin təxəyyülünün meyvəsi hesab edilən məhəbbət mövzusuna (bu, intellekt kontekstində olsa belə!) müraciət etməsi məndə müəyyən dərəcədə heyrət və maraq doğurdu.

Müəllif etiraf edir ki, o, hələ 30 il qabaq məhəbbət və intellekt haqqında yazmaq istəmiş, lakin müəyyən səbəblərdən fikrindən daşınmışdır. Maraqlıdır ki, söhbət «əqllə sərin-

ləşdirilən yanar məhəbbətdən» (s. 109) gedir, yəni intellektin məhəbbətindən və ya məhəbbətin intellektindən! Filosofun öz sözləri ilə desək, o, «sosial müstəvidə məhəbbətin duyğusal komponenti ilə yanaşı, əqli komponentinin də inkişafı» olan şəxsiyyət azadlığının yüksək təzahüründən (s. 106-107) yazır.

Kitabın məzmunu ilə tanışlıqdan belə məlum olur ki, məhəbbət bu gün elm və mədəniyyətin ən aktual və həlli vacib problemləri qədər əhəmiyyətli, hətta onlardan bir pillə yuxarıda dayanan bir fenomendir. Onun haqqında məhz bu səviyyədə və bu kontekstdə danışmaq məhəbbətin əsl mahiyyətini açıqlaya, onu bu gün düçar olduğu bayağılıqdan, səviyyəsizlikdən, çürüntülərdən təmizləyə bilər. Hələ neçə il əvvəl S.Xəlilov məqalələrinin birində yazırdı: «Gözümüzün qabağında zəmanə eşqi ehtirasın ayağına verir. Yeni «aşiqlər» peyda olur və dinə, millətə, adət-ənənəyə meydan oxuyur. Həyat bayağılaşır. Böyük ideallar qərbləşmək pərdəsi altında qurban Verilir. Amma Qərb heç biz sandığımız deyil. Daha çox bayağılaşan əslində çağdaş Şərqdir» (s. 102).[1] Görünür, illər sonra problemin nəinki həll edilmədiyini, əksinə, get-gedə böyüdüyünü, uçurumun daha da dərinləşdiyini görən filosof bu məsələyə ayrıca bir kitab həsr etməyi qərara almışdır və o, özünün bu addımını C.Cübranın bir fikri ilə əsaslandırır: «*Həyat onun qəlbini oxumağı bacaran müğənni tapa bilməyəndə, onun dərrakəsi ilə danışan filosof yaradır*» (s. 7).

---

[1] *Хялилов С.* Тящсил, тялим, тярбийя. Бакы, «Азярбайжан Университети» няшриййаты, 2005, с. 472.

Müəllifin bildirdiyinə görə, «bu kitab öz məhəbbətini dərk etməyə çalışmayanlar, yaxud məntiq çərçivəsində məhəbbəti imitasiya etməyə çalışanlar haqqında, formaları, tərkib hissələri və digər mənəvi hadisələrlə əlaqəsi haqqında esselər toplusudur» (s. 5). Belə bir incə mövzu haqqında düşüncələrini təqdim etmək üçün filosofun məhz bu üslubu seçməsi, zənnimcə, kitabın məzmununa müvafiqdir. Belə ki, yüz ölçülüb bir biçilən, mürəkkəb fəlsəfi sistemləri, konsepsiyaları ehtiva edən monoqrafiyalardan fərqli olaraq esse daha kiçik həcmli olsa da, bir hissin, bir duyğunun nəticəsi kimi daha konkret, daha sadə və daha səmimi olur.

«Məhəbbət və intellekt» kitabında altı esse var və müəllif məhəbbəti idrak prosesi işığında, dinlə müqayisədə və s. kontekstlərdə şərh etsə də, onun mahiyyətini elə birinci essenin ikinci cümləsində açır və onu ünsiyyətin ən ali forması olan «qəlblərin təması» (s. 11) adlandırır.

«Məhəbbət duyğusu» adlı ilk esse sıraca birinci gəlsə də, güman etmək olar ki, yazılma tarixinə görə o, digərlərindən sonradır. Belə deməyə mənə əsas verən, burada müəllifin məhəbbət haqqında fikirlərinin bir növ yekunlarını, gəldiyi nəticələrini təqdim etməsidir: «Məhəbbət digər duyğularla yanaşı, müstəqil mövcud olan sadə duyğu kimi. Altıncı duyğu! Kimdə isə var, kimdə isə yox. Məhəbbət – qəlb yarımçıqlığından doğan bir hiss – tamamlanmaya ehtiyac… Məhəbbət – yarımçığın bütövləşmək əzmi! Məhəbbət – hissənin tama, yarımçığın bütövə doğru hərəkəti! Məhəbbət – vahidin əzəmətinə, bütövün gözəlliyinə, tamın harmoniyasına heyranlıq!» (s. 21). Yuxarıda da bildirdiyimiz kimi, kitabda məhəbbətlə bağlı ən ali və ən

aşağı məsələlər müzakirə və təhlil edilir, birinci esse isə özündə ümumiyyətlə kitabın ruhunu ehtiva edir.

Kitabda vurğulamaq istədiyimiz ilk əhəmiyyətli xüsusiyyətlərindən biri müəllifin məhəbbət fenomenini Şərq və Qərb kontekstində şərh etməsidir. Düzdür, bu problem sonuncu essedə ayrıca təhlil edilir, lakin Şərq və Qərb təfəkkürlərinin (burada həm klassik, həm də müasir dövr əhatə edilir) məsələ ilə bağlı qarşılaşdırılması və müqayisəsi bütün kitab boyu davam edir.

Hər şeydən əvvəl bildirim ki, S.Xəlilovun mövqeyi bir şərqli mövqeyidir. Bu, apardığı müqayisəli təhlillərdən düzgün nəticə çıxardan, məsələni vəziyyətə, şəraitə, dövrə, səbəblərə müvafiq olaraq araşdırıb dəyərləndirən bir mövqedir. Ola bilsin ki, S.Xəlilovun məhəbbət haqqında düşüncələri şərqli təfəkkürünün məhsuludur deməyim bəzi oxucular (hətta müəllifin özü belə!) tərəfindən birmənalı qarşılanmasın. Fikrimi və ehtimal olunan mənfi münasibətlərin yersizliyini əsaslandırım.

S.Xəlilovun mövqeyi klassik Şərqə yeni baxışdır, yəni o, öz düşüncələrini hazırda dəbdə olan avropalaşmaya deyil, müdrik Şərqə üz tutaraq əsaslandırır. Eyni zamanda, o, müasir dövrdə bir çox məsələlərdə Şərqdən daha aktiv olub onu arxada qoyan Qərb təcrübəsini milli-mənəvi invariantlarda təqdim etməyə çalışır, Qərbin müsbət cəhətlərini «şərqləşdirir». Bəli, məhz Qərbi təqlid etməkdən çəkindirirək, orada mövcud olan xeyirli xüsusiyyətləri Şərqə gətirmək niyyətindədir.

Bundan başqa, məhəbbətin öz mahiyyətinə layiq yüksək qiymətini məhz Şərqdə aldığını, həqiqi eşqdən yazmaq istəyəndə Qərbin bu gün də Şərq mütəfəkkirlərinə üz

tutduğunu nəzərə alsaq, dediyim sözləri palçığa batmış bir dürrdən çoxları kimi S.Xəlilovun da üz döndərmək əvəzinə, onun dəyərini anlayıb, onu təmizləyib yenidən parlatmaq istəyi kimi də yozmaq olar.

Bunu belə desək yəqin daha doğru olar: müəllif Qərbdə aşkar, Şərqdə isə hələ də sirli pərdə arxasında saxlanılan və bu səbəbdən də acınacaqlı şəkildə təhrif edilən ülvi hisslərin üzərindən «pərdəni» qaldırmağa çalışır. Ancaq o bunu Qərbdəki kimi ifrata varmadan edir. Məsələn, şərqli qadınların da qərbli həmcinsləri kimi öz hüquqlarını bilib alçalmamaqlarının tərəfdarı olmaqla yanaşı, filosof onu da vurğulayır ki, «bakirəlik də, mənəvi saflıq, təmizlik də gözübağlı saxlanmaqla yox, hissləri şüurlu surətdə idarə edəcək bir səviyyəyə yüksəliş sayəsində qorunub saxlanmalıdır. Lakin yüksəliş özünü açmaqla, açıq-saçıq olmaqla qarışıq salınmamalıdır. Çadranın atılması müstəqim mənada başa düşülməməli, üzlərin yox, gözlərin açılması ön plana çəkilməlidir» (s. 121).

S.Xəlilov məhəbbət (iki şəxsin münasibətindən tutmuş, vətəndaş sevgisinə qədər), ailə məsələləri ilə bağlı Qərbdə görülən işləri, atılan addımları bəyənsə də, oradakı kimi məhəbbəti yerə endirmir, klassik Şərq şairləri kimi insanı yüksəyə qaldırır: «Sevgini sevgidən başqa cür duymaq mümkün deyil… Məhəbbətin duyulması yenə məhəbbətdir. Bütün qalan hallarda tərəf-müqabil sənin həqiqi böyük sevgindən, hisslərinin dərinliyindən xəbərsizdir. O, sənin münasibətini ancaq bir fakt kimi, hadisə kimi dərk edir, amma hiss etmir. Çünki qəlbdən qəlbə hələ yol yoxdur. Yolun olması isə qarşılıqlı məhəbbət adlanır» (s. 24).

Müəllif Qərbin «planlaşdırılmış ailələrindən» fərqli olaraq ailənin bir harmoniya, kamilliyə aparan yolun bir mərhələsi olduğuna əmindir: «Bütövlük ancaq insan təbiətinin fərqli təzahürlərinin birləşməsi sayəsində əldə edilmiş olur. Birliyə, vəhdətə, harmoniyaya meylin əsasında isə, bir tərəfdən, genetik-bioloji yaradıclıq instinkti dayanırsa, digər tərəfdən, bu, insanın təbiətə, daha doğrusu, təbiətdəki ahəngə, harmoniyaya məftunluğunun xüsusi halıdır. İnsan təkcə tərəf-müqabillə deyil, onun simasında dünya harmoniyası ilə vüsal tapmağa çalışır…» (s. 85).

S.Xəlilov Qərb və Şərq ailələri arasında kiçik, ancaq məsələni kifayət qədər açan bir müqayisə də aparır: «Qərbdə evlənənlərin istifadəsində real ictimai mühitdən, hakim mənəvi dəyərlər sistemindən, üstün ictimai rəydən, ailə iqtisadiyyatından, hətta psixoloji və fizioloji bilgilərdən çıxış edən, əməli həyatda yararlı, mükəmməl bir ailə-məhəbbət təlimi vardır» (s. 98). «Şərqdə isə «normal məhəbbət» konsepsiyası yaradılmayıb; görünür, bir əskiklik sayılıb. Ona görə, ailə quran gənclərin zehnində və əməli istifadəsində onlara yardımçı ola biləcək heç bir örnək, təlimat yoxdur» (s. 99).

Doğurdan da, Şərqdə yazılmayan, ancaq daha böyük ciddiyyətlə riayət edilən «daşa yazılı» bir ənənə var və bunun yanında «kağız üzərindəki» qanuna ehtiyac hiss edilmir. Eyni zamanda, Şərqdə iki şəxs arasındakı münasibət (hələ ailə!) elə sirli, pak bir məqam hesab edilir ki, onun geniş müzakirə obyekti olmasının, qanuniləşməsinin, sosiallaşmasının onun üzərinə kölgə salacağından ehtiyat edirlər.

Qərbdə məsələyə daha rasional və real mövqedən yanaşmanın üstünlüyünü bildirən müəllif yazır: «Bəli, Qərb sevgisi rasionallaşmış və görünür bunun sayəsində diferensiallaşmış sevgidir. Yəni ancaq sevginin obyekti dəyişmir, onun xarakteri də, məzmunu da dəyişir. Məsələn, vətən sevgisi daha «ay işığından» deyil, dövlətçilik şüurundan, vətəndaşlıq qürurundan qidalanır» (s. 112). «Şərqdə də ictimai şüur, mövcud əxlaq normaları, adət-ənənə məhəbbət hissinə təsir edən amillər sırasındadır, lakin burada məhəbbətin fərdilik dərəcəsi, məhrəmliyi yüksək olduğundan daha çox iç dünyasına aid olmuş, sosiallaşmamışdır» (s. 112-113).

Burada müəllif heç cür fərdilikdən uzaqlaşıb ictimailəşə bilməyən insanın müvafiq olaraq öz şəxsi problemləri, mənafeyi çərçivəsindən kənara çıxıb vətəndaş ola bilməməsi fəlakətindən danışır. Eyni zamanda, S.Xəlilov rasional mövqenin hazırda Qərbdə necə müsbət nəticələr verdiyini faktlarla göstərsə də, bu mövqenin heç də Qərb təfəkkürünün məhsulu, spesifikliyi hesab etmir: «Belə düşünmək ki, Şərq həmişə duyğusal olmuş və əqlin rolunu dəyərləndirməmişdir, – səhv olardı. Əksinə, rasionalizm ilk dəfə Şərqdə təşəkkül tapmışdır» (s. 109).

Bunu bilən və şərqlilərə də çatdırmaq, onların yaddaşını «təzələmək» istəyən filosof bu gün Qərb təfəkkürünün məhsulu hesab edilən «insanın hüquq və azadlıqları», «gender» problemlərini H.Cavidin, C.Cabbarlının hələ keçən əsrin əvvəllərində qaldırdıqlarını və məhz milli ruha müvafiq həll etdiklərini bildirir: «Böyük ədiblərimiz hələ o vaxt bir addım qabağa getmiş və cəmiyyətin yaratdığı çəpərləri uçurmaq tələbi ilə kifayətlənməyərək istəklərin özünü

yüksək mənəvi pilləyə qaldırmaq, qadağaları könüllülüklə, könlün ucalığı ilə əvəz etmək mövqeyindən çıxış etmişlər» (s. 121).

Göründüyü kimi, S.Xəlilov istər məhəbbət anlayışına, istərsə də ailə münasibətlərinə olsun, hər iki bölgəyə xas fikirləri, ən əsası isə real həyati təcrübənin müsbət və mənfi cəhətlərini açıq şəkildə ortaya qoyur və bununla bir növ oxucuya düşünmək üçün material verir. Əlbəttə, ilk baxışda bir çox hallarda üstünlüyün daha çox Qərbə verildiyini düşünmək olar. Lakin bu üstünlük daha sabit bir cəmiyyət quruluşuna və bu sabitlikdə məhəbbətə də yer ayrılmasına aiddir. Yəni müəllif bir növ məhəbbətin lirik, romantik simvoldan daha çox, real həyatın ülvi və gözəl bir parçası olduğunu xatırladır və onu quru simvolluqdan, dolayısı ilə ikiüzlülükdən xilas olunmasının vacibliyini vurğulayır.

Kitabda vurğulanmalı olan ikinci cəhət məhəbbətin «təsnifatının» aparılmasıdır. Yeri gəlmişkən, yuxarıdakı düşüncələrimizin də davamı olaraq bildirək ki, Şərqdə sevgini, məhəbbəti həmişə ən gözəl, yüksək ifadələrlə tərənnüm edib, soyuq mühakimələri ona «yaraşdırmayıblar». Bu baxımdan, S.Xəlilovun «təsnifatını» Qərbə məxsus bir addım kimi də dəyərləndirmək olar.

Müəllif ilk məhəbbət, eyniyyət məhəbbəti, tamamlama məhəbbəti kimi növləri göstərməklə yanaşı, hər birinin həm müsbət, həm də mənfi tərəflərini göstərir. Məsələn, ilk məhəbbət zamanı «duyğuların qapanmasını, elektriklənməsini, canlanmasını, …əslində özündə qapanmasını» (s. 25) nəzərə alaraq, onu «qısa qapanma» adlandırır. Maraqlıdır, çoxlarının ülvi hisslər kimi göylərə qaldırdığı, paklığını, ülviliyini ön plana çəkdiyi bir məhəbbətdə müəllif

məhz onun qısa müddətliyini, faydasızlığını, hətta təhlükəsini vurğulayır!

Valideyn məhəbbətini isə «yaradıcılıq məhəbbətinə» – «yaradanın öz yaratdığına sevgisi»nə bənzədir və onun «genetik eyniyyət duyğusundan yaranmaqla yanaşı, həm də narsisizm» (s. 74) olması qənaətinə gəlir.

Digərlərindən öz dərinliyi, insanın «mən»inin kamilləşməsində oynadığı rolun əhəmiyyətinə görə fərqlənən «tamamlama məhəbbətini» müəllif daha ali bir hiss kimi təqdim edir, çünki o, «ümumdünya cazibəsinin də, bəşər nəslinin davam etməsinin də əsasında durur. Və bu hiss mənəvi dünyanın qeyri-şüuri fəzasına aiddir. Onun yaranması da, uğurla sonuclanması da taleyin, qədərin işidir» (s. 80).

İlk baxışda ziddiyyətli görünə biləcək daha bir məqam – əksər Şərq mütəfəkkirlərinin ciddi tənqidə məruz qoyduqları, ona qarşı mübarizəyə çağırdıqları şəhvət hissinə S.Xəlilov «yuxarıdan aşağı baxmağın, onu ancaq heyvaniliyin təzahürü hesab etməyin tərəfdarı deyil… Bu hissi anlamağın, dərk etməyin» (s. 85) zəruriliyini iddia edir. Bu «dərkin» nəticəsi kimi də şəhvəti heyvani və insani mərhələlərə ayırır. «Mahiyyət etibarı ilə iradənin daxili nəzarəti itirməsi, beyinin dumanlanması» (s. 83) olan heyvani instinkt və «ülvi hisslərlə təmasda incələşən, nəcibləşən, gözəlləşən; bir utancaqlıq, bir xəfiflik, hətta bir həya ilə tamamlanan» şəfqət və ülfət məqamı (s. 83) olan insani şəhvət.

Məhəbbətin bütün növlərində eyni olan iki məqamı vurğulamaq, zənnimcə, onların həqiqi mahiyyətinin açılmasına kömək edir. Məhəbbətin dəyəri məhz onun ağılla nisbətindən asılıdır. Söhbətin mövzusu ənənəvi «kor məhəbbət»

deyil, ağıllı, gözüaçıq məhəbbətdir, çünki «mənəviyyatsız adamın ağıllı olması ziyan verdiyi kimi, ağılsız adamın da hissiyyatının güclü olması ziyanlıdır» (s. 108).

Nəhayət, «Məhəbbət və intellekt»in vurğulanmalı olan ən əhəmiyyətli tərəfi burada ilahi eşqə xüsusi yerin ayrılmasıdır. S.Xəlilov yalnız ilahi eşqdən yazmır! Bu eşq bütün kitab boyu bütün məhəbbət növlərinin, ona rasional və irrasional münasibətin kökündə durur, gah açıq-aşkar, gah da sətiraltı.

Yeri gəlmişkən, kitabın ən əhəmiyyətli tərəfi deməklə, biz heç də digər cəhətlərin əhəmiyyətsizliyini vurğulamaq istəmirik. Məsələ burasındadır ki, ilahi eşq bütün sevgilərin zirvəsi, kamillik nöqtəsi, onların tükənməyən mənbəyidir. Eyni zamanda, onların saflığını, ülviliyini qoruyan, nə qədər qəribə səslənsə də, aydın təfəkkürlə əlaqələndirən mövkəm, qırılmaz bir bağdır. Qloballaşmanın, elmin, texnikanın yüksək templə inkişaf etdiyi, iqtisadi, siyasi hökmranlığın artdığı bir dövrdə ilahi eşqi gündəmə gətirmək, nəinki gətirmək, həm də onu soyuq qərbli məntiqilə təhlil etmək, bir növ məhəbbətin əsl mahiyyətini, məqsədini göstərməkdir: «eşq səviyyəsində idrak bütün insanlara aid olan hissi və məntiqi idrakdan yüksəkdə durur – idrakın ali məqamına aparır. Bu pillə daha çox dərəcədə idrakın sezgi və vəhy məqamlarına uyğundur» (s. 31-32). Eşqi ucaldan ağıl və ağılı kamilləşdirən eşq! Eşqin ömrünü insan ömrü qədər uzadan ağıl, ağıla yeni idrak qapıları açan eşq! Gözəl harmoniyadır! S.Xəlilov bu ali harmoniyadan danışır!

Hər hansı bir fikir söyləməzdən əvvəl onu da mütləq qeyd edim ki, söhbət, müəllifin öz sözləri ilə desək, «ruhların transformasiyasından, psevdoməhəbbətdən, ruh oğur-

luğundan» (s. 27), yəni özündən əvvəlki mütəfəkkirlərin sözlərini mexaniki (nə qədər yüksək bacarıqla olsa da) ötürülməsindən getmir, S.Xəlilovun özünün «bütövə daxil olaraq bütövləşmək, vahiddə itərək vahidləşmək! Tamın harmoniyasına daxil olmaq, harmonik aləmin sakini olmaq!» (s. 21) istəyindən və buna can atmasından gedir.

Məhəbbətin öz ayaqlarını yerə bərk basmasını (Qərbdə olduğu kimi) istəyən müəllif onun ruhunun idealını başqa, uca bir məkanda axtarır: «Ən böyük ideal Allahı ehtiva etmək deyil, Allah duyğusu ilə ehtiva olunmaq, ona tapınmaq, Ona sığınmaqdır. …Nəfs pillələri ilə qalxaraq («nəfs üzərində qələbə çalaraq») ruh aləminə qovuşmaq, vəhy məqamına çatmaq, özünün Haqq olduğunu deyil, Haqqa qovuşduğunu, onun bir parçasına çevrildiyini anlamaq duymaq – budur böyük səadət, budur kam almaq və budur kamala çatmaq!» (s. 69).

Göründüyü kimi, S.Xəlilovun düşüncələri bir növ ənənəvi müdrik Şərqin, təsəvvüfün eşq konsepsiyasının davamı kimi səslənir: «Bizim əsl saf məhəbbət hesab etdiyimiz duyğu ənənəvi olaraq «platonik məhəbbət» adlandırılsa da, nə Platon, nə də digər qədim filosoflar (elə sonrakılar da – K.B.) sufilərin eşq konsepsiyası ilə müqayisə edilə biləcək hər hansı monumental təlim yaratmamışlar» (s. 7). Lakin müəllif yalnız qədim ənənənin kor-korana davamçısı kimi çıxış etmir. O, burada sufilərin əsas prinsiplərindən birinə nisbətən fərqli və özünəməxsus şərh verir: sufilər bir damlanın dəryaya qovuşmasından danışdıqları halda, S. Xəlilov bildirir ki, «fərdi məhəbbətin ilahi məhhəbətə qovuşması iki damlanın əvvəlcə bir damlada birləşməsi və dəryaya birlikdə qatılması kimidir… Ruhun ruha qovuşması daxili mənəvi

yüksəliş gətirir» (s. 51-52). Başqa sözlə desək, müəllif təcrid olunmaqdan, zahidlikdən yazmır. Onun sevgisi cəmiyyətin bir üzvünün, eyni zamanda, ülvi bir mahiyyətə malik İnsanın sevgisidir.

Bu, nə Qərbdəki kimi insanı yalnız maddiyyat çərçivəsində saxlamaqdır, nə də Şərqdəki kimi onu ancaq göylərdə, xəyallarda yaşatmaq! Bu, insanı göylərə qaldıran ilahi eşqin yerdə başladığına məntiqli şəkildə inandırmaqdır! Doğurdan da, kamilliyə yol zahirdən batinə, rasionaldan irrasionala istiqamətlidirsə, eşq niyə fərqli yol keçməlidir ki?! «Qovuşma təcrübəsini» (idrak prosesini) mərhələ-mərhələ yaşaması damlaya qovuşmanı daha dərindən dərk etdirməzmi?!

Beləliklə, «Məhəbbət və intellekt» haqqında düşüncələrimizə xitam verərək bildirək ki, S.Xəlilovun kitabında həm insana ilahi eşqi yaşadan ruh, həm də bu ruhla qoşa inkişaf edən və mənəviyyatı zənginləşdirən bir təfəkkür təhlil edilir. Müəllif Qərbdə yerlə sürünən, Şərqdə isə xəyallardan heç cür real həyata keçə bilməyən məhəbbətin əslində maddi bədəni ilə bu dünyanın, ruhu ilə ilahi aləmin sakini olan insanın əsl mahiyyətini təşkil etdiyini göstərir; cəmiyyətin inkişafına xidmət etməyin, öz hüquqlarını tanımağın, məhəbbəti dərk etməyin ilahi eşqi yaşamağa nəinki maneçilik törətmədiyini, hətta bu rasional addımların kamilləşməyə aparan yolda zəruri bir mərhələ olduğunu təsdiqləyir.

Bundan başqa, S.Xəlilovun kitabı bir növ Şərqə yeni ruh vermək cəhdidir. Son zamanlar Qərb müasirləşmənin, yüksək inkişafın, Şərq isə geriliyin, fanatlığın, durğunluğun az qala simvoluna çevrilməkdə və bu rəy get-gedə

sabitləşməkdədir. Müəllif həm Qərbə, həm Şərqə məxsus yüksək keyfiyyətləri göstərməklə yanaşı gənclərə – sevib-sevilmək çağında olanlara yeni bir yol da göstərir. Başqa sözlə desək, filosof inkişaf üçün müasir Qərbə deyil, klassik Şərqə də deyil, müdrik Şərqin ülvi ruhu ilə sabit Qərb təfəkkürünün vəhdətini yaratmağı tövsiyə edir.

# ESSELƏR

## *Eşq*

Sən bilirsən eşq nədir?

Bilmək lazım deyil! Onu yaşamaq lazımdır! Heç bir sözlə alovun necə yandırdığını təsvir etmək mümkün deyil! Yanmaq lazımdır!

Sən bilirsən necə yanırlar?

Özünü odun hökmünə vermək lazımdır! İradəsiz olmaq, müqavimət göstərməmək, özün üçün nə isə axtarmamaq lazımdır! Cavab gözləmə! Mükafat gözləmə! Tapmazsan peşman olarsan… Təslim olmazsan acı çəkərsən. …Axı orda sən yoxsan, ancaq od var. Oda çevril! Bütünlüklə onun hökmünə düş, yan, vəssalam!

Sən bilirsən aşiq kimdir?

Gözü, dili, ürəyi olmayan… O, hər şeyini sevgilisinə verib… İndi onun əvəzinə o, görür, danışır, hiss edir… Əgər o, bir anlığa da olsa özünə aid bir şeyi düşünsə, deməli, ….onu uzun müddətə itirir, deməli, özünü itirir…

Deyirlər bir adam var imiş, həmişə ulduzlara qalxmaq, onların işığını yaxından görmək istəyirmiş. O, gecə- gündüz bunu düşünüb, Allahdan həmişə bunu istəyirmiş. Bir gün

adam hiss edir ki, ayaqları yerdən üzülüb ulduzlara tərəf uçur. Sevincindən dünyada hər şeyi, hətta dünyanın özünü də unudur. Ulduzlara lap az qalmış ani olaraq düşünür: «Bu mənim nəyimə lazımdır ki?» Bu, bir an, anın milyondan bir hissəsi müddətdə şimşək kimi çaxdı… O, ulduza çatmadan yerə yıxıldı… Və bir də heç vaxt ora qalxa bilmədi, gecə-gündüz gözlərini ulduzlardan çəkməyib, yenə Allaha yalvarsa da… O, hətta ürəyində əvvəlki istəyi, təşnəni də yarada bilmirdi… Yalvaran, istəyən ancaq dili idi, könlü isə susurdu.

Sən bilirsən sevgi nədir?

Sevgi könüldə bir dəfə yandırılan və heç vaxt sönməyən işıqdır. O işıq hər tərəfini nura qərq edir, hər kəsi cəlb edir, ancaq hər kəs cürət edib o nurlu otağa girmək istəmir, yanmaqdan qorxur, işıqdan gözlərinin kor olmasından qorxur…, qayıdıb çıxa bilməyəcəyindən qorxur…

Sən bildinmi eşq nədir, sevgi nə?!

Eşq oddur! Sevgi nurdur!

Odsuz-ocaqsız yandıran eşq odu həm bədəni bürüyür, həm ruhu. Bədən ruhsuz yananda od hər şeyi yandırıb kül eləyir. Bu, sondur!

Ruh yananda nur artır. Bədən bu ocağın istisində isinir, yalnız könül gözünün gördüyü bu nurla o da duyur, baxır. Bu, başlanğıcdır…!

Sən bilirsən könül nədir?

Könül sevgi dolu bir varlıqdır… Könül maddi bədəni ruhi cazibənin hökmünə verən iradədir… Könül heyvani instinkləri ilahi vəhdətlə əvəz edən qüvvədir… Könül insana insanlığını xatırladan yaddaşdır…

Aşiq olan nədir? Ürəkmi? Könülmü? Eşqə düşmən, hədd olaraq ağıl götürülür… Sevənin soyuq düşüncəsi olmur deyirlər… Su od tutub yananda onu nə söndürə bilər? Ağıl aşiq olanda onu nə ilə susdurmaq, sakitləşdirmək olar? Ağıl dönüb könül olanda nə etməli?

## *Mən*

«Mən» ilahi aləmlə əlaqə, insanın ilahi, saf bir başlanğıcının mövcudluğuna dəlildir. Yaradanın bütün ilahi sifətlərinə sahib olan insan həm də Ondan yaradıcılıq keyfiyyəti alıb: Allahın təyin etdiyi bir çərçivə daxilində, verdiyi istedad, bacarıq vasitəsilə yaratmaq, var etmək. Nələr yaratmayıb bəşər?! Allahın yaratdığına öz təfəkkürünün də məhsulunu qatmaqla bənzərsiz sənət şedevrləri, Allahın verdiyi təbiətə paralel ikinci təbiət!

Bir «mən» yüksək ideyalarla yaşayır, digəri sadə bir insan, milyonlardan biri olmaq istəyir. Biri ruhunun ən yüksək məqamında oturub, İnsan olmağın bütün mahiyyətini duyur, digəri bir ot, bir ağac kimi qayğısız, varlığından bixəbər olmağa üstünlük verir.

İki «mən»in müharibə zolağı! Biri azadlığa, digəri məsuliyyətə çağırır. Biri İnsanlığı, digəri vətəndaşlığı xatırladır. Biri ülviyyəti, gözəlliyi, digəri sərt qanunları, cəmiyyətin tələblərini öyrədir. Biri sadəcə «mən»dir, digərinin vəzifəsi çoxdur: valideyn, övlad, tələbə və s.

Ürəyin daha böyük hissəsi ürəyin istəmədiyi şeylərə ayrılır. Kiçik, gizlin hissəsi də ürəyin öz istəklərinə. Ürəyin

istəmədiyini edəndə daha böyük ürəklə girişirik – ürəksizliyi gizlətmək üçün. Ürəyin istəyini isə çəkinə-çəkinə, gizlincə edirik – ürəyin böyük həvəsini ört-basdır etmək üçün. Elə isə bu ürək kimə, nə üçün xidmət edir?

# *Yol*

*Xatirəsi mənim üçün daim əziz olan, həyatın xaosundan mənə ilk yol göstərən müəllimim – **Seyfullah SEVİMƏ**.*

Həyat bir yoldur. Doğulandan düzəlirsən bu yola və Aşıq Veysəl demiş, gecə-gündüz gedirsən. Başlanğıc bəlli, son bəlli. Amma bu iki bəlli nöqtənin arası fərqli, müəmmalı, enişli-yoxuşlu olur.

Ustadlarımdan birindən kiçik bir hekayə dinləmişdim və yol haqqında bu həqiqət açılmışdı mənə.

Hər kəs dağın zirvəsinə qalxmağa çalışır. Bu yolda başlıca şərt bələdçidir. Bələdçisiz qalxanda çox çətin, hətta qorxulu olur. Adam aza bilər, qayadan uça bilər, vəhşi heyvanlara tuş gələ bilər. Bəlkə də sən özbaşına, hansı isə üsullar tapıb məqsədə çata bilərsən, lakin bu, o qədər əzablı və çətin olur ki, yolun sonuna çatanda sənin nə öz məqsədindən faydalanmağa gücün çatır, nə də bir başqasına özündən sonra bələdçilik etməyə həvəsin. Halbuki bu yolu sona vurmağın əsas ləzzəti də məhz bu ikisidir.

O boyda dağa qalxmaq üçün kifayət qədər savadlanan, özündə əzm, iradə toplayan bir insanın dinməz-söyləməz bir

başqasına tabe olması, onun dediyi ilə oturub-durması, tənbehlərinə dözməsi çox ağırdır. Bu səbəbdən yolu sona vurmaq üçün digər şərt sənin fərasətin, təvazökarlığın, iradən, söz dinləmək, gördüklərindən, yaşadıqlarından ibrət götürə bilmək bacarığındır. Yolun sağ-salamat keçilməsi və sona varılması üçün bunlar çox əhəmiyyətlidir.

Bələdçinin vicdanlı, dinli-imanlı, təcrübəli olması da bu yolun keçilməsində əsas şərtdir. Bələdçilər çoxdur. Niyyətlər müxtəlifdir. Sənə lazım olan niyyəti sənin (!) niyyətinlə üst-üstə düşən, zamanında sənin gücünü düzgün dəyərləndirib sənin keçə biləcəyin yolu seçə bilən bir bələdçidir.

Ən qorxulu hal bələdçinin səni mənzil başına çatdırandan sonra səni buraxmamasıdır! Hər bələdçi yalnız öz sahəsini tanıyır. Əlbəttə, bütün yolu tanıyan bələdçi də tapmaq mümkündür. Lakin bu, Allahın elə bir nadir lütfüdür ki, hər adama qismət olmur. Öz sahəsinin sonuna gələndən sonra bələdçi özü kimi səni də inandırmağa çalışır ki, bu, bütöv yolun sonudur. Burdan o tərəfə keçsən qayadan uçacan, məhv olacan və s. İndiyə qədər inandığın bir bələdçiyə inanmamaq çox çətindir, hətta mümkün deyil.

Hər üç şərti tamamlayan isə səni bütün yol boyu izləyən içindəki Bələdçindir – Allah. Ona olan imanın və inamın sənin yanında olan müddətdə sən həm düzgün bələdçi seçə bilərsən, həm missiyan naminə Ustadın hörməti qarşısında qürurunu sındıra bilərsən, həm yolun hər əziyyətinə dözərsən, onu başa vura bilərsən, həm də gücün qalar ki, başqalarına bələdçilik edəsən.

Bunları mənə öyrədən Ustadım vaxtı çatanda məni rahatca, sevə-sevə buraxdı, yolumun qalanında uğur dilədi.

Başqalarını da bu yerə gətirmək üçün özü geri qayıtdı. İndən sonra onunla qala bilməyəcəyimi bilirdi, çətin də olsa bununla barışdı. Çünki Ustad idi. Öz işini gözəl bilən, qəlbi Allahın nuru və lütfü ilə güzgü qədər cilalandığına görə İnsanı, onun istedadını, həyatdakı missiyasını aydınca əks etdirən və anladan Ustad.

## *Dağ və daş*

Uca bir dağ ətəyindəki yamaclara, düzənlərə, dərələrə baxıb öz ucalığını daha yaxşı dərk edir. Öz varlığını, mahiyyətini, məqsədini anlaması ona var olmaqda kömək edir, varlığının mənasını artırır. Hər halda bu uca dağlar Allahın «beşik kimi yaratdığı Yerin dayaqları olduqlarını» (Quran 78/6-7) bilir və bu məsuliyyətlə dayanırlar.

Bu uca dağın başında kiçik bir daş nə hiss edir? O da dərələrə-düzlərə yuxarıdan aşağı baxır, özünü onlardan ucada görür. O, hətta dağın özündən belə üstdədir. O, bu dağın «balasıdır». Bu, onun varlığının yeganə mənasıdır. Yeganəmi?

O, nə bir divara hörülmür, nə bir hasara. Onun üzərində nə ot bitmir, nə çiçək. O, hətta üzərinə yağan yağış damlalarını belə uda bilmir. O, gözünü bu yüksək dağın başında açıb, aşağıdan xəbəri də yoxdur. Aşağıdan xəbəri olmadığına görə, …oturduğu ucalıqdan da xəbərsizdir. Xəbərsiz olduğuna görə, öz mahiyyətində də yanılır. Özünü hamıdan, dağdan da uca bilir. Amma ucalmağın nə əziyyətindən, nə də

ləzzətindən xəbərdardır. Deməli, bu ucalığın məsuliyyətini də bilmir.

Dağa çıxmış bir adam qalxdığı yüksəkliyi hiss etmək üçün aşağılara bir «xəbər» göndərmək həvəsinə düşür: yerdən daşı götürür və uzaqlara atır. Haralarasa aşağılara. Bir anın içində daş bir məchulluqdan digər məchulluğa düşür.

Yüksəklikdən düşmək nə asanmış, nə mənasızmış… Nə əziyyəti varmış, nə ləzzəti. Sadəcə, düşdüyü dibdən yüksəklikləri seyr etməyin həsrəti və əzabı varmış.

Özü ucalığa qalxmayan və ucalığın mahiyyətini dərk etməyən düşdüyü aşağıların necə, mənasını anlaya bilərmi? Bunun yeni bir başlanğıc ola biləcəyini güman edirmi? Yoxsa bu dəfə də içindəki hikkə, həsrət gözünü kor edər?

## *Zirvə*

Uşaq doğulur və onun kiçik dünyasından hər şey elə böyük, elə nəhəng görünür ki! Uşaq böyüyür və o, əvvəlcə özündən böyük uşaqlar boyda, sonra da hamıdan «böyük» atası boyda olmaq istəyir. Beləcə həvəslə böyüyür. Gün gəlir onun fiziki boyartımı dayanır, ancaq onun böyümək arzusu hələ təzə-təzə başlayır. Bu dəfə o, mənən böyüməyə başlayır. Təhsilini artırır, dünyagörüşü böyüyür.

Ancaq bu «böyümə»ni gözlə görmək çətindir, ona görə də… Bəziləri öz «yekə» boy-buxununa baxıb özünü hamıdan yekə, hamıdan nəhəng bilir və bundan artıq böyüməyə lüzum görmür. Belə olanda onun böyüməyi də dayanır.

Zirvəyə qalxmaq istəyən geri boylananda keçdiyi yolun böyüklüyündən qürurlanıb daha artığına ehtiyac hiss etmir. Amma zirvəyə və ora qalxanlara baxan özünün kiçikliyini dərk edir, görür və «böyüməyə» cəhd edir.

## *Kamillik*

Kamillik bütöv və sadə bir fenomendir. Yəni o, elə bir tamamlanmış, bitkin, müəyyən keyfiyyətlərə malik bir məfhumdur ki, onun kiçik və əhəmiyyətsiz görünə bilən bir xüsusiyyətinin olmaması artıq bütöv kamilliyin pozulması deməkdir.

Kamillik – vəhdətdir, ayrı-ayrı xüsusiyyətlərin üzvi şəkildə birləşdiyi bir vəhdət. O bölünməzdir. Onu hissələrə bölmək və hissələr vasitəsilə dərk etməyə çalışmaq kamilliyin dərki yox, ayrıca keyfiyyətlərin dərki sayıla bilər ki, bu xüsusiyyətlər də fərqli bir şəraitdə və fərqli bir şeyin tərkibində kamillikdən çox uzaq ola bilər. Və ya eyni xüsusiyyətlər fərqli şəraitlərdə kamilliyə apardığı kimi, naqisliyə də apara bilər.

Kamillik – harmoniyadır, vəhdətdə olan hissələrin arasında harmoniyadır. Bir daş bacarıqlı ustanın əlində gözəl bir sarayın bir hissəsi, naşı ustanın əlində evi təhlükə qarşısında qoya bilən artıq bir detal ola bildiyi kimi. Kamillik nə daş deyil, nə usta, nə də sarayın layihəsi. Kamillik hazır evdir. Burada hər şey vacibdir: həm düzgün seçilmiş sağlam daşlar, həm bacarıqlı usta əli, həm gözəl layihə, həm bu layihəyə uyğun məkan, …həm də onun sakinləri.

Kamilliyin hissələri onun tamının daşıdığı mahiyyəti daşımadığına görə, onun ayrı-ayrı hissələrinə malik olmaq kamil olmaq deyil. Hər hissənin öz mahiyyəti var, lakin bu mahiyyət bütövün tərkibində dəyişir. Başqa sözlə desək, təklərin mahiyyəti tamın mahiyyətində əriyir.

## *Üzündə göz izi var…*

Məlum bir mahnıda deyildiyi kimi… Kiminsə baxışları doğurdanmı iz qoyur? Kiminsə surəti gözlərdə qalırmı? İz qoyan hansı baxışlardır? Qalan hansı surətdir?

Sən bir dənizsən… Gah sakit, müəmmalı, gah dalğalı, coşqun. Gah könül gəmilərini oyuncağa çevirib atıb-tutan, sonra da qırıqlarını bəyənməyib sahilə atan, gah dərinliklərində min bir ağrı və nəvazişlə inci yetişdirən.

Sən bir dənizsən… İnsan sənə yaxınlaşmaqdan qorxur. Bilir ki, sənin hökmünə düşsə, Sənə təslim olmalı, özündən imtina etməlidir. İnsan Səndən aralana da bilmir. Sənin cazibən ahənrüba kimi adamı özünə çəkir. Beləcə dayanıb sahilində tərəddüdlər içində quruyursan, … gizlin-gizlin arzu edirsən ki, güclü bir dalğa səni bu tərəddüddən qurtaraydı.

Sən bir dənizsən… Sahilindəkilərə sığal verib aparan, …sonra da onu sahilin uzaq bir küncünə atan.

Sən bir dənizsən… Sal qayaları oxşaya-oxşaya qoynuna alan və onları əbədi unudan, başqa qaya axtaran.

Sən bir dənizsən… Haralardasa sahilin var. Ancaq Sənin sərhədlərini nə göz görür, nə ağıl kəsir… Sənin böyük-

lüyünü hiss etmək üçün ancaq özünü Sənin hökmünə vermək lazımdır ki, Sənin dünyana tam bələd olmasa da, Sənin aləmində ərisin, qarışsın…

Sən bir dənizsən… Hər kəsi möhtəşəmliyi ilə heyrətə salan, hər kəsi müəmması ilə tilsimləyən bir sirli dünyasan.

Sən bir dənizsən… Sənə hər yaxından baxana onun öz əksini göstərən. Yəqin buna görə Sənin üzündə göz izini görmək olmur. Yəqin buna görədir ki, kimsə Səndə iz qoya bilmir.

## *Sevgiyə fatihə*

Sevgi – gözəldir. Sevgi – müqəddəsdir. Sevgi – ülviyyətə aparan yoldur. Sevgi – ruhun dilidir. Sevgi – ruhun özünü reallaşdırma yoludur. Sevgi haqqında necə gözəl sözlər deyilib, nəğmələr oxunub. Heç kimin də ağlına gəlməyib ki, sevginin bir …fatihəyə də ehtiyacı ola bilər.

Ruhların məkanı göylər, bədənlərinki yerdir. Ruhlar yerdə darıxır, sıxılır, bədənlər göyə qalxa bilmir, orada onların ağırlığı daha artıq nəzərə çarpır. Hər ikisini birləşdirən sevgidir.

Bədən ruhun tərcümanıdır. Yoxsa sevgini kimsə duymaz, anlamaz. Bədən öz işinin öhdəsindən gəlmirsə – dili bilmirsə, bu səsə qarşı laqeyddirsə, kardırsa, sevgi aciz qalır: eşidən, duyan, amma danışa, anlada bilməyən bir bədbəxtə çevrilir.

Bədən pərvazlanan ruhun dincəlmək məkanıdır. Bədən ruha gen gələndə ruh bir də təkan verib uça bilmir, dar

olanda, ruhun qanadları əzilir, yenə uçmaqdan məhrum qalır. Sevgi qalır dörd divar arasında: səmaların sonsuzluğunun dadını bilən, iki qanadı olan, amma oralara bir də qalxa bilməyən bir bədbəxtə çevrilir.

Bədən ruhun yerdə bələdçisidir. O olmazsa, göylərdə maneə tanımayan ruh yerdəki ilk yolayrıcında qəzaya düşər. Nur dolu bir harmoniyadan yerin xaosuna düşəndə sevgi itib-batır, toqquşan bədənlər arasında əzilir. Sevginin gözü ancaq nurun rənginə alışdığından qırmızı və yaşıl işıqların hökmünə düşəndə tez-tez cəzalanır və bundan çılızlaşır, solğunlaşır. *Zəngin bir dünyanın sultanı ola-ola kasıb bir məkanda qolu bağlı bir bədbəxtə çevrilir*.

Bu bədbəxt sevgiyə ən böyük yaxşılığımız ona Fatihə oxumaq olar.

Fatihə!

## ***Bədən, ruh və eşq***

*Dəli sevgi – bütöv bir həyat,*
*ağıllı sevgi – həyatın bir hissəsidir.*

***Əbu Turxan***

Ruh özünə uyğun gələn, onu öz könül güzgüsündə aydınca əks etdirən başqa bir ruhu görən kimi tanıyır, duyur, onunla vəhdətdə olmağa çalışır.

Bədən də özünə uyğun, öz zövqünü oxşayan başqa bir bədəni görən kimi ona can atır, ona qovuşmağa çalışır.

Ruh tapdığı ruhun bədənini ilk anlar seçmir… bu, heç onun üçün maraqlı da olmur.

Bədən də tapdığı bədənin ruhunu ilk anlar görmür… bu, ona heç maraqlı da deyil.

Ruh öz bədənini unudaraq yad bir bədəndəki ruhla doğmalaşır.

Hər ikisi öz zövqünə can atır, bütün vasitələrlə öz varlığını qarşısındakına çatdırmaq istəyir, ən kiçik imkanları belə qaçırmaq istəmir, harmoniya axtarır. Ruhun silahı yalnız baxışlar, atəş dolu nəfəsdir, bədənin silahı isə çoxdur – insanın bütün imkan və bacarıqları: bütün hiss orqanları üstəgəl söz.

Ruh daha sərbəst, daha azaddır. Onlar tez qovuşur, tez dil tapırlar.

Bədənlər isə maneə tapmaqda sanki bir-birilə yarışa girirlər. Bunun adı gah naz olur, gah qürur, gah küsü, gah abırhəya, gah ictimai rəy, gah da romantika.

Ruhlar heç cür bir ahəngə gələ bilməyən bədənləri görmədən belə öz vəhdətlərinin zirvəsinə çatırlar.

Hər addım başı maneələri dəf etməklə məşğul olan bədənlər üçün heç bir sərhəd tanımayan ruhların ardınca yetişmək çox çətindir, hətta mümkünsüzdür.

Ruhlar bərabər ola bilməyəndə bədənlər ünsiyyətdə olsalar da, bir-birilə müəyyən şərtlərlə bağlı qalsalar da, özləri də bilmədən ayrı yaşayan, haralardasa öz həmdəmini axtaran ruhlarının ayrılığını yaşamalı olurlar, bərabər olsalar da elə hey bir ayrılıq mehindən üşüyürlər.

Bədənlər dil tapa bilməyib ayrılsalar da, ruhlar bərabər qalırlar. Hərəsi öz bədənində təklikdən üşüsə də, bir-birinin

hənirinə qızına bilirlər, bu atəş onları donub heç olmağa imkan vermir.

Ruhlar və bədənlər arasındakı təmaslar böyüdükcə, hisslər dolub-daşdıqca, zövq oxşamaqdan sevgiyə, sevgidən eşqə yüksəldikcə bir an gəlir ki, ruhun bədənə, bədənin də ruha möhtaclığı ortaya çıxır. Yaşanan duyğuların tam olması üçün ruh və bədənin təklikdə yox, bir-birilə vəhdət halında olması bir zərurətə çevrilir. Ya bədən ruhu öz dalınca sürüməyə çalışır, ya da ruh bədənə öz qanadlarını taxmağa cəhd göstərir. Bəlkə buna görə Əbu Turxan deyir ki, «məhəbbət ruhla bədənin ittifaqından yaranır»? Bəlkə bu ittifaq olmayanda yaranan duyğular qırıq və yarımçıq qalır? Bəlkə ruh və bədəni bir ittifaqa gətirən elə məhəbbətdir?

Bəs ittifaqa gələ bilmiş ruh və bədən nə əldə edir?

Ruh bədənə ağırlığını, nisbiliyini, qara torpaqdan yarandığını unutdurur. Bədən ruhun aşıb-daşan işıq selini zahirə çıxardır. Ruh bədənin qaranlıqda azmış, vurnuxan hisslərinə nur verir, bədənin özünün də xəbərsiz olduğu cəhətlərini işıqlandırır. Bədən ruhun duyduqlarını, təsəvvürlərini reallaşdırır, onlara maddiyyat qatmaqla ruhun təsəvvürünə belə gəlməyən həqiqətlər anladır ona.

Bir-birini kəşf edə-edə ruh və bədən bir varlıq kimi kamilləşir, bir-birini tamamlaya-tamamlaya bir varlıq kimi bütövləşirlər.

İlk vaxtlar kənar bir qüvvə kimi təsir göstərən eşq hər ikisinin tərkib hissəsinə çevrilir: nur olub ruhun işığına qarışır, qan olub bədənin damarlarında axır, … mahiyyət olub İnsanı var edir.

# *İnsan*

Ruhunla ülvi, kamil bir dünyaya bağlısan. Bu bağlılığı dərk etdiyinə görə həmin ülvilikdən, kamillikdən öz payını ala bilirsən. Böyük qara bir pəncərədə iynə boyda görünən işıq get-gedə böyüyür, qaranlıq azalır və bir bədən çərçivəsinə sığmayıb ətrafa da saçılmağa başlayır. İçində qaynayan, dolub-daşan bu duyğular, düşüncələr yazıya, tabloya, notlara köçür. Qara dünya sənə yadlaşdıqca, nurlu aləm sənə doğmalaşır. Bu işıqla hansı qaranlığa baxsan, orada basırılmış, çirklənmiş nuru görə bilirsən… və onun da parlamasına çalışırsan.

***Bu SƏNƏ baxanda necə də DOĞMAsan!***

Adam əlindən tutub nurlanmaq istəyir!

Bədənin dünya adlı bir binanın gəlib-gedən qonaqlarından biridir. Həm bu binada öz yerini tutmağa, yerini rahat, isti etməyə, həm də bu binanın özünü daha işıqlı, daha sakit bir vəziyyətə gətirməyə çalışırsan. İstəyirsən dörd yanındakılar da bu gözəllikdən doyunca bəhrələnsin. Yenə istəklər, arzular, planlar köçür yazıya, tabloya, nota.

Nə qədər çalışsan da bu binanın dörd divarını aşa bilmirsən, elektrik olmayan otağı işıqlandıra bilmirsən, bir otağın sakinini o biri otağın sakini ilə barışdıra bilmirsən. Çalışa-çalışa, yarada-yarada… bu binadan kənarda da bir həyatın olduğunu unudursan, ya da xatırlamağa vaxtın qalmır.

***Bu SƏNƏ baxanda necə də YADsan!***

Adam SƏNdən üz döndərib bu binanı tərk etmək istəyir!

«Bədənlə çəpərlənən», «aşağıdan bədənə, yuxarıdan ruha bağlı» (Əbu Turxan) bir nəfsinin olduğunu bilirsən. Ruhunun verdiyi nurun cazibəsini bilsən də, nəfsini ruhunun itaətinə vermirsən. Bədəninin qaranlıqdan kənara çıxa bilmədiyini dərk etdiyinə görə, nəfsini ondan da uzaqda saxlayırsan. Nəfsin varlığı belə yaddan çıxır! Sən: «bu binanın sakiniyəm», – deyib çiyinlərindəki yükü daşıyırsan, ruhunu dinləməyə vaxtın qalmır. Bir də bu binada ruhun dedikləri keçərli deyil ki! Bu binaya lazımlı olmaq istəyirsənsə, ruhunun gözünü bağlayıb, dilini lal eləməlisən.

***Bu SƏNƏ baxanda necə də MƏNsən!***

Adam lal-kor bir ruhun başqa bir lal-kor ruhu görməyinə təəccüb edir!

## *Bir udum nəfəs*

Görəsən hər an rahatlıqla nəfəs alan və bunun heç fərqində olmayanlar bilirlərmi ki, bir udum nəfəsin nə böyük hikməti var? Yəqin ki, yox. Bunu yalnız o bir uduma həsrət qalanlar bilər.

Bir udum nəfəsi ciyərinə tam çəkə bilmirsən, yarımçıq qalır, …ancaq sənə bir ömür bəxş edir. Onun dadını ağzında doya-doya hiss etmirsən, çox azdır, …ancaq bütün dadları unutdurur.

Bir ömür yaşayırsan və o bir udumun varlığından belə xəbərsiz olursan… Bir gün o nəfəs səni tapır: bir çiçəyin

ləçəyindənmi, bir pıçıltının hənirindənmi, bir təbəssümün cazibəsindənmi, bir çatılmış qaşın düyünündənmi… Tapır, üsuluna, şəraitinə baxmadan. Sən təəccübdən, heyrətdən içini çəkəndə o nəfəs ciyərinə dolur və qanınla bütün bədəninə yayılır. Hər şeyə bir yeni rəng verir, hər şey sanki təzələnir. Baxışların, eşitməyin, hissiyyatın dəyişir, itiləşir, həssaslaşır. Göydə uçan quşun qanadlarının xışıltısını eşidirsən, suda üzən balığın qovaqcığının hava ilə dolub onu günəş işığına qaldırdığını hiss edirsən, bir udum nəfəsə həsrət qalan könüllərin susuz torpaq kimi çatladığını görürsən…

O bir udum nəfəs üçün indiyə qədər necə yaşadığına təəccüb edirsən, onun səni tapmasına sevinirsən, onun yalnız bir udum olmasına təəssüf edirsən. Bircə anın içində hisslər qarışır bir-birinə. Çalışırsan vaxtı dayandırasan ki, o nəfəs sənin içində qalsın, onu itirməkdən qorxursan. Amma o bir udum nəfəs çox kiçikdir, nə əllə tutulmaz, nə zamanla.

Bircə udumluq nəfəs içinə girir, çıxanda isə bütün canını çıxardır. Bəlkə də canın özü ondan qopa bilmir, onunla bərabər getmək istəyir.

O bir udum uçur… ancaq hikməti qanında qalır, ömrü boyu dolanır. Əvvəllər varlığından xəbərsiz olanda heç nəfəs aldığının fərqində belə deyildin. İndi o bir udumun həsrətini çəkə-çəkə geniş dünyada boğulursan, hey o bir udumu axtarırsan. Bu, başqa nəfəslərə qarşı insafsızlıq deyilmi? Bu, bir an, bir udum naminə ömrünü qurban vermək deyilmi? Bəlkə də belədir… yəqin elədir. Ancaq o bir udum nəfəsi ciyərinə çəkən üçün bunların heç bir fərqi yoxdur. Boğulmağın dadını bilən üçün o bir udumun qiyməti yoxdur.

## *Filosof portreti*

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən. İçini dolduran bir hiss, açılmaq həvəsi səni həyəcanlandırır, qanını qaynadır. Bundan rəngin qaçır, baxışların narahat-narahat ətrafı dolanır… dinləyici axtarır, ancaq tapa bilmir. Narahatlıq ümidsizliyə qarışır, həyəcan – təəssüfə.

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən. Gərginləşmiş üz cizgilərin danışır, həyəcan dolu baxışların danışır, hətta saçlarını qarışdıran narahat barmaqların da danışır. Bircə dilin dinmir. Bərk-bərk sıxılan dodaqların açılmır ki, dilinin də tilsimi sına.

Sən çox şey deyirsən, bircə demək istədiyini demirsən. Sən çox simalarla rastlaşırsan, bircə sənin ruhunu əks etdirəcək sima sənə rast gəlmir; çox baxışlar tutursan, bircə sənin baxışının davamı olan baxışları görə bilmirsən.

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən. Anlamayacaqlarından, gözəl bir şeyi ləkələyəcəklərindən, qanından-canından gələn sözlərinin hədər gedəcəyindən qorxursan. Onun nə qədər pak olduğundan əminsən, çıxdığı məkan kimi saf bir məkana düşəcəyindən isə əmin deyilsən.

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən. İçində alışıb-yanan, səni kül eləyən bu sözün kimi isə yandırmasından, kiminsə ürəyində özünə yer eləyib oranı didib parçalamasından ehtiyat edirsən. Bu sözün nə qədər ağır bir yük olduğunu bilirsən, ona görə hansısa başqa

bir ürəyə də bu ağırlığı verməyə qıymırsan. Onu səndən tam alacaq birini yox, onun ağırlığını səninlə bölüşə biləcək birini axtarırsan.

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən. Səni anladacaq, səni təsvir edəcək, sənin bütün varlığını əks etdirəcək bir söz. Bütün ümidin bu sözədir. Gah hələ vaxtının çatmadığını, gah da artıq çox gec olduğunu düşünürsən. Onu eşidəcək qulaq, duyacaq ürək olmayıb daşa çırpılmağındansa, öz içini parçalamasını üstün tutursan.

Elə bil nə isə demək istəyirsən, amma demirsən, … deyə bilmirsən.

## *Xoşbəxtlik*

Hər kəsin xoşbəxtliyi onun könlü qədərdir.

Bir körpənin təbəssümü niyə bu qədər işıqlı, sirayətedici, səmimi, ürəkdolusu olur? Niyə körpələr ən kiçik şeydən xoşbəxt olmağı bacarırlar? Əslində onları xoşbəxt edən onların könüllərindəki nurdur – hələ çirklənməmiş, kobud qabıqlar altında gizlənməmiş. Bu nur nəyin üzərinə düşürsə onu da nurlandırır. Yəqin buna görədir ki, körpənin təbəssümündən hər kəsin üzü də açılır, könlü də.

İnsan böyüdükcə, qayğıları artdıqca … könlü yaddan çıxır. Hər şey yadında olur: məişət qayğıları, vəzifə, mal-dövlət, övlad. Hər şeyin yanında könülə elə az yer qalır ki… Onun nurunu görmək, sevinmək, sevindirmək elə çətinləşir ki… Hələ bu nur bütün gün düşüncəni məşğul edənləri, gündəlik həyatını, cəmiyyətin özünü sənin ruhuna, könlünə

yad bir rəngdə olduğunu göstərirsə sevinmək, xoşbəxt olmaq lap çətinləşir.

Könüllə sevinmək çətinləşdikcə, «uşaq böyüdükçə», insan məcbur olur «böyüklər» kimi sevinsin – diplom alanda, övladı olanda, çoxlu pul qazananda, yüksək vəzifəyə qoyulanda, kitabı işıq üzü görəndə. Sevinir və … xoşbəxt olur. Olurmu? Olur, amma xoşbəxtliyinin ipi onu xoşbəxt edən şeyin əlində olur. O da istədiyi vaxt çəkib boğur sənin xoşbəxtliyini. İynə olub xoşbəxtliyini şar kimi partladır. Sən də bu anın qorxusunu çəkə-çəkə «xoşbəxt» olursan.

Sabun köpüyü kimi yox olan «xoşbəxtliklərə» baxanlar bəzən deyirlər: bu dünyada sevinc, xoşbəxtlik elə azdır ki!

Əslində bu dünyada xoşbəxtlik o qədərdir ki! Amma onu könül gözü ilə baxsanız görərsiniz! Könlünüzün nuru nəyə düşsə onu işığa qərq edər! Lap körpələr kimi.

Allah öz nurundan bir nur payı ayırıb sevə-sevə insana verdi, adını ruh qoydu. Bu nurun gözəlliyini duymaq, doya-doya yaşamaq üçün bir könül verdi. Könülün yaşadıqlarını, Allahdan aldığı hikməti dərk edib, başqaları ilə bölüşmək üçün bir ağıl verdi. Hər üçü bir-birini tamamlayanda, bir-biri ilə dil tapanda möhtəşəm bir harmoniya, gözəllik yarandı. İnsan bu gözəlliyin adını xoşbəxtlik qoyub. Bu üçündən ən xoşbəxt olanı yəqin ki, könüldür. Onun xoşbəxtliyini artıran hər ikisi ilə bölüşməsi, harmoniyanın yaranmasına səbəbkar olmasıdır.

## *Var-dövlət*

Bu dünya çox zəngindir. Rəngarəng təbiəti, çeşidli bitkiləri, heyvanları, al-əlvan çiçəkləri. Bu dünyada zənginliklər həm çoxdur, həm də müxtəlifdir. Kiminin pulu-parası, kiminin oğul-uşağı, kiminin evi-tarlası, kiminin də elmi-savabı. Bu dünyanın zənginləri də çoxdur. Əslində zənginliklərin növlərinə baxsaq, bu dünyada çox az adamın kasıb olduğunu görərik. Ancaq bunu dərk edənlər azdır, yəni əsl var-dövlətini tanıyıb, onun dəyərini bilənlər azdır.

Maraqlıdır, var-dövlətin mahiyyəti, meyarı kim tərəfindən təyin edilib? O da maraqlıdır ki, nə zamandan bəri var-dövlət tərəzi və rəqəmlərlə ölçülməyə başlayıb? Bunu kəşf edən kəs tərəzi ilə ölçülə bilməyən, rəqəmlərə sığmayan var-dövlətə nə üçün bir ölçü vahidi düşünməyib? Əbu Turxan deyir:

> …….
> *Böyük kəşf olardı, amma nə yaxşı,*
> *Mənəvi sərvətin ölçüsü yoxdur.*

Kimin tərəfindən kəşf edildiyini bilməsəm də, bu tərəzinin çox əhəmiyyətli rolu olduğunu bilirəm. Bilirəm ki, tərəzinin bir gözünə qoyulmuş var-dövlət nə qədər ağır gəlirsə, digər gözündə oturmuş sahibini bir o qədər yuxarı qaldırır. Amma bu işdəki paradoksu izah edə bilmirəm: var-dövlət ağırlaşdıqca, sahibi yüngülləşir?! Var-dövlət artdıqca insan öz çəkisini itirir?! İnsanlıqdan çıxır?! Amma onu da bilirəm ki, doğurdan da son nəticədə var-dövlət öz sahibindən daha ağır və «hörmətli» olur? Yəqin bu «ucalmaya» düçar olmamaq üçün var-dövlət tərəzisinin o biri gözündən uzaq

qaçmağı bacarmaq lazımdır. Yəni, bu mümkündürmü? Yenə Əbu Turxan yazır:

*Həyatda saxlanma qanunu varmı,*
*Pak admı üstündür, dövlətmi, varmı?*
*Biri azalanda o biri artsa,*
*Məcmuyu bunların sabit qalarmı?*

Bəli, təəssüf ki, ancaq təraziyə gələn, rəqəmlə hesablanan şeylərə var-dövlət deyilir. Başqa şeyləri eyni adla adlandıranda mütləq yanına bir «məcazi məna» ifadəsi də artırırlar. Yoxsa sənə gülərlər ki, bir çiçək balaya da var-dövlət deyirsən. Sənə ağılsız deyib məsxərəyə qoyarlar… malik olduğun dərin təfəkkürünə, sonsuz ideyalarına var-dövlət desən! Sən də ağıllı olmaq üçün bir tərəzi almalısan. Sənin də səsini eşitsinlər deyə «ucalmalısan», malik olduğun dərin təfəkkürünü rəqəmlərə sığdırmalısan.

Yox, əslində bu dünyanın sayıla bilən, rəqəmlərə sığan zənginliyi heç də çox deyil. Bir şey ki, nəyə isə sığa! Əslində o, sadəcə bir ovucdur. Dünya əlindəki bu bir ovuc var-dövləti hər gedəndən alıb təzə gələnlərin başını qatır. Yunus Əmrə demiş:

*Mal sahibi, mülk sahibi*
*Hanı bunun ilk sahibi?*
*Mal da yalan, mülk də yalan,*
*Al, bir az da sən oyalan.*

Bu dünyanın daha böyük bir xəzinəsi var. Düşünməyi bacaran, içində ilahi hiss, böyük eşq gəzdirən kəslər tapır o xəzinəni. Könlünün səsini qızılın cingiltisi ilə səhv salmayan, onu dinləməyi bacaran tapır o xəzinəni. Bu dünyaya

məxsus olanla insanın öz könlü üçün nəzərdə tutulmuş var-dövləti fərqləndirə bilənlər faydalana bilir o xəzinədən.

Bu xəzinənin adını bilmirəm, onu təsvir etsəm də anlaşıqlı olmaz. Axı hər kəsin öz xəzinəsi var! Ancaq bu xəzinənin açarının adını bilirəm: *eşq*. Ən qəliz qıfılları aça bilən sadə və gözəl bir açar. Bilənlər onunla qapılar açırlar, bilməyənlər tərəzinin gözünə qoyurlar ki, ağır gəlsin, bir az da «ucalsınlar».

## *Birinci və ikinci təbiət*

İnsanın birinci təbiəti ona yaranışından verilir. Bu, Allah tərəfindən ona bəxş edilmiş «mən», məhz bu bədəndə var olan ruhun həqiqəti, məhz bu ruhla bu bədənin vəhdətinin mahiyyətidir.

İkinci təbiət isə insan öz «mən»ini görəndən, onun barəsində düşünüb onu dərk etməyə başlayandan sonra formalaşmağa başlayır. İnsan birinci təbiətə fitrən malikdir, ikinci təbiəti isə təcrübə ilə qazanır və bu təbiətin xarakteri həmin təcrübədən bilavasitə asılı olur. Əbu Turxan da yazır: «Hər insanda iki insan var. Birincisi, öz təbiətinə, genlərinə, proqramına uyğun olan insan, ikincisi, bu fani dünyada, təsadüfi hadisələr sistemində formalaşmış sosial insan».

Birinci təbiət nüvə, əsas, mahiyyət, ikinci təbiət bu nüvə üzərinə gələn qabıqdır. Birinci təbiət batin, ikinci təbiət zahirdir.

Hər iki təbiət bir-biri ilə sıx bağlıdır, bir-birini tamamlayırlar, daha doğrusu, insanın kamilləşməsi, düzgün inkişaf

etməsi üçün tamamlamalıdırlar. Bununla belə, birinci və ikinci təbiət bir-birlərinə uyğun gəldikləri kimi, gəlməyə də bilirlər. S.Xəlilov yazır: «Uşaq taxta parçası deyil ki, onu yonub nə isə düzəldəsən. O hələ ilk yaranışdan proqramlaşdırılmış bir sistemdir. Gələcəkdə nə olacağı, necə olacağı təkcə düşdüyü mühitdən və tərbiyədən yox, həm də onun fitri payından asılıdır». Deyilənlərdən belə bir nəticə də çıxartmaq olar ki, ikinci təbiət birincinin reallaşması, eyni zamanda, tamamlanması üçün bir vasitə, «məkandır».

İlk baxışda deyilənlərdə nə böyük bir ziddiyyət, nə də bir təhlükə var, hər kəsə bəlli həqiqətdir. Lakin məsələyə bir də fərqli prizmadan baxaq: insanın ikinci təbiəti öz «mən»ini dərk etməyə və ya şüurlu şəkildə ətraf mühiti öyrənməyə və özünə də bir obyekt kimi kənardan baxmağa başlayanda formalaşmağa başlayır. Yəni insan «gözünü açıb» bu təbiətini görür, birinci təbiətinin varlığından isə bixəbər qalır və ya anadan belə ağıllı doğulduğunu zənn edir. Hər iki təbiət arasında bir uyğunluq olanda, onlar bir-birini tamamlayanda isə bu zənn əminliyə çevrilir.

Əslində isə, ikinci təbiətini özünün birinci təbiəti hesab etməklə, yəni birincini unutmaqla insanın itirdikləri qazandıqlarından çox olur.

Nə qazanır? Yeni düşüncələr, ideyalar və bunlara müvafiq olaraq daha geniş imkanlar və yollar – yeni şəxsiyyət.

Nə itirir? Birinci təbiətini, deməli, orijinallığını. İkinci nə qədər güclü olsa da, surət, qabıq olaraq qalır.

İnsan ikinci təbiətinin əsl dəyərini dərk etməkdən məhrum qalır, çünki onu birinci sanır, yeniliyi, inkişafı sezmir. Öz-özünə sual vermir: mən «anadangəlmə» beləyəmsə, bəs mənim inkişafım nədədir? Fərqli bir mühitdə də mən bu

«mən» olardımmı? Deməli, eyni zamanda ikinci təbiətin verdiyi üstünlüklər də qaranlıq, açılmamış qalır və insanı yüksəltməkdənsə, ona yük olur.

Müvafiq olaraq insan özünün birinci təbiətini də dərk edə bilmir, çünki onun mövcudluğunu qəbul etmək istəmir, ...ancaq qabıqdan ibarət qoz kimi. Deməli, o, ikinci təbiətin məhz nəyi tamamladığını, nəyi qidalandırdığını, öz «mən»inin haradan gəlib, hara getdiyini görmür.

Nəhayət, sonuncu təhlükə: insan ikiüzlülüyə, yəni riyakarlığa, nankorluğa meyllənir, çünki hər kəsi həqiqət olmayan bir şeyə inandırmağa çalışır.

## *Heyvan*

Allahın yaratdıqları arasında tez-tez müqayisələr aparılır, bənzərliklər tapılır. İnsanı da gah gülə-çiçəyə, qoca çinara, düz qamətli sərv ağacına, gah da məğrur qartala, hiyləgər tülküyə və s.-ə oxşadırlar. Bu bənzətmələr əsasən zahirə aid olsa da, bəzən daxili keyfiyyətlərdə də paralellər aparırlar. Bizim dediklərimizlə Çarlz Darvinin insanın əcdadlarının meymun olması haqqında çoxdan iflasa uğramış düşüncələri arasında heç bir əlaqə yoxdur.

Məlum olduğu kimi, hələ orta əsrlərdə insan ruhunu nəbati, heyvani, insani növlərə yaxud müvafiq mərtəbələrə bölmüşlər. Bu, dərin və əsası olan bir hikmətdir. Lakin bizim dediklərimizin onunla da bir əlaqəsi yoxdur.

Bir filosof Darvinin düşüncələrinin puçluğunu göstərmək üçün belə bir fikir söyləmişdi ki, meymun qədər digər

heyvanların insanların da əcdad olmaq hüququ var. Məsələn, ola bilsin ki, bəzilərinin əcdadı meymun, bir başqasınınkı ayı, birininki də ceyrandır. Bu zarafatda bir həqiqət var. İnsanların öz heyvani ruhlarının səviyyəsində doğurdan da, fərqli-fərqli heyvanları xatırlatmaqları heç kəsə gizli deyil.

Mən də iki heyvan haqqında bir-iki kəlmə demək istəyirəm: tarakan (ona bənzəyən adamların xatirinə onun həşərat olduğunu unudun) və qoyun.

Tarakanlar. Mətbəxlərin ən üzlü, ən iyrənc, ən tez artan «sakinləri». Bəlkə də onlar başqa yerlərdə də məskunlaşırlar, lakin nədənsə tarakan deyəndə birinci yada düşən mətbəx və qida olur. Tarakanları öldürmək üçün onlara bir kimyəvi maddə verirlər. Maraqlıdır, bəzi tarakanlar ölür, ancaq bəzilərində bu dərmana qarşı nəinki immunitet yaranır, hətta onlar bu dərmanı yeyib kökəlməyə, daha sürətlə artmağa, böyüməyə başlayırlar. Buna elmi dildə mutasiya deyirlər.

Belə insanlar da var. İlk dəfə başına dərd gələn insan sonralar bu dərdlərə, problemlərə elə alışır ki, bu həyat onlar üçün normal hala çevrilir. Hətta onları bu haldan çıxardana belə nifrətlə, acıqla baxırlar, onların «rahatlığını» pozduğuna görə ondan uzaqlaşır, ona düşmən kəsilirlər.

Qoyun. Təmizliyi sevən, sahibinə ən az problem yaradan, ən çox xeyir verən, Allah yolunda qurbanlıq üçün seçilən ev heyvanı. Eyni zamanda. Heyvanlar arasında, mənim bildiyim qədər, yalnız qoyun öz ölümünə rahat-rahat tamaşa edir, hətta altdan yuxarı bayaq yanında otlayan tayının soyulmağını müşahidə edir. Mən bilmirəm o qoyun nə hisslər keçirir, ancaq onun gözlərində nə qorxu görmək mümkündür, nə təlaş.

Bəzi insanlar yoldaşlarının başına gələnləri məhz yoldaşı üçün nəzərdə tutulduğunu zənn edir və heç cür eyni şeyi özünün də yaşayacağını qəbul edə bilmir. Rahat-rahat onun «edam olunmağına» tamaşa edir və özünün də xəbəri olmadan … öz qurbanlıq vaxtını gözləyir.

İnsan bir bioloji varlıqdır və onda heyvani xüsusiyyətlərin olması təbii görünə bilər. Qeyri-təbii, daha doğrusu, *dəhşətli olan heyvaniliyin insaniliyi üstələməsi, hətta unutdurmasıdır.*

## *Simurq quşu*

Uşaqlıqda oxuduğum nağıllarda ən çox xoşuma gələn Simurq quşu olurdu. Qəhrəmanları bəlalardan xilas edən, uzaq yolları yorulmadan qət edən. Ən maraqlısı isə onun yanıb kül olması və sonra öz külündən doğulması idi. Alışıb öz oduna yanmaq, sonra yenə öz külündən yaranmaq! Nağıllar həyatda baş verənlərmiş, sən demə! Amma bir fərqlə: nağılları qoşanlar həyatın acığına sonluğu öz ürəkləri istədikləri kimi verirdilər. Yazıq uşaq bunu hardan bilsin! Elə bilir o da dara düşəndə qara qoçla ağ qoç gələcək. Elə bilir, qaranlığa düşsə belə Simurq quşu özünü yetirəcək, o da 40 tuluq su, 40 tikə ətlə uçub qonacaq şahlıq taxtına.

Bəli, nağıllar həyatın bir anı, bir məqamıdır. İnsan doğulur, böyüyür, arzular yaranır, planlar qurulur… Nə isə alınmayanda, məhv olanda, insan əvvəl bir ruh düşkünlüyünə düşür, həyatdan küsür. Sonra yavaş-yavaş içində bir enerji, qüvvə tapır, yeni arzular, yeni planlar… yeni bir insan

doğulur. Lap Simurq kimi. Amma gün gəlir insanın ruhu yorulur – məhv olub doğulmaqdan, yarımçıq arzuları dəfn eləməkdən. Ruh elə yorulur ki, artıq nə sönmüş ocağın kənarından çəkilə bilir, nə də yenidən qalanmağa, alışıb yanmağa içində bir həvəs, bir güc tapır. Məcbur olur külün soyuğunu dünyanın ən isti, ən gur yanan ocağı sansın.

## *Seçim*

Allah insana seçim verdi. Allah insana düzgün seçim etmək üçün ağıl verdi. Allah ağılın seçdiyini həyata keçirtmək üçün iradə verdi.

Bunlar insanın varlığında, mahiyyətindədir.

Seçim xeyir və şər, yalan və doğru, əyri və düz arasında olmalı, haramdan qurtarıb halala aparmalıdır.

Dünya get-gedə cırlaşır. Bəlkə də dünya elə həmin dünyadır, cırlaşan insanlardır. İnsanın seçim meyarları dəyişib.

Əvvəllər gözlər gözəl və kifir arasında müqayisə apara bilir, gözəli dəyərləndirə bilirdi. İndi gözəllik çoxalmış çirkinliklərin kölgəsində itib-batıb. İnsanlar artıq gözəlliyi görə bilmirlər. Məcburdurlar kifirlərin gözəlini seçsinlər.

İnsanlar artıq o qədər şər görüblər ki, xeyirin ölçülərini unudublar. Məcburdurlar şərin xeyirlisini seçsinlər.

Haram o qədər doğmalaşıb ki, halal insanlara yadlaşıb. Məcburdurlar haramın halalını tapsınlar.

Sevgi o qədər maddiləşib ki, mənəvi tərəfi mənasızlaşıb. İnsanlar məcburdurlar ki, qısa zaman kəsiklərinin ötəri maddi həzzlərini eşq adlandırsınlar.

İradə ağıla çətin şərtlər qoyanda, ağıl da seçimi sərtləşdirir.

İradə zəifləyəndə ağlın dərin qatlarının aktivləşməsinə ehtiyac qalmır. Səthi ağlın seçimi isə hisslərin həddindən o yana keçmir. Belə olanda ruh da mürgüləyir, könül də.

## *Sükut*

Sən susmağı bacırırsan?

Ürəyin min bir sözlə dolu olduğu, haray saldığı bir vaxtda dilin susmağı bacırır? Ürəyin hər yoldan ötəndə, daş-divarda özünə həmsöhbət axtaranda sən susa bilirsən?

Dinləyənin yoxdursa, susmağa məcbursan! Səsinin səslər xaosunda itməsindən qorxursansa, susmalısan! Səsini səhv salırlarsa, susmalısan!

Bax, onda sən hər şey danışırsan. Sükutunu gizlətmək üçün. Hamı ilə həmsöhbət olursan, əsl həmsöhbətinlə susmaq üçün. Bütün sözlərini deyirsən, sükutla dediyindən başqa.

Sən sükutla söhbət etməyi bacarırsan?

Sözlər ürəyindəkiləri çatdırmağa aciz qalanda sükut köməyə çatır. Dilin demədiyini gözlər deyəndə, sükutdan yaxşı yardımçı olmur. Sözlərin aça bilmədiyi qıfılları sükut açır.

Sən heç sükutun harayını eşidibsən?

Ürəyin dedikləri içində həbs olunanda, dillə düşmən kəsiləndə sükut haray salır. Qulaqların o harayı eşitməsin deyə daha çox, daha bərkdən danışırsan. Bilirsən ki, sussan sükutun harayını eşidəcən. Bu haraydan bütün bildiklərini unudacan, bütün etdiklərini yadırğayacan.

Sən bilirsən sükut nə rəngdədir?

Sükut ürəyin dilidir, deməli, ürəyin də rəngindədir. Qaranlıq ürəyin sükutu nə qədər qorxunc, dəhşətlidirsə, nurlu ürəyin sükutu da bir o qədər məsum, həzin, ecazkardır. Qaranlıq ürəklərlə sükuta dalmaq insanı nə qədər qaraldırsa, nurlu ürəklərin sükutu bir o qədər nurlandırır. Qaranlıq sükut vəhşətlə doludur, nurlu sükut sevgi ilə. Yəqin buna görə sevdiyinlə susmaq da gözəldir.

Bunlar dilin sükutudur. Bəs ürəyin sükutu necə olur?

Ürək susanda dil susmağı bacarmır. Elə hey boş söz yığnağı ilə danışır.

Ürək susanda ruh susur, ruh susanda nur kəsilir, nur kəsiləndə İNSAN ölür, bioloji varlıq olan, ancaq heyvanla müqayisə oluna bilən insan qalır.

## *İnsan və şeytan*

Allah insanı yaratdı, ona bütün adları öyrətdi və bununla onu Özündən sonra ən qüdrətli varlıq etdi. Allah bütün digər yaradılmışlara, hətta mələklərə belə bu qüdrət qarşısında səcdə etməyi buyurdu. Bu səcdə əslində bu qüdrəti yaratmış Qüdrətə səcdə idi. Bunu qəbul edə bilməyən yalnız şeytan oldu. O, qüdrət Sahibinin özünə səcdə etməyi

üstün tutdu, maddi bir şeyə boyun əymək istəmədi, yaradılmış, ötəri olan bir varlıq qarşısında öz zəifliyini qəbul etmək istəmədi. Maddi pərdə şeytanın gözünü örtdü, gördüyü ancaq qara torpaq oldu. Allahın insana öyrətdiklərini əhəmiyyətli saymadı, Allahdan insana üflənən, bəxş edilən ruhu görmədi. O dərəcədə kor oldu ki, lənətlənməyi belə qəbul etdi. Şeytan maddiyyata nifrət etdi və bu nifrət ona ruhun gücünü görməyə mane oldu. Lənətlənmiş şeytan insanları yoldan çıxaracağına və nankorluqlarını – maddiyyata uyub öz mahiyyətlərini unudacaqlarını sübut edəcəyinə and içdi. Və o, Allahdan Axirətə qədər möhlət istədi – maddiyyatın yenə bir heç olduğu, bir əhəmiyyət daşımadığı, hər şeyin əsl mahiyyətinin üzə çıxacağı zamana qədər.

Deyilənə görə, şeytanın vasitələri çoxdur və o, insana hər yerdən təsir göstərə bilir, hər yerdə ola bilir: insanın gözlərində, qulaqlarında, dilində, əllərində, ayaqlarında, hətta duruşunda, oturuşunda, gülüşündə, hər şeydə və hər yerdə. Maddi olan hər şeydə! İnsanı maddi dünya ilə əlaqələndirən hər orqanında!

Şeytan Allahı sevir – öz Yaradanı kimi. Mənsur Həllacın dediyi kimi, bu sevgi yolunda hətta cəhənnəm odunda belə yanmağa razı oldu. Şeytan Allahı sevsə də, bu sevginin əvəzini cəhənnəmə döndərən insanı sevmir, insanın ürəyindəki Allah sevgisini qısqanır, onu da cəhənnəm odu ilə mükafatlandırmaq istəyir. Bunu yenə də maddiyyatla edir – insana insan adını qazandıran maddiyyatla. İnsanın Allaha olan sevgisinə, xoş niyyətinə bir damcı maddi istək qatmaqla bütöv bir sevgini məhv edə bilir. Ekxart dediyi kimi, «öz

içində yaratdığın ən kiçik məxluqun surəti Allah qədər böyükdür… Çünki o, səndən bütün Allahı alır».

Amma şeytan Allahdan həm də qorxur – Mütləq Qüdrət sahibi kimi. Artıq bütünlüklə onun hökmünə düşmüş, Allahdan üz döndərmiş bir insandan şeytan da üz döndərir: «mən aləmlərin Rəbbi olan Allahdan qorxuram» (Quran 59/16), – deyir. İnsanı onun bütün orqanlarını bürümüş şeytanları ilə baş-başa qoyur. Şeytan insanı edəcəyi günaha qədər müşayiət edir, onu ürəkləndirir. Günaha isə insan tək, yalnız girir. Şeytan isə günahın kandarında dayanıb maddiyyatın çirkabından görünməz olan ruhun əzablarına, bilikləri, elmi əl-qolunun zəncirinə çevrilmiş əqlin zavalı-zavallı vurnuxmasına tamaşa edir. Tamaşa edir, onlarla bərabər əzab çəkmir, o günahın içinə girmir. Şeytan maddiyyata nifrət edir axı! Onun sevgisini cəhənnəmə çevirən maddiyyata!

Yerə göyə sığmayan Allah mömin bəndəsinin qəlbinə sığıb. İnsanın ruhu Allahın bütün gözəl adlarının təzahür məkanıdır. İnsanın ruhu Allahdan aldığı eşqin məkanıdır. İnsanın ruhu Allaha pak imanın məkanıdır. Mövlana deyir: «Şeytan belə aşiq olsa…Cəbrailə çevrilər, şeytanlığı ölər». Şeytan insanın eşqi, sevmək qüdrəti qarşısında acizdi. Bu deyilənlər şeytandan çox uca, çox uzaqdır. Bunu şeytan da bilir və… bu məkana yaxın belə gəlmir. Şeytan insanın Allahdan bəxş edilən ruhundan, onun sevgisindən qorxur.

Şeytan Allahın himayəsində olan şeyə yaxın gəlmir, gələ bilmir, çünki ora yüksələ bilmir. Şeytanın davası maddiyyat çərçivəsindən kənara çıxmır. İnsanın ruhu pak olanda Allahın himayəsindədir. Bədən pak olanda ruhun himayəsindədir. Bunun əksini də demək mümkündür – bədən

paklaşdıqca ruhun himayəsi, əslində isə Allahın himayəsi artır. Təbii ki, bu halda nə şeytanın təhlükəsi qalır, nə də onun hiylələri.

## *Doğum günü*

Doğulma bir əzabdır. Bunu insan ilk anda hiss edir və …ağrıdan haray çəkir, qışqırır.

Doğulma bir sevincdir. Yeniliyin, təzəliyin verdiyi sevinc.

Birinci hiss doğulma anından qabaq, ikinci isə doğulma anından sonra yaşanır. Doğulma bir yaradılışdır …və bu hissin mahiyyətini yaradıcı [insan] daha yaxşı duyar, yaşayar.

Uşaqlar bu hissləri tərsinə yaşayır, yəni doğum günlərini sevinclə qarşılayar, qüssə ilə yola salırlar – hədiyyələrə sevinir, bayramın bitməsinə isə kədərlənirlər. Maddi dünyanın nemətlərindən başqa gözü bir şey seçməyənlər də belədirlər – veriləcək hədiyyələrə, sürprizlərə səbəb doğum günlərini həsrətlə gözləyir və bu təntənənin heç bitməməsini arzu edirlər. Sonra da böyük bir qüssə ilə yaşadığı sevincin xatirələri ilə oturub durur. Beləcə əsl mahiyyət – doğulma və yenilənmə – heç yada düşməz. Belə insanları doğum günündən sonra bir də artan illər qüssələndirir, ona görə də hər növbəti ildə özünü daha gənc təqdim edər, illərin ona təsir etmədiyini sübut etməyə çalışar. Xüsusilə qadınlar. İllərin verdiyi hədiyyə – kamillik isə heç yada düşməz. Olmayandan sonra nə yada düşsün?

Yaradıcı insan öz doğumunu fərqli qarşılayır – yaranışın, yaratmanın ağırlığını yaşaya-yaşaya, yaradılışın mahiyyətini duya-duya, yaranmanın səbəbini və məqsədini dərk edə-edə, yaradılmanın məsuliyyətini çəkə-çəkə. Bu hiss ildən ilə artır, ağırlaşır.

***İnsan olmağın yükü budur!***

Çəkdiyi əzabla insan yalnız yaranmır, həm də yaradır. Bu yaradıcılıq qüdrətini ona yaşadığı əzab verir.

İnsan yaranır və …yaradır. İlk hiss etdiyi şey yüngüllük, yenilik, təzəlik olur. Deməli, insanın əsl doğuluşu onun bu maddi dünyaya gəlişi deyil, öz yaradılması ilə həm də yaratdığı gündür.

İnsan yaranır və yaradır. Yaradıcı insan yaradır və yaranır və…hər yaratdığı ilə yenidən doğulur.

## *Çiçəyin doğuluş səadəti*

*Maneənin götürülməsi «qısa qapanma»*
*yaradır və son başlanğıcla birləşir.*

***Əbu Turxan***

İncə bir çiçək torpağın bağrını yara-yara günə tərəf uzanır. Onun əzablarını yüngülləşdirmək üçün üzərindəki torpaq qatını təmizləmək istəyirsən… Çiçək açmadan, gün üzü görmədən solur…

Çiçəyi elə gözəl, elə incə edən onun çəkdiyi əzabdır. Onun məqsədi o əzablara qalib gəlib, qara torpağın sərt üzünü görəndən sonra zərif gün şüalarının ləzzətini daha yaxşı hiss etməkdir.

Bəlkə də elə qara torpaqdan, elə zərifliklə çıxmağıdır çiçəyi sevdirən…

## *Allahın yardım əli*

Allah insanı bütün varlıqlardan üstün yaratdı: Özünə məxsus sifətlər verdi, Özünün bildiyi adları öyrətdi, Özündən ruh üfürdü, yer üzündə Özünün xəlifəsi etdi, Öz əmanətini ona etibar etdi, Ona səcdə edən mələkləri insana səcdə etdirdi. Yaratdı və daim onun yanında, hətta şah damarından daha yaxın oldu. Əslində Allahın insana verdiyi bütün bu şeylər insanla Onun arasındakı qırılmayan tellərdir, bunlar hamısı insana insan adını qazandıran keyfiyyətlərdir.

*İnsan fiziki baxımdan varlıqlar arasında ən zəifidir*. Bu zəifliyinə baxmayaraq Allah bütün yaradılmışları onun qulluğuna verib: geyim, qida, rahatlıq, təhlükəsizliyin təminatı, estetik zövq və s. İnsan bu dünyada hər şeydən yararlanmaq iqtidarındadır.

*İnsan mənəvi baxımdan varlıqlar arasında ən zənginidir*, çünki Allahdan bir ruh alıb. Bu səbəbdən maddi dünya ilə bərabər ruhi dünyanın da qapıları onun üçün açıqdır. Öz varlığında hər iki dünyanı birləşdirən insana mələklər də heyran qala bilir, şeytan da.

*İnsan ağıl sahibi kimi arasında yeganədir.* Yalnız insanın qarşısında ən aşağı pillədən ən ali pilləyə qalxan bir yol – kamillik yolu mövcuddur. Hər yaradılmış yalnız öz varlığı çərçivəsində nəyə isə qadirdirsə, insan bütün yaradılmışların varlığının sirrinə hakim ola bilir, onların sahəsində onlardan daha böyük qüvvə sahibi olur. Bu qüdrəti ona verən Allahdan öyrəndiyi adlardır.

*Allah insanı sevərək, sevgi ilə yaratdı.* O, mayasına bütün ali keyfiyyətlər qatdığı məxluqunun ən ali məqama yetişməsi üçün bütün imkanlar yaradır: ona maddi və mənəvi bələdçilər göndərir ki, həqiqət aləminin qapılarını açsın, Özünün «üç kitabını – müqəddəs kitabı, təbiəti və insanın özünü» (Əbu Turxan) oxumaq üçün ona yollar göstərsin.

İnsan öz varlığına uyğun olaraq həm maddi, həm də ruhi bələdçilərlə «ünsiyyətdə» olmağa qadirdir. Ta qədimdən bəşəriyyətə peyğəmbərlər göndərilmiş, Allahın həqiqətlərindən insanları agah etmiş, onları yalnış yoldan qorumuşlar. Bu yardım yalnız peyğəmbərlərin varlığı ilə deyil, həm də onlara nazil olmuş müqəddəs kəlamlarla olmuş və olmaqdadır. İnsan unutqan varlıqdır və Allah sevdiyi bəndəsinə hər kəlməbaşı öz ağlından istifadə etməyi xatırladır.

Kamilliyə gedən yol daha ağır, daha mürəkkəbdir. Bu, insanın onun əl-qolunu bağlayan bütün tellərdən azad olub bir tək teldən – onu Allaha bağlayan teldən yapışmasıdır. Bu, uca dağa qalxanda yapışdığın, bağlandığın bütün kəndirləri kəsmək, heç bir yerdən tutmadan ümidini bir tək kəndirə bağlamağa bənzəyir. Bu, etibardır! Bu, ümiddir! Bu, sınaqdır!

Bu kəndirin iki ucu var – biri səndə, biri Allahda. Və bu etibar, ümid, sınaq yalnız Allaha deyil, həm də sənə aiddir. Sən bilirsən ki, bu kəndirin möhkəmliyi həm də səndən asılıdır: sənin imanından, ağlından, bacarığından.

İnsan zəif məxluqdur və bu zəifliyi onun kəndirində də özünü göstərəndə …Allah əlini uzadır. Bu əl müxtəlif formada sənə uzanır: bu, bir xoş kəlmə də ola bilər, acı bir tənqid də, bir nəvazişli baxış da ola bilər, sərt bir sillə də, səmimi bir söhbət də ola bilər, tozlanmış kitabdakı bir ifadə də, bu, bir yuxu da ola bilər, bir körpə təbəssümü də, bu, bir sənət əsəri də ola bilər, dənizin möhtəşəm dalğası da…

Allah hər yerdədir, Onun tükənməz işarətlərinə və dediklərinə hər yerdə, hər zaman rast gəlmək mümkündür. Yetər ki, onları görməyə gözün, eşitməyə qulağın, duymağa könlün olsun. Yetər ki, uzanmış həmin Əldən tuta biləsən.

## *Hikmət*

Bu dünyada hər şeyin öz hikməti var. Bunu həm Allahın yaratdığı birinci təbiət, həm də insanın yaratdığı ikinci təbiətə aid etmək olar. Şeylərlə tanışlıq zamanı (istər təbiətdə olan, istərsə də insan yaradıcılığının məhsulu olan sənət əsərləri, elmi kəşflər, sistemlər və s.) onun əsl hikmətini dərk edəndə, o, bütün gözəlliyi ilə qarşında açılır. Bu, hikmətin yüksək ustalıqla çatdırılan ifadəsi haqqındadır. İkinci təbiətdə vəziyyət nisbətən fərqlidir. Bəzən insan özü hikməti tam dərk etmədən onu çatdırmağa çalışır. Yüz cür söz

oynadır, min üsula əl atır, amma heç cür lazım olanı çatdıra bilmir. Olur hikmətsiz boş söz yığnağı.

Dünyada hər şeyin yaradılışının əsasında bir ideya durur. Onu var etmək üçün Yaradan başqa ideyaları onun ətrafında cəmləşdirir. Bir kitab neçə ideyanın birləşməsidir – kağız, mürəkkəb, rəng və s. Ancaq o kitabı var edən bir tək ideyadır – kitab ideyası. Ola bilər ki, situasiyaya görə, köməkçi bir ideya əsas ideyaya dönsün. Çernışevski ilhamla yazdığı yazılarını sonra yandırıb qızınırmış. Qısa müddətdə situasiyanın tələbi ilə əsas ideya köməkçiyə, köməkçi ideya əsasa çevrilirmiş. Bu ideyaların hamısının «kökü», varlığı Vahid ideyaya bağlıdır, ondan qaynaqlanır. Şüalar günəşdən qaynaqlandığı kimi.

Hikmət də ideyadır. Bəzən ideyalar insanlara reallaşmış, maddiləşmiş şəkildə (birinci təbiət) verilir, bəzən də saf şəkildə. Hələ təzahür etməmiş ideya. Hikmət kimi. Yaradan hikmətin təzahürünü, yaradılışını Özünün yerdəki xəlifəsinə, Özündən sonrakı yaradana həvalə edir – insana. Hikməti verən Allahdır, onun təzahürü isə insandan asılıdır. Yəni hikmət tək, saf, əsas bir ideyadır. Onun təzahürü üçün köməkçi ideyaların seçimi, bu əsas ideyanın olduğu kimi ifadə olunması insanın bacarığından asılıdır. Bu baxımdan insan Yaradanın qoyduğu çərçivə daxilində (bu çərçivə məhdud olsa da, onun sərhədləri olduqca genişdir və insanın təfəkkürünün gücü ilə daha da genişlənə bilər) bir yaradandır. Heç kəs Allahın yaratdığı bir şeyi olduğu kimi, olduğu mükəmməlikdə yarada bilməz. İnsanın mükəmməl şəkildə  çatdıra bildiyi, təzahür etdirdiyi hikmətlər də bənzərsiz, təkrarolunmazdır. Bunu həm sənət əsərləri haqqında demək olar, həm görkəmli kəşflər haqqında.

Allahın yaratdıqları hər kəs üçündür. Bu dünya insanın xidmətindədir. İnsan Allahın yaratdıqlarını öyrənir, tətbiq edir, yararlanır və s. Bu, böyük bir xəzinədir. Bu, Allahın hər kəs üçün nəzərdə tutduğu hikmətidir.

Allah insanlara bir də sözlərlə Öz hikmətini anladır. Səmavi kitablar. İlahi ayələr. İnsanlar onları öyrənməklə nəinki bütün kainatın, varlıq aləminin, hətta öz iç dünyasının, qeyri-maddi aləmlərin də sirrindən agah olmaq imkanı qazanır. Bu da Allahın digər bir xəzinəsidir. Bu da Allahın Öz mömin bəndələri üçün nəzərdə tutduğu hikmətidir.

Bu ikisi artıq bu və ya digər şəkildə təzahür etmiş hazır hikmətlərdir, «kitab»lardır. Qalır onları «oxuyub», öyrənmək, dərk etmək. Lakin bu artıq reallaşmış hikmətlər, Əbu Turxanın ifadəsi ilə desək, ideyaların özləri deyil, kopiyalarıdır.

Bu kitablardan birincisi hər kəs üçündür. Ağlı, dərrakəsi, düşünmə qabiliyyəti olan hər kəs üçün.

Bu kitablardan ikincisi imanı, əxlaqı ilə fərqlənən, təfəkkürü ilahi nurla işıqlanan seçilmiş bəndələr üçündür.

Amma üçüncü kitab da var – hikməti olduğu kimi qəbul edən, nəinki adi gözlə görülməyən saf ideyanı «görüb», dərk edən, hətta onu reallaşdırmaq, hər kəs üçün edə bilmək qüdrətində olan insan. Seçilmişlərin seçilmişi – Kamil İnsan. Əbu Turxan üçüncü kitabı daha konkret, obrazlı desək, köməkçi ideyalardan arınmış şəkildə, əql dünyası adlandırır. Burada artıq ideyaların kopiyaları ilə deyil, özləri ilə ünsiyyətdə olan insan özü kopiya yaratmaq imkanı qazanır.

Doğurdan da, insan bir neçə ideyadan ibarət bir varlıqdır. Onun əql dünyası isə saf və sözlə ifadəsi çətin olan bir

ideyadır. İnsanın əsas ideyasımı? Hikməti saf ideya kimi qəbul etməyə qadir olan yaradan insan əqlidir.

## *Həyat*
### *(Yırğancağ kəndindən təəssüratlar)*

Allah yaratdıqlarını sadə və gözəl yaradıb. Tərkibi, strukturu nə qədər mürəkkəb olsa da, varoluşu elə sadə, harmonikdir ki!

Allah insanı da sadə və gözəl yaradıb. Onun düzgün yaşaması və düşünməsi üçün nümunələr də verib. Bu nümunənin ən kamili təbiətdir.

Ən kamil nümunə ilə harmoniyada olan insanlar sadələşir, sadələşdikcə gözəlləşirlər. Onlar üçün hər şey sadə olur: olum da, ölüm də, qəhrəmanlıq da, acizlik də. Tərəzinin gözündə onların çəkisi eynidir: hər situasiyanın özünün seçdiyi hərəkəti qəbul edib onu zəruri bir addım kimi atırlar. Hər şeyi öz adı ilə çağırırlar, adı ilə çağırdıqlarını da adına uyğun qəbul edirlər.

Belə insanlar sənin hər şeyi mürəkkəbləşdirməyinə baxır, təəccüblənirlər, ən bəsit şeyi anlamamağına çaşırlar, anlamamağından bir fəlsəfə düzəltməyinə gülürlər.

Sənin gördüyünü onlar da görür, ancaq həllini elə sadə verirlər ki! Təbiətdən götürdükləri nümunəyə uyğun! Allah verdiyini onlar da dərk edir və sadəcə ürəkdən şükr edirlər! Təbiət kimi!

Yox, bu sadəlik primitivlik deyil. Heyvani səviyyədə yaşamaq da deyil! Bu, Allahın verdiyini olduğu kimi, acını

acı, şirini şirin kimi qəbul etmək və şükr etməyi bacarmaqdır.

Hər şeyin həqiqətinə belə asan çatmaqlarında onlara vəsilə təbiətdir. Onlar sivilizasiyanı, şəhəri sevmirlər. Əslində, sevmədikləri həqiqətlərin üzərinə qabıqların gəlməsidir, ən sadə şeyin mürəkkəbliyinin ön plana keçməsidir, təbiətlə aralarına qat-qat divarların çəkilməsidir, Allahın yaratdığı təbiətin yanında başqa bir təbiətin yaradılması və bu naqis təbiətin birincidən üstün tutulmasıdır, naqisə görə kamilin dağılmasıdır.

Əsl gözəlliyi görən, əsl həqiqəti dərk edən, əsl harmoniyanın iştirakçısı üçün bu normal bir hal deyilmi?

Əbu Turxan deyir ki, Allah insana oxumaq üçün üç kitab verib: səmavi kitab, təbiət, insan. Bu üç kitab bir-birilə o qədər sıx bağlıdır ki, birinin oxunuşundakı naqislik digərlərində də özünü göstərir. Təbiətlə yaşadığı harmoniya özü ilə harmoniyaya çevrilir, bu harmoniya isə oxuduğu hər ilahi kəlamın batini mənası ilə həmahəng olur. Möhtəşəm bir ahəng! Varlığının mahiyyətini, səbəbini pıçıldayan ahəng! Varlığının ucalığını, ülviyyətini nəğmə kimi züm-zümə edən ahəng!

## *İlham, vəcd və vəhy*

İnsan böyük və həqiqi bir harmoniyanın şahidi olanda ilk anda onu qələmə ala bilmir və ya qələmə aldığı özünə çox cılız və süni görünür. Təbiətin qoynunda nə qədər ilhama gəlsə də, gözəllikdən nə qədər vəcdə gəlsə də, içində

hisslər aşıb-daşsa da, bu barədə ən gözəl sözü orada deyə bilmir. Gərək bu möhtəşəmlikdən ayrıla, təkliyə çəkilə. Özü ilə baş-başa qala. O harmoniya fonunda insan da, insanın sözü də bir toz dənəciyi qədər olur. Təklikdə isə insan İnsandır, söz demək qüdrətində olan, Yaradanın yardımı ilə yarada bilən bir könüldür.

Bəlkə buna görə təbiət qoynunda böyümüş şəxsin deməyə sözü də çoxdur, təbi də. Uzun illər təbiət «danışıb», o susub, susmağa məcbur olub. İndi də özü danışmaq, təəccübləndirmək, heyrətləndirmək istəyir, kimləri isə «dinləməyə» məcbur etmək istəyir. Yalnız özünün gördükləri, yalnız ona açılan həqiqətləri hər kəsə mütləq həqiqət kimi çatdırmaq ehtiyacı hiss edir içində. *Bu, ilhamdır.*

Qəribədir, insanlar öz təfəkkürlərinin, düşüncələrinin həcminə uyğun da harmoniya tapırlar: kimi sonsuz dəniz, uca dağlar, geniş düzənlər, kimi də gecə klubları, barlar, rəqqasələr, içki şüşələri. Onların ruhlarının dərk etdikləri də elə tapdıqları, uyğunlaşdıqları «harmoniya» boydadır.

Elə insanlar da var ki, ruhları nəinki dağa, dənizə, heç bu maddi dünyaya da sığmır. Belələri üçün isə Allah ülvi bir aləmin «qapılarını» açır, bu aləmə aparan yolları, vasitələri ona tanıdır. *Bu,* artıq ilham deyil, *vəcddir*.

Belə insanların çatdırmaq istədikləri sonsuz bir aləmdən gəlir və bir-iki nəfər üçün nəzərdə tutulmur. Musiqi, rəsm, heykəl, elmi kəşf, bədii və ya fəlsəfi əsər şəklini alan bu «ilahi xəbərlər» ruhu oyaq, könül gözü açıq, mənəvi dünyası işıqlı olan hər kəs üçündür.

Bunlar yaradılış iyerarxiyasında alt-yuxarı, yəni insandan Allaha uzanan kamillik yolunun vasitələridir. Bir də var Allahdan insana doğru uzanan bir yol. Allah insanı sevə-sevə

yaradıb və bunu xatırlaması, öz insanlığını qoruması üçün onun qayğısına qalır. Belə olan hallarda, yəni insanlıq üçün bir təhlükə yarananda Allah özü seçim edir: Onun sözünü insanlara çatdıracaq şəxsi də, deyiləcək xəbəri də. *Bu, vəhydir və ya missiyadır*. Sonuncu peyğəmbərimizlə (s.) vəhy kəsilsə də, insan öz unutqanlığını unutmayıb. Və Allahın seçimini bu gün sözün ən ülvi mənasında missiya adlandırmaq olar.

*Vəhy – Allahın insana vacib sözüdür, nəsihətidir*. Bunu əsrlər boyu peyğəmbərlər insanlara çatdırıb. Lakin Allahın sözləri bitməyib. Bunun üçün Allah yenə də təmiz ruhları seçir, bəndələrinə həmin ruhlar vasitəsilə müraciət edir. *Missiya –Allahın insanları qəflət yuxusundan ayıldan söz-lərinin seçilmiş ruhlar vasitəsilə səslənməsidir*.

## ***Şeir***

Şeir yazmaq qüdrəti Allahdan verilən bir nemətdir. Bu, aşıb-daşan hisslərin yığcam, lakonik ifadəsidir. Üstəlik burada bir ritm, ahəng, sözlərin bir-biri ilə səsləşib, bir-birini tamamlaması da vacibdir. Şeirin bir gözəl funksiyası da var. Şeirdə sanki sözlər adilikdən çıxır, sirli-tilsimli bir məzmun alır. Nəsrlə deyə bilmədiklərini hətta qafiyəsiz belə «şeirlə» deyəndə, sanki daha rahat olursan. Sanki həm hisslərini gizli saxlayırsan, həm də onları aləmə car çəkirsən, həm susursan, həm də danışırsan. Sanki adi cümlə quruluşunu dəyişməklə,

cümləni daha pafosla deməklə çatdırmaq istədiyin hisslərin möhtəşəmliyini, gözəlliyini, ülviliyini də saxlamış olursan.

Bu deyilənlər əsl şeir haqqındadır – ruhdan qopan, səni səndən alıb, səni ilahi aləmə aparıb yenidən özünə qaytaran və «bacarırsan yenə əvvəlki adam ol görüm, necə olursan», – deyə meydan oxuyan duyğuların tərənnümçüsü olan şeir haqqında. Elə şeir yazmaq, ruhunla yerlə göy arasında çarpışmaq hər ruha qismət olan xoşbəxtlik deyil. İllər boyu qazandığın bir adətlə sözləri, ifadələri qafiyələrə salıb «şeir düzəltmək» də şairlik deyil.

Bəzən də olur ki, ruh oxumaq istəyir, amma nə şair deyil, nə bəstəkar. Ən əsası da, istəyir ki, oxuduqları öz könlündən qopsun. Onda başlayır bildiyi bütün gözəl ifadələri, sözləri yan-yana düzməyə və öz aləmində bundan gözəl şedevr tanımır. Həqiqətən də belədir. Çünki bu, onun ən ülvi bir duyğusu haqqında öz könlünün nəğməsidir! Lap bizim bu «şeirimiz» kimi:

*Çıxar ürəyindən ağrını ver mənə,*
*Yerinə könül dolu bir sevgi verim.*

*Çıxar içindəki sıxıntıları,*
*Üfüqlərə uzanan bir ümman verim.*

*Ver nə varsa ürəyini incidən,*
*Hər döyüntüsünə bir inci – nur verim.*

*Ürəyin o dar qəfəsdə darıxır,*
*Ürəyimdən ürəyinə gen yollar verim.*

Əlbəttə, bu «şairlik» bir anlıqdır və ona «bu, şeir deyil», – demək artıqdır.

# *Zəhər*

Zəhər deyəndə ilk yada düşən həyatın, şirinliyin ziddi olan bir şey yada düşür. Bəzən acıya da zəhər deyilir, ağrılı-problemli bir həyat da zəhərə bənzədilir; hər kəlməsində ürək qıranların dili də zəhərlə müqayisə edilir. Maraqlıdır, sözün düzünü çəkinmədən söyləyən də acıdil, zəhərdil adlanır. Yəqin günah həqiqətin acı olmasındadır. Amma həyatda elə zəhərlər də var ki, onlar barədə danışmağa dəyər.

*Zəhər var dərmandır*. Onun adı zəhərdir, özü «şəkər»-dir. Arı zəhəri, ilan zəhəri, əqrəb zəhəri, …insan zəhəri. Bu zəhərlər həm ağrıkəsici olur, həm zəhər zərərləşdirici. Həqiqəti söyləyən dillərin zəhəri də belədir. Hamı arıdan, ilandan, əqrəbdən, …həqiqəti deyəndən qorxur. Amma bu zəhərə ehtiyacı olan «xəstələr» var. Əslində, missiyasına uyğun olaraq bu dərmanların qiyməti də baha olmalıdır. Bəzən olur da. Amma necə də ağırdır: həm «zəhər» daşıyıcısı kimi qorxu mənbəyi olmaq, həm də səndən qorxub, səni məhv etməyə çalışanların dərdinə qalmaq, xilasına çalışmaq.

*Zəhər var onu könüllü qəbul edirlər*. Bunun adı «şəkər»dir, özü zəhər. Əslində, o da bir növ «dərman»dır – dərdi, problemi unutduran bir vasitə. Nikotin, narkotik, alkoqol, …yalan kimi. Özünü cəmiyyətdə tapa bilməyən bu zəhərdə tapır. Özünü bir insan kimi təsdiq edə bilməyən bu zəhərlə təsdiqləyir. Özünün varlığını unutmaq istəyən bu zəhərlə unudur. Necə böyük bir yardım, necə «ali» missiya! Amma

necə də ağırdır: sənə inanıb, sənə pənah gətirənləri boş tüstü dumanları ilə, qarabasmalarla aldatmaq, onu yavaş-yavaş məhvə sürükləmək!

*Zəhər var hamı onu tanıyır*. Bir damcısı belə dəhşət gətirir. Onların müxtəlif kimyəvi adları var, amma yadda qalan bir addır – zəhər. Siçan zəhəri, həşərat zəhəri, Onlar vasitəsilə xoşagəlməz «ünsürlərdən» qurtulurlar. İnsafsızca yeməyə qatıb verirlər, o da yeyib məhv olur. Amma yeməyə qatmaq da şərt deyil, heç bir dəfəyə öldürmək də vacib deyil. Bu zəhəri oxuduğu kitaba da qatmaq olar, dinlədiyi musiqiyə də, aldığı təhsilə də, yaşadığı mühitə də. Onu damcı-damcı verəndə tədricən məhv olur. …Bəzən də məhv olmur, bu zəhərə o qədər alışır ki, ondan yeyib kökəlməyə başlayır. Mutant deyilən bir varlıq alınır. Onun özü artıq bir zəhərə çevrilir. Necə də dəhşətdir: Allahın yaratdığı bir varlığın fitrətini pozub ona fərqli, özünü belə dəhşətə gətirəcək bir həyat vermək, fərqli bir missiya üçün doğulmuşu özünə – zəhərə oxşatmaq.

*Zəhər var bircə onu qəbul edəni zəhərləyir*. Bir tək canı məhv edir. *Zəhər də var ətrafında hərlənən hər kəsi, hətta bir neçə nəsli zəhərləyir*. Radiasiya kimi, virus kimi, …rüşvət kimi. Bu zəhərin mənbəyini tapmaq, tapanda təcrid etmək, təcrid edəndə isə məhv etmək çətindir. Bəzən, bəlkə də əksər hallarda, bu zəhər bədənə o qədər hopur ki, ondan qurtarmaq üçün vücudun özünü məhv etmək gərəkir … qalanlarını xilas etmək naminə. Böyük bir ağac təsəvvür edin. Zəhərlə suvarılan bu ağacın alıb-verdiyi hava belə zəhərə dönür. Qollu-budaqlı, geniş kölgəli, bol meyvəli bu ağac ancaq zəhərə xidmət edir. Onun ətrafında güllər əksən ya solar, ya zəhər ətri verər, dibinə bulaq çəksən ya quruyar,

ya zəhər qaynadar, dibində dincələnlər ya boğular, ya ciyərləri bu zəhərlə qidalanmağa başlayar, təmiz havada boğulmağa başlayar. Lap Puşkinin «Ançar»ı kimi. Necə də təəssüfləndirici haldır: böyük bir varlıq, orqanizm bir damcı, bir zərrə zəhərin güdazına gedir.

Dəhşətdir, zəhərlə bağlı hər sözümüz ya təəssüflə bitdi, ya qorxu ilə. Xoş sözümüz belə! Deyirlər alışqanlıq ikinci xasiyyətdir. Alışdığından ayrılmaq ağrı verir. Zəhər bu ayrılığı gətirən, ağrıdan şeydir. Fərqi yoxdur, səni nədən ayırır: şirin həyatdanmı, problemdənmi, xəstəlikdənmi, sağlamlıqdanmı. Hətta «rüşvət» adlı zəhəri qəbul edən belə nədənsə ayrılır… və bu ayrılıq ona ağrı verir. Fərq ağrını çəkəndədir: birinin bədəni ağrıyır, birinin vicdanı, birinin könlü. Bu asılıdır zəhərin tipindən, növündən.

## *İtirilmiş məsumluq və ya sönmüş nur*

*Ərlərin eşqi gözəlliyin meyarıdır.*
*Gözəlliyin üzərindəki pərdəni parçalayan*
*bu eşq eyni zamanda onu pərdələyər.*

***Məhəmməd İqbal***

Zərif bir kəpənəyi görəndə qeyri-ixtiyari ona toxunmaq, bu zərifliyi hiss etmək istəyirsən. Ona toxunanda sanki özün də zərifləşirsən, içindən, qəlbinin dərinliyindən elə incə hisslər baş qaldırır ki, sonra özün də təəccüb edirsən. Eynən bir körpə də görəndə, hələ bu körpə məsum-məsum sənin

üzünə gülümsəyəndə elə bil içində bir işıq yanır, bu məsumluqdan pay almaq istəyirsən, körpəni qucaqlamaq, oxşamaq istəyirsən, amma nə qədər incəliklə, zərifliklə əlini uzatsan da… körpə səndən qorxub qaçır, sən israr edəndə isə ağlayır. Qanadlarına toxunulan kəpənək də daha uça bilmir, ölür.

Deyilənlərdə ilk nəzərə çarpan iki əksliyin – işıq və qaranlığın qarşılaşmasıdır.

İşıq iki cürdür. Bir var insanın daxilində, ruhunda, könlündə, bir də var insandan kənarda yanan elektrik işığı, atəş. Hər ikisi Allahın hökmü ilə yanır, lakin birincini Yaradan özü nurlandırır, ikincini isə yaratdığının əli ilə. «…Bəziləri ocaq yandırdı. O, ətrafını aydınladan kimi, Allah onların nurlarını aldı və onları zülmət içində qoydu, onlar görə bilmədi» (Quran 2/17), – deyə buyurmaqla Allah insanları xəbərdar etdi ki, ruhlarının nuru ətrafdakı işıqdan daha vacibdir, daha xeyirlidir. Bunu xatırlayan da var, lazımsız sözlər kimi unudan da.

Ruhundakı nurdur ki, insanın könül gözünü açır, Allahın verdiyi maddi nemətlərlə yanaşı, dünya gözü üçün qaranlıq qalan mənəvi nemətləri də görür, yararlanır.

Dünyada hər şey qoşa olduğu kimi, işıq da qaranlıqla qoşadır. Axı hər şey öz əksi ilə daha tez tanınır. Ancaq hər biri öz yerində, yaxud öz əksinin yanında yaxşıdır. Onun yerini tutmaq istəyəndə, yalnız öz hakimiyyətini bərqərar etmək istəyəndə isə, tərəzinin gözü pozulur. Tamam qaranlıq kimi, tamam işıq da gözləri kor edir.

Zəriflik kəpənəyin təbiətindədir. Ona uzanan əl bir maddi istəklə – bu zəriflikdən bir pay almaq üçün uzanır. …Bu kiçik zəriflik yalnız gözləri, könüləri sevindirəcək qə-

dərdir. Ona görə də dözmür, insanın «mənimsəməsindən» özünə bir şey qalmır və …daha uça bilmir.

Məsumluq, paklıq, təbəssümündəki nur körpənin hələ çirkaba batmağa macal tapmamış ruhundan gəlir. Bir-birini tanımayan iki körpə necə tez qaynayıb-qarışır, necə xoşbəxt olur. Yaxud nəvazişlə ona əllərini uzadan böyüklərə körpə necə təəccüblə baxır. Bəlkə də qarşıdakının da könlündə ilahi nur aşıb-daşır. Amma körpə hələ qabıqlar altında mahiyyəti görmək qüdrətində deyil axı. O, hələ ancaq bu kobud «mənimsəmə» niyyətini görür.

Kəpənək uçur, körpə qaçır, ən acizi çiçəklərdir. Gözəlliklərinə görə həmən qoparılan, ətrini alandan sonra ayaqlar altına atılan çiçəklər.

Zəriflik də, nur da, xoş ətir də hər insanın ruhuna məxsus bir keyfiyyətdir. Bu səbəbdən insan onları görəndə qeyri-ixtiyari onlara meyllənir. Sonra da illər boyu qazandığı təcrübə ilə onu «mənimsəmək» istəyir. Ruha məxsus bir şeyi maddiyyata «yedirdir». Əslində isə bu keyfiyyətlər insan üçün bir «yaddaş kitabçasıdır»: ona öz ruhuna boylanmağı, könlünü Allah nuru üçün açıq tutmağı xatırladır.

Bir var mənimsəmək, bir də var paylaşmaq, bölüşmək. Mənimsəyəndə bir tərəf boşalır, tükənir, digər tərəf dolur. Bu da ifrat, o da. Birinin yenidən dolmaq imkanı qalmır, digərinin isə, Əbu Turxan dediyi kimi, «qabının divarları ərpləşir və qabın tutumu getdikcə azalır…», mənimsədikləri qarışır bir-birinə, «bu da calaq ruha keçid deməkdir. Yəni ruhun müəyyənliyinin pozulması, insanın simasının itməsi deməkdir».

İşıq zəif olanda qarşısındakını nurlandırmağa gücü çatmır, özü də solur, xoş ətir səni də ətirləndirə bilmir, özü də yox olur. Əslində onlar yox olmur, qaranlıq, kobudluq onu görünməz edir. Rabindranat Taqor yazır: «Güclü və qüdrətli olmaq qüvvəyə görə üstün olmaq deyil, zəifi öz zirvənə qaldıra bilməkdir». Bəli, güclü olmaq kiminsə nurunu söndürmək deyil, daha çox könüllərdə işıq yandırmaqdır, zərifliyi – gözəlliyi özününküləşdirmək, ömrünü bir anlıq, bir saatlıq etmək deyil, o gözəlliyin daha üst qatlarını kəşf etmək, kobudluq yanında öz varlığını qorumasında ona yardım etməkdir.

## *Eşq və dəyişən tarix*

İnsan yarandığından bu günə kimi çoxmu dəyişib? Gözəlliyin meyarları, ona münasibət, onu duymaq bacarığı dəyişib. Bəs gözəllik özü necə, dəyişibmi? Sevgiyə, eşqə müasibət dəyişib. Bəs sevgi necə, dəyişibmi? Yəqin çoxları deyər ki, bəli, dəyişib, çünki insan inkişaf edib. İnkişaf edən insandırmı, yoxsa yaratdığı ikinci təbiət? Dəyişən ikinci təbiətdir. Birinci təbiətin dəyişməyən harmoniyası, gözəlliyi, ecazkarlığı isə insanları eyni qüvvə ilə sehrləməkdə, ilhama gətirməkdədir. Yox, söhbət nə birinci, nə də ikinci təbiətdən getməyəcək. Söhbət heç bir-birini əvəz edən ictimai formasiyalardan, cəmiyyətlərdən, texnikanın, elmin inkişafından da getməyəcək.

Mövzu eşqdir. Hər zaman varlığına şübhə edilən, buna baxmayaraq, axtarılan, tapıldığı yeri viran qoyan, viranəsi üzərində yüksək sənət əsərləri yaradılan eşq!

Deyilənə görə, böyük fırça ustası Rafael sevdiyi qadının rəsmini yarada bilməyib. Onun şedevrlərində həmin qadının dodaqlarını, əllərini, baxışlarını, saçlarını görmək mümkündür, ancaq qadının bütöv portreti uğursuz rəsm kimi haradasa itib-batıb.

Gözəllərə əvəzsiz tariflər deyən, bir sözündə min bir məna çatdıran Aşıq Ələsgərin sevdiyi qıza yazdığı şeir zəif şeirlərdən sayılır, nə yadda qalıb, nə də sevilib.

Eşq nə rəngə sığır, nə sözə. Onu nə fırça ilə çatdırmaq mümkündür, nə qələmlə. Eşqin bir məkanı var – könül, bir dilmancı var – baxışlar.

Maraqlıdır, könülün və baxışların meyarı necə, tarixlə bərabər dəyişibmi? Kleopatraya baxan Antoninin gözlərindəki eşqlə, Leylaya baxan Məcnunun gözlərindəki eşq nə ilə fərqlənib? Müasir insanların sevgisi nə ilə fərqlənir? Texnikanın, elmi biliklərin sevgiyə təsiri hansıdır? Əbu Turxan deyir: «Müasirlik – mənəviyyatın zamana uyğunlaşmış üst qatılır». Bəli, dəyişən mənəviyyatın üst qatıdır, binasıdır, alt qat isə təməl, bünövrə kimi dəyişməz olaraq qalır. Könül mənəviyyatın alt qatına aid bir məkandır və eşqin baxışları üst qatdan asılı olmayaraq könülün əmr etdiyi kimi baxır.

Heç kim inkar etmir ki, gözə görülən binadır, bünövrə deyil. Böyük bir təməl üzərində möhtəşəm bir saray da, cılız bir bina da tikmək mümkündür. Ən düzgün və möhkəm tikili öz bünövrəsinə uyğun olandır.

Maraqdır, əvvəllər möhkəm özüllər üzərində böyük, min bir naxışlı, hər daşında bir xatirə, hər divarında bir sirr daşıyan tək bir saray tikirdilər. İndi ondan da dərin özüllər qazırlar və üzərində… standart göydələnlər ucaldırlar. Görəsən, bunda eşqə aid bir hikmət varmı?

## *Rəqslər*

Rəqslər müxtəlifdir. Fərqli hisslərdən doğur və fərqli hisslər doğurur. Əbu Turxan: «Rəqs etmək sevdiyinə xəyanətdir, çünki hər şeyi unudub bütün hisslərinlə, vücudunla musiqinin hökmündə olursan», – deyir. Mən deyirəm: «Rəqs var səni ruhunun mənsub olduğu harmoniyadan çıxardır, bədəninin hökmünə düşürsən. Sən xəyanətkara çevrilirsən. Rəqs var mənsub olduğun harmoniyanı artırır, gözəlləşdirir. Sənə xəyanəti unutdurub, vəhdətə sədaqətini öyrədir».

Rəqslərin əksəriyyəti bədənə xidmət edir, onun əzalarını, quruluşunu təqdim və təklif edir. Bunun ən bariz nümunəsini Latın Amerikası rəqslərində görmək olar.

Rəqs var ehtirasları oyadır. Daha dəqiq desək, rəqs edən ehtiraslar da. Tanqo kimi.

Rəqs var təfəkkürü oyadır. Hər hərəkət (pa) dəqiq ölçülür ki, gözəllik və harmoniya itməsin. Balet və yallı kimi.

Rəqs var sevgidən doğur. İki vücud deyil, iki ruh bir-birini duyur, qoruyur, incə-incə toxunur. Vals kimi.

## *Hiss və təfəkkür*

*yaxud*
## *inam və şübhə*

Hisslər (istər nifrət olsun, istər sevgi) – yüngüldür, təfəkkür – ağır. Hisslər – qanaddır, təfəkkür – bu qanadlara taxılan qurğuşun.

İnam əvvəlcə hisslər üzərində qurulur. Bu zaman o, bir növ xammalı xatırladır. Güclü təfəkkürlə istiqamətləndirilən inam isə qüvvədir.

Hər insanın bir zəif anı var. Bu zəif an hər hansı bir fikri yalnış anlamaqdan başlayır, sonra inciklik gəlir, sonra… kiçik bir şübhə onun inamında, etibarında yaranmış kiçik çatdan içəri daxil olur. Əvvəli kiçik olan bu şübhənin nəticəsi böyük olur: səhv yollar sənə yeganə çıxış yolu kimi görünür, inandığın bir şeydən üz döndərirsən, o olmadan da yaşaya biləcəyinə özünü inandırırsan. Ondan daha böyük bir qüvvə axtarırsan və sənə elə gəlir ki, tapırsan (axtaran tapır). Onu itirməyinlə ürəyinin bir hissəsinin öldüyünü hiss edəedə indiyə qədər ölü olduğuna və indi yaşamağa başladığına əmin olmağa çalışırsan. Amma Əbu Turxanın da yazdığına görə, «müqəddəslik duyğusu bitən yerdə şər ağacı bitər». Müqəddəslik insandakı iman və sevginin vəhdəti, insanı ayaqda saxlayan iki sütunun bərabər gücüdür. Bizim dediklərimiz hələ hisslər səviyyəsində yaranmış çatdan, xaosdan gedir. Bu çat dərinləşib insanın mahiyyətinə yetişəndə, onu bərpa etmək çox çətin olur, sütunlar yıxılır, insan məhv olur.

Bəzi insanlar hisslərinin yüngüllüyündən məmnun qalır və bütünlüklə onların hökmündə ömürlərini başa vururlar. Onların sevgisi də, nifrəti də, sevinci də, kədəri də,

həyatlarının mənası da hisslər səviyyəsindən o tərəfə keçmir. Hisslər əsən külək kimidir, gah tez-tez istiqamətini dəyişə, gah sərin meh kimi həzz verə, gah da tufana dönüb qarşısına çıxanları dağıda bilir…

Bəzi insanlar isə külək yox, insan olduqlarını dərk edirlər və yardım axtarırlar. Belə anlarda isə yeganə köməkçi təfəkkürdür – fikirlərin, ideyaların, ifadələrin xaosunda itib-batmış hissləri istiqamətləndirən yeganə qüvvə.

Təfəkkür əvvəlcə bu hisslər xaosunda bir nizam yaradır. Sonra onun mahiyyətindəki həqiqəti axtarır. Bu çətin olur, çünki bəzən həqiqət şübhə bataqlığında tamam görünməz olur. Nəhayət, sonuncu mərhələ inamın çat hissəsinin bərpasıdır. Elə zənn olunmasın ki, bütün bu proseslərdə hisslər sakitcə dayanır, əksinə, sıxılmış hava və ya su daha güclü təzyiq göstərdiyi kimi, onlar da get-gedə daha çox müqavimət göstərirlər. Təfəkkürə isə qüvvə verən iman və sevgidir – insanın ruhunda var olan və Mütləq Varlıqdan alınan qüvvə, etibar, dayaq.

Deyilənlərdə əhəmiyyətli bir an var: şübhəyə düşmüş insanın hisslərini idarə edən və istiqamətləndirən, yenidən ayağa qaldıran təfəkkür insanın özünə məxsus ola bildiyi kimi, kənar bir şəxsə də məxsus ola bilər.

Öz hisslərini idarə edə bilən, ən zəif anında da, şübhələrin içində itib-batanda da, hətta yalnış yolla bir neçə addım atsa da, öz təfəkkürünün gücünə arxalanan, öz təfəkkürünün işığı ilə aydınlanan şəxslər! Məşhur baron Münhauzenin bataqlığa düşəndə öz hörüyündən tutub özünü çıxartdığı kimi. Gülməlidir, inandırıcı görünmür, …amma bu, bir həqiqətdir. Bir çox filosofun, mütəfəkkirin həyat tarixçəsinə baxsaq eyni halın şahidi olarıq: Müqəddəs Avqustin, Əbu

Hamid Qəzali və daha kimlər. Dante yazır ki, «şübhə mənə heç də bilikdən az həzz vermir». Və ya Hüseyn Cavid bildirir ki, «mərifət nuru şübhədən parlar». Belə şəxslər üçün şübhə – içindəki bütün ali hisslərin səfərbər olduğu an – həqiqətə aparan bir üslub, kateqoriyaya çevrilir.

Belə məlum olur ki, həmin şəxslərin güc mənbəyi onların imanı olub, yəni onların təfəkkürləri xaosda itib-batmış hisslərdən, hər yeni səbəblərdə yeni nəticələr verən məntiqdən deyil, ruhlarından qidalanıb – dəyişməyən, sabit, Uca Varlıqla daim əlaqəli olan, qidalandırıcı nurunu itirməyən, hərarətini günəşdən yox, Allahdan alan ruhlarından. Əbu Turxanın deyir kimi, «ruhun işıqlanması sahəsində hər bir addım ölməzliyə aparır». Bu, o deməkdir ki, belə şəxslərin təfəkkürləri ilə ruhları arasında vəhdət yaranır və onlar öz insanlıq mahiyyətlərini anlayırlar.

İkinci tip insanların hisslərini öz təfəkkürləri idarə etmək qüdrətində deyil: hisslər güclü, təfəkkür zəifdir. Tarixən, həmçinin bu gün də, elə güclü təfəkkürlər vardır ki, nəinki öz hisslərini idarə etməklə kifayətlənir, həm də yüzlərlə, minlərlə insanların hisslərini də öz itaəti altına alırlar, öz qüdrətlərini artırırlar, bu təfəkkürsüz hissləri öz mənafelərinə yönəldirlər. Bunun mükəmməl nümunələrini təriqətlərin, sektaların, fanatlıq üzərində qurulan terrorçuluğun misalında aydın görmək mümkündür. Yeri gəlmişkən, belə həyat tərzi seçmiş şəxslərin həyat tarixçəsinə baxsaq, hər şeyin kökündə hansı isə bir şübhənin, narazılığın (bu, kiçik, ilk baxışda əhəmiyyətsiz görünən bir məqam da ola bilər) durduğunu görərik: dövlət quruluşundan, cəmiyyətdən, ailədən narazılıqdan tutmuş, sevgililərin,

dostların, doğmaların arasında baş vermiş kiçik anlaşılmazlıqlara qədər.

İlk baxışda ikinci tipə dinlərin yaranmasını və yayılmasını da aid etmək olar: bir insan (peyğəmbər) bir ideyanı milyonlarla insanlara təlqin edir. Lakin burada bir neçə əhəmiyyətli amil nəzərə alınmalıdır. Əvvəla, peyğəmbərlər öz ideyalarını deyil, Allahın buyurduqlarını insanlara çatdırırlar. Təbii ki, bu hal ancaq peyğəmbərlərə aiddir və bu dindən öz mənafeyi üçün istifadə edən ikinci bir şəxsə şamil edilə bilməz. İkincisi, bu ideyaların əksəriyyəti bilavasitə ruhlar üçün nəzərdə tutulur, yəni bir növ ruhlardakı imanın oyadılmasına xidmət edir. Üçüncüsü, onlar İNSANın düzgün formalaşmasına, onun öz azadlığını, ucalığını dərk etməsinə yönəldilirlər.

Cəmiyyətdə xoşbəxt hesab edilən şəxslər hisslərinin hökmündə olub, təfəkkürlərinə «əziyyət verməyənlərdir»; qüdrətlilər minlərlə hissi öz təfəkkürləri ilə idarə edənlərdir; müəyyən məqsədlərə aparan yolların «xammalları» bu qüdrətə tabe olanlardır; ən çox əzab çəkənlər isə – təfəkkür və ruhları ilə vəhdət tapanlardır, amma həqiqi İNSANlığın ucalığını, kamilliyini yaşayan da onlardır.

## Əlcəzair – hisslər şəhəri

*(Əlcəzair səfərindən təəssüratlar)*

Bəzi şəhərlər öz tarixləri, ümumi auraları ilə nəyin isə rəmzinə çevriliblər: şəhərlər şəhəri, çaylar şəhəri, sirli şəhər, körpülər şəhəri, sevgi şəhəri. Yeri gəlmişkən, mən həmişə

Venesiyanı sevgilər şəhəri bilirdim, amma Əbu Turxanın yazılarından birində İstanbul sevgilər şəhəri adlanır. Müəlliflə qiyabi də olsa bir şeydə razılaşdım: insanın eşqi harada bədəni ilə ruhunu barışdıra bilirsə ora sevgi məkanıdır.

Əlcəzairə nərdivanlar şəhəri deyirlər. Şəhər uca bir dağın üzərində inşa edildiyindən hər tərəf müxtəlif çeşidli pilləkanlarla doludur. Sanki pilləkanlar evləri, küçələri birləşdirmir, əksinə, evlər pilləkanların üzərindəki məqamlardır. Bu bənzətmə təsadüfi deyil. Deyilənə görə, Əlcəzair təsəvvüfün paytaxtı elan olunub. Əslində mən təsəvvüf adlı sərhədsiz bir diyarın paytaxtını insanların qəlbləri bilirdim. Ancaq Əlcəzair şəhərini daha yaxından tanıyanda bu sözlərin səbəbini anladım.

Əlcəzair köhnəlmiş, saralmış, amma xoş xatirəsi olan fotoşəkilə oxşayır – Parisin fotoşəklinə. Tarixdən məlum olduğu kimi, ölkə uzun müddət Fransanın müstəmləkəsi olub. Qəribədir, şəhərin zahiri də, ruhu da neçə əsrlik düşməninin surətidir sanki. Hətta sakinləri belə zahirən ərəb olsalar da, ruhən artıq fransızdırlar.

Bu deyilənlər Əlcəzairin görünən tərəfidir. Amma məni, sözün əsl mənasında, heyran edən onun görünməyən tərəfi, batini oldu: bura hisslər şəhəridir: sevgi, nifrət, sevinc, qüssə, laqeydlik, daha hansı isə uca və ya alçaq hisslər, ancaq hisslər.

Nə demək istədiyimi izah edim.

Əlcəzair əhalisinin əksər hissəsi İslam dininə etiqad edir. Son illər bütün islam ölkələrində olduğu kimi, burada da sələfilərin və ya fundamentalistlərin sayı get-gedə artmaqdadır. Ölkədəki müsəlmanlar arasında dərin bir uçurum

yaranıb və o, gündən-günə böyüməkdədir. Müsəlman müsəlmana düşmən kəsilib və bu nifrət hissi elə açıq şəkildə büruzə verilir ki, insan dəhşətə gəlir: fərq qoyulmadan istənilən yerdə partlayışlar törədilir, qətllər baş verir, dinc əhali qırılır və …hansı isə üçüncü və gözə görünməz bir qüvvə bundan faydalanır. Bu üçüncü qüvvəni görmək və ondan müdafiə olunmaq üçün hisslər dünyasından ağıl, təfəkkür müstəvisinə keçmək lazımdır. Hisslər (istər nifrət olsun, istər sevgi) – yüngüldür, təfəkkür – ağır. Hisslər – qanaddır, təfəkkür – bu qanadlara taxılan qurğuşun. Əlcəzairlilər səhra küləyi kimi yüngül olmağa üstünlük verirlər.

Əlcəzairlilər fransızlara da nifrət edirlər. Əsrlər boyu onları əsatirdə saxlayan bir xalq başqa hansı hissə layiqdir ki? Ancaq bu nifrət gizli bir nifrətdir. Hələ də yüksək səviyyənin, mədəniyyətin rəmzi hesab edilən fransızlıq əlcəzairlilərin qanına, canına hopub. Küçədəki dilənçi belə fransızca dilənir! Fransızların əlcəzairlilərə qarşı törətdikləri soyqırımı belə fransızca nəql edirlər. Buna görə də fransızlara dərindən nifrət edəndə əlcəzairlilərin özlərinə də pay düşür bu nifrətdən. Bəlkə də bu özünənifrət hissidir ki, hələ də sıravi bir fransızın yanında özlərini əksik, naqis bilirlər, hələ də onları təlqin etməyə çalışırlar, …məhz belə olduqlarına görə də nə siyasi, nə iqtisadi inkişafa nail ola bilirlər, elə surət olaraq qalırlar.

Əlcəzairlilər nifrətlə yanaşı bir də yüksək sevgi hissinə malikdirlər və öz sevgilərini elə ürəkdən, elə candan yaşayırlar ki!

Bir statistik məlumata görə, Əlcəzairdə 40-dan çox sufi təriqət var. Yerli sakinlər sufiliyi hava-su kimi mənim-

səyirlər. Bunu böyüklü kiçikli onların hamısının sufi musiqisini dinlədiklərində müşahidə etmək mümkündür: mistik musiqinin ritmləri ilə yüksəkliyə, bütün materiyadan ucalara qalxır, gözəl, sirli hisslər yaşayırlar. Bu mühitin elə ecazkar, elə saf, elə ülvi bir havası var ki, ixtiyarsız olaraq gözlərini yumub bu ümumi harmoniyaya qoşulursan, böyük bir sevgi dünyasına daxil olursan. Belə anda ilk dəfə gördüyün bu insanlar sənə elə doğma, elə səmimi görünürlər ki!

Yerli əlcəzairlilərə qədimdə azad ruhlu insan (səhv eləmirəmsə, «amazey») deyiblər. Onların ruhunun azadlığı musiqilərindən də hiss olunur – sonsuz səhralıqda qum dənələrini qabağına qatıb qovan, sərhəd, maneə tanımayan külək kimidirlər. Onların ruhunun azad olmasıdır ki, bir belə zülümlərə, əsatirə, soyqırıma baxmayaraq, xoş sifətlərini, mehribanlıqlarını, səmimiyyətlərini qoruyub saxlaya biliblər. Yəqin ruhları hələ də sonsuz çöllərdə uçur ki, xarici sivil cəmiyyətlərin hiylələrinə, siyasi oyunlarına asanlıqla düşürlər və …maddi baxımdan uduzduqlarının fərqinə belə varmırlar.

Dediklərim yalnız üç gündə gördüklərimdir, daha doğrusu, hiss etdiklərimdir. Bu günlər ərzində sürətlə bir-birini əvəz edən, bəzən bir-birinə qarışan, insanı bütünlüklə öz hökmü altına alan hisslər çox güclü idi. Bütün yaşanan ecazkarlığın, uca hisslərin arasında bir şeyi dərk etdim: bütün bunlar yalnız hisslərdir! Əbu Turxan yazır ki, «hisslər dərk edilməmiş düşüncələrdir». Əlcəzair ən müxtəlif, zidd hissləri ən yüksək səviyyədə yaşayır və heç birinin mahiyyətinə varmır. O, ruhunda baş verənləri ağlının süzgəcindən keçirmir. O, sonsuz çöllərdə əsən azad ruhunun göydələnlərin arasında əsə bilmədiyini hiss edir, ancaq

bunun səbəbini anlamaq istəmir. O, nifrət edir, bu nifrətlə yaşayır, ancaq bu nifrətin kökünü, nəticələrinin kimə xidmət etdiyini, kimlərin alətinə çevrildiyini anlamaq istəmir. O, sevir, yüksəlir, ancaq bu sevgidən faydalanmaq istəmir. İstəmir, yoxsa bacarmır?

Əlcəzair – təsəvvüfün paytaxtıdır. Bəlkə onun hisslər şəhəri olmağının əsas səbəbi budur? Bəlkə təsəvvüf əlcəzairliləri ruhlarının qayğısına qalıb, maddiyyatı unutmağa sövq edir? Və ya bəlkə əslində saf bir düşüncə tərzi olan təsəvvüf yalnız hisslər çərçivəsinə salınmaqla özü təhrif edilir?

Əslində, həqiqət çox aydındır. Təsəvvüf İslam üzərində təşəkkül tapmış bir təfəkkür tərzidir. Buna görə də onun mərkəz nöqtəsində bütöv cəmiyyət yox, ayrı-ayrı fərdlərin ruhları və təfəkkürləri durur. Söhbət sadəcə ruhdan deyil, ruhu maddi bədəni ilə vəhdət təşkil edərək bütöv bir cəmiyyəti irəli apara bilən İNSANdan gedir.

Əlcəzair – hisslər şəhəri olduğuna görədir ki, bu qədər təbii, mehriban, səmimi və… sadəlövhdür. Bu, məndə yaranmış təəssüratdır. Bəlkə də bir azərbaycanlı olaraq hər şeyi öz arşınımla ölçmüşəm?!

## Əbu Turxanın «qısa qapanma» prinsipi haqqında qeydlər

İdeyanın doğum məkanı insanın daxilində, onun reallaşma, təzahür məkanı isə insandan kənardadır. Yəni ideyanın müəyyən maddiyyat qazanması üçün onun insandan

kənarlaşması zəruridir. İstər söz şəklində olsun, istər emosiya, istərsə də maddi bir cisim kimi. Berdyayev yazır ki, «idrak yadlaşmadır» və «idrak bizim cəmiyyətimizin genişlənməsidir». Xəlilov isə bildirir ki, «Mən»i «bölüşmək üçün əvvəlcə maddiləşdirmək – ifadə etmək lazımdır. Bu isə xüsusi bir prosesdir ki, ona yaradıcılıq deyilir».

Yaradıcılıq – içində doğulmuş ideyanın dərki və onu reallaşdırmaq cəhdidir. İdrak – öz ideyanın kənar obyektdə «tanınması» və bu «tanışlığın» öz şüurunda inikasıdır. «Tanıma»nı həmçinin öz ideyanla kənardakı obyektin ideyasının harmoniyası, uyğunlaşması da adlandırmaq olar. Məsələn, heykəltaraşın ideyası ilə qranitin «ideyasının» üst-üstə düşməsi nəticəsində gözəl bir heykəl yaranır. Yəni bu, müəyyən başlanğıcı (ideyanın doğulması), kulminasiya anı (ideyanın «tanınması») və sonu (inikası) olan bir sikldir. Bu mərhələlərdən biri olmazsa, ideya dərk olunmamış və ya reallaşmamış qalar.

İnsan doğulandan şüurlu-şüursuz şəkildə qarşısına məqsədlər qoyur, ona can atır. Körpə yıxıla-dura ilk addımını atır, uşaq şirin uşaqlığından ayrılıb həyatın çətin döngələrinin «dolaşıq xəritəsini» oxuya bilmək üçün elm öyrənir, təcrübə toplayır, gənc qarşısında qaldığı seçimlər üzərində baş sındırır, tədbirlər tökür və s. və i.a. İnsan məqsədi qoyur və ona doğru addımlayır. Can atdığı ideyanı bəzən öz beynində o qədər aydın canlandırır ki, arada keçəcəyi vasitələr ona kiçik, əhəmiyyətsiz gəlir. Rəssamlar, heykəltaraşlar, yaradıcı insanlar kimi. Onlar yalnız atacaqları sonuncu addımı görür, onu atacaqlarını düşünürlər və onu atmaq üçün hər şeyə hazır olurlar. Əslində, onlar öz məqsədləri fonunda bu «hər şeyi» heç nə bilirlər.

Cəmiyyətdə belə adamlara Məcnun və buna bənzər adlar qoyurlar. Yəni insan və ideyası o qədər bir-birlərinə yaxınlaşırlar ki, aradakı vasitələr yoxa çıxır. Əbu Turxan yazır ki, «aradan maneənin götürülməsi «qısa qapanmaya» səbəb olur, son başlanğıcla birləşir». Belə məlum olur ki, maneə ideyaya kənardan baxmağa, onu soyuq təfəkkürlə dərk etməyə, onunla birləşməyin nəticəsini qiymətləndirməyə imkan yaradır. Qısa qapanma – partlayışdır, məhvdir, başlanğıcın bir nöqtədə qalıb inkişaf etməməsi və sonla bərabərləşməsidir. Əbu Turxan dediklərini ilk məhəbbətlə əsaslandırır və zənnimizcə, inandırıcıdır. Lakin diqqəti başqa bir şeyə yönəldək: bunu yaşayan insanın təfəkkür səviyyəsinə.

İlk məhəbbət dönəmi əsasən *insanın hisslərinin təfəkkür üzərində hegemon olduğu bir vaxtda* – yetkinlik, ilk gənclik illərində baş verir. Yəni insan və ideyanı (sevgisini) hisslər əlaqələndirir. O, öz ideyasını görür, eşidir, duyur, onun doğmalığını, harmoniyasını hələ hissi səviyyədə tanıyır və bu hisslər o dərəcədə canlı olur ki, ideyanın – sevgisinin obyektinin ondan kənarda olduğunu unudur. Əbu Turxanın da etiraf etdiyi kimi, insan «özünə qapanır» və «qarşı tərəf sənin üçün qaranlıq qalır». Başqa sözlə desək, insanın yaşadığı iki ruhun harmoniyası olmur, yalnız öz hisslərinin təkbaşına «oynaması» olur.

Hisslər yüngüldür və hakim olduqları hər şeyi yüngülləşdirirlər. İnsan ideyasını dərk etməyə can atmır, maneələri dəf etmir. O, öz ideyasının ideyasını (özünü deyil!) yaşayır, onu həqiqət zənn edir, buna qəti əmin olur. Belə hallarda təfəkkürün mövcudluğu arzuolunmazdır, çünki o, hisslərin ayaqlarından tutub yerə endirir, ideyanın ideyasının sadəcə

bir kölgə olduğunu göstərir, qarşı tərəfin bəlkə də nə qədər yad olduğunu anladır və …insan əzab çəkir. Yəqin bu səbəbdən, məhəbbət məcnunları yana-yana sevgi və ağılın bir-birinə düşmən olduğuna, sevginin ağlı kor etdiyinə inanmağa və inandırmağa, soyuq təfəkkürlə dəli eşqin bərabər olmaqlarının mümkünsüzlüyünü sübut etməyə çalışırlar.

Hisslər bədənə məxsusdur. *Sevginin*, o cümlədən, başqa bir həqiqətin yuxarıda dediyimiz bütün mərhələləri yaşaması – *əsl mahiyyətinin reallaşması və dərk olunması, yəni qısa qapanmadan qorunması üçün bu prosesdə ruhun iştirakı zəruridir.*

Hər insan bir ruha malikdir və bu ruh ancaq öz ideyasını daşıya bilər! (Onu da əlavə edim ki, bir ideyaya malik olması yalnız ruha aiddir, bədənə deyil. Əbu Turxan fəlsəfəsində bədən bir neçə ideyanın daşıyıcısıdır.) Yaşanan harmoniya, doğmalıq isə ancaq iki ruh arasında mümkündür. Əbu Turxan demiş, bu, «ruhun canlanmasıdır», yəni ruh tək olmadığını dərk edir, daşıdığı ideyanın mahiyyətinə varır, çünki müqayisə üçün əks tərəf var, öz əksini görmək üçün «güzgü» var. Onu da əlavə edək ki, bu «canlanma» bütünlüklə əks tərəfdən asılı olur və bu proses qarşılıqlı şəkildə olduğu halda «canlanma» get-gedə kamilləşir, ruhların daha dərin qatları işıqlanır. Filosof bunu «iki damlanın əvvəlcə bir damlada birləşməsi və dəryaya birlikdə qatılması»na bənzədir və məhəbbəti «hissənin tama, yarımçığın bütövə doğru hərəkəti» adlandırır. İnsan həm malik olduğu ideyanın, həm də sevdiyinin ideyasının mahiyyətini, onların məhz hansı cəhətlərlə bir-birini tamamladıqlarını, təmas nöqtələrini və bu nöqtələrin hər iki

ruh üçün hansı əhəmiyyət daşımasını dərk edir və bununla da öz sevgisini dərk etmiş olur. Bayaq xatırlatdığımız heykəltaraş kimi. Əbu Turxan yazır ki, «ruhun ruha qovuşması daxili mənəvi yüksəliş gətirir». Bu, qana-qana sevməkdir! Bu, sevginin insana verdiyi neməti dərk edib dəyərləndirməkdir! Bu, iki könülün işığını birləşdirmək, artırmaqdır! Yəqin buna görə Şihabəddin Sührəvərdi deyir ki, «kamal sahibi olmayan qafil həzz ala bilməz. Hər bir həzzin qədəri kamillik dərəcəsindən asılıdır».

Biz sevginin iki halından danışdıq: hissi səviyyədə yaşanan, yəni məcnunluqdan və ruhun iştirakı ilə hisslə təfəkkürün bir-birini tamamladığı sevgidən. Lakin sevginin üçüncü, daha mürəkkəb və əzablı bir halı da mövcuddur: *təfəkkürün hisslər üzərində hegemon olduğu zaman yaşanan sevgi*.

Onu da qeyd etməliyik ki, söhbət maddi hisslərin, niyyətlərin üstünlüyündən getmir. Belə olan halda yüksək sevgi, saf məhəbbət olmadığına görə, onu ümumiyyətlə müzakirə mövzusundan kənarda saxlayırıq.

Diqqətə çatdırılmalı olan məsələ Əbu Turxanın öz məhəbbət konsepsiyasında ilk iki haldan danışdığı halda, hətta bizim mövzudan kənarda qoyduğumuz məsələyə də geniş bir açıqlama gətirdiyi halda, qeyd etdiyimiz üçüncü haldan danışmır.

Bildirdiyimiz kimi, sevgi əsasən hisslərin «məkanı» sayıldığına görə, təfəkkür ora yaxın buraxılmır. Əbu Turxanın düşüncələrinin köməyi ilə sevginin mahiyyətinə bir də baxaq: «tamamlanmaya ehtiyac», «vahidin əzəmətinə, bütövün gözəlliyinə, tamın harmoniyasına heyranlıq», «ruhlar arasında körpü», «mənəvi kamilliyin təməlinin əsas şərti»,

«kamilliyə aparan yolun məqamı» və s. Deyilənlər hamısı insanın mahiyyətinə xas olan və açılmağa ehtiyac hiss edən zəruri hallardır. Maraqlıdır, insanın zahirində də özünü müsbət tərəfdən büruzə verən belə bir mənəvi kamilləşmə yalnız hisslər səviyyəsində mümkündürmü? Yuxarıda qeyd etdik ki, mümkün deyil və ruhun iştirakının vacibliyini vurğuladıq. Elə isə alternativ sual verək? Bəs yalnız təfəkkürlə belə bir yüksəliş, kamilləşmə mümkündürmü?

Əbu Turxanın bildirdiyinə görə, «alimlər qısa qapanmadan qaçır, şairlər isə onu vəsf edir». Yalnız alimlər deyil, ağlına güvənən, həyatında təfəkkürü hegemon olaraq qəbul edən hər kəs «qısa qapanmadan qaçır», təfəkkürün qurduğu möhtəşəm sarayı bir anlıq partlayışın yerlə yeksan etməsindən qorxur. Əbu Turxan qısa qapanmaya alternativ olaraq normal elektrik cərəyanının yaranması üçün tənzimləyici müqavimətin zəruriliyini vurğulayır. İdeyanın normal inkişaf etməsi üçün haqlı və xeyirli bir iraddır. Lakin digər bir tərəfdən, maneənin çoxluğu cərəyana hansı təsiri göstərir? Mən fizik deyiləm, amma güman etmək olar ki, cərəyanın şiddətini azaldır, yəni işığı zəiflədir. Düzdür, Əbu Turxan «güclü enerjinin tədricən işlətməyi» də xatırladır. Bu nədir? Hissin enerjisinin təfəkkürə xidmətimi? Ruhu bədənin xidmətçisinə çevirməkmi? Yaxud təfəkkürün dərk etdiyi böyük bir sevgini qırıq-qırıq, səpələnmiş halda yaşamasımı?

Diqqəti cəlb edən daha bir məsələ: sevgi iki ideyanın birləşməsidir. Təfəkkürün qoyduğu süni maneələr, «qısa qapanma» qorxusu hisslərin çərçivəsini həddindən artıq daraldır və bu naqislik ümumi vəhdətə mane olur. Başqa sözlə desək, hiss və təfəkkür, ruh və bədən bir-birindən təcrid olunur və ruh öz əksini başqa bir ruhda görə bilmir, deməli

tamamlanmaqdan da məhrum olur. Rəssam, heykəltaraş və ya başqa bir yaradıcı insan can atdığı ideyaya yalnız təfəkkürü ilə çata bilərmi? Yaxud onun çatmaq istədiyi ideyanı mahiyyətdən uzaq səpələnmiş ideyalar əvəz edə bilərmi?

Maraqlıdır, təfəkkürün öz hakimiyyətini bölüşmək istəməməsini, özünə qapanmasını, hissi heç bir vəchlə yaxına buraxmamasını, Əbu Turxanın təbirincə, «təfəkkürün qısa qapanması» adlandırmaq olarmı?

## *Ruhların mərtəbələri*

Qurani Kərimdə buyrulduğuna görə, ruh haqqında bilgi çox azdır və məlum olan yalnız onun Allah qatından olmasıdır. Əslində, bu iki kiçik ifadədə çox şey deyilir. Əvvəla, onun haqqında bilginin az olması çox bilginin əldə edilməsinin qadağan olunması anlamına gəlmir və bu, ruhun spesifik bir məzmuna malik olması deməkdir. İkinci tərəfdən, ruhun Allah qatından olması həm də insanın Allah qatı ilə əlaqəli olması deməkdir. Hər iki fikirdən alınan nəticəyə görə, insan özünün Allah qatı ilə bu əlaqəsi haqqında çox az şey bilir və bu bilik çevrəsini genişləndirməyə çalışır, çünki bu əlaqə onun mahiyyətini, insanlığını ehtiva edir.

Ruh haqqında bilginin az olması alimlərə daha çox şey deməyə imkan yaradıb və yaratmaqdadır. Ta-a qədimdən bu günə kimi bəzən bir-birinə zidd, bəzən də bir-birini tamamlayan düşüncələr deyilir, yazılır, yazılanlardan

nəticələr çıxarılır, bu günün mütləq hesab edilən həqiqəti sabahın nisbi həqiqətlər zəncirinə qoşulur. Beləcə bu zəncir elə hey uzanmaqdadır.

Bəzi alimlər ruhu işığa, bəzisi efirə, bir başqası havaya bənzədib. Biri onu maddi bədənin mahiyyəti, mənası hesab edib, bir başqası isə onu maddi bədənlə paralel şəkildə, hər biri müstəqil olaraq mövcud olduğunu bildirib. Biri iddia edib ki, bədən öləndə ruh da ölür, digəri isə sübut etməyə çalışıb ki, ruh da bədənlə bərabər ölümü dadır, üçüncü biri isə bədən öləndən sonra ruhun başqa bir bədənə köçməsi haqqında bütöv bir fəlsəfi təlim yaradıb. Onu da əlavə edim ki, bu düşüncələrdən hər birinə dair çoxlu əsərlər yazılıb, bu ideyalar illər səddini keçərək bu günümüzə çatıb.

Ruhun sayları da mübahisələr mövzusu olmuşdur. Bir sıra alimlərin fikrinə görə, hər bədəndə yalnız bir ruh olur. Bir bədən – bir ruh. Bəzi mütəfəkkirlər isə bir insanın bioloji və sosioloji xüsusiyyətlərini nəzərə alaraq onun üç ruha – nəbati, heyvani və insani (natiq) ruha malik olduğunu bildirmişlər. İnsanın yalnız maddi deyil, həm də emosional dəyişkənliyini, mənəvi baxımdan müxtəlif səviyyələrin sakini ola bilmək imkanını nəzərə alaraq, onun bədəninə bir gündə, hətta bir saatda ayrı-ayrı ruhların daxil ola bilməsi ideyasını irəli sürmüşlər. Məsələn, Əbu Turxanın fəlsəfəsinə görə, «ruh sanki alternativ ruhlar sistemidir. İnsan bir matrisadır».

Maraqlıdır ki, ruh haqqında danışanlar onun varlığına, eyni zamanda ruhun insanın passiv bir tərəfi deyil, məhz aktiv və aparıcı bir hissəsi olduğuna inananlardır. Bu da təbiidir: inanmadığın bir şeyə başqasını da inandıra bilməzsən.

Məncə, hər insan yalnız bir ruha malikdir. Bu bir ruh mahiyyətcə sadə olsa da, daşıdığı yükə və keçdiyi proseslərə görə çox mürəkkəbdir.

Ruh bədənin daşıdığı məna, mahiyyətdir. Ruhla bədənin arasında iki cür əlaqə mövcuddur: hiss və təfəkkürlə – istər ayrı-ayrılıqda olsun, istərsə də bərabər şəkildə.

Hiss təfəkkürə nisbətdə daha primitiv və sadədir. Körpə uşağı və ya bir dəlini sevindirmək, həyatdan məmnun etmək çox da çətin deyil. Yaxud cəngəllikdə təbiətlə harmoniyada yaşayan bir apaçinin istər mənəvi, istərsə də maddi tələbatını ödəmək bir taxta və ya daş bütə sitayiş, bütün canlılara xas hisslərinin yerinə yetirilməsi, qarşılanması çərçivəsi daxilindədir. Bu əlaqə forması ruhun nəbati və heyvani keyfiyyətlərinin təzahür etməsinə şərait yaradır. Deyilənlərdən hətta belə bir nəticə də çıxartmaq olar ki, bitkilərin və heyvanların da ruhları vardır və onlar öz maddi formaları ilə yalnız hisslər vasitəsilə əlaqəlidirlər. Buna nümunə olaraq bitkilərin torpaqdan, havadan, günəşdən qidalanmaqlarını, mühitə uyğunlaşmaqlarını, bəzilərində hətta özünümüdafiə instinktlərini, kobud münasibətə və ya nəvazişə reaksiya verməklərini göstərmək olar. Heyvanlar bitkilərə xas bu keyfiyyətlərin daha mürəkkəbinə malik olmaqla yanaşı, əlavə xüsusiyyətlərə də sahibdirlər: onlar öz taylarını axtarır, nəsil artırırlar – hisslər səviyyəsində.

Təsadüfi deyil ki, uşaqları güllərə və ya bəzi heyvanlara bənzədirlər. Lakin bu müəyyən müddətə qədər davam edir – uşağın təfəkkürü inkişaf edib müstəqil fikir söyləyənə, müstəqil yolunu axtarmağa başlayana qədər. Yəqin çoxları mənimlə razılaşar ki, belələrini nə qönçəyə bənzətmək olar, nə dovşana. Çünki beləəri artıq insan olduqlarını göstərirlər.

Maraqlıdır ki, bir «vəhşi»[1] və ya bir dəli ilə ünsiyyət qurmağa çalışanda məhz onun hisslərinə müraciət edir, onun hisslərini məmnun edirlər.

Şüur formalaşmağa, inkişaf etməyə başladıqca ruh və bədənin digər əlaqəsi də özünü göstərməyə başlayır və bu əlaqə sayəsində ruhun növbəti – insani qatı açılır. İnsan yalnız hiss etdiklərini deyil, düşündüklərini də büruzə verməyə, ifadə etməyə çalışır, həm də bu, yalnız hisslər vasitəsilə və hisslər səviyyəsində yox, daha mürəkkəb üsullarla – sözlə, rənglə, musiqi ilə, rəsmlə və s. və daha yüksək formada baş verir.

Nəbati və heyvani ruh bədənə daha yaxındır, nəinki insani. Başqa sözlə desək, bu mərtəbələrdə ruh bədənə tabedir, sonuncuda isə bədən ruha. Dediklərimizi kiçik bir sxemlə təsvir edək:  – maddi bədən qara bir dairədir. Nəbati ruh onunla tamamilə üst-üstə düşür. Əvvəla ruhun ən aşağı mərtəbəsi, ikincisi, əsasən bədənin imkanlarından asılı olduğu üçün, yəni burada bədənin tələbatı ruhu idarə edir. Heyvani ruh da maddi bədənlə daha çox «təmasda» olmasına rəğmən, bədəndən kənar tərəfləri də vardır. Buna heyvanlardan delfinin, atın, canavarın, maralın, bülbülün və s. qeyri-adi, «qeyri-heyvani» hərəkətlərini, səslərini nümunə göstərmək olar. İnsani ruh hər ikisini öz daxilində ehtiva

---

[1] Йери эялмишкян, о да там щцгугла юз гаршысындакына вящши дейя биляр.

etməklə yanaşı onlardan fərqli, daha geniş və yüksək tərəflərə də malikdir. Kyerkeqorun da dediyinə görə, «mütəfəkkir … çox qəribə bir məxluqdur. O, gün ərzində yalnız bir neçə saat ağıllı olur, qalan vaxtlar isə insanla əlaqəli heç bir şeyi qalmır».

Bu, ruhun mərtəbələri və məqamlarıdır. Lakin sxemdən də göründüyü kimi, mərkəzdə maddi bədən durur. Bunun bir neçə anlamı var. Əvvəla, bu ruh (!) bu bədənə (!) verilib, yəni onlar vəhdətdədir və bu şəkildə insan adlanır. Təklikdə onların adı ruh və ya bədəndir, bərabər isə – insan. İkincisi, ruhun insani məqamı digər ilk iki mərtəbəsindən imtina demək deyil. Hər üç ruh təklikdə yalnız bir hissədir, birlikdə isə ruh tamamlanmış şəkildədir. Burada daha bir incə məqamı da vurğulamaq lazımdır: nəbati ruh sonrakı ruhlara ehtiyac duymur, ilk mərhələ bütöv inkişafdan xəbərsiz olduğu kimi. Heyvani ruh nəbati ruha ehtiyacı olduğu halda insani ruhdan xəbərsizdir və onsuz da mövcud ola bilir. Nəhayət, insani ruhun hər ikisinə ehtiyacı var: son mərhələnin ilk mərhələlərə ehtiyacı olduğu kimi. Bu, həm də o deməkdir ki, hisslərdə təfəkkür olmadığı halda, təfəkkür hisslərdən qidalana bilir.

Gün ərzində ruhun mərhələləri bir neçə dəfə bir-birini əvəz edir… Lakin burada əhəmiyyətli bir məqam vurğulanmalıdır: ruhun mərhələləri arasında «gəzişmə» məhz sonuncu mərhələsi kəşf olunan insan üçün mümkündür, yəni maddi məkandan, hisslər aləmindən kənara çıxıb ruhun daha geniş imkanlarından istifadə edənlər və ən əhəmiyyətlisi, ruh və bədəni arasındakı təfəkkür əlaqəsini dərk edənlər üçün.

Vurğulanması vacib olan digər məqam insanın gündəlik yaşantısında onun ruhunun mərhələlərinin təzahürü mə-

sələsidir, yəni insanın hazırda hansı ruh daşıması onun gündəlik həyatında açıq-aşkar bəlli olur.

İnsan eyni bir hadisə ilə bağlı ruhunun müxtəlif mərhələlərində verdiyi qərarlar, təbii ki, bir-birindən kəskin fərqlənə bilər. Hətta bu qərar heyvani və ya nəbati mərhələyə aid olsa belə, onun məhz heyvani, yaxud insani ruhda olan şəxsin verməsi böyük əhəmiyyət daşıyır.

İnsan daim insani məqamında qala bilmir. Nə qədər yüksək səviyyə olsa da, o, ruhun yalnız bir məqamıdır. Bir bioloji, eyni zamanda, sosial varlıq olaraq insan öz ruhunun müxtəlif vəziyyətlərə uyğun gələn halından çıxış etməlidir. Bununla yanaşı, insanın öz ruhunun bütün məqamlarından xəbərdar olması da əhəmiyyətli şərtdir. Başqa sözlə desək, verilən qərarda ruhun tam şəkildə və ya naqis olaraq iştirak etməsi qərarın nəticəsinə bilavasitə təsir göstərir. Bunu adi su içməkdən tutmuş, eşq və ya Allaha iman məsələsinə qədər olan hallarda müşahidə etmək mümkündür.

# FƏLSƏFI HEKAYƏTLƏR

## *Vətən*

Bir gözəl saray vardı. Sakinləri bu gözəllikdən zövq alıb, onun divarları arasında təhlükədən qorunurdular. Onlar öz gözəl saraylarına nəğmələr qoşur, şeirlər yazırdılar.

Bir gün sakinlərdən biri bu gözəlliyi başqaları ilə bölüşməkdən bezdi, onu ancaq özününkü eləmək istədi. Hamını qova bilməzdi, sarayı bütünlüklə oğurlaya, ya da mənimsəyə də bilməzdi. Onda o, bu gözəllikdən kiçik bir daşı qoparıb götürdü. Gözəllik o qədər möhtəşəm, o qədər mükəmməl, o qədər böyük idi ki, bu kiçik daşın yoxluğunu heç kim nə hiss etmədi, nə də görmədi. Bunu görən digər sakin də həvəsləndi… o da bir taxta oğurladı. Yenə gözəlliyə xələl gəlmədi. Bir daş, ya bir taxta nə idi ki, bu əzəməti pozaydı!

Artıq əksər sakinlər bu saraydan kiçik ya böyük bir hissəni qoparıb aparıb kənarda özlərinə bir ev qurmuşdular. Saraydan qopardıqları hissələr onların evlərinin bəzəyi, dəyəri idi. Ancaq bu, onların evlərinin yeganə dəyəri idi, qalan hissələr heç bir dəyər daşımırdı, çünki başqa-başqa yerlərdən toplanıb üst-üstə toplanmış şeylərdən başqa bir şey

deyildi. Saraydan götürdüyü hissə isə doğma idi, onunla eyni tarix yaşamışdı, içində öz sakinlərinin mahiyyətini qoruyub saxlayırdı.

…Gözəl saray dəlik deşik bir xarabaya çevrilmişdi. Sakinləri artıq onu bəyənmirdilər, əslində bəyənilməsi bir halı da qalmamışdı. Oxunan nəğmələr də ancaq onun keçmiş halı haqqında idi. Hər kəs ordan köçüb-qaçmaq istəyirdi. Bir vaxtlar bu saraydan qopardıqları həmin dəyərli şeyi götürüb başqa bir saraya köçməyə yol axtardılar. Bu dəyərli şey başqa saraya köçmək üçün yeganə vasitə idi. Heç kimin ağlına da gəlmirdi ki, oturduğu bu sarayı təmir etsin, heç olmasa ondan götürdüyü hissəni geri qaytarsın. Hər kəs fikirləşirdi ki, ondakı hissə bu yekəlikdə xarabanı düzəltmək iqtidarında deyil. Haqsız da deyildilər.

## *Bir çiçəyin nağılı*

Müdriklərdən biri deyib ki, «Bir çiçək bir aləmdi». Bu çiçəyin də bir dünyası, bir tarixi var.

Allah yaratdıqlarının hamısı gözəldir! O, bir çiçəyə məxsus ola bilən bütün keyfiyyətlərə malik idi: məsum, ecazkar, incə, zərif, rənglərində gözəl bir harmoniya, tam açılanda belə sirli-sehirli, min bir ləçəkli, hər ləçəyində min bir yaraşıq. Bu çiçək yaranmasına necə sevinirdi, sevənlərin əlində oxşandıqca necə nazlanırdı! Bəs necə! Sevən sevənə ilk olaraq onu bağışlayırdı, sevgi rəngində idi axı – qıpqırmızı, eşq dolu, sevgi ilə döyünən ürək kimi.

*Qərənfiləm mən,*

*Gözəl güləm mən,*
*Yaşıl yarpaqlı,*
*Bir sünbüləm mən.*

Bir gün göy guruldadı, şimşək çaxdı. Lap nağıllardakı kimi göy yerlə qovuşdu… hər yer qara boyandı. Çiçək öz kiçik dünyasından nə qədər boylansa da qaradan başqa rəng görmədi. Sanki bütün rənglər silinmişdi yer üzündən. Sonra kimsə onu götürüb qapqara asfaltın üzərindəki qıpqırmızı qanın üzərinə qoydu, onu dörd tərəfə düzdü, onunla bütün küçələri bəzədi. Hər yer qərənfilləşdi… Çiçək anlayırdı ki, bu, kimə isə yenə də sevgi payıdır. Amma onu da anlayırdı ki, bu bəzəmə adi bəzəmə deyil… O yenə sevgi rəmzi idi, …amma bura kədər, göz yaşı da qarışmışdı. Çiçək qürur duydu ki, xalq öz qara günündə öz sevdiklərini yenə onunla son mənzilə yola salır. Başqa heç bir çiçəyə yox, məhz ona üz tutur. Bir vaxtlar o, sevənlərlə sevirdi, indi də onu dərdlərinə şərik olmağa, ağlamağa çağırırdılar, «ağla, qərənfil, ağla» deyirdilər, onun sınıq, boynu bükük, gözü yaşlı, qara yarpaqlı rəsmlərini çəkirdilər, ona bayatılar qoşurdular…

Zaman ən yaxşı əlacdır, – deyirlər. Bir nəğmədə deyildiyi kimi: «Dünya köhnə dünyadır, sevgiləri təzədir». Yenə sevənlər yarandı. Yenə gənclər sevib-sevildi, bir-birinə çiçəklər bağışladı. Xalq qara günlərin qaralığından çıxırdı yavaş-yavaş, …ancaq nədənsə çiçəyin qara ləçəyini açmaq istəyən yox idi. Artıq sevənlər onu bir-birlərinə bağışlamırdılar, onu yalnız kədərli günlərdə xatırlayırdılar, onun al rəngini yalnız qan rəngi ilə müqayisə edirdilər, onu bir xoş gündə, saatda görəndə təəccüblənirdilər, tez giz-

lədirdilər. Kimlərinsə ona ürəyi yanıb ona fərqli rənglər verdi: ağ, bənövşəyi, daha nə bilim nə rəng. Ancaq yenə əllər ona doğru qorxa-qorxa, titrəyə-titrəyə uzandı. Yenə də onu göz yaşlarına şərik olmağa çağırdılar. Sevginin yolları bağlanmışdı onun üzünə. Sanki o, elə bu kədərlə, göz yaşı ilə qoşa doğulubmuş. İçindən bağırıb hər kəsin yadına salmaq istədi ki, axı onun da sevən bir qəlbi var, o, matəm çiçəyi deyil, o, daha ağlamaq istəmir, o, əvvəlki rəngli günlərinin qayıtmasını istəyir! Ancaq onu eşidən bir kimsə görmədi – onun satış yerlərini belə qəbirstanlıqların girişlərində yerləşdirdilər.

Beləcə çiçəyin çiçəkli günləri bitdi. O, qayğılı, hər kəsin dərdinə qalan bir …ürəyə çevrildi, içindən qara qanlar axan, öz dərdinə şərik tapmayan bir ürəyə.

Çiçəyin yadına o qara günlərin ani bir mənzərəsi düşdü. Kiminsə kiçik barmaqları onu qara asfaltın üzərindən götürüb bir şəkil albomunun vərəqləri arasında gizlətmişdi. Uşaqlıq şəkilləri idi. Albomun vərəqləri bir də açılmadı… və o, qaranlıqda qaldı. O vaxtlar çiçək bir şey anlamamışdı. İndi anlayırdı. O qurumuş çiçək zamanı dayandırmışdı, ya da bir nöqtə qoymuşdu… uşaqlığa, sevgiyə, rəngli dünyaya.

«Bir çiçək bir aləm imiş». Gözəl deyib Əbu Turxan. Amma maraqlıdır, öz qəmli tarixini qana-qana yaşayan çiçəkdə çiçəyə məxsus keyfiyyətlər qalırmı? Ya da bu keyfiyyətləri solmuş çiçəyə yenə çiçək deyilirmi?

# *Kiçik tonqalın nağılı*

*Ağıllı sevgi – çaya girirsən, o biri sahil görünür,*
*çıxmaq imkanı sənə ümid verir.*
*Dəli sevgi – dənizə girirsən, o biri tərəf görünmür və*
*səni cəlb edən məhz bu ənginlik, sonsuzluq,*
*səni cəlb edən – çıxa bilməmək əndişəsidir.*

***Əbu Turxan***

Qarlı bir gecə. Meşənin içi ilə uzanan bir yol. Yolun kənarında xarab olmuş bir maşın və yarı yolda qalmış bir adam. O, kiçik bir tonqal qalayıb oturub kənarında: bu soyuqda azacıq da olsa bir hərarət versin, gecənin zülmətində bir işıq salsın, kimsəsiz vəhşi meşədə bir həmdəm olsun, ürpərdici səssizlikdə tənhalığını bölüşsün deyə. Sönməsin deyə yolçu ara-sıra xırda çırpılar atır bu kiçik tonqala… yanması üçün ümid verir. Bu an bu ocaq ona hər şeydən çox doğmadır, yaxındır, onu dünyalara dəyişməz… bu an o qədər xoş, o qədər sakitdir ki, onun bitməyini heç istəmir.

Amma sabah açılacaq, yolçu maşınını təmir etdirib yoluna davam edəcək, evinə – ocağının başına tələsəcək… Düşünməyəcək ki, arxada məhəbbətlə, ümidlə qaladığı kiçik bir tonqal balaca bir çırpının həsrəti ilə soyuqdan sönüb-donacaq. Bu onu narahat etmir: o, tonqala özündən heç nə verməmişdi, verdikləri ətrafda atılıb qalmış çır-çırpı idi.… O, ürəyinin hərarətini evdəki ocağı üçün saxlayırdı, ora lazım idi.

…Görəsən mənim bildiklərimi o kiçik tonqal bilsəydi, o yolçuya öz hərarətini verərdimi, onun tənhalığını bölüşərdimi, onunla o qədər doğmalaşardımı, özünü onun barmaq boyda quru çırpısına möhtac edərdimi?!

## *Açıq qapı*

Mövlananın bir hekayəti var:

«Aşiq – gəlib sevgilisinin qapısını döyür. Sevgili soruşur:

– Kimdir?

– Mənəm.

– Get, vaxtsız gəlibsən, bura xam adamın yeri deyil.

Aşiq gedir, bir müddət ayrılıq, həsrət odunda yanıb-qovrulur. Yenidən qayıdıb qapını döyür.

– Kimdir? – deyə sevgili soruşur.

– Sənsən.

– Mənsənsə, gir içəri, məkan dardır, iki adam sığmaz».

Burada düşündürücü çox məqam var. Mənim diqqətimi isə açılmayan qapı cəlb etdi.

Bəzən bağlı qapı qırıq qanadların, qarşısı alınan arzuların rəmzi kimi təsvir edilir. Maraqlıdır, Mövlananın dediyi qapı birinci dəfədən açılsaydı nə olardı? Yəqin hələ bərkiməmiş, sınaqdan çıxmamış kövrək bir hiss reallığın ilk təkanından yıxılardı. Hələ hisslər səviyyəsində olan bir duy-

ğu başqa bir hisslə sıxışdırılıb çıxarılardı. Eşq doğulmazdı. Bağlı qapı eşq yaratdı?! Qəribə bir paradoks!

Mən səni tanıyanda mənim bütün qapılarım bağlı idi. Amma heç bir eşq yox idi. Heç açarım da yox idi. Əvvəl mənə açarın yerini göstərdin. Tapanda necə sevinmişdim. Qapını açıb içəri girəndə... səni gördüm. Təəccübləndim, sonra da təəccüblənməyimə təəccübləndim – orada səndən başqası ola bilməzdi axı, oranı səndən başqa tanıyan da yox idi axı.

Səni gördüm, sevindim, ancaq qapının kandarından keçə bilmədim. Qorxdum. Yarana biləcək eşqdən qorxdum. Elə bildim qapı açıq qalsa eşq də qorxub yaxın gəlməz.

Məni yaxına çağırdın, «Sənin ruhunun məkanı buradır», – dedin, mən ürək eləmədim, amma çevrilib getmədim də, ...ruhum qoymadı. Elə kandarda dayanıb durdum.

Zaman keçdi. Buranın doğmalığını, əzizliyini gördüm, duydum, yaşadım və... yavaş-yavaş otağın içinə girdim. Sənə addım-addım yaxınlaşdım. Necə böyük səbrin varmış! Nə mənim addımlarımı tələsdirdin, nə qalxıb qapıya yaxınlaşdın. Könül otağımın tən ortasında oturub mənim ruhumun məni sənə, daha doğrusu, məni mənə yaxınlaşdırmağına tamaşa eləyirdin. Gözü arxadakı açıq qapıda qalan bədənimin necə böyük tərəddüdlərlə ruhuma təslim olmağının müşahidəçisi idi. Yalnız hərdən arxamca qapını örtməyi xahiş edirdin: gözümü arxadan çəkmək, yad gözlərdən qorunmaq, daha ürəklə irəli yeriməyim üçün. Hər xahişdə mən bir addım geri dururdum, çünki deyilənləri bir an sonra öhdəsindən gələ bilməyəcəyim bir təhlükənin

xəbərdarlığı kimi yozurdum. Sən daha onu da tərgitdin, yalnız sevgi dolu baxışlarınla mənim gəlişimi izlədin.

Artıq sənə lap yaxınlaşmışdım. Artıq nəfəsini hiss edirdim, ürəyinin döyüntüsünü duyurdum. Əlini uzatsan mənə çatardı. Ancaq nə sən əlini uzadırdın, nə mən... İkimizin də gözü açıq qapıda idi.

Onu örtmək üçün bir-birimizdən yenə aralanmalı idik. Bu daha neçə müddət ayrılıq deməkdi!

Onu örtmək üçün dəhlizdəkilərlə üzləşməli idik. Bu, neçə qınağ dolu baxışların altında əzilmək deməkdi!

Onu örtmək üçün yenə bədənin hökmünə düşməli idik. Bu, artıq nə qədər yol keçib yorulmuş, əldən düşmüş bir ruhun yenidən yaşanacaq tərəddüdlərdən, həyəcanlardan geri dönməmək təhlükəsi deməkdi!

Allah ruhu bağlı bir məkana salmaqla ona özünüdərk, dünyanın ən gözəl hissini – eşqi yaşamaq  imkanı verib. Yəqin hələ bədən qazanmamış ruhlar yerdəki ruhlara həsəd aparırlar. Bəlkə də eşq kimi bir oda düşdükləri üçün onlara yazıqları gəlir...

## *Əqlin könülə etirafı*

Gəzdin-dolandın, yenə mənim yanıma qayıtdın. Yaralandın, məğlub oldun, yenə sığınacağı mənim yanımda tapdın.

Məni sevmirsən. Səni incidirəm, aramızda barışıq yoxdur… ancaq səni məndən yaxşı kim başa düşər? Sənin ağrılarını məndən yaxşı kim duyar? Bunu sən də bilirsən, dö-

nürsən yanıma, ancaq sevmirsən məni. Bəlkə də səni bu qədər yaxından tanıdığıma görə sevmirsən məni… Bəlkə də səni əzablardan qurtarmaq üçün incitdiyimə görə sevmirsən məni… Bəlkə də ən romantik anında reallığı belə çılpaqlığı ilə yadına saldığım üçün sevmirsən məni…

Mən də səni sevmirəm. Bütün maneələri keçə bildiyim halda, sənin qoyduğun həddi keçə bilmirəm. Bütün ruhların qapısı üzümə açıq olduğu halda, sən qıfıl üstdən qıfıl asırsan. Hər kəsin dilini bildiyim halda, sən hər gün mənim bilmədiyim yeni dildə danışırsan. Özümü hər kəsə sevdirdiyim halda, sənə heç cür sevdirə bilmirəm.

Sevmirəm səni. Sən mənim zəifliyimin dəlilisən.

Sevmirəm səni. Sən mənim acizliyimin heç cür pozulmayan möhürüsən.

Sevmirəm səni, heç sevmirəm… Sən məni sevmədiyin qədər – nə az, nə çox.

Amma sənə ehtiyacım var. Bu ehtiyacdan qurtarmaq üçün qaçıram səndən. Ancaq heç kim bu ehtiyacı ödəyə bilmir. Axtarıram, tapmıram, yenə sənin yanına qayıdıram. Bilirəm, sən də mənə olan ehtiyacından qaçırsan.

Bir-birimizə olan ehtiyacdan yenə bir-birimizə dönürük. Sevgi dolu bir dünyadan qopub bir-birimizin peşman gözlərinə baxmaq üçün, sonsuz üfüqlərdən enib bir-birimizin sınmış qol-qanadını seyr etmək üçün, işıq dolu aləmdən çıxıb sönmüş alovumuzun külündə eşələnib qığılcım axtarmaq üçün, bir-birimizin yarasını sarımaq üçün dönürük. Biz çoxdan buna alışmışıq. O qədər alışmışıq ki, hər yeni addımımızı atanda da, hər yeni ruhla rastlaşanda da, hər yeni işıqla nurlananda da… gözümüz arxada, gec ya tez dönəcəyimiz yerdə qalır – acizliyimizin, məğlubiyyətimizin

açıq-aşkar etiraf olunduğu, ümidlərin, arzuların amansızca gömüldüyü həmin məkanda.

Mən yoruldum. Sən də yorğunsan. Bağışla. Sən sonuncu dəfə öz rahatlığını tapmışdın, özünü diri-diri ölümə məhkum eləmişdin və …sakitləşmişdin. Mən də artıq sənsizliklə barışmışdım. Olduğum nöqtədən tərpənmirdim – nə irəli getməyin sevincini duymurdum, nə geri çəkilməyin acısını çəkmirdim… sakitləşmişdim. Durğunlaşmışdıq, amma sakitləşmişdik.

Bağışla. Aldatdım səni. Yenə rahatlığını pozdum. Yenə incitdim səni. Sevmirəm səni, ancaq bunu sevmədiyinə belə etmək olmazdı. …Mən elədim.

Məni sevmədiyini nə deməkdən, nə də göstərməkdən çəkinmirsən, ancaq indi o qədər yorulmusan ki, hətta nifrətini belə büruzə verə bilmirsən. O qədər yorulmusan ki, yüngül bir mehdən yıxıldın. Bəlkə də yüngül deyildi, tufan idi, hər halda sən yıxıldın. Sənin sakitliyini mən pozmuşdum, mən də tutmalıydım səni. Tutmadım, tuta bilmədim. Mən də yorulmuşam axı – həm özümü ayaqda saxlamaqdan, həm də səni tutmaqdan.

İndi sakitcə sənin yanında diz çöküb sənin ağrıdan qıvrılmağına tamaşa edirəm… Dilim gödəkdi, sözüm yoxdu. Sənə ümid verib qaldıran, sonra da yıxılmağına kənardan baxan birinin nə sözü ola bilər ki!

Səni sevmirəm ki, ürəkdən səni oxşayım, halına yanım, dərdini bölüm. Sən də məni sevmirsən ki, nəvazişlərim sənə məlhəm olsun, dərdini mənimlə bölüşmək istəyəsən. Amma mənim səndən, sənin də məndən başqa bir həmdəmimiz yoxdur.

Bir-birini sevməyən iki həmdəm! Bir-birinin yarasını sarıya bilməyən, acısına tamaşa edən iki həmdəm. Bir-birindən qaçıb xilas olmaq istəyən iki həmdəm. Sevməyə-sevməyə həmdəmliyə məhkum olunmuş iki həmdəm…

## *Qırıq qanad*

Bir mələk yarandı nurdan, işıqdan. Bir mələk yarandı ən gözəl hikmətdən. Bir mələk yarandı ən ali bir niyyətdən.

Mələk nur payını ala-ala nurlandı, böyüdü, qanadlanıb pərvazlandı, göyün qatlarını gəzdi dolaşdı, özü kimilərindən başqalarını görmədi. Bir gün Yaradana yaxın bir məqamda bir qapı görüb ora girdi. Nə maraqlı yerdi bura! Bura dolu idi ideyalarla, həqiqətlərlə! İlahi bir qüvvə ilə Vahid həqiqətin bu zərrələri min bir çeşidə salınıb hara isə göndərilirdi. Ara-sıra geri dönən həqiqətlər də olurdu. Vətən həsrətindən alışıb-yanan bu həqiqətlər fərəhdən başqa həqiqətlərlə qucaqlaşır, uçuşurdular.

– Hara gedir bu həqiqətlər?

– Aşağı, maddi dünyaya.

– Maddi dünyada nə var ki?

– İnsan.

– Nə səbəbə onlara göndərilir?

– Sən bilmirsənmi, Uca Yaradan hər şeyi onların xidmətinə verib?

– Bəs bunlar niyə rənglənir, çeşidlənir?

– Bu rənglər, çeşidlər gözlər üçündür. Həqiqətlər hər insana verilsə də, heç də hamısı onları dərk edib tanımır,

rənglər aldadır onları. Allah insanlara könül deyilən bir şey də verib, onlar ancaq onunla baxanda bu rənglərin, çeşidlərin altındakını görə bilirlər. Görəndə bura yolları açılır. Bura qalxanda isə öz insanlıqlarının mənasını dərk edirlər.

– Bunlar nəyin həqiqətidir?

– Bilmirəm. Onu ancaq Allah, bir də Onun yerdəki xəlifəsi – İnsan bilir.

Mələk bu uçuşan sonsuz həqiqətləri tanımaq istədi, bu istəkdən qanadları nur saçdı:

– Mən də insan olmaq istəyirəm.

– Olmaz, Allah səni mələk yaradıb.

– Allah üçün imkansız bir şey yoxdur. O, bir şeyə «Ol» desə, olar.

Dua o qədər səmimi edildi ki, Allah eşitdi və «Ol», – dedi. Amma onun mələkliyi də əlindən alınmadı, kiçik şəffaf qanadları, nurdan olan ürəyi yerində qaldı. Allah ona sadəcə …ağıl verdi, bildiyi bütün adları ona da öyrətdi, bütün mələkləri, yaradılmışları ona səcdə etdirdi. Göylərdə heç kim bilmədi ki, bu, lütfdür, yoxsa sınaq.

Yerə enən mələyin gözləri əvvəlcə qamaşdı: burada nə çox rəng vardı, hər şey nə gözəldi, ilahi. Bir anlıq əvvəl gördüklərini, eşitdiklərini – hər şeyi unutdu. Hər şeyi qucaqlamaq istədi, mənimdir deyə qışqırmaq keçdi ürəyindən… Amma bu istək ürəyindəki nura toxunan kimi əriyib yox oldu. Mələk hər şeyi xatırladı. Rənglərin altındakı işığı sezdi, səs-küyün arasından harmoniyanı duydu… Ürəyinin nuru daha da artdı, bu nurun işığında ta göylərdəki həmin qapını gördü… Kimsə onu itələdi:

– Yolumu kəsmə.

Yoldan ötən bir insan idi, işə tələsirdi, bir tikə çörək qazanmağa. Çəkildi, ancaq indi də başqasının rahatlığını pozdu. Ətrafa boylandı. İnsanlar qaynaşırdı. Hamı rənglərlə əlləşirdi, amma onların altındakına fikir verən yox idi. İstədi onlara gördüyü həqiqət aləmindən danışsın.

– Boş-boş dayanmaqdansa, bir işə yara, – deyə əlinə bir bel verdilər.

«Mən güllər əkəcəm, insanlara həqiqətləri xatırladan güllər. Mən ağaclar əkəcəm, malik olduqları hikməti yadlarına salmaq üçün», – deyə sevincək düşündü.

– Burada bir quyu qaz, keçən olmasın, – əmr etdilər.

– Mən, mən…, – deyə kəkələdi. Kimsə ona əhəmiyyət vermədi.

Qaza bilmədi, ürəyindəki nur qoymadı. Quyu qaza bilmədiyini görüb:

– Hə, sən alimsən, – deyib əlinə qələm verdilər.

«Mən gördüklərimi, eşitdiklərimi yazacam, hər kəsin könül gözünü açacam», – deyə sevincək qələmi götürdü.

İlk hərfindəcə onu saxladılar:

– Sənin yazdığın bizə maraqlı deyil, insanlar üçün aktual olan, cəmiyyətə xidmət edən şeylərdən yaz, – deyə əmr etdilər.

– Mən fikirləşdim ki…

– Sən fikirləşmə, bu sənə çörək verməz, sənə nə əmr edirlər, onu yaz.

Yazmaq istəmədi, amma… Mələk ac idi, susamışdı, üşüyürdü… və yazdı. Nə dedilər onu yazdı. Nur dolu ürəyi qana boyandı, şəffaf qanadları narahat-narahat xışıldaşdı. O, hər şeydən yazırdı, amma bu yazdıqlarında əvvəllər görüb-eşitdiklərinin heç izi-tozu da yox idi. Ürəyindəki nur

solğunlaşır, qolları daim məşğul olduğundan qanadları sızıldaşırdı.

– Bir az qanadlarımı açmaq üçün uçsam nə olar?

– Sən dəlisən. Bu kimə lazımdır? Qanadların çox incədir, günəş yandırar, – deyib qanadlarına qurğuşun bağladılar.

Əvvəllər qurğuşunun ağırlığını hiss etmirdi. İçində vətəninin həsrəti alışıb-yandıqca qanadları gərilir, ancaq heç cür bu ağır qurğuşundan qurtula bilmirdi. Bir gün son gücünü yığıb qanadlarını qaldırmaq istədi və …qurğuşunun ağırlığından qanadları sındı, iki yanına düşdü.

İllər keçdi, mələk tanınmış bir alim oldu. Hamı onu sevdi, hörmət etdi, onu həqiqi alim, insan adlandırdı. Bircə o bilirdi ki, ora, yuxarı qalxmasa, o qapıdan girməsə insan olmayacaq. Ancaq bilmirdi bu necə olur. Əllərini açıb Allahdan kömək dilədi.

Göydən onun yardımına gəldilər:

– Niyə sındırdın qanadlarını?

– Uçmaq istəyirdim.

– Sən insan olduğunu niyə unutdun? İnsanlar mələklər kimi uçmurlar, uçmaq istəyənlərin sənin kimi qanadlarına qurğuşun bağlayırlar. İnsanlar fərqli uçurlar. Axı Allah sənə bizə vermədiklərini verdi. Onlardan niyə istifadə etmədin?

– Bura fərqli bir yerdir. Orada yuxarıda hər şey gözəldir, ucadır, burada hər şey toza-torpağa bulanıb. *Burada MƏN yoxdur, müdir və işçi var. Burada harmoniya yoxdur, əmr və itaət var*. Allahın əmri unudulub, insanlar əmr edir, Allaha deyil, insanlara itaət edilir. Hamı kardır, kordur, rənglərlə oynayırlar, həqiqətə baxan yoxdur.

– *Gözəl yerdə oturub gözəl qalmaq asandır.* Bu toz-torpaqdan o ucalığa yüksəlmək ancaq insanın hünəridir.

Mələyin ürəyi sızıldadı, torpağa bulaşmış sınıq qanadları titrəşdi.

– Mən daha insan olmaq istəmirəm, yenə mələk olmaq istəyirəm.

– Gecdir. Səndə ağıl deyilən ağır bir yük var. Ondan düzgün istifadə etməyəndə sənin kimi qanadları sınır, nə insan olur, nə mələk.

– Bəs mən neyləyim?

- Bilmirəm, bunu ancaq insanlar bilir.

Mələk sınmış qanadlarına, onu ayrı düşdüyü vətəninə geri götürə biləcək yeganə vasitəsinə baxdıqca içindəki ümidlərin telləri bir-bir sınırdı. Ürəyində bir nur zorla közərdi: «Allah heç kəsə daşıya bildiyindən artıq yük vermir».

– Deməli, Allah mənə güc verib, mənim xəbərim yoxdur… hanı, hardadır? – ətrafa boylandı.

– Mən burdayam – içindən zəif bir səs gəldi. Ürəyi idi, ürəyinin içindəki könlünün səsi idi.

– Artıq gec deyilmi?

– Allah üçün zaman yoxdur. Bir şeyə «Ol» dedisə, olar.

– Mən neyniyim?

– Qoy ürəyindəki nur ağlına qarışsın, ağlının dedikləri bu nurla yoğrulsun, *ağır yükün sənin zinətinə çevrilsin*. Sən insansan, mələk qanadlarına ehtiyacın yoxdur, könlün ağlına elə bir qanad ola bilər ki, ona heç bir qurğuşun bağlanmaz.

Mələk ilk dəfə idi könlünün səsini eşidirdi və bu səsdən yenidən doğulurdu, …yeni qanadlarla, yeni arzularla və …insan kimi.

## *Mələk*

*Bu dünya qocalıb əldən düşmüş bərli-bəzəkli bir qarıya bənzəyir. O, günü-gündən ənlik-kirşanını artırır, bu isə onu daha da eybəcərləşdirir, acizliyini qabardır.*

Güclü leysan, dəhşətli şimşəklərin şaqqıltısı, insanların vahimə dolu qışqırıqları bir-birinə qarışmışdı. Sanki dünyanın axırı gəlmişdi. Dirilər ölülərə həsəd aparırdı. Yox! Bu insanların günahını nə sel, nə yağış yuya bilərdi. Onlar özləri özlərini belə əzablı ölümə düçar eləmiş, Allahın qəzəbinə gəlmişdilər.

Dəhşətli gurultu, qışqırıqlar arasında bir səs də var idi. Bu, ağlamaqdan səsi tutulmuş, küçük zingiltisini xatırladan bir səs idi. Ancaq bu səsdə nə qorxu, nə də vahimə var idi. Allah Təala təəccüblə qarışqa kimi qaynaşan adamlara baxdı, bu səsin yiyəsini axtardı. O, uçuq divarın dibində atılıb qalmış bir insan övladı idi. Balaca, kimsəsiz, dünyaya təzəcə gəlmiş bir körpə idi. O, ətrafında baş verən dəhşətlərdən bixəbər süd üçün, isti ana qucağı üçün ağlayırdı.

Ulu Tanrının əmri ilə göydən yerə bir mələk endi. O, bu kiçik insanı qucağına alıb göyə qayıtdı. Allah Təala günah, zülüm dolu bir ölkədə dünyaya gəlmiş bu günahsız körpəyə baxdı. Onun mübarək baxışlarından körpə nura boyandı. İndi onun özü balaca bir mələyə bənzəyirdi. Ulu Tanrı buyurdu:

– O, özü özünə qalib gəlsə, xoşbəxtliyini tapacaq!

Allah Təalanın əmri ilə mələk körpəni yerə qaytardı, özü də onunla bir yerdə – onu böyütmək üçün.

İllər boyu insanlardan uzaqda, ucqar bir yerdə, kiçik bir daxmada qızcığaz böyüdü. Ceyranlar ona süd verdi, şirlər təhlükədən qorudu, qartallar zirvələrdə uçmağı, çiçəklər xəyala dalmağı öyrətdi.

Mələk insanı ucaldan, kamilləşdirən, gözəlləşdirən elmlər barədə kitablar tapıb gətirir, qız da onları bir-bir oxuyur, öyrənirdi. O, artıq gənclik çağına qədəm qoymuşdu. Nəhayət, Ulu Tanrının əmri ilə onun insanların yanına qayıdacağı gün yetişdi.

– Sən sınaq dünyasına qədəm qoyursan. Öyrəndiklərin, hiss etdiklərin sənin yardımçın olacaq. Unutma ki, çətin anlarında da ürəyinə qulaq assan, düzgün yolu, cavabı eşidərsən. Ancaq sənə bircə tövsiyəm var… İnsanlarla ehtiyatlı ol, onlar bəzən çox insafsız olurlar.

Qız başını qaldırıb təəccüblə, sual dolu baxışlarla ona nəsihət edən mələyə baxdı. Bu baxışlar məsum körpə baxışları idi: dumduru, tərtəmiz, sonsuz, saf körpə baxışları. Mələk məhəbbətlə, nəvazişlə bu insan övladına baxır və heç cür anlaya bilmirdi ki, Böyük Allah niyə onu insanların yanına, günah dolu dünyaya qaytarır. Axı o, insandan çox, mələk idi.

Tənha, naməlum bir qızın şəhərə gəlişi və onun şəhərin kənarındakı kiçik daxmada yerləşməsi hamıya həm maraqlı, həm də şübhəli göründü. Hamı ancaq ondan danışır, onun hərəkətlərini addım-addım izləyirdi. Gecələr, bütün şəhər yatandan sonra mələk qızın yanına enirdi. İnsanlar tərəfindən

açıq qucaqla qarşılanacığını gözləyən qızın halı çox pərişan idi.

– Onlar niyə məndən şübhələnirlər?

– Şübhə insanın qanındadır.

– Axı mən onlara pislik etmək istəmirəm. Görmürlərmi?

– Yox. Görmürlər. Onlar ancaq öz istədiklərini görürlər. Sən səbrli ol. Hər şey yoluna düşər.

Mələk qızın çox həyəcan keçirdiyini görüb, ona özünü səyahət edən alim kimi təqdim etməyi məsləhət gördü. Qız elə də elədi. Xeyri oldu. Əvvəl onu şəhər meydanında bilik sınağına çəkdilər. Alimlər ondan çox razı qaldılar. Bundan sonra ona münasibət büsbütün dəyişdi, hətta yanına şagirdlər də qoydular. Onun gözəlliyi, sadəliyi hamını valeh eləmişdi. Qızın uçmağa bircə qanadı çatmırdı.

– İnsanlar nə yaxşıdır. Doğurdan da, Allahın sevgisinə layiqdirlər.

Mələyin istehza ilə gülməyi onu özündən çıxartdı:

– Niyə gülürsən? Düz demirəm?

– Mən insanları Allah onları sevir deyə sevirəm.

– Yaxşı deyillərsə, niyə dünyanın əşrəfi sayılırlar?

Cavab xeyli uzandı.

– Sən insanları yaxşı tanımırsan. Bir müddət sonra nə dediyimi anlayacaqsan.

Şəhərdə qızın dost-tanışı çoxaldıqca onun mələklə mübahisələri də artırdı.

– Sənin ki, insanlardan zəhlən gedir, mənim qayğıma niyə qalırsan? Məgər mən insan deyiləm?

– Əmr Allah əmridir!

– Deməli, məni sevmirsən?

– Sən başqasan. Şeytan əməllərindən uzaq, Rəbbimin istədiyi kimisən.

Qız heç nə anlamasa da, susdu.

Zaman ötür, o, insanlarla daha çox yaxınlaşırdı. Mələk bu yaxınlıqdan çox narahat olurdu. Şeytan hər yerdə ona xətər toxuya bilərdi. O, çalışırdı qızı tək qoymasın. Onu hər şeydən qoruyurdu. Təcrid olunmuş qız yavaş-yavaş müşahidəçiyə çevrilirdi. O, kənardan insanları olduğu kimi görür, tanıyırdı. Tanıdıqca, onda qəribə bir hal yaranırdı. Bu hal mələyi qane edirdi, çünki qız get-gedə insanlardan aralanmağa başlamışdı, hətta ürəyində onlara qarşı nifrət də cücərmişdi. Bir dəfə ondan insanlar haqqında təzə nə öyrəndiyini soruşanda o, başını aşağı salladı:

– İnsan yalan danışmağı çox xoşlayır. Bəzən də buna müqəddəs yalan deyir, – yavaşıyan səsi pıçıltıya keçdi.

Mələk acı-acı güldü:

– Daşdan, taxtadan keçib, indi də yalanı müqəddəsləşdiriblər.

– Bilirsənmi, onlar dünya nemətlərinə çox bağlıdırlar, ona görə də çox şeyə, – səsini bir az da alçaltdı, – çox şeyə məcbur olurlar.

Hiss olunurdu ki, o, insanlara haqq qazandırmağa çalışır, ancaq bacarmır.

– Sən yüzdən birini heç görmürsən, mən isə bunu insan yaranandan bəri görə-görə gəlmişəm.

Qız imdad dolu baxışlarla mələyə baxdı. Bu baxışlardan indi peşmanlıq, təəssüf oxunurdu.

– Onlar deyir, həyat mübarizədir.

Mələyin qıza yazığı gəlsə də, susmadı:

– Kiminlə? Öz-özləri ilə? Nə uğrunda?

Qız susdu. Bu susqunluq uzun sürdü, get-gedə dərinləşdi. Daha mələklə söhbətləri də kəsdi. O, şəhərə çıxmır, şagirdlərindən imtina etmişdi və özünü tamam tənhalığa qapamışdı.

Mələk qızın günü-gündən səssizcə solub-saraldığını görür, ancaq heç bir kömək edə bilmirdi. Qız onunla kəlmə belə kəsmirdi, elə bütün günü gözlərini boşluğa dikib düşünürdü. Nəhayət, bir gecə o, yerindən sıçrayıb mələyin önündə diz çökdü:

– Mənə kömək elə, mələk! Mən insan olmaq istəmirəm!

Mələk dəhşətlə geri çəkildi:

– Sən dəlisən? Nə danışırsan?

Qız altdan-yuxarı yalvarış dolu baxışlarla ona baxıb zülüm-zülüm ağladı:

– Mən insan ola bilmirəm, heç istəmirəm də.

O, əllərini göyə açıb yalvardı:

– İlahi, məni quru daşa döndər, qanadı qırıq quş elə, tapdanmış ota çevir. İlahi, məni insanlıqdan azad elə, – qız əl atıb saçlarını yolub üzünə dağıtdı, – Tanrım, məni bu sifətdə saxlama. Mənim günahım nə idi ki, mənə belə bir cəza verirsən?

Mələk irəli yeriyib qızın çiyinlərindən tutdu, lakin qız silkinib onun əlindən çıxdı və ayağa qalxdı. İndi onun gözlərində ikrah, dəhşət dolu bir üsyan var idi. O, dala-dala çəkilib birdən sürətlə qaçıb içəridən çıxdı. Mələyin də ardınca gəldiyini görüb özünü qoruyurmuş kimi əlini irəli uzatdı:

– Gəlmə, sən gəlmə! Mən özüm! Özüm baş açmalıyam özümdən! Öz kimliyimi özüm tanımalıyam!

Mələk nə isə demək istəsə də ilahi bir iradə ilə susdu. Qız qaçıb gecənin qaranlığında əriyib yox oldu. Birdən mələk arxasında xısın-xısın gülüş eşitdi və cəld çevrildi. Qarşısında onu – şeytanı gördü. Şeytan bic-bic göz vurdu:

– Kömək lazımdır?

Mələk nifrətlə üzünü çevirdi:

– Rədd ol. Sənin köməyin heç kimə lazım deyil.

– Belə sərt danışma. Mən neynəmişəm ki? Öz aramızdı, sən onu elə bir hala qoymusan ki, bunu heç mən də bacarmazdım.

Mələk peşman-peşman susdu. Şeytan onun arxasına keçib qulağına pıçıldadı:

– İnsan onsuz da naşükürdü, üzüdönükdü, – sonra bərkdən qəhqəhə çəkdi, – əsl mənim malımdı.

– İtil cəhənnəmə. Dəymə ona.

Şeytan artıq yox olmuşdu, ancaq qəhqəhələri hələ də mələyin qulaqlarında şaqqıldayırdı.

Uzun müddət ölkə-ölkə gəzən qız artıq bir neçə ay idi ki, dağlardakı mağaraya çəkilib həmin ölkələrdən gətirdiyi kitabları oxuyur, öyrənir, yazır, gecələr isə durmadan Allaha dua edir, Ondan yardım diləyirdi. Mələk bir an belə onu tək qoymurdu, ancaq yaxınlaşmağa cürət də eləmirdi, elə qıraqdan-qırağa onun ətrafında dolaşırdı.

Gecənin səssizliyini qızın dua oxuyan pıçıltısı pozurdu. Sanki ətrafda hər şey susub onu dinləyirdi. Birdən qız dua oxumağını kəsib gözləri ilə kimi isə axtardı.

– Mələk? Burdasan?

Mələk oturduğu küncdən qalxdı:

– Burdayam.

O, ilk dəfə idi ki, qızın gözlərində dərya qədər sevinc görürdü, həyəcandan səsi titrəyirdi:

– Mən anladım.

– Nəyi?

– Haqqın həqiqətini. Haqq mənim içimi bürüyüb. Mənim ruhum azad oldu. Rəbbimə yolum açıldı. O nurlu yolu görürəm.

Mələk təəccüblə ona baxır, heç nə anlamırdı. Ancaq çox istəyirdi ki, qızın sevincini başa düşüb onu bölüşə bilsin.

O gündən qız şəhər-şəhər gəzir, meydanlarda nitqlər söyləyirdi. Onun hörməti günbəgün artırdı, təəssübkeşləri çoxalırdı.

Yorğun, uzun gündən sonra yatmış qızın başının üstündə dayanmış mələk birdən onun ayaq tərəfində onu – lənətullahı gördü:

– Nə lazımdır sənə? – mələyin gözü nifrətlə parıldadı.

– Qorxma, buna dəyməyərəm. Doğrusu, dəyə bilmədim. – Şeytan qımışdı: – Ancaq buna əntiqə bir hədiyyəm var.

Mələk qəzəblə onun üstünə cumdu:

– Lənətə gələsiniz sən də, sənin hədiyyən də.

Havada ancaq qəhqəhələr qalmışdı.

Sübh tezdən oyanmış qız səs-küyə mağaradan çıxdı və …gözlərinə inanmadı. Dağın ətəyi izdihamla dolu idi. Onu görəndə hamı bir adam kimi diz çökdü. Əvvəl bir şey anlamayan qız sonra işin nə yerdə olduğunu anladı – onu müqəddəs qəbul edib, ona səcdə etməyə gəlmişdilər. Onu xüsusi imarətə köçürtmək, qulluğuna kənizlər vermək istəyirdilər. Bütün şəhər, bəlkə də bütün ölkə onun ayaqları altında idi. Qız onları başa salıb, özünün ancaq azad bir alim olduğunu sübut eləməyə çalışsa da, heç kim onu dinləmirdi.

Onlar onun ayaqları dəyən yeri öpür, göz yaşları axıdır, qədəmlərinə qızıl-gümüş tökürdülər. Qız mağaraya çəkilib gözləməyi qərara aldı. O, ümid edirdi ki, camaat bezib çıxıb gedər. Lakin onlar günü-gündən artırdı, dağın ətəyində qurbanlar kəsirdilər. Qızın hansı isə sehrli bir qüvvəyə malik olması barədə söz-söhbətlər çoxalır, hər yerə yayılırdı. Gecə-gündüz Allah Təalaya dua edən qız çıxış yolu aradı, axtardı.

Sübh şəfəqləri doğanda qız mağaradan çıxdı və sıldırım bir qayanın üstünə qalxdı. O, dağın ətəyində mütiliklə diz çökmüş insanlara deyil, uzaqlara, qızaran üfüqə baxırdı.

– Mən sizə Haqdan danışacam, – deyə qız bərkdən sözə başladı. Hər kəs susub onu dinləməyə başladı: – Bu həqiqət mənə ən gözəl neməti tanıtdı – eşqi. Həqiqi ülvi eşq, əzabı ilə könüllərə cənnət bəxş edən eşq! İnsanı ucaldan, saflaşdıran eşq! Yalnız Haqq yolunda olub, öz insanlığını duyub onu ucaltmağa çalışanlara nəsib olan eşq! Mən deməsəm də, hamınız bilirsiniz ki, belə eşq sahibi olanlar var. Az olsalar da, mövcuddurlar. Öz ucalıqları, ülvilikləri ilə qarşısındakının içində yuxuya getmiş insanı oyadan kəslər mövcuddurlar. Mən inanıram, sizi də inandırıram ki, bu eşq girdiyi könülləri gülüstan eləyir. Siz ancaq könlünüzü o eşq üçün, o ülvi, haqq olan hiss üçün açıq saxlayın. Mən bu eşqi tanıdım və xoşbəxtəm, çünki o, mənim Rəbbimə olan yolumu açdı, onu nurlandırdı. Mən Rəbbimin hüzurundayam.

Artıq gözü heç nəyi seçməyən qız get-gedə daha böyük şövqlə, ilhamla danışırdı. Camaat çaşqınlıq içində pıçıldaşır, key-key baxışırdı.

– Mən özümü sevdim Rəbbimi gördüm! Rəbbimi sevdim özümü gördüm…

– Bu, küfrdür, – camaat qəzəblə kükrədi: – O, şeytana uyub, daşqalaq edin. O, dəlidi.

Hərə əlinə bir daş aldı. Qız susub yenə uzaqlara baxırdı, sanki artan səs-küyü eşitmirdi, atılan daşları görmürdü. Birdən qarşısında mələyi gördü:

– Sözüm aciz oldu, mələk. Mən gedirəm.

Mələk təşvişlə onun ətrafında hərləndi:

– Hara? Düş burdan. Bura təhlükəlidi. Bu cahillərə baş qoşma. Bunlar hamısı o lənətullahın işidi. Gedək başqa ellərə.

Qız başını buladı:

– Onlar heç nə anlamaq istəmədilər. Mən zərrə-zərrə parçalanıb insanların içinə dolmaq istəyirəm. Qoy, o nur parçaları onların qaranlıq könüllərini işıqlandırsın, kor gözlərini açsın. Qoy, içimdəki eşq onların soyuq ürəklərini isindirsin, onları insanlığa qaytarsın.

Mələk həyəcanla onun əllərindən yapışdı:

– Eləmə, burda durma. Səni öldürəcəklər. Axı sən gəncsən, hələ sevməlisən, sevilməlisən. Axı sən başqa yol da seçə bilərsən. Bu, özünəqəsddir, günahdır. Sən bununla heç nə sübut edə bilməyəcəksən.

Qız qollarını geniş açdı, sanki uçmaq istəyirdi.

– Mənim içimdə elə bir məhəbbət var ki, onu heç bir insan qəbul edə bilməz. Qorxudar onu belə güclü hiss, yandırıb kül eləyər onu.

O, qarşısında vurnuxan mələyə baxıb gülümsədi. Onun gözlərində ilahi bir eşq odu yanırdı. Bu oddan onun vücudu da nurlanıb işıq saçırdı.

– Mənim ruhum azadlıq istəyir. Bu dar bədən onu sıxır, incidir. O, Haqqa qovuşub, nura bələnib, bədənim isə

onun ayaqlarını cilovlayıb buraxmır. Ruhum azad olsa, daha çox şey bacarar.

Mələk də gülümsədi:

– Bilirsənmi, mən yaranandan gizli-gizli insanların paxıllığını çəkmişəm. Onlar şeytana uyanda onlara nifrət eləmişəm. Mən heç cür anlaya bilmirdim ki, niyə Rəbbim sizi bizdən çox istəyir. Niyə Öz zərrəsini bizə verməyib, sizə, məhz siz insanlara verib. İndi anlayıram. Bu illər ərzində mən sənin yox, sən mənim bələdçim oldun. Mənə Haqqın həqiqətini sən göstərdin.

Qəfil bir daş zərblə qızın dizlərinə dəyib onun müvazinətini pozdu. Ağ göyərçin sayağı qız qayadan qopdu. Torpaq öz övladına qucağını açdı. Al qan çılpaq qayaları xınaladı, onları nura boyadı.

Mələk əllərini irəli uzadıb işıq saçan ruhu qucaqladı. İndi o, onu yenidən Ulu Tanrının hüzuruna aparmalı idi.

# *M Ü N D Ə R I C A T*

**Müəllifdən**......................................................................3

## I HİSSƏ

***GƏNCLİYİN FƏLSƏFƏSI***

***Ön söz*** .........................................................................6
***Giriş*** ...........................................................................13
***İstedad, missiya və cəmiyyət***...........................................19
***Qorxu, üsyan və cəngavərlik*** .........................................32
***Axtarış və yaradıcılıq*** ......................................................47
***Eşq və müqəddəslik duyğusu*** .........................................68
***Nəticə*** ..........................................................................83
***Son söz əvəzi*** ................................................................87

## II HİSSƏ

**MƏQALƏLƏR**

***Natamamlıq sindromu və ya ruhumuzu dinləməyi bacarırıqmı?*** .....................................................................90
***Qorxu, ölüm və ilahi zərrə*** ..........................................100

*Bəşər tarixində soyqırım hadisəsi* ................................ 112
*«Mən» və cəmiyyət* ........................................................ 118
*«…Qəlbin dərrakəsi ilə danışan filosof…»* ................. 137

ESSELƏR

*Eşq* ................................................................................ 150
*Mən* ............................................................................... 152
*Yol* ................................................................................. 153
*Dağ və daş* .................................................................... 155
*Zirvə* .............................................................................. 156
*Kamillik* ......................................................................... 157
*Üzündə göz izi var…* .................................................... 158
*Sevgiyə fatihə* ................................................................ 159
*Bədən, ruh və eşq* .......................................................... 160
*İnsan* .............................................................................. 163
*Bir udum nəfəs* .............................................................. 164
*Filosof portreti* ............................................................... 166
*Xoşbəxtlik* ..................................................................... 167
*Var-dövlət* ..................................................................... 168
*Birinci və ikinci təbiət* ................................................... 171
*Heyvan* ........................................................................... 173
*Simurq quşu* .................................................................. 175
*Seçim* ............................................................................. 176
*Sükut* .............................................................................. 177
*İnsan və şeytan* .............................................................. 178
*Doğum günü* .................................................................. 181
*Çiçəyin doğuluş səadəti* ................................................ 182
*Allahın yardım əli* ......................................................... 183
*Hikmət* ........................................................................... 185
*Həyat* ............................................................................. 188
*İlham, vəcd və vəhy* ...................................................... 189

*Şeir* ........................................................................191
*Zəhər* ......................................................................193
*İtirilmiş məsumluq və ya sönmüş nur* ..........................195
*Eşq və dəyişən tarix* ...................................................198
*Rəqslər* ...................................................................200
*Hiss və təfəkkür yaxud inam və şübhə* ........................201
**Əlcəzair – hisslər şəhəri** ..........................................204
**Əbu Turxanın «qısa qapanma» prinsipi haqqında qeydlər** ..........................................................................208
*Ruhların mərtəbələri* ..................................................214

## FƏLSƏFI HEKAYƏTLƏR

*Vətən* .......................................................................220
*Bir çiçəyin nağılı* ........................................................221
*Kiçik tonqalın nağılı* ...................................................224
*Açıq qapı* ...................................................................225
*Əqlin könülə etirafı* ....................................................227
*Qırıq qanad* ...............................................................230
*Mələk* .......................................................................235

**bkonul885@hotmail.com**
**kenul555@mail.ru**

Korrektorlar: ***Fidan Bünyadzadə***
***Könül Yaqubova***